# ESSENTIAL CONCEPTS IN SOCIOLOGY

ANTHONY GIDDENS
PHILIP W.SUTTON

Second Edition

# SOSİOLOGİYADA ƏSAS ANLAYIŞLAR

ENTONİ GİDDENS
FİLİP SATTON

İkinci nəşr

Kitabın tərcüməsi və nəşri Sosial Tədqiqatlar Mərkəzinin təşəbbüsü olaraq, “Polity Press” nəşriyyatı ilə 20 noyabr 2019-cu il tarixli razılaşma əsasında (P14134 saylı müqavilə) həyata keçirilmişdir.

Tərcümə Giddens A., Sutton P. Essential Concepts in Sociology. Second Edition (Polity Press, 2017) kitabına əsaslanır.

**İngilis dilindən tərcümə:**
Humay AXUNDZADƏ
Sübhan PADAROV

**Tərcümənin redaktoru:**
Humay AXUNDZADƏ

Giddens E., Satton F.Sosiologiyada əsas anlayışlar. İngilis dilindən tərcümə: H.Axundzadə, S.Padarov; red. H.Axundzadə; “MM-S” nəşriyyatı, 2023, 310 səh.

Sürətlə dəyişən müasir dünyanın tədqiqi və dərki daim yenilənən anlayışların mövcudluğunu tələb edir. E.Giddens və F.Sattonun müəllifləri olduğu “Sosiologiyada əsas anlayışlar” kitabı sosiologiya elminin müasir konseptual aparatını təşkil edən 70 anlayışı əhatə edir. Ənənəvi lüğət tipli kitablardan fərqli olaraq burada anlayışların işçi tərifi və mənası ilə yanaşı, inkişaf tarixi, tənqidə məruz qalan tərəfləri və bütün tənqidlərə baxmayaraq, aktuallıq kəsb edən cəhətləri təqdim edilir. Kitabı xüsusilə dəyərli edən odur ki, belə təqdimat forması sosioloji anlayışların mövcud təsbitlərinin mütləq olmaması, konsepsiyaların ziddiyyətliliyi və qarşıdurmasının qanunauyğunluğu ideyasını ehtiva edir.

Kitab sosioloqlar, sosial elmlərin digər sahələri üzrə mütəxəssislər və tələbələr, habelə müasir dünyanı daha dərindən öyrənməyə çalışan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN ___________________

© Sosial Tədqiqatlar Mərkəzi, 2023

© Axundzadə Humay, 2023

# MÜNDƏRİCAT

Giriş ....................................................................................8

**Mövzu 1. Sosioloji düşüncə**

Cəmiyyət ..............................................................................12
Diskurs .................................................................................16
Qloballaşma ..........................................................................21
Modernizm ............................................................................26
Postmodernizm .....................................................................30
Rasionallaşma .......................................................................34
Struktur və agentivlik ............................................................39

**Mövzu 2. Sosiologiyanın tətbiqi**

Elm ........................................................................................44
İdeal tiplər .............................................................................48
Keyfiyyət metodları/Kəmiyyət metodları ............................52
Realizm .................................................................................57
Refleksivlik ...........................................................................61
Sosial konstruktivizm ...........................................................65

**Mövzu 3. Ətraf mühit və urbanizm**

Davamlı inkişaf .....................................................................71
Ətraf mühit ............................................................................75
Miqrasiya ..............................................................................79
Özgələşmə .............................................................................84
Risk .......................................................................................88
Sənayeləşmə .........................................................................92
Urbanizm ..............................................................................96

**Mövzu 4. Cəmiyyətin strukturları**

Bürokratiya ..........................................................................102
Din .......................................................................................106
Əmək bölgüsü .....................................................................111
İstehlakçılıq .........................................................................115
Kapitalizm ...........................................................................119

Təhsil ........................................................................124
Təşkilat ........................................................................128

**Mövzu 5. Qeyri-bərabər həyat imkanları**
Gender ........................................................................134
İnterseksionallıq ........................................................................138
"İrq" /Etniklik ........................................................................142
Patriarxat ........................................................................147
Sinif ........................................................................152
Sosial mobillik ........................................................................157
Status ........................................................................162
Yoxsulluq ........................................................................166

**Mövzu 6. Münasibətlər və həyat yolu**
Ailə ........................................................................172
Həyat yolu ........................................................................176
İcma ........................................................................180
Seksuallıq ........................................................................184
Sosiallaşma ........................................................................188
Şəbəkə ........................................................................192

**Mövzu 7. Qarşılıqlı təsir və kommunikasiya**
İdentiklik ........................................................................197
İdeologiya ........................................................................201
İnteraksiya ........................................................................205
Kütləvi media ........................................................................209
Mədəniyyət ........................................................................213
Publik sfera ........................................................................218

**Mövzu 8. Sağlamlıq, xəstəlik və bədən**
Biotibb ........................................................................223
Əlilliyin sosial modeli ........................................................................227
Xəstə rolu ........................................................................231
Medikalizasiya ........................................................................235
Sosial özümlülük ........................................................................239
Stiqma ........................................................................243

**Mövzu 9. Cinayət və sosial nəzarət**

Anomiya ....................................................................248
Bərpaedici ədalət ...........................................................252
Deviantlıq ..................................................................257
Etiketləmə ..................................................................261
Əxlaqi panika ...............................................................265
Sosial nəzarət ..............................................................270

**Mövzu 10. Siyasi sosiologiya**

Demokratiya ................................................................275
İqtidar .....................................................................279
Konflikt ....................................................................284
Milli dövlət ................................................................288
Nüfuz .......................................................................292
Sosial hərəkat ..............................................................296
Vətəndaşlıq .................................................................301
Vətəndaş cəmiyyəti ..........................................................305

# GİRİŞ

İctimai həyat heç zaman statik olmayıb, daim dəyişən prosesdir. Müasir dünya son otuz il ərzində dəyişkən miqrasiya dalğaları, "axıcı" gender münasibətləri, multikulturalizm, kommunikasiya sahəsində rəqəmsal inqilab, internet və sosial media, maliyyə böhranları, qlobal terrorizm və çoxsaylı siyasi çevrilişlərlə transformasiyaya məruz qalmışdır. XIX əsrin ərsəyə gətirdiyi sosiologiya yeni hadisə və proseslərdən kənarda qala bilməz, əks halda o, öz əhəmiyyətini itirərdi. Hazırda sosiologiya nəzəri olaraq rəngarəngdir, olduqca geniş məsələlər dairəsini əhatə edir və cəmiyyəti dərk etmək üçün zəngin tədqiqat metodlarını cəlb etməkdədir. Bu isə özözlüyündə astanasında olduğumuz getdikcə qloballaşan dünyanı anlamaq və izah etmək cəhdlərinin nəticəsidir və bizə məlum olan anlayışların təftişi və yenilərinin yaradılması zərurəti deməkdir. Bu kitab həm öz yerini tutmuş, həm də yenicə yaranmış anlayışları ehtiva edir.

## SOSİOLOGİYADA ANLAYIŞLARIN İNKİŞAFI

Sosiologiyanın bəzi anlayışları uzun tarixə malikdir və zamanın sınağından çıxmışdır. "Sinif", "status", "bürokratiya", "kapitalizm", "gender", "yoxsulluq", "ailə", "iqtidar" kimi anlayışlar sosioloji iş üçün fundamental olaraq qalmaqdadır. Digərləri isə yeni meydana çıxıb. "Qloballaşma", "postmodenizm", "refleksivlik", "ətraf mühit", "həyat yolu", "bərpaedici ədalət", "əlilliyin sosial modeli" – bunların hamısı son onilliklərin irimiqyaslı dəyişikliklərini əks etdirən anlayışlar toplusudur. Bu o deməkdir ki, getdikcə sosiologiya fənninin ümumi konturlarını təsbit etmək çətinləşir. Kitab bəzi əsas sosioloji anlayışları təqdim edərək, bu vəzifənin yerinə yetirilməsinə öz töhfəsini verir. Onların çoxu son 150 il ərzində sosiologiyada baş vermiş dəyişikliklərin göstəriciləridir. Əsas anlayışların mənasının, mənşəyinin və müasir dövrdə istifadəsinin aydınlaşdırılması oxucuya sosiologiyanın predmetinin zaman keçdikcə necə inkişaf etdiyini görməyə yardımçı olacaq.

Bir qayda olaraq, sosiologiyada anlayışların işlənilməsi nəzəri və empirik tədqiqatlarla bağlıdır. Onlar alınan nəticələrin şərhi üçün yeni anlayışların daxil olunmasını tələb edir. Bəzi anlayışlar, məsələn, "status", "sinif", "risk" cəmiyyətdə geniş yayılıb, lakin sosiologiyada tətbiq edilərkən onlar müzakirələr vasitəsilə təkmilləşdirilərək, tədqiqat aləti kimi daha dəqiq və faydalı olur. Digərləri, o cümlədən "özgələşmə", "əxlaqi panika", "qloballaşma" sosioloqların özləri tərəfindən sosioloji hadisələri öyrənmək üçün yaradılır, sonra isə gündəlik həyata sızaraq, insanların yaşadıqları dünyanı necə qavramalarına təsir göstərir. Bu, təbiət elmlərindəki vəziyyətə heç oxşamır. Təbiət elmlərində yaradılan anlayışlar sayından asılı olmayaraq, heyvan və bitkilərin həyatını dəyişməyə qadir deyil. Giddensə görə, bu, *birtərəfli* prosesə nümunədir. Sosiologiyada anlayışlar, tədqiqat nəticələri və nəzəriyyələr cəmiyyətin özünə qayıdaraq, insanların fikir və davranışlarına təsir göstərir. Sosioloji tədqiqat sosioloqlar və onların tədqiqat obyektləri arasında *ikitərəfli* prosesdir.

İkitərəfli proses onu göstərir ki, sosioloji anlayışlar mahiyyətinə görə qeyri-sabitdir və nəinki peşəkar sosioloji diskurs, həm də sosial dünyanın özündə dəyişikliklərə məruz qalır. Bu həm də anlayışların çox hissəsinin prinsipial olaraq təkzibolunanlığı deməkdir. Onlar müxtəlif nəzəri mövqelərdən çıxış edərək istifadə olunur, lakin onların mənası ilə bağlı ümumi razılıq yoxdur. Ola bilsin ki, dəyişkənlik və ümumi razılığın olmama səviyyəsi şişirdilmişdir. Əslində rəqabət aparan nəzəriyyələrin sayı nisbətən azdır və adətən, onlar arasında uzlaşan tərəflərin uyğun olmayan tərəflərdən çox olması gizli qalır.

Bir tədqiqat istiqamətində irəli sürülən anlayış çox zaman digərləri tərəfindən də istifadə olunur. Məsələn, kapitalist cəmiyyətlərində əməyin təbiətini daha yaxşı anlamaq üçün Marks tərəfindən irəli sürülən "özgələşmə" anlayışı yüz ildən çox vaxt keçdikdən sonra yenidən dirçəldildi. Bu anlayış marksist nəzəriyyənin çərçivəsindən çıxarılaraq, sənaye sosiologiyasında yeni həyat qazandı, işçilərin əmək şərtlərinə münasibətini dəyərləndirmək üçün istifadə olunmağa başladı. Nəticədə anlayışın mənası dəyişdi. Bəzi marksistlərin etirazlarına baxmayaraq, yenilənmiş anlayış iş mə-

kanı və idarəetmə sistemlərinin işçilərin həyatına necə təsir etdiyini anlamaqda vacib rol oynadı.

**ƏSAS ANLAYIŞLAR**

Bizim sosioloji anlayışların tam toplusunu yaratmaq məqsədimiz yoxdur. Biz ayrı-ayrı tədqiqat sahələrinin formalaşmasına indi də təsir göstərən 70 anlayışı diqqətlə seçmişik. Onların arasında zamanın sınağından keçənlər də var, məsələn: "iqtidar", "sinif", "ideologiya", "cəmiyyət", "mədəniyyət". Bu anlayışlar sosiologiya tarixində geniş istifadə olunub. Onlar indi də diskussiyaları stimullaşdıraraq, bir sıra tədqiqat layihələrini istiqamətləndirirlər. Digər anlayışlar – "gender", "istehlakçılıq", "identiklik", "həyat yolu" uzun tarixə malik olmasalar da, onların sosiologiyada rolunu qiymətləndirməmək mümkün deyil. Onlar yalnız əvvəlki diskussiyalara yenilik gətirmədilər, həm də sosioloqları daha öncəki anlayışlara yenidən nəzər yetirməyə təhrik etdilər. Nəhayət, siyahımıza tamamilə yeni anlayışları daxil etdik: "interseksionallıq", "qloballaşma", "risk", "bərpaedici ədalət". Onlar bir sıra yenilikçi tədqiqatlara zəmin yaratmış və əsas anlayışlar kimi ixtisaslaşmış sahələrə daxil olmaq şansına malikdirlər.

Məqalələr, adətən, "əsas anlayışlar" tipli kitablarda olandan fərqli və daha genişdir. Məqsədimiz sadəcə hər anlayışın təyinini deyil, daha böyük töhfə verməkdir. Əksinə, biz hər anlayışın geniş müzakirəsini təqdim edir, onu tarixi və nəzəri kontekstə yerləşdirir, tətbiq olunduqda meydana çıxan mənaları nəzərdən keçirərək, uyğun tənqidi mövqeləri göstərir və oxucuya onun müstəqil olaraq tanış ola biləcəyi müasir tədqiqat və nəzəriləşdirmələrin nümunələrini veririk. Belə bir təqdimat forması sosiologiyanın anlayışlarının inkişafını izləyərək, onun tarixini aktual vəziyyəti ilə əlaqələndirməyə imkan yaradacaq. Bundan əlavə, müvafiq fəsillərdə bir sıra digər anlayışların da qısa tərifi verilir və müzakirə olunur. Məsələn, "sənayeləşmə" məqaləsi həm də "urbanizasiya", "postsənaye", "modernləşmənin ekoloji formaları" kimi yaxın anlayışları da ehtiva edir.

Qəbul edirik ki, seçdiyimiz bəzi anlayışlar mübahisəli ola bilər. Bəzi sosioloqlar siyahıda bir sıra əsas anlayışların olmamasını,

digərləri isə, əksinə, uyğunsuz anlayışların təqdim edildiyini göstərə bilər. Hətta əsas anlayışlar müzakirə olunduqda belə, sosiologiyada bu tip fikir ayrılığı normaldır. Səbəb nəzəri baxışların və tədqiqat perspektivlərinin müxtəlifliyidir. Lakin sosioloqlar elmi ictimaiyyət nümayəndələri kimi fəal polemikalar vasitəsilə dialoq və anlaşma əldə edirlər. Bunun səbəblərindən biri çiçəklənmə və tənəzzül mərhələlərindən ibarət tarixini yaşayan çoxsaylı nəzəriyyə və izahedici sxemlərin yaratdığı ortaq konseptual irsin olmasıdır.

## KİTABDAN NECƏ İSTİFADƏ ETMƏLİ

Kitabın fəsilləri on əsas mövzu üzrə tərtib edilib, anlayışlar fəsillər daxilində əlifba sırası ardıcıllığı üzrə düzülüb. Bu, tematik sahələr üzrə anlayışların axtarışını asanlaşdırır. Kitab əsas sosioloji anlayışları aydınlaşdırmaq istəyən hər kəs üçün nəzərdə tutulan müstəqil mətndir. Lakin "Sosiologiya: ilkin antologiya" kitabımızla işləyən tələbələr hər iki kitabdakı anlayışların tutuşdurulmasını asanlaşdıran oxşar strukturu dəyərləndirə bilərlər. Kitabda anlayışlar çarpaz istinadlarla əlaqələnib. Bunun üçün sadəcə anlayışın ona həsr olunmayan bölmədə ilk istifadəsi qalın şriftlə verilib[1]. Biz həmçinin "anlayış" kateqoriyasına münasibətdə müəyyən sərbəstliyə yol vermişik. Məsələn, "irq" və "etniklik", adətən, birlikdə müzakirə edildiyindən iki deyil, bir bölmədə nəzərdən keçirilir. Lakin müzakirə gedişində irq və etniklik arasındakı fərq aydın olacaqdır. "Struktur-agentivlik", "kəmiyyət və keyfiyyət metodları" anlayışlarına da eyni yanaşmanı tətbiq etmişik. Bəzi fəsillərə öz-özlüyündə anlayışların təsviri deyil, nəzəriyyələrin və ümumi baxış nöqtələrinin izahı kimi baxmaq olar. Beləcə, qloballaşma həm anlayış, həm də sosial dəyişiklik nəzəriyyəsidir, "əlilliyin sosial modeli" nəzəriyyəsi isə əlillik fenomeninə spesifik yanaşmadır. Kitabın belə bir strukturu onun məqsədini gerçəkləşdirmək, yəni müasir sosiologiyanın dəqiq konseptual xəritəsini yaratmaq üçün nəzərdə tutulub.

[1] Bu, yalnız ingilis dilində olan nəşrə aiddir.

# MÖVZU 1. SOSİOLOJİ DÜŞÜNCƏ

## Cəmiyyət (Society)

*İşçi tərif*

Çoxsaylı insan icmalarında strukturlaşmış sosial münasibət və institutları təsvir etmək üçün istifadə olunan anlayışdır və o, sadəcə fərdlərin cəminə və ya birləşməsinə reduksiya edilə bilməz.

*Anlayışın mənşəyi*

"Cəmiyyət" anlayışı XIV əsrə aiddir. Həmin dövrdə ilkin mənası dostluq və ya assosiasiya idi. Onun bu məhdud anlamda istifadəsinə XVIII əsrdən başlayaraq, cəmiyyətin üst təbəqələrinin təsvirində ("yüksək cəmiyyət") indi də rast gəlmək olar. Anlayış həmfikir qruplarını təsvir etmək üçün də istifadə edilib, məsələn, "Dostlar cəmiyyəti" (Quakers) və ya müxtəlif elmi cəmiyyətlər kimi. Lakin XVIII əsrin sonundan etibarən "cəmiyyət" anlayışının daha ümumi və mücərrəd tərifi irəli sürüldü. XIX əsrdə məhz bu konsepsiya vasitəsilə "cəmiyyət" anlayışının spesifik sosioloji mahiyyəti işlənildi (Williams 1987).

Emil Dürkheym insan həyatının kollektiv reallığını öyrənən yeni elm sahəsini yaratmaq üçün "cəmiyyət sosiologiyanın əsas anlayışıdır" arqumentindən istifadə etdi. Dürkheym cəmiyyəti *sui-generis (öz-özlüyündə yeganə)* mövcud olan və müəyyən ərazi daxilində fərdlər üzərində əhəmiyyətli təsirə malik müstəqil gerçəklik kimi görürdü. Dürkheymin cəmiyyət konsepsiyası XX əsr boyu sosiologiyada öz mərkəzi mövqeyini qoruyaraq, yalnız 1970-ci illərdən etibarən sorğulanmağa başlandı. Formalaşan yeni qlobal səviyyəli sosial reallıq və qloballaşma nəzəriyyələri Dürkheymin mahiyyətinə görə milli dövlətə əsaslanan cəmiyyət konsepsiyasını sual altına qoydu. Sosial proseslərin qlobal müstəvidə öyrənilməsi tədqiqatçıların diqqətini insanların, əmtəənin və mədəniyyətin dövlət sərhədləri fövqündə hərəkətinə doğru çəkdi; 2000-ci illərdən etiba-

rən sosiologiyanı cəmiyyət konseptindən kənara daşımaq və onu potensial olaraq daha məhsuldar "mobillik" anlayışının təhlilinə yönəltmək çağırışları meydana çıxdı.

*Məna və interpretasiya*

Sosiologiyada "cəmiyyət" anlayışı bu sahənin mütəxəssislərinin özünü identifikasiyasında fundamental rola malik olub. Əksər lüğət və ensiklopediyalarda mübahisəsiz bir fakt kimi qeyd olunur ki, sosiologiya - milli dövlət adlanan, məhdud ərazi daxilində mövcud olan, böyük icma kimi müəyyən edilən cəmiyyətin tədqiqi haqqında elmdir. Talkot Parsons anlayışa daha bir mühüm cəhəti - cəmiyyətin "özünü hifzetmə" qabiliyyətini əlavə etdi. Bu o deməkdir ki, cəmiyyəti təşkil edən institutlar kənar dəstək olmadan onu reproduksiya etməyə qadir olmalıdır. Şübhəsiz ki, sosiologiya tarixinin böyük bir hissəsində sosioloqlar müəyyən cəmiyyətləri və onların mühüm aspektlərini öyrənib, müxtəlif cəmiyyətləri qarşılaşdırıb, onların xüsusiyyətlərini müqayisə ediblər. Bu tədqiqatlar əsasında işlənilən tipologiyalar bunu bariz şəkildə göstərir. Birinci, İkinci və Üçüncü Dünya cəmiyyətləri arasında köhnə bölgünün məqsədi dünya üzrə milli sərvət və iqtisadi istehsal səviyyəsindəki fərqlərə dair mövcud məlumatları fiksasiya etmək idi. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə müxtəlif həyat şərtləri və perspektivləri haqqında müasir diskussiyalar eyni funksiyanı icra edir. Belə tipologiyalar qlobal bərabərsizliklər və hakimiyyət məsələləri haqqında bizi xəbərdar etməkdə faydalı olub. Lakin bu məhdud xarakteristikalar milli cəmiyyətlər daxilindəki bərabərsizliklər və iqtidar münasibətləri haqqında bizə demək olar ki, heç bir məlumat vermir.

Bundan əlavə, sosial dəyişiklikləri yalnız bir spesifik hərəkətverici qüvvəni ayırmaqla öyrənmək cəhdləri də olmuşdur. Bu isə sənaye cəmiyyəti, postsənaye cəmiyyəti, kapitalist cəmiyyəti, bilik cəmiyyəti, risk cəmiyyəti və digərləri haqqında çoxsaylı nəzəriyyələrin meydana çıxmasına gətirib çıxardı. Dəyişikliyə əsaslanan bütün bu nəzəriyyələr Dürkheymin dövlət əsaslı cəmiyyət nəzəriyyəsinə söykənir. Lakin sosial dəyişikliklərin bir aspektinin bütün cə-

miyyəti genişləndirmək cəhdi bu konsepsiyanın ciddi məhdudluğunu ortaya qoyur.

*Tənqidi məqamlar*

Cəmiyyət konsepsiyası ilə bağlı nəzəri problem onun nisbi statikliyi, sanki bəzən cəmiyyət və fərdin bir-birindən ayrı olması təsəvvürünü yaratmasıdır. Əksər sosioloqlar bu dualizmi faydasız və yalnış yönləndirici hesab edirlər. Onların arasında yaradıcılığı fərdi interaksiyalardan dövlətlərarası münaqişələrə qədər müxtəlif səviyyələrdə dəyişən münasibətlərə yönələn və tədqiqatı "proses sosiologiyası"nın növü kimi təsvir edilən Nobert Elias (1939) 2000) daha çox seçilir. Elias Qərb fəlsəfəsinin irsi kimi gördüyü, sosioloji düşüncə və təhlilə əngəl hesab etdiyi bu dualizmdən uzaqlaşan ilk sosioloq idi.

XX əsrin sonlarından etibarən cəmiyyət konsepsiyası kəskin tənqidə məruz qaldı. Belə tənqid millətüstü sosial qüvvələrin milli dövlətlərin öz müqəddəratını təyinetmə qabiliyyətinə müdaxilə etdiyinin aydınlaşması ilə bağlı idi. Qloballaşma prosesi "cəmiyyət" anlayışının qlobal sosial dəyişiklikləri əks etdirməyə qadir olmadığını hesab etməklə, daha ciddi məmnunsuzluğu meydana çıxardı. Hazırda böyük çoxmillətli korporasiyalar inkişaf etməkdə olan bir sıra ölkələrin ümumi daxili məhsulundan daha çox gəlirə sahibdir. Onlar ucuz işçi qüvvəsi və əlverişli iqtisadi şərtlərin axtarışı ilə dünya üzrə hərəkət edirlər. Milli hökumətlər aşağı məvacibli iş yerlərinin açılması prosesinin "dilənçi auksion"una çevrilməməsi üçün birləşməyə məcburdur. Dünyanın hər yerində terror aktları həyata keçirən və silah toplayan əl-Qaida kimi terror təşkilatları ilə effektiv şəkildə mübarizə aparmaq üçün beynəlxalq əməkdaşlıq vacibdir. Bu və digər nümunələr millətüstü səviyyədə fəaliyyətin ictimai həyatı formalaşdırmaq üçün daha vacib olmasını göstərir və sosioloqlar qarşısında onları nəzəri cəhətdən dərk etmək vəzifəsi qoyur. Güman ki, hazırda "cəmiyyət" anlayışının qlobal prosesləri dərk etməyə yardım etməkdən daha çox, bunu əngəllədiyini söyləmək olar.

Cəmiyyət konsepsiyasından uzaqlaşmaq cəhdlərinin son nümunəsi Con Urrinin (2007) "mobilliklər" ideyasıdır. Bu ideya bü-

tövlükdə cəmiyyətin gücünü inkar etməsə də, çoxmillətli agentivliklərin, regional blokların daxil olduğu daha güclü qurumların da olmasında israrlıdır. Bundan əlavə, yanaşmaya əsasən, sosiologiya insanların gündəlik həyatında getdikcə daha effektiv olan mobilliklər – milli sərhədlər üzərindən hərəkət prosesləri haqqında elm olmalıdır.

*Aktuallığın davamı*

Qloballaşmanın sürətlənməsi, onun konturları və gələcək istiqamələrini aşkar edən geniş tədqiqatları nəzərə alaraq, bəziləri çoxsaylı müstəqil milli dövlətlərin mövcudluğundan çıxış edən cəmiyyət konsepsiyasının gələcəyinin olmadığını iddia edir. Con Urrinin əsərləri (2000, 2007) bu baxımdan önəmli nümunədir. Qloballaşma əmtəə, xidmət və maliyyənin daha sürətli, eləcə də ekstensiv hərəkətini özündə ehtiva edir, bu isə cəmiyyətlər haqqında düşünmə və öyrənmə tərzimizin özünü dəyişir. Fundamental cəmiyyət konsepsiyası ilə işləyən konvensional sosiologiya onu milli dövlətlə eyni müstəvidə məhdudlaşan fenomen olaraq dərk edir. Əsas ehtimal o idi ki, milli dövlətlər öz inkişaflarını tənzimləməyə və nəzarət etməyə kifayət qədər qadirdir və bununla da dövlətlər müxtəlif trayektoriyalar üzrə hərəkət edə bilər. Lakin qlobal şəbəkə və axınlar daha effektiv, daha güclü xarakter alaraq milli sərhədləri aşır və onlar hazırda əvvəlkindən daha ötürücü görünürlər. "Cəmiyyət" konsepsiyası XXI əsrdə qloballaşma kontekstində meydana çıxan sosiologiya elminə getdikcə daha az uyğun gəlir. Bu gün sosioloqların vəzifəsi müxtəlif mobillik şəbəkələrini və onların sosial həyatın hansı tipini meydana çıxardığını başa düşmək üçün müxtəlif yollar irəli sürməkdir.

Mobilliklər paradiqmasına qarşı olaraq digər sosioloqlar güman edirlər ki, cəmiyyət konsepsiyası bu gün də sosiologiya üçün fundamental rola malikdir (Outhwaite 2006). "Cəmiyyət" anlayışının böyük dəyərə malik olmaması haqqında təsəvvür milli dövlətlərin insan üçün artıq həlledici aktor olmadığı iddiasına əsaslanır. Lakin bu fikir inandırıcı görünmür. Dövlət əsaslı cəmiyyətlər öz ərazilərini müdafiə etmək üçün çoxsaylı əhalisini səfərbər etməyə qadir ən böyük "sağqalma vahidləri" olmaqda davam edir. Dövlət öz su-

verenliyinin ayrı-ayrı elementlərini Avropa Birliyi kimi iri regional bloklara verməklə, öz hakimiyyətinin daha böyük hissəsini saxlamış olur. Lakin 2016-cı ilin iyununda Birləşmiş Krallıqda Avropa Birliyinə üzvlüklə bağlı keçirilən referendumda əhalinin çox hissəsi Birliyi tərk etmək üçün səs verdi. "Tərk etmək" kampaniyası tərəfdarlarının əsas arqumenti ölkəyə nəzarəti geri almaq ideyası idi. Bu, milli dövlətin güclü emosional impuls meydana çıxaran əsas identifikasiya mənbəyi olaraq qaldığını göstərir. Autveyt iddia edir ki, cəmiyyət kollektiv reprezentasiyadır (təmsiletmədir) və bu konsepsiya hələ də insanlar tərəfindən sosial gerçəklik yaşanıldıqca onun necə qavranılması ilə uzlaşır.

*İstinadlar və ədəbiyyat*

Durkheim, E. ([1893] 1984) The Division of Labour in Society (London: Macmillan).

Elias, N. ([1939] 2000) The Civilizing Process: Sociogenetic and Psychogenetic Investigations (Oxford: Blackwell).

Jenkins, R. (2002) Foundations of Sociology: Towards a Better Understanding of the Human World (Basingstoke: Palgrave Macmillan), esp. chapter 3.

Outhwaite, W. (2006) The Future of Society (Oxford: Blackwell).

Urry, J. (2000) Sociology Beyond Societies: Mobilities for the Twenty-First Century (London: Routledge). (2007) Mobilities (Cambridge: Polity). Williams, R. (1987) Keywords: A Vocabulary of Culture and Society (London: Fontana).

## Diskurs (Discourse)

*İşçi tərif*

Predmet haqqında ümumi gümanlara əsaslanan, onun insanlar tərəfindən anlaşılması və ona münasibətdə hərəkətlərin formalaşdırılmasına xidmət edən danışma və təfəkkür üsuludur.

*Anlayışın mənşəyi*

"Diskurs" anlayışı dil və onu öyrənən tətbiqi elmdən - linqvistikadan qaynaqlanır. Bu kontekstdə *diskurs* üz-üzə söhbətlərdə,

ictimai debatlarda, onlayn forumlarda istifadə olunan nitq və ya yazılı kommunikasiya formalarını nəzərdə tutur. Linqvistikada diskurslar kommunikasiya proseslərinin necə təşkil olunduğunu və necə fəaliyyət göstərdiyini dərk etmək üçün təhlil edilir. Lakin 1950-ci illərdə ingilis filosofu C.L.Ostin (1962) yazılı və şifahi kommunikasiyaların sadəcə neytral, passiv ifadələr deyil, bizə məlum dünyanı fəal şəkildə formalaşdıran "nitq aktları" olduğunu iddia edirdi. Mişel Fuko dilin tədqiqini iqtidar fenomeni və onun cəmiyyət daxilindəki effektlərinə olan sosioloji maraqla birləşdirdi. Bundan sonra diskurs və "diskursiv təcrübələr" sosioloqlar üçün daha çox maraq kəsb etməyə başladı.

*Məna və interpretasiya*

Dil və kommunikasiyanın tədqiqi qrammatika və qrammatik qaydaların mənanı formalaşdırmaqda rolu kimi texniki məsələlər üzərində fokuslanmışdır. 1950-ci illərin sonundan etibarən *diskurs* fəaliyyət növü və dolayı yolla dünyaya müdaxilə anlamında dərk edilməyə başladı. Məsələn, siyasi qrupları "terrorist", yoxsa "azadlıq mücahidləri" kimi nəzərdən keçirməyimiz, xəbər agentliklərinin sənaye müəssisələrində baş verən tətillərin səbəbləri, yoxsa gətirdiyi xaosu vurğulaması - bunların hamısı bizim fəaliyyət göstərmə tərzimizə təsir edən amillərdir. "Nitq aktı" anlayışı dil və gündəlik kommunikasiyaya baxış tərzini dəyişdi. Əvvəllər marjinal olaraq meydana çıxan fenomen bu gün sosial strukturların və iqtidar münasibətlərinin, habelə mədəniyyət və kütləvi medianın öyrənilməsində mərkəzi mövqeyə yüksəldi. Sosioloqlar siyasi arqumentləri meydana gətirmək, debatlardan müəyyən ideyaları çıxarmaq və insanların məsələləri müzakirə etməsinə nəzarət üçün dilin istifadə edildiyi üslubu öyrənməyə qadir oldular.

Şübhəsiz ki, ən nüfuzlu diskurs nəzəriyyəsi mental xəstəlik, cinayət, cəza sistemləri və tibbi institutları öyrənən Mişel Fukoya məxsusdur. Fuko ({1969}2002) iddia edirdi ki, müxtəlif diskurslar sosial həyatı strukturlaşdırır və hakimiyyətin icra edildiyi çərçivələri yaradır. Diskursiv çərçivələr daha çox paradiqmalar kimi meydana çıxır, müəyyən predmet, onun haqqında nəyi və necə söyləyəcəyimizi təyin edir. Məsələn, cinayətə dair müzakirələr qanun-qayda

haqqında hakim diskursa uyğun olaraq strukturlaşmışdır. Bu isə qanuna tabe olma və ictimai asayiş üzərində polis nəzarətinin qəbul edilməsini normal həyata xas sağlam düşüncənin hissəsinə çevirir. Belə kütləvi nəzarətə qarşı çıxmaq və ya gündəlik həyatda qanuna məhəl qoymamaq imkanı demək olar ki, ağlasığmazdır. Çünki cinayət diskursu insanların cəmiyyətə daxil olmasından öncə gəlir. Onların davranış və mövqeləri qismən bu diskurs tərəfindən formalaşdırılır. Onlar sosiallaşma prosesində cəmiyyətin norma və dəyərlərini mənimsəyirlər. Beləliklə, diskurslar insanların özümlülük və şəxsi identikliklərini formalaşdırmağa yardım edir. Bu, insanların düşüncə, nitq və davranışlarında mütləq azadlığının olmadığına, insani agentivliyin məhdudluğuna dair faydalı xatırlatmadır.

Fuko "diskurs" anlayışının işlənilməsində daha da irəli gedərək, diskurs və diskursiv praktikaları iqtidarın tədqiqinin nüvəsinə çevirir. O iddia edirdi ki, bilik və iqtidar bir-birinə qarşı olmayıb, əksinə sıx bağlıdır. Müvafiq olaraq cinayi davranışlar və psixi xəstəliklər haqqında obyektiv bilik əldə etməyə çalışan kriminologiya və psixiatriya kimi akademik sahələr eyni zamanda cinayət və psixi xəstəliklərin dərkedilmə tərzini müəyyənləşdirən hakimiyyət münasibətlərini ortaya qoyur. Psixiatrik diskurs "normallıq" və dəlilik arasındakı sərhədi meydana çıxarır, ixtisaslaşmış tibbi təcridetmə institutları, xəstələrə qulluq və müalicəni legitimləşdirir. Analoji olaraq, dəyişən diskurslar sadəcə olaraq cinayi davranışı təsvir və ya izah etmir, eyni zamanda yeni cinayətkarların meydana çıxması və onlarla rəftar üsullarını ortaya qoyur (Foucault 1975).

*Tənqidi məqamlar*

Şübhəsiz ki, "diskurs" anlayışı düşündürücüdür və sosiologiyada ümumən qəbul edilmişdir. Lakin Fukoya görə, diskursların sosial sinif kimi özünəməxsus bazisdən asılı olmaması digər iqtidar araşdırmalarına ziddir. İqtidar haqqında əksər tədqiqatlar onu əldə edilən, şəxsi və qrup marağı üçün istifadə olunan fenomen kimi görür. Məsələn, kişilərin qadınları tabe etdiyi patriarxal hakimiyyət və ya hakim siniflərin tabe siniflər üzərindəki hakimiyyətində olduğu kimi. "Hakimiyyət anonim şəkildə sosial münasibətlərin çarxlarını hərəkətə gətirir" ideyası iqtidar bərabərsizliklərinin real

nəticələrini nəzərdən qaçırır. Daha ciddi tənqidlərə görə, ilk növbədə, dil, nitq və mətnlər üzərində fokuslanma onların əhəmiyyətinin şişirdilməsi ilə nəticələnir. Bəzi tənqidçilər hesab edir ki, belə yanaşma hakimiyyət balansının dəyişməsilə bağlı həqiqi sosioloji problemdən boyun qaçırmaqla sosial münasibətləri mədəniyyət sferasına yerləşdirən "dekorativ sosiologiya"nı meydana çıxardı (Rojek və Turner 2001). Sosial münasibətlərin formalaşdırılmasında diskurslar deyil, real sosial münasibətlər və maddi mədəniyyət daha əhəmiyyətlidir.

*Aktuallığın davamı*

Diskursiv çərçivələrin sosial həyatın mühüm hissəsi olması kimi mərkəzi ideya çox müxtəlif tədqiqat predmetlərinin öyrənilməsi üçün produktiv olaraq qalmaqdadır. Məsələn, Lessa (2006) Böyük Britaniya hökuməti tərəfindən maliyyələşdirilən və yeniyetmə yaşlı tənha valideynlərlə işləyən agentliyin fəaliyyətini dəyərləndirmək üçün həm yeniyetmələr, həm də valideynlər tərəfindən verilən narrativ açıqlamaları diskursiv təhlil edir. Cəmiyyətdə tənha anaları məsuliyyətsiz, qayğısızcasına maddi yardım uman kimi təqdim edən dominant diskursa zidd olaraq, bu agentlik yeniyetmə valideynlər haqqında sosial dəstəyə legitim hüququ olan "gənc analar" kimi alternativ diskursu formalaşdırmağa yardım etdi. Bu alternativ diskurs resurs toplamaq və yanaşmanı dəyişməkdə müəyyən dərəcədə uğurlu oldu. Tədqiqat onu göstərir ki, dominant diskurslara nadir hallarda qarşı çıxılmır və onlar potensial olaraq sıradan çıxarıla bilər, hərçənd ki, bu nümunə yalnız lokal səviyyə və rifah sisteminin spesifik sahəsindədir. Belə diskursiv mübarizə istisnadan daha çox normadır.

Qlobal siyasi diskursların tədqiqi daha irimiqyaslıdır. 11 sentyabr 2001-ci il tarixində ABŞ hədəflərinə edilən hücumlardan ("9/11" kimi məlum olan) sonra hökumət tərəfindən "terrora qarşı qlobal müharibə" kimi yeni diskurs işə düşdü. Bu diskursiv çərçivəyə görə, terroristlər tərəfindən həyata keçirilən hücumlar sadəcə Birləşmiş Ştatlara qarşı deyil, əslində "demokratiyaya qarşı" idi (Hodges and Nilep 2007). Diskurs terrorizmə reaksiya verən, onu izah etməyə və ya ona bəraət qazandırmağa çalışan sosial aktorların

ictimai müzakirələrini istiqamətləndirdi. Bununla da, "terrora qarşı müharibə" diskursu ictimai müzakirələrdə yeni identikliklər, dost və düşmənlər yaratmaqla, "biz" və "onlar" arasında sərhədi təsbit etdi.

Zaman keçdikcə, müxtəlif müharibələr ərzində müharibə dili və ritorikası çox az dəyişsə də, Maçin (2009) bildirir ki, müharibənin vizual reprezentasiyası həm də bir "narrativ" forması kimi əhəmiyyətli dəyişikliyə məruz qalıb. Multimodal təhlildən istifadə etməklə 2005-2006-cı illərdə İraq müharibəsinin media simvollarını tədqiq etmək üçün mətn, obraz, bədən dili və başqa kommunikativ mənbələri toplayan Maçin göstərir ki, hazırkı müharibələrdə (məsələn, Əfqanıstanda) düşmənə vurulan zərbələr və dağıntılar nəzərdən yayındırılır, zəif mülki əhalini ehtiyatla müdafiə edən əsgərlər isə yüksək peşəkarlığa malik sülhməramlı missiya kimi təsvir edilir. Müharibə fotoşəkilləri konkret hadisələri sənədləşdirmək əvəzinə, "əzab", "düşmənlər", "döyüş" və "mülki əhali" kimi ümumi mövzuları təmsil edən media materiallarını strukturlaşdırmaq üçün istifadə edilir. Maçin əlavə olaraq qeyd edir ki, kommersiya xarakterli təsvir banklarında daha ucuz təsvirlər ümumi və simvolik tərzdə istifadə edilir. Buna görə də, müharibə fotoqraflığı müasir müharibənin yeni diskursiv çərçivələnməsinin mühüm elementi kimi nəzərdən keçirilə bilər.

*İstinadlar və ədəbiyyat*

Austin, J. L. (1962) How to Do Things with Words (London: Oxford University Press).

Foucault, M. ([1969] 2002) The Archaeology of Knowledge (London: Routledge).

Foucault, M. (1975) Discipline and Punish (Harmondsworth: Penguin).

Hodges, A., and Nilep, C. (eds) (2009) Discourse, War and Terrorism (Amsterdam: John Benjamin).

Lessa, I. (2006) 'Discursive Struggles within Social Welfare: Restaging Teen Motherhood', British Journal of Social Work 36(2): 283–98.

Machin, D. (2009) 'Visual Discourses of War: Multimodal Analysis of Photographs of the Iraq Occupation', A.Hodges and C. Nilep

(eds), Discourse, War and Terrorism (Amsterdam: John Benjamin), pp. 123–42.

Rojek, C., and Turner, B. (2000) 'Decorative Sociology: Towards a Critique of the Cultural Turn', Sociological Review, 48(4): 629–48.

## Qloballaşma (Globalization)

*İşçi tərif*

Qlobal cəmiyyət və ya vahid müqəddərat birliyi yaratmaqla coğrafi olaraq səpələnmiş insan populyasiyalarını bir-birinə daha yaxın edən və birbaşa əlaqələndirən müxtəlif proseslərdir.

*Anlayışın mənşəyi*

Qlobal insan cəmiyyəti ideyası XVIII əsr Maarifçilik dövründə bəşəriyyətin bir tam kimi gələcəyi haqqında diskussiyalarda meydana çıxdı. "Qloballaşma" anlayışını həm də XIX əsr konsepsiyalarında - K.Marksın kapitalizmin genişlənmə tendensiyasına dair ideyasında, E.Dürkheymin əmək bölgüsünün coğrafi olaraq genişlənməsinə aid fikirlərində üzə çıxarmaq olar. Lakin qloballaşmanın modern anlamda ilk dəfə lüğətə daxil olması 1961-ci ildən, iqtisadiyyat sahəsində müntəzəm olaraq istifadəsi isə 1980-ci illərin əvvəllərindən başladı.

Sosiologiyada qloballaşma tezisinin müjdəçisi İmmanuil Vallerstaynın "Dünya sistemləri nəzəriyyəsi"dir. Vallerstayn iddia edirdi ki, kapitalist iqtisadi sistemi transmilli səviyyədə fəaliyyət göstərir, onun nüvəsi nisbətən zəngin ölkələr, periferiyası yoxsul ölkələrdir, onlar arasında isə yarımperiferik ölkələr qərarlaşıbdır. Lakin qloballaşma haqqında müasir debatlar qloballaşma proseslərinin 1970-ci illərdən başlayaraq sürətlənməsi, transmilli korporasiyaların hökmünün artması, milli dövlətlərin zəifləməsi, millətüstü ticarət bloklarının yüksəlişi, regional iqtisadi və siyasi qurumların formalaşması (məsələn, Avropa Şurası), turizmin genişlənməsi, miqrasiyaya səbəb olan daha ucuz səyahət və sürətli qlobal kommunikasiyanı mümkün edən internetin yüksəlişinin nəticəsidir. 1990-cı illərdən etibarən "qloballaşma" anlayışı sosiologiyanın

mərkəzi problemlər sahəsinə daxil olmaqla, bütün tədqiqat istiqamətlərinə təsir göstərdi.

*Məna və interpretasiya*

Əksər sosioloqlar yuxarıda qeyd edilən tərifi qəbul etsə də, qloballaşmanın əsas səbəbləri, onun müsbət və ya mənfi tendensiya olmasına dair xeyli fikir ayrılığı vardır. Qloballaşma bizi dəyişiklik prosesi və çox güman ki, dünyamiqyaslı qarşılıqlı asılılıq meyili haqqında xəbərdar edir. Lakin bu, heç də dəyişikliklərin mütləq olaraq vahid qlobal cəmiyyətin yaranmasına gətirəcəyi demək deyildir. Qloballaşmanın iqtisadi, siyasi və mədəni ölçüləri (istiqamətləri) vardır (Waters, 2001). Bəzi tədqiqatçılar üçün qloballaşma özündə əsasən maliyyə transaksiyalarını, ticarət, qlobal istehsal və istehlakı, qlobal əmək bölgüsünü, eləcə də qlobal maliyyə sistemini ehtiva edir. *İqtisadi qloballaşma* miqrasiyanı gücləndirərək, hərəkət və yaşayış üsullarını dəyişir, insan mövcudluğunun daha axıcı formalarını meydana çıxarır. Digərlərinə görə isə *mədəni qloballaşma* daha əhəmiyyətlidir. Roland Robertson (1995) qlobal prosesləri yerli mədəniyyətlərə uyğunlaşdırmaq məqsədilə lokal birliklərin onları fəal şəkildə modifikasiya etməsini ifadə etmək üçün üçün "qlokallaşma" (glocalisation, yəni qlobal və lokal elementlərin qarışması) anlayışından istifadə edir. *Qlokallaşma* dünya cəmiyyətləri boyu mədəni məhsulların çoxistiqamətli axınlarına gətirib çıxarır. *Siyasi qloballaşmaya* diqqət çəkənlər isə Birləşmiş Millətlər Təşkilatı, Avropa Birliyi kimi regional və beynəlxalq hökumət mexanizmlərinə diqqət yetirirlər. Bu institutlar mövcud qlobal sistemi tənzimləmək üçün milli dövlətləri və beynəlxalq qeyri-hökumət təşkilatlarını ümumi qərarvermə forumlarında birləşdirir.

Qloballaşma bir neçə prosesi özündə ehtiva edir. Ticari və bazar mübadilələri bir qayda olaraq ümumdünya miqyasında baş verir. Artan beynəlxalq siyasi kooperasiya (hansı ki, özünü fəal beynəlxalq icma kimi təqdim edərək, sülhün bərqərar olunması üçün çoxmillətli ordu tətbiq edir) milli sərhədlərin fövqündə olan siyasi və hərbi koordinasiya nümayiş etdirir. İnformasiya texnologiyalarının son dövrlərdə müşahidə edilən tərəqqisi, daha müntəzəm və ucuz nəqliyyat, sosial və mədəni aktivliyin qlobal səviyyə-

də fəaliyyət göstərməsi deməkdir. Əlavə olaraq, insan fəaliyyətinin qloballaşması getdikcə güclənir. Bu o deməkdir ki, daha çox qlobal ticarət, daha çox beynəlxalq siyasət, daha sürətli qlobal nəqliyyat və daha rutinləşmiş mədəni mübadilələr meydana çıxır. Qlobal səviyyədə fəallığın ümumi həcmi getdikcə artır. Əksər sosioloqlar 1970-ci illərdən etibarən qloballaşmanın sürətlənməsini rəqəmsallaşmanın yüksəlişi, informasiya texnologiyası, əmtəə və xidmətlərin ötürülməsi, habelə insanların yerdəyişməsinin inkişafı ilə əlaqələndirirlər. Sürətli qloballaşma tempinin uzunmüddətli nəticələri vardır. Dünyanın bir nöqtəsində alınan qərarlar bütün dünyaya təsir göstərə bilər, indiyədək mərkəzi aktor olan milli dövlətlər isə hazırda qismən də olsa, öz hakimiyyət və nəzarətetmə qabiliyyətlərini itiriblər.

*Tənqidi məqamlar*

Qloballaşma nəzəriyyəçiləri adı çəkilən prosesin insanların həyat tərzini fundamental olaraq dəyişdiyini göstərir, digərləri isə onun nəticəsinin şişirdildiyini qeyd edirlər (Held and colleagues, 1999). Skeptik adlandırılan tənqidçilər bildirirlər ki, bu gün dövlətlər arasında keçmişdə olduğundan daha çox əlaqələrin və ticarətin mövcud olmasına rəğmən, vahid qlobal iqtisadi sistem yaradılmayıb (Hirst and collegues, 2009). Əksinə, Avropa Birliyi, Asiya-Sakit okean regionu və Şimali Amerika arasında getdikcə güclənən *regional* ticarət tendensiyası vardır. Qeyd edilən üç regional iqtisadiyyatın bir-birindən nisbi olaraq müstəqil fəaliyyətini nəzərə alan skeptiklərin arqumentinə görə, ümumdünya, qlobal iqtisadi sistem anlayışı hələ də xəyali olaraq qalmaqdadır.

Qloballaşmanın milli dövlətin rolunu zəiflətməsi ideyası da sorğulana bilər. Milli dövlətlər əsas oyunçular olaraq qalır, çünki ticari razılaşmalarda iqtisadi aktivliyi və iqtisadi liberallaşma siyasətlərini tənzimləyən və koordinasiya edən onlardır. Qlobal qarşılıqlı asılılıqlar nə qədər güclü olsa da, milli dövlətlər öz gücünün əhəmiyyətli hissəsini qoruyur, lakin sürətli qloballaşma şəraitində daha aktiv olmaqla, xaricə meyillənirlər. Qloballaşma inteqrasiyanın daha da sıxlaşdığı biristiqamətli proses olmayıb, obraz, informasiya və müxtəlif nəticələrə malik təsirlərin ikiistiqamətli axınıdır.

*Aktuallığın davamı*

Qloballaşma sosiologiya elminin əhəmiyyətli konseptual fonu olduğundan o, son dövrdə transmilli terrorizm, sosial hərəkatlar, münaqişə və müharibə, miqrasiya, ətraf mühit sosiologiyası, multi kulturalizm və bir sıra digər mövzuların tədqiqində öz yerinə malikdir. Tədqiqatlar inkişaf etdikcə genişmiqyaslı qloballaşmanın niyyət olunmayan nəticələri aşkar edildi. Məsələn, Renard (1999) sənayeləşmiş ölkələrdə etik istehlakçılara məhsul satmaqla inkişaf etməkdə olan ölkələrdə kiçikmiqyaslı istehsalçıları dəstəkləməyi hədəfləyən "ədalətli ticarət" məhsulları bazarının meydana çıxması və böyüməsini tədqiq edib. Əsas qloballaşma prosesləri transmilli şirkətlər tərəfindən diktə edildiyi üçün kiçik bizneslərin bu şirkətlərin böyük kütlələrə malik bazarlarında yer tapması çox çətindir. Lakin Renarda görə, iqtisadi qloballaşma kiçik bizneslərin daxil ola və inkişaf edə biləcəkləri müəyyən boşluqlar yaradır. Bu, qloballaşmanın həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə əhali seqmentləri arasında kiçikmiqyaslı istehsalçıların ədalət və həmrəylik dəyərlərinə əsaslanmaqla uğur qazanmasına necə yol açdığını göstərir.

Qloballaşmanın siyasi səviyyəsi varsa, bu halda sosial hərəkatların lokal və milli siyasətin fövqündə təşkil edildiyini zənn edə bilərik. Barnart (2010) tərəfindən aparılan kəmiyyət təhlili məhdudiyyətli insanların hərəkatlarında bunun mümkün sübutlarına nəzər yetirmək məqsədi daşıyır. O, 1970-2005-ci illər arasında ABŞ-da 1200, ABŞ-dan kənarda isə 700 etiraz hadisəsini təhlil edib. Gəlinən nəticəyə əsasən, 1984-cü ildən sonra ABŞ-da, 1989-cu ildən sonra isə ABŞ-dan kənarda əlil insanların etirazları sürətlə artır. Amma bu, heç də etirazların qloballaşmanın göstəricisi olması demək deyildir. Bu hadisələrin əksəriyyəti qlobal problemlərlə deyil, daha çox lokal və milli məsələlərlə bağlı idi. Bundan əlavə, beynəlxalq təşkilatlar bu hadisələrə demək olar ki, cəlb olunmamışdır. Müxtəlif hərəkatlar daxilində oxşarlıqlara rəğmən, Barnart bildirir ki, əlil insanların hərəkatları qloballaşma proseslərinin bir hissəsi deyildir.

Qloballaşmaya dair dəyərləndirmələr fərqlənsə də, Martelin

(2016) qiymətləndirməsi məsələni bizə məlum bərabərsizlik mövzusuna qaytarır. O, iddia edir ki, əksər sosioloqlar qloballaşmanı qismən və ya tam olaraq mədəni fenomen kimi görsələr də, onlar kapitalist iqtisadiyyat və maddi maraqların mühüm rolunu etiraf etməlidirlər. Martel kosmopolit nəzəriyyələrin əlehinə olaraq, beynəlxalq siyasi sferanın yaranması ideyalarını həddən çox optimist hesab edir. Qloballaşma real olduğu qədər balanslaşmamış olmaqla, həm də mövcud bərabərsizlik və qeyri-bərabər hakimiyyət şanslarını təkrarlayır. Qlobal azad hərəkət o deməkdir ki, "ən az ehtiyac içində olanlar, zəngin elitalar maksimal dərəcədə azaddır, mobilliyə daha çox ehtiyacı olanların isə sərbəstliyi daha məhduddur" (Martell 2016:251). Mədəni dəyişiklik əhəmiyyətli olsa da, Martelə görə, kapitalist iqtisadiyyat ən önəmli hərəkətverici güc olaraq qalır.

*İstinadlar və ədəbiyyat*

Barnartt, S. (2010) 'The Globalization of Disability Protests, 1970–2005: Pushing the Limits of Cross-Cultural Research?' Comparative Sociology, 9(2): 222–40.

Held, D., McGrew, A., Goldblatt, D., and Perraton, J. (1999) Global Transformations: Politics, Economics and Culture (Cambridge: Polity).

Hirst, P., Thompson, G., and Bromley, S. (2009) Globalization in Question (3rd edn, Cambridge: Polity).

Kilminster, R. (1998) The Sociological Revolution: From the Enlightenment to the Global Age (London: Routledge).

Martell, L. (2010) The Sociology of Globalization (Cambridge: Polity).

Renard, M.-C. (1999) 'The Interstices of Globalization: The Example of Fair Coffee', Sociologia Ruralis, 39(4): 484–500.

Robertson, R. (1995) 'Glocalization: Time–Space and Homogeneity–Heterogeneity', in M. Featherstone, S. Lash and R. Robertson (eds), Global Modernities (London: Sage), pp. 25–44.

Wallerstein, I. (1974, 1980, 1989) The Modern World-System, 3 vols (New York: Academic Press).

Waters, M. (2001) Globalization (2nd edn, London: Routledge).

## Modernizm (Modernity)

*İşçi tərif*

XVIII əsrin ortaları Avropa maarifçiliyindən 1980-ci illərin ortalarına qədər davam edən, sekulyarlaşma, rasionallaşma, demok

ratikləşmə, fərdiləşmə, elmin yüksəlişi ilə xarakterizə olunan dövr dür.

*Anlayışın mənşəyi*

“Modern” anlayışı çağdaş olan hər şeyə istinadən istifadə edi lə bilər, lakin qədim və modern olan arasındakı ziddiyyət XVI əsrin sonundan etibarən Avropada geniş istifadə edilən ümumi mövzuya çevrildi. Modernizasiya, yəni nəyisə müasirləşdirmək ideyası daha müsbət məna qazanacağı XIX əsrə qədər reqressiv addım olaraq görülürdü. XX əsrin ilk üç rübündə nəqliyyatın, yaşayış evlərinin, sosial münasibətlərin, dəbin modernləşməsi getdikcə daha zəruri və proqressiv olaraq qavranılmağa başlandı. Lakin sosial nəzəriyyədə “modernizm” anlayışı daha geniş mənaya malikdir və XVIII əsrin ortalarından 1980-ci illərə qədər davam edən tarixi dövrə istinad edir.

Maarifçilik filosofları ənənələri, dinin nüfuzunu və qəbul edilmiş inancları sərt tənqid edərək, insan tərəqqisinin yalnız rasional düşüncə, elmi metodlar, azadlıq və bərabərlik axtarışı vasitəsilə gələcəyini hesab edirdilər. Sosiologiyanın özü modernizmin məhsuludur, məqsədi isə cəmiyyətə müdaxilə etmək və onu təkmilləşdirmək üçün elmi metodlar vasitəsilə sosial aləm haqqında mötəbər bilik toplamaqdır.

*Məna və interpretasiya*

Modernizm dövrü Avropa feodalizmindən sonra meydana çıxdı. O, postfeodal cəmiyyətlərinin bütün özünəməxsus aspektləri üçün çətir anlayışa çevrildi. Bura sənayeləşmə, kapitalizm, həyat tərzi olaraq urbanizasiya və urbanizm, dünyəviləşmə, demokratiyanın təsis edilməsi və yayılması, istehsal metodlarına elmin tətbiqi, həyatın bütün sferalarında bərabərliyə doğru genişmiqyaslı hərəkat

daxildir. Modernizm dünyaya emosional və dini yönəlmə ilə ziddiyyət təşkil edən, "rasional", qeyri-emosional davranışla xarakterizə olunan düşüncə və fəaliyyət formasını institutlaşdırdı. Maks Veber bunu kapitalizmin leqal-rasional formasının genişlənməsi vasitəsilə tədricən baş verən "dünyanın ovsununun pozulması" prosesi olaraq təsvir edirdi.

Modernizm sosial formasiya olaraq nisbətən zəngin ölkələrə böyük sərvət yaratmaq, həyatın bir çox sahələrinə bərabərlik imkanları gətirmək, maddi istehsalın bütün məhdudiyyətlərini aradan qaldırmaqda heyrətləndirən uğur qazandı. XX əsr boyu əksər sosioloqlar modernizmi bütün millətlərin səy göstərməli və ya məcbur edilməli olduğu sosial model kimi nəzəriyyələşdirdilər. "Modernizasiya nəzəriyyəsi" kimi məlum olan bu ümumi tezisin ən mükəmməl çərçivəsi Volt Rostov (1961) tərəfindən təklif olunmuşdur. Rostov iddia edirdi ki, modernizasiya bir sıra mərhələlərdən keçən prosesdir: cəmiyyətlər erkən modernizatorlarla ayaqlaşdıqca, onların iqtisadiyyatı da inkişaf etməyə başlayır. Cəmiyyətlər uzun müddət mövcud olan ənənəvi dəyərlər və institutlarından imtina edib, gələcək rifah üçün infrastruktur layihələrə və yeni sənaye sahələrinə sərmayə qoyaraq ənənəvi, aqrar təsərrüfatı modernləşdirə bilər. Qabaqcıl texnologiyalara davamlı investisiya yüksək istehsal səviyyəsinə və kütləvi istehlak impulsuna səbəb olur ki, bu da davamlı iqtisadi artımın əsasıdır. Honq-Konq, Tayvan, Cənubi Koreya və Sinqapur kimi ölkələr buna bənzər yolla irəliləsələr də, Rostovun modeli bu gün həddən artıq optimist görünür, çünki xüsusən Afrikada əksər ölkələr bu yolla modernləşə bilmədi.

Ziqmunt Bauman (1987) kimi bəzi nəzəriyyəçilərə görə isə modernizmi dərk etməyin açarı onun bağbanlıqla müqayisə edilə bilən özünəməxsus mədəniyyəti və mentallığını anlamaqdadır. Modern mentallığı təsadüfilik deyil, nizama üstünlük verir. Buradan belə nəticə çıxır ki, əgər cəmiyyət yabanı bir bağa bənzədilirsə, bu yabanılıq və vəhşi təbiət əhilləşdirilməli və bağbanlıq edən dövlətlərin artan gücü buna nail olmaq üçün vasitələrlə təmin edilməlidir. Bağbanlıq metaforası milli dövlətlərlə məhdudlaşdırıla bilməz, çünki nizam və nizamlılıq arzusu insanların gündəlik modern həyatının normal aspektinə çevrilmişdir.

*Tənqidi məqamlar*

Modernizm konsepsiyasının əsas problemi onun həddən çox ümumiləşdirilməsidir. Tənqidçilər onu bütün modern cəmiyyətlərin deyil, bəzilərinin postfaktum təsviri kimi görür və bu anlayışın mo dernləşmənin səbəblərinin hansısa izahını təklif edə bilmədiyini qeyd edirlər. Modernizasiya nəzəriyyəsi həmçinin qlobal sistemdə nəhəng bərabərsizliklərin mövcudluğunu və inkişaf etməkdə olan ölkələrin güman edildiyi kimi sıçrayış göstərməməsini açıqlaya bilmir. Modernizasiya konsepsiyası bir neçə mühüm sosial prosesi özündə ehtiva etdiyindən analitik olmaqdan daha çox son dərəcə dağınıq və daha çox təsviridir. Modernləşmə prosesində hansı konstitutiv (əsas, mahiyyət xarakterli) elementin hərəkətverici qüvvə olduğu aydın deyil. Əsas amil kapitalist iqtisadiyyat, yoxsa sənayeləşmədir? Demokratizasiya nə kimi rol oynayır? Urbanizasiya səbəb, yoxsa nəticədir?

Neomarksist tənqidçilər daha az inkişaf etmiş cəmiyyətləri güclü iqtisadi artım və rifaha gətirəcək qarşısıalınmaz modernizasiya məntiqinin mövcudluğu ideyasına etiraz edirlər. Qlobal müstəvidə nisbətən yoxsul dövlətlər zəngin dövlətlərdən daimi asılılıq halında saxlanılır, onların resursları talan edilir, əhalisi isə Qərbdə yerləşən çoxmillətli kapitalist korporasiyalar tərəfindən ucuz işçi qüvvəsi kimi istifadə edilir. Buna görə də yalnız anlayışın özü qeyri-dəqiq olmayıb, həmçinin modernizasiya tezisi də qüsurludur.

*Aktuallığın davamı*

Modernizmin sonuna dair postmodern nəzəriyyələrin meydana çıxmasından sonra bu anlayışın yenidən dəyərləndirilməsi aparıldı. Bəzi sosioloqlara görə, biz postmodernizm deyil, "son" və ya "refleksiv" modenizm dövrünə daxil oluruq. Bu, modernizm üçün "əcəl zəngi" olmaqdan daha çox, onun neqativ aspektlərinin (məsələn, ətraf mühitin çirkləndirilməsi) aşkara çıxarılması deməkdir. Onlar ictimai həyatın stabilliyini pozaraq, elmin həqiqət yolu olmasına inamın itirilməsi və nüfuz mənbələrinə hörmətin zəifləməsinə gətirib çıxarır. Habermas (1983) hesab edir ki, postmodern nəzəriyyəçiləri onu yüksək iddialı modernizm layihəsi kimi gördüyündən ondan çox tez imtina ediblər. Bu layihənin bir sıra mühüm xüsusiy-

yətləri yalnız qismən tamamlanıb və o, kənara atılmamalıydı, əksinə dərinləşdirilməli idi. Demokratik iştirakın təmin edilməsi, sosial siniflər arasında həyat şanslarının bərabərləşdirilməsi, gerçək gender bərabərliyinin yaradılması ilə bağlı hələ edilməli çox şey var. Beləliklə, modernizm tamamlanmamış layihədir və yox olmaq deyil, davam etdirilməyə layiqdir.

Daha müasir tədqiqatlar "çoxsaylı modernizmlər" anlayışına əsaslanaraq, modernləşmənin qərbləşmə ilə qeyri-legitim vəhdətini tənqid edir (Eisenstadt 2002). Bu ideya daha əvvəllər mövcud olan vahid, xətti və Qərb cəmiyyətlərinə əsaslanan standartlaşmış birformalı modernizm haqqında gümanlara qarşı çıxır. Modernizmin dünya üzrə həyata keçirilən empirik tədqiqləri bunun yalnış olduğunu ortaya qoyur. Çoxsaylı müxtəlif modernləşmə yollarının olması bir faktdır (Wagner 2012). Yapon modernizmi amerikan versiyasından nəzərəçarpacaq dərəcədə fərqlidir və görünən odur ki, inkişaf edən Çin modeli də fərqli olacaq. Bəzi modernizmlər (hətta ABŞ-dakı) sənayeləşmə və davamlı texnoloji tərəqqini dəstəkləməklə yanaşı, təxmin edildiyi kimi sekulyar olmadı və hələ də dini xarakterini saxlayır. Digərləri, məsələn, Səudiyyə Ərəbistanı nümunəsi isə nəinki açıq şəkildə dindardır, hətta Qərbdən nəyi götürmək və öz unikal tərəflərinə əlavə etməklə bağlı seçicidir. Çoxsaylı modernizmlər proqramı gələcəkdə daha realist dəyərləndirmələrlə təmin edərək, "modernizm" anlayışına yeni həyat bəxş edəcək kimi görünür.

*İstinadlar və ədəbiyyat*

Bauman, Z. (1987) Legislators and Interpreters: On Modernity, Postmodernity and Intellectuals (Cambridge: Polity).

Berman, M. (1983) All That is Solid Melts into Air: The Experience of Modernity (London: Verso).

Eisenstadt, S. N. (2002) 'Multiple Modernities', in S. N. Eisenstadt (ed.), Multiple Modernities (New Brunswick, NJ: Transaction), pp. 1–30.

Giddens, A. (1990) The Consequences of Modernity (Cambridge: Polity).

Habermas, J. (1983) 'Modernity – an Incomplete Project', in H. Foster (ed.), The Anti-Aesthetic (Port Townsend, WA: Bay Press), pp. 3–15.

Rostow, W. W. (1961) The Stages of Economic Growth (Cambridge: Cambridge University Press).
Wagner, P. (2012) Modernity: Understanding the Present (Cambridge: Polity).
Williams, R. (1987) Keywords: A Vocabulary of Culture and Society (London: Fontana).

## Postmodernizm (Postmodernity)

*İşçi tərif*

Modernizmdən sonra gələn, daha az aydın müəyyən edilən, plüralist, modernizmə nisbətən daha yüksək sosial müxtəlifliyə malik olan tarixi dövrdür. Postmodernizmin 1970-ci illərin əvvəllərindən başlayaraq inkişaf etdiyi söylənilir.

*Anlayışın mənşəyi*

Sosial nəzəriyyədə "postmodern dönüş" 1980-ci illərin ortalarında başlasa da, mədəniyyət və incəsənətdə "postmodern" anlayışı bir onillik əvvələ təsadüf edir. Məsələn, memarlıqda qəribə görünüşlü binalar tikmək üçün (Londonda Lloyd binası kimi) mövcud müxtəlif janrlardan elementlər götürən yeni üslub meydana çıxdı. Janrları və tərzləri qıvraq tərzdə qarışdıran və "uyğunlaşdıran" metod postmodern olaraq təsvir edildi. Kinomatoqrafiyada rejissor Devid Linç (məsələn, "Blue Velvet", 1986) ifrat zorakılıq və seksual deviasiyanı köhnə romantika və əxlaq narrativləri ilə kombinə etməklə tarixi dövrləri qarışdıraraq qəribə dünyalar yaradırdı. İncəsənət və mədəniyyətin bir çox digər sahələrində də postmodern trend davam etdi və 1980-ci illərin sonunda sosial elmlər bu trendlə ayaqlaşdı.

Sosiologiyada postmodern haqqında mühüm iş Jan Fransua Liotarın "Postmodern vəziyyəti" (1984) adlanan kitabıdır. Müəllifin kitabda qeyd etdiyi tezisə əsasən, modern cəmiyyətin əsas prinsipləri mərkəzi əhəmiyyətini itirib. Xüsusilə də, Liotara görə, modernizm dövründə biliyin dominant forması olan elm qədim xalq bilikləri, dini inanclar və ortaq düşüncə kimi lokal bilik formalarına

meyillənməklə öz legitimliyini itirdi. Liotar iddia edir ki, elmi düşüncənin mərkəzi mövqeyini itirməsi postmodern cəmiyyətin əlamətidir. Əsərləri postmodernizmə dərin nüfuz etmiş digər nəzəriyyəçilərə Ziqmund Bauman və Jan Bodriyar daxildir.

*Məna və interpretasiya*

Postmodern düşüncələr fərqli olduğu üçün nəzəriyyəçilər postmodern cəmiyyətə yönəlmə ilə əlaqələndirilən müxtəlif elementlərə üstünlük verirlər. Postmodernistlərin tənqid hədəflərindən biri O.Kontdan K.Marksa və E.Giddensə qədər bir sıra sosial nəzəriyyəçilərin tarixin istiqamətini və formasını dərk etmək üçün etdiyi cəhdlərdir. Bu nəzəriyyəçilərə görə, tarixi dəyişiklik prosesi strukturlaşdırılır və o, "harasa gedir" – tərəqqi edir. Məsələn, marksist nəzəriyyədə bu proqressiv hərəkət kapitalizmdən daha eqalitar cəmiyyətlər olan sosializm və kommunizmə doğrudur. Lakin postmodernistlər belə böyük nəzəriyyələşdirməni inkar edirlər.

Davamlı münaqişələr və soyqırım epizodlarının, nüvə müharibəsi təhdidi və ətraf mühit fəlakətlərinin modern cəmiyyətlərin sivilləşmiş üst qatını yardığı üçün insanların elmə, siyasətçilərə və tarixdə insani tərəqqiyə olan inancı sarsıldı. Liotar bu prosesi elm adamları, ekspertlər və peşəkarlara hörmət qazandıran fasiləsiz tərəqqi haqqında böyük hekayələrin - "metanarrativlər"in kollapsı kimi xarakterizə edir. Bunun əksinə, postmodern dönməz olaraq müxtəlif və fraqmentardır. Obrazların və demək olar ki, dünyanın istənilən mədəniyyət materialının təsvirlərinin qaynadığı ümumdünya hörümçək toru onun təcəssümüdür. Veb-axtarış təsadüfilik təcrübəsi ola bilər, belə ki, biz şəbəkədə özümüzünkündən çox fərqli olan ideya və dəyərlərlə qarşılaşırıq. Belə potensial olaraq dezorienyasiya edən təcrübə kütləvi media məzmunu ilə bol olan postmodern mədəniyyət üçün tipikdir.

Jan Bodriyar bildirir ki, elektron media cəmiyyəti hər şeydən öncə simvollar və obrazların təsirinə məruz qaldığı xaotik və boş bir dünya yaratmaqla keçmişlə münasibətimizi darmadağın etdi. Bodriyara görə, kütləvi medianın artan üstünlüyü reallıq və onun təmsil olunması arasındakı məsafəni aradan qaldırır və yalnız hamımızın daxilində yaşadığı "hiperreallığı" ortaya qoyur. Hiperreal

dünyada sosial dünyanı dərk etməyimiz və hadisələri qavramağımız onların televiziya kimi kütləvi mediada necə görünməsindən asılıdır. Bodriyarın Körfəz müharibəsindən əvvəl, bu müharibə ərzində və ondan sonra nəşr edilən "Körfəz müharibəsi baş verməyəcək", "Körfəz müharibəsi həqiqətən baş vermir" və "Körfəz müharibəsi baş vermədi" adlı provokativ qəzet məqalələri (1995) ilkin "real dünya" hadisələrinin (Küveytdə vuruşan ordular kimi) və onlar haqqında ikinci dərəcəli media reportajlarının eyni reallığın aktual parçası olduğunu göstərməyi hədəfləyirdi.

Sosiologiyada postmodern ideyalar haqqında düşünmənin daha yaxşı üsulu postmodernistlərin sosial dəyişikliyə dair əsas prinsipləri ilə sosioloji nəzəriyyənin onu (oxu: *sosial dəyişiklikləri – red. A.H.*) açıqlamaq və dərk etmək bacarığını fərqləndirməkdir. Kütləvi medianın sürətlə artması və yayılması, yeni informasiya texnologiyaları, insanların milli sərhədləri keçən yerdəyişmələri, sosial sinif identikliklərinin tənəzzülü, multikultural cəmiyyətlərin meydana çıxması – bütün bu dəyişikliklər, postmodernistlərə görə, artıq milli sərhədlər tərəfindən tənzimlənən modern dünyada yaşamadığımız qənaətinə gəlməyin səbəbidir. Modernizm ölüdür və biz postmodernizm dövrünə daxil oluruq. Burada meydana çıxan sual ondan ibarətdir ki, "modern" sosiologiya "postmodern" dünyanı adekvat şəkildə təhlil edə bilərmi? "Postmodernizm sosiologiyası" varmı? Yaxud belə radikal postmodern dəyişikliyin nəticələri modern nəzəriyyələri və konseptləri əhəmiyyətsizləşdirirmi? Bizim postmodern dünya üçün *postmodern sosiologiyaya* ehtiyacımız varmı?

*Tənqidi məqamlar*

Postmodern nəzəriyyənin bir çox tənqidçiləri vardır. Bəzi sosioloqlar iddia edirlər ki, postmodern nəzəriyyəçilər pessimist və təslimçidirlər, onlar modernizmin qaranlıq tərəfindən o qədər dəhşətə gəliblər ki, onun müsbət cəhətlərini də bir kənara atırlar. Lakin modernizmin aşkar faydaları mövcuddur: bərabərliyin dəyərləndirilməsi, fərdi azadlıq və sosial problemlərə rasional yanaşmalar kimi. Postmodern nəzəriyyədə sosial dəyişikliklərin empirik tədqiqatlarla zəif təsdiqlənən bəzi təsvirləri vardır. Məsələn, fərdlərin cə-

miyyəti sosial sinif və digər kollektiv təşkilatlanma formaları deyil, kütləvi obrazlar vasitəsilə strukturlaşdırması ideyası həddən artıq şişirtmədir. Hazırda identiklik mənbələrinin daha çox olmasına baxmayaraq, sosial sinif insanların sosial mövqe və həyat şanslarının ən mühüm deteminantı olaraq qalır (Callinicos, 1990).

Oxşar olaraq, medianın əvvəlki dövrlərə nisbətən daha mühüm rol oynadığına dair çoxlu sübutlar olsa da, bu, media kontentinin insanlar tərəfindən passiv şəkildə qəbul edilməsi anlamına gəlmir. İrimiqyaslı tədqiqatlar onu göstərir ki, məsələn, televiziya izləyiciləri media kontentini fəal olaraq qavrayır və şərh edir, onu öz situasiyaları prizmasından mənalandırırlar. Ümumdünya internet şəbəkəsinin yüksəlişi ilə ortaya çıxan alternativ informasiya və əyləncə formalarının əksəriyyəti dominant media istehsalının daha çox tənqidi dəyərləndirməsinə əsaslanır. Nəhayət, postmodernistlərin güman etdiyi dəyişikliklərin bəziləri həqiqi və təsirli olsa da, onların modernizmin fövqünə doğru radikal bir keçid olmasının sübutu nəzəri debat məsələsi olaraq qalır.

*Aktuallığın davamı*

Sosiologiyanın təməli modernist yanaşmaya bağlı olduğundan "postmodernizm" anlayışı ziddiyyətli olmağa məhkum idi. Əgər biz sosial reallığı dərk etmək və izah etmək cəhdlərindən, habelə bu biliyin onu təkmilləşdirmək üçün tətbiqindən imtina etsəydik, sosiologiyanın əsası nə olardı? Buna rəğmən, postmodernizmin bu elm sahəsinə uzunmüddətli təsiri vardır. Sosial reallığın müxtəlif interpretasiyaları və plüralist baxışları o deməkdir ki, cəmiyyət daxilində paylaşılan dəyərləri və qeyri-problematik mövcud olan ümumi mədəniyyəti güman edə bilməyən sosioloqlar mədəni müxtəlifliyə qarşı həssas olmalıdırlar.

Makgiqan (2006) modern-postmodern debatına maraqlı yanaşma gətirir. O bildirir ki, çağdaş cəmiyyətlər ən yaxşı halda mədəni baxımdan postmodern olaraq görülə bilər, lakin bütün digər perspektivlərdən qlobal modernizm, xüsusən də kapitalist iqtisadiyyat toxunulmaz qalır. Qısası, biz postmodernizm əsrində yaşamırıq və ona doğru yönəlmirik. Lakin postmodernizm mədəniyyətinin bir sıra nümunələri mövcuddur. Postmodernizm sadəcə kiçik incəsənət

avanqardına bağlı deyil, o, eyni zamanda qlobal mədəni məhsullarda, habelə akademik və fəlsəfi ideyalarda aşkar edilə bilər. Ceymson (1991) və digərləri kimi Makgiqan da vurğulayır ki, modernizm və postmodernizm bir-birinə zidd olmayıb, bir-birini tamamlayır. Fordist sənaye metodlarının təmin etdiyi kütləvi və standartlaşmış istehsalı 1970-ci illərdə sahəvi bazarlar əvəz etdikdən sonra meydana çıxan istehsal üçün fərdiləşmiş, plüralist postmodern mədəniyyəti daha münasib görünür.

*İstinadlar və ədəbiyyat*

Baudrillard, J. (1983) Simulations (New York: SemioTex(e)). - (1995) The Gulf War Did Not Take Place (Bloomington: Indiana University Press).

Bauman, Z. (1992) Intimations of Postmodernity (London: Routledge). - (1997) Postmodernity and its Discontents (Cambridge: Polity).

Callinicos, A. (1990) Against Postmodernism: A Marxist Critique (Cambridge: Polity).

Jameson, F. (1991) Postmodernism or the Cultural Logic of Late Capitalism (Durham, NC: Duke University Press).

Kumar, K. (2005) From Post-Industrial to Post-Modern Society (2nd edn, Oxford: Blackwell).

Lyotard, J.-F. (1984) The Postmodern Condition (Minneapolis: University of Minnesota Press).

McGuigan, J. (2006) Modernity and Postmodern Culture (2nd edn, Buckingham: Open University Press)

## Rasionallaşma (Rationalization)

*İşçi tərif*

Ənənəvi ideya və inancların metodik qanunlar, prosedurlar və formal məqsədəçatma vasitələri ilə əvəzləndiyi uzunmüddətli sosial prosesdir.

*Anlayışın mənşəyi*

Rasional fəaliyyət göstərmək ağılla hərəkət etmək və fəaliyyəti icra etməzdən əvvəl onun nəticələrini düşünməkdir. XVII əsr-

də meydana çıxan, rasionalizm adı ilə tanınan fəlsəfi doktrina ağıl və arqumentasiyaya əsaslanan biliyi dini mənbələr və qazanılan müdriklikdən qaynaqlanan biliyə qarşı qoyurdu. Aydındır ki, rasionallığın mənşəyi təfəkkür, əməli davranış və bilik istehsalı ilə bağlıdır. Sosiologiyada cəmiyyətin rasionallaşma nəzəriyyəsi şeylərin fiksə edilmiş halı olmayıb, ilk növbədə prosesdir. O, Maks Veberin əsərlərinin mərkəzi ideyasını təşkil edir. Veberə görə, rasionallaşma prosesi və magik təsəvvürlərin aradan qalxması modernin özünəməxsusluğunun realist dərkinin əsasını təşkil edən uzunmüddətli, ümumdünya xarakterli tarixi sosial prosesdir. Son dövr tədqiqatlarında dini və spiritual inancların yenidən üstünlük qazanması kontekstində rasionallaşma prosesinin ləngidiyi, yoxsa yeni formalarda davam etdiyinə dair debatlar meydana çıxmışdır.

*Məna və interpretasiya*

Sosiologiyada Veberin rasionallaşma tezisi çox təsirli olduğundan biz ağıl və rasionalizmə dair fəlsəfi arqumentlərə deyil, məhz bu tezisə diqqət yetirəcəyik. Rasionallaşma Qərbdə başlayan dəyişiklik prosesidir və o, ictimai həyatın getdikcə daha çox aspektinin məqsədlərinin və onlara çatma vasitələrinin hesablanması, effektivlik məsələləri ilə müəyyənləşməsi deməkdir. Bu, ənənəvi praktikalar və fəaliyyətlərin, habelə emosional bağlılıqların insanların düşüncə və fəaliyyətlərində dominant olduğu daha erkən dövrlərlə ziddiyyət təşkil edir. Veber rasionallaşmanı kapitalist iqtisadiyyat, onun rasional hesablama-ölçmə ehtiyacı, rasional dünyagörüşünü təşviq edən elmi institutların artması nəticəsində, habelə dominant və daha effektiv sosial təşkilatlanma forması olan bürokratiyanın təsirilə güclənən proses kimi görürdü.

Veber rasionallığın dörd əsas tipini təhlil edir: praktiki, nəzəri, substantiv və formal (Kallberg 1985). Praktiki rasionallıq insanların onlar üçün adi (ümumən qəbul etdikləri) situasiyada olduğu və onların fəaliyyətinin bu situasiyadan mümkün qədər faydalanmağa yönəldiyi zaman müşahidə edilir. Nəzəri rasionallıq insanların öz təcrübəsini dərk etmək və həyatı mənalandırmaqla "reallığa sahiblənmək" cəhdi zamanı mövcuddur. Filosoflar, dini liderlər, siyasi nəzəriyyəçilər və hüquqşünaslar nəzəri rasionallaşma formala-

rının ifadəçiləri kimi nəzərdən keçirilə bilər. Substantiv rasionallıq ictimai həyatın müəyyən sferasına xas dəyərlər toplusuna əsasən fəaliyyətləri istiqamətləndirir. Məsələn, dostluq münasibətlərinə qarşılıqlı hörmət, sədaqət və yardımlaşma dəyərləri daxildir. Qeyd edilən dəyərlər toplusu həyatın bu sahəsində insanların fəaliyyətlərini çərçivələndirir.

Veberin dördüncü tipi - formal rasionallıq ümumi və ya universal qanun-qayda kontekstində spesifik məqsədə çatmaq üçün ən effektiv vasitələrin hesablanmasına əsaslanır. Qərb cəmiyyətlərinin rasionallaşmasına formal rasionallığın genişlənməsi və hesablama məntiqinin həyatın hər bir sahəsinə nüfuz etməsi daxildir. Bu bürokratiyanın geniş şəkildə yayılan sosial təşkilatlanma formasına çevrilməsilə baş verir. İqtisadi qərarlar paradiqmatik forma olsa da, məqsəd-vasitə hesablaması həyatın digər sahələrində adi bir fenomenə çevrilir. Məsələn, rasionallaşmış Qərb musiqisi universal notlaşma sistemi və ritmik-tonal fərqlərin ölçülməsindən istifadə edir. O, kodlaşdırılır və yazılır, bu isə not oxumağı və musiqi aləti ilə ifa etməyi bacaran hər bir kəsə görkəmli dahilərin əsərlərini ifa etməyə imkan verir. Musiqi daha çox hesablana bilən, qaydalarla idarə edilən, təxmin edilən, öncədən proqnozlaşdırılan, lakin daha az spontan və sərbəst fenomenə çevrilir.

Kapitalizm və dövlət bürokratiyaları genişləndikcə, formal rasionallıq tədricən cəmiyyətin aparıcı institutlarına sirayət edir, digər formaları sıxışdırır. Veber iş mühitində və dövlət qurumlarında şəxssizləşdirilmiş bürokratik idarəetmə formasının sadəcə indiyədək tapılan ən effektiv metod olmasına görə bu proseslərin fasiləsiz olacağını deməkdə haqlı idi. Bütün şəxsi tərcihlər və emosional əlaqələri sıxışdırmaqla bürokratiyalar hər bir vəzifəyə ən bacarıqlı insanların təyin edilməsini və karyera irəliləyişlərinin səriştənin dəlillərlə sübutu və rolun ifa qabiliyyətinə əsaslanmasını təmin edir. Ancaq yadda saxlamaq lazımdır ki, bu ideal tipdir! Analoji olaraq, kapitalist mənfəətyaratma ilə (xərc və gəlirin qeydiyyatı) assosiasiya edilən ikili mühasibliyin aparılması hesablayıcı mentallığı aşkara çıxarır, kapitalist şirkətlər artır, onların coğrafiyası genişlənir, effektiv idarəetmə isə bu şərtlərdə getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayır.

Veber rasionallaşmanın bu formasını qaçılmaz hesab etsə də, həm də bəzi təhlükələri aydın görürdü. Effektivlik və texniki tərəqqi axtarışı müqəddəratımıza nəzarət edən gücə çevrilən şəxssizləşmiş cəmiyyət yaradır. Veberin tezisinə görə, cəmiyyət özünü heç bir çıxış imkanı olmayan "polad qəfəsə" salır. Daha bir mühüm nəticə vasitələrin məqsədlər üzərində dominantlıq tendensiyasıdır. Yəni bürokratiya effektiv vətəndaş xidməti, yaxşı nizamlanmiş səhiyyə xidməti və ya səmərəli rifah sistemi kimi məqsədlərə nail olmaq üçün bir vasitə olsa da, tədricən o, güclənmiş, öz həyatını yaşamağa başlayaraq, xidmətçidən ağaya çevrilmişdir. Bunu cəmiyyətin əksər sahələrində müşahidə etmək olar və Veber bu prosesi irrasional nəticələrə gətirmiş rasionallaşma kimi nəzərdən keçirir.

*Tənqidi məqamlar*

Veberə görə, rasionallaşmanın proqressiv inkişafa aparması qaçılmaz deyil. O, ziddiyətli nəticələrə və yeni sosial problemlərə də gətirib çıxara bilər. Rasionallaşma tezisinin özünə yönələn tənqidlər də vardır. Kapitalizm dünya iqtisadiyyatı üzərində dominantlığa davam etsə də, bürokratiyaların ənənəvi formada nə dərəcədə dominant olması sorğulana bilər. Son illərdə Veber tərəfindən təsvir edilən iyerarxik modeldən daha çox şəbəkə strukturuna əsaslanan daha sərbəst təşkilat formaları artmağa başlayıb (van Dijk 2012). Ortaya çıxan sual ondan ibarətdir ki, belə şəbəkələşmiş təşkilatlar hələ də formal rasionallığı təşviq edirmi? Rasionallaşma həm də dinin müqəddəratı ilə əlaqədardır. Bəzi sosioloqlar iddia edir ki, mövqeyindən çəkilməkdən uzaq olan din XX əsrin sonunda dini fundamentalizm, televangelizm və yeni "dinlər"in meydana çıxması ilə dirçəliş mərhələsinə qədəm qoydu. Bu, Veberin rasionallaşma tezisinə zidd olan "dünyanın yenidən ovsunlanması" deməkdirmi?

*Aktuallığın davamı*

1980-ci illərin ortalarından tənqidi postmodern ideyaların meydana çıxması və elmə olan inamın zəifləməsi ilə Veberin rasionallaşma tezisi köhnəlmiş görünə bilər. Belə ki, sanki dünyanın "yenidən ovsunlanması"nın genişləndiyi müşahidə edilir (Gane

2002). Lakin bu tezis diqqətəlayiq dərəcədə məhsuldar olduğunu və müasir sosial dəyişikliklərə tətbiq edilə bildiyini sübut etdi (Cook 2004). Veberin orijinal ideyalarının genişləndirilməsi və modernləşdirilməsində önəmli rol oynamış iki tədqiqat mövcuddur. Z.Bauman "Modernizm və Holokost" (1989) adlı kitabında nasist siyasəti və yəhudilərin kütləvi qətllərinin modernizmin proqressiv xəttindən qeyri-sivil uzaqlaşma olması haqqında arqumentləri rədd edir. Əvəzində Bauman göstərir ki, cinayətkar və qurbanların uçotunu təşkil etmiş rasional və bürokratik idarəetmə olmadan Holokost mümkün olmazdı. Bu kontekstdə, rasionallaşma prosesi barbarlığa qarşı is tehkam yaratmır, əksinə, onu asanlaşdırır.

Corc Ritzer (2014) rasionallaşma tezisini çağdaş "fast-food" restoranlarına tətbiq edir. O qeyd edir ki, Veberin dövründə modern bürokratik təşkilat rasionallaşma üçün ideal tipik vasitə kimi görünürdü. XX əsrin sonunda Makdonalds tipli şəbəkə restoranları yüksək effektivliyə malik xidməti, ölçüləbilən göstəriciləri, oxşar istehlakçı təcrübəsi ilə rasionallaşmanın istehlak cəmiyyətinin nüvəsinə sirayət etməsini göstərir. Makdonalds modeli biznes və idarəetmənin digər sahələrində də qəbul edilib. Lakin Ritzer bu rasionallaşmış modelin öz daxilində irrasionallıqlar doğurduğunu müşahidə edir: işçi heyəti iş səriştəsini itirir, onların işləri rutinləşdirilir, müştəri təcrübəsi kasadlaşır və tullantılar mühiti çirkləndirir. Xaos və qeyri-müəyyənliyi rasional şəkildə azaltmağa çalışan "makdonaldslaşma" prosesi "polad qəfəsin" yeni növünü ortaya çıxarır.

*İstinadlar və ədəbiyyat*

Bauman, Z. (1989) Modernity and the Holocaust (Cambridge: Polity).

Cook, C. (2004) 'Who Cares about Marx, Durkheim and Weber? Social Theory and the Changing Face of Medicine', Health Sociology Review, 13(April): 87–96.

Gane, N. (2002) Max Weber and Postmodern Theory: Rationalization versus Re-enchantment (Basingstoke: Palgrave Macmillan).

Kalberg, S. (1985) 'Max Weber's Types of Rationality: Cornerstones for the Analysis of Rationalization Processes in History', American Journal of Sociology, 85(5): 1145–79.

Ritzer, R. (2007) The McDonaldization of Society (5th edn,Thousand Oaks, CA: Pine Forge Press).
Van Dijk, J. (2012) The Network Society (3rd edn, London: Sage).

## Struktur/Agentivlik (Structure/Agency)

*İşçi tərif*

Sosiologiya elmində cəmiyyətin fərdə təsiri (struktur) və fərdin fəaliyyət göstərmək, cəmiyyət formalaşdırmaq azadlığı arasında nisbi balansı dərk etmək cəhdlərindən qaynaqlanan konseptual dixotomiyadır.

*Anlayışın mənşəyi*

İnsanın azad iradəsi məsələsi əsrlər boyu fəlsəfi debatların bir hissəsi olsa da, sosiologiyada bu məsələ agentivlik və struktur "problem"inə transformasiya edilib. Bu problemin özü fərdin azadlığını və seçimini məhdudlaşdıran cəmiyyət və sosial qüvvələrin olmasında təkid edən erkən sosioloqların ideyalarının nəticəsidir. Herbert Spenser və Ogüst Kont sosial strukturları qruplar, kollektivlər və fərd birlikləri kimi görürdü. Lakin məhz Dürkheymin öz əsasları üzərində mövcud bir tam olan cəmiyyət və sosial fakt haqqında ideyaları yeni elmin əsas məsələsini müəyyən etdi. Meydana çıxan sosiologiyanın əsas diqqəti fərdlərin fövqündə və nəzarətdən kənar mövcud sosial strukturların onları necə yaratması və formalaşdırması idi. XX əsr funksionalizmi çərçivəsində Talkot Parsons fəaliyyət nəzəriyyəsini irəli sürdü. Bu nəzəriyyə sosial strukturları daha az predmetləşdirərək, onları yolverilən davranışı idarə edən normativ gözlənti və yönəlişlərə yaxınlaşdırırdı.

1960-cı illərdən etibarən struktur nəzəriyyələr mövqeyini itirməyə başladı. Denis Ronq (1960) və digərləri iddia edirdi ki, strukturalist ideyalar fərdlərin yaradıcı fəaliyyətinə çox az yer verdiyindən əksər sosioloqlar simvolik interaksionizm, fenomenologiya və etnometodologiya kimi agentivlik üzərində fokuslanan konsepsiyalara yönəldilər. Sosial aktorun perspektivinə yönəlmə bu gün sosiologiya tələbələrinin normal tendensiya kimi qəbul etdikləri möv-

cud nəzəri plüralizmin bir hissəsi idi. 1980-ci illərdən bəri Arker (2003), Elias ({1939}2000), Giddens və Burdyönün əsərləri daxil olmaqla struktur və agentivliyi nəzəri olaraq inteqrasiya etmək cəhdləri göstərilir.

*Məna və interpretasiya*

"Struktur-agentivlik" - "makro-mikro", "cəmiyyət-fərd" kimi bir-birinə bağlı konseptual dixotomiyalardan biridir. Struktur-agentivlik fərqləndirməsi ən davamlı olmaqla, Alan Davın (1971) bir-birinə zidd predmetlərə, tədqiqat metodlarına və sübut standartlarına malik iki sosiologiyanın mövcudluğunu iddia etməsinə səbəb oldu. Hətta detallara önəm verməyənlər üçün də "struktur-agentivik" dixotomiyasının praktik sosioloji tədqiqatlar üçün bazis olması aydındır.

Belə görünə bilər ki, sosial struktur tədqiqatçıları irimiqyaslı fenomenləri makrosəviyyədə nəzərdən keçirir və ayrıca fərdə önəm vermirlər, agentivliyi tədqiq edənlər isə yalnız mikrosəviyyədə baş verən fərdi fəaliyyət üzərində fokuslanırlar. Bu, heç də yanlış empirik qayda deyil. Lakin mikrosəviyyədə strukturlaşmış qarşılıqlı təsir və münasibətlər fərdi fəaliyyətlərin öyrənilməsini nəzərdə tutur. Həmçinin əksinə, sadəcə fərdlərin deyil, həm də həmkarlar ittifaqlarının, sosial hərəkatlar və korporasiyaların fəaliyyət göstərə, eləcə də sosial həyat formalaşdırmaqda yaradıcı agentivlik rolunu icra edə bilməsini iddia etmək mümkündür. Beləliklə, "struktur-agentivlik" və "makro-mikro" dixotomiyaları arasında tam uyğunluq yoxdur.

. Sinfi sistem, ailə və ya iqtisadiyyat kimi sosial strukturlar uzun müddət davam edən və dəyişən sosial interaksiyalardan nəşət alır. Məsələn, gəlir səviyyəsinin ümumi artımı nəticəsində sinfi sistem əhəmiyyətli dərəcədə dəyişmiş, rəqib identiklik formaları (gender və etniklik kimi) meydana çıxmış, məşğulluq və işəgötürmənin yeni formaları yaranmışdır. Lakin sistem sinfi olaraq qalır, insanlar onun daxilində dünyaya gəlir və məhz bu, onların həyat şanslarına əsas təsir göstərir. Analoji olaraq, bugünkü ailə həyatı cəmiyyətlərin multikultural xarakter alması ilə bağlı 50 il əvvəlkindən çox fərqlənir, həmçinin iş yerlərində evli qadınların sayı və boşanmala-

rın sayı kəskin artmışdır. Lakin ailə yenə də həyata zəruri hazırlığı təmin edən sosiallaşma funksiyasını yerinə yetirməyə davam edir. Ümumi səviyyədə sosial strukturlar nizam yaradır və cəmiyyət daxilində müxtəlif sferaları təşkil edir

Bəzi sosioloqlar üçün "sosial struktur" anlayışını qəbul etmək çətindir. Ən yaxşı halda sosial strukturlar sosioloqlar tərəfindən öz araşdırmalarına yardım etmək üçün yaradılan konstruktiv fiksiya, təcrübəyə əsaslanan konsepsiyalardır. Ən pis halda isə əşyaviləşdirmə, qeyri-legitim konkretləşdirmədir, hansı ki, əslində dəyişkən sosial münasibətlərdir. İnteraksionizmin əsas elementi digərlərinin təsir göstərdiyi və müəyyən refleksivliyi özündə ehtiva edən situasiyaların interpretasiyasıdır. Beləliklə, struktur nəzəriyyəçilərin təklif etdiyi kimi, dəyişməz nizamlayıcı strukturlar əslində güman edildiyindən daha davamsız, plastik və dəyişikliyə açıqdır. 1989-cu ildə Çexoslovakiyada "Məxməri inqilab" möhkəm sosial struktur və institutların fərdlərin yaradıcı fəaliyyəti və kollektiv agentivliyi ilə necə sürətlə dağıla bildiyini göstərdi.

"İki sosiologiya"nın ayrılması elm üçün problem kimi görünür, çünki agentivliksiz strukturu, struktursuz agentivliyi öyrənmək sosioloji təxəyyülün sosial gerçəkliyi natamam təsvir etməsinə gətirib çıxarır. Problemin həlli struktur və agentivliyi birləşdirməyin məhsuldar yolunu tapmaqda görülür, hansı ki, bu yol onların dixotomikliyi çərçivəsindən kənara çıxmağa imkan yaradardı.

*Tənqidi məqamlar*

Marks bu problemi yenidən formulə etməyin yollarından birini təklif edib: insanlar həqiqətən də tarix yaradır (agentivlik), lakin bu, onların azad seçimi olmayan şərtlər daxilində baş verir (struktur). Giddensin (1984) strukturlaşma nəzəriyyəsi müəyyən qədər bu ideyadan qaynaqlanır. Giddensə görə, struktur və agentivlik bir-birinin mövcudluğunu nəzərdə tutur. Struktur məhdudlaşdırmaqla yanaşı, eyni zamanda yaradıcı fəaliyyəti mümkün edir. Lakin əksər fərdlərin təkrarlanan fəaliyyəti sosial strukturu yenidən formalaşdırmağa və dəyişməyə çalışır. Giddens nəzəriyyəsinin diqqət mərkəzi "zaman və məkanca nizamlanan" sosial praktikalardır. Məhz bu praktikalar vasitəsilə sosial strukturlar yenidən formalaşdırılır.

Lakin Giddens strukturu mücərrəd, dominant və zahiri qüvvələr kimi deyil, sosial praktikaların zaman daxilində reproduksiyasını mümkün edən qayda və resurslar olaraq görür. Bu "struktur duallıq" öncəki dixotomiyanı yenidən düşünmənin bir yoludur.

Pyer Burdyö nəzəriyyəsi aşkar şəkildə struktur və agentivlik bölgüsünü aradan qaldırmağı hədəfləyir. Burdyö bunun üçün "praktika" konsepsiyasından istifadə edir. İnsanlar onlara aşılanmış və "özümləşdirdikləri" mental strukturlara (habitusa) malikdirlər. Bu, onlara sosial aləmlə münasibətdə olmağa və onu anlamağa imkan verir. Habitus uzunmüddətli dövr ərzində sosial aləmə müəyyən mövqedə (məsələn, sinfi mövqe kimi) yerləşmənin məhsuludur. Buna görə də fərdi habituslar kifayət qədər fərqlidir. Giddens kimi Burdyö da bu fərqdən irəli gələn çoxsaylı praktikaları nəzərdən keçirir, lakin onun üçün praktika həmişə müəyyən "sahə" daxilində yerləşib, yəni hansısa ictimai həyat sferasındadır (incəsənət, iqtisadiyyat, siyasət, təhsil və s.). Sahələr müxtəlif resursların (kapital tiplərinin) istifadə edildiyi rəqabət mübarizəsi meydanlarıdır. Beləliklə, bu modeldə struktur və agentivlik bir-birinə zidd deyil, ayrılmaz şəkildə bağlı olaraq nəzərdən keçirilir.

*Aktuallığın davamı*

Struktur və agentivlik probleminin hər kəsi qane edəcək şəkildə həll ediləcəyi güman edilmir. Son nəzəriyyələrdə Giddensin agentivlik perspektivindən, Burdyönün isə struktur aspektindən yanaşdığı görünür. Hansının həqiqi inteqrasiyaya nail olduğu isə müzakirə məsələsi olaraq qalır. Ola bilsin ki, gələcəkdə daha empirik və tarixi tədqiqatlar struktur və agentivliyin müəyyən tarixi dövrlərdə, ayrı-ayrı cəmiyyət və sosial həyat sahələrində nisbi balansına aydınlıq gətirəcək.

Məsələn, Kanada və Almaniyada məktəbdən iş fəaliyyətinə keçidin empirik tədqiqində gənclərin universitetə müraciət etmək, yoxsa staj keçmək haqqında aldıqları qərarlar öyrənilib (Lehmann 2007). Yüksək dərəcədə fərdiləşmiş identiklik formalarına yol açmaqla, sosial sinif kimi strukturların dağılması haqqında təsəvvürü inkar etməklə, bu tədqiqat sosial strukturun insanlar üçün əlçatan imkanlar və seçimlərin formalaşmasında böyük rol oynamağa da-

vam etdiyini aşkara çıxardı. Lakin struktur insanların habitus və dispozisiyalarını bütövlükdə müəyyən etmir. Lemann iddia edir ki, struktural, institusional, tarixi və mədəni kontekstə fəal şəkildə qoşulan gənclər bu prosesdə sosial struktur daxilində öz mövqelərinin persepsiyasını formalaşdırırlar. Nəticədə, onlar hansı yolu tutmaq haqqında qərar qəbul edirlər. Villisin (1977) sinfi reproduksiya araşdırmasında bildirdiyi kimi "işləməyi öyrənmək" əvəzinə gənclər "işi seçirlər".

*İstinadlar və ədəbiyyat*


Archer, M. (2003) Structure, Agency and the Internal Conversation (Cambridge: Cambridge University Press).

Bourdieu, P. (1986) Distinction: A Social Critique of the Judgement of Taste (London: Routledge & Kegan Paul).

Dawe, A. (1971) 'The Two Sociologies', British Journal of Sociology, 21(2): 207–18.

Elias, N. ([1939] 2000) The Civilizing Process: Sociogenetic and Psychogenetic Investigations (Oxford: Blackwell).

Giddens, A. (1984) The Constitution of Society (Cambridge: Polity).

Lehmann, W. (2007) Choosing to Labour: School–Work Transitions and Social Class (Montreal and Kingston: McGill–Queens University Press).

Parker, J. (2005) Structuration (Buckingham: Open University Press).

Swingewood, A. (2000) A Short History of Sociological Thought (3rd edn, Basingstoke: Palgrave Macmillan), esp. chapter 9.

Van Krieken, R. (1998) Norbert Elias (London: Routledge), esp. chapter 3.

Willis, P. (1977) Learning to Labour: How Working-Class Kids Get Working-Class Jobs (London: Saxon House).

Wrong, D. (1961) 'The Over-Socialized Conception of Man in Modern Sociology', American Sociological Review, 26: 183–93.

# MÖVZU 2. SOSİOLOGİYANIN TƏTBİQİ

## Elm (Science)

*İşçi tərif*

Nəzəriyyələrin toplanılmış dəlillərlə yoxlanılmasına əsaslanan dünya haqqında mötəbər və etibarlı bilik əldə etmək metodudur.

*Anlayışın mənşəyi*

"Elm" anlayışı öz-özlüyündə biliyin təsvir aləti kimi meydana çıxmışdır, ancaq XV əsrədək Avropada "elm" və "naturfəlsəfə" daha dar mənada - yazılmış biliyi ifadə etmək üçün istifadə olunurdu. XVII əsrin elmi inqilabından sonra bir sıra irəliləyişlər (məsələn, Nyutonun cazibə qüvvəsini kəşf etməsi kimi) baş verdi və elm tədqiqat metodu kimi anlaşılmağa başladı. XIX əsrin əvvəllərində "elm" anlayışı yalnız fiziki aləmə və onu öyrənən təlimlərə (astronomiya, fizika, kimya) tətbiq olunurdu. XIX əsrin sonlarında elm fəlsəfəsində hansı metodların elmi hesab olunması, elmi biliyin həqiqiliyinin yoxlanıla bilməsi və nəhayət, meydana çıxan sosial elmlərin təbiət elmlərini xarakterizə edən təsdiqləmə tipini təmin edə bilib-bilməməsi haqqında mübahisələr başladı.

XX əsrdə müxtəlif pozitivizm məktəbləri deduksiya və induksiya, verifikasiya və falsifikasiya metodlarına yalnız təbiət elmlərinin deyil, bütün elmlərin riayət etməli olduğu prinsiplər kimi nisbi üstünlüyünü təkidlə müdafiə edirdilər. Lakin tədricən sosioloqlar öz təlimlərini elmi hesab etməyə başladılar. Ancaq sosiologiyanın elmiliyi təbiət elmlərinin elmiliyindən fərqlənir, belə ki, insan davranışı intensional xarakterə malikdir və cəmiyyətlə sosioloji idrak arasında refleksiv münasibətlər mövcuddur. Hazırda sosiologiya elmi özünü cəmiyyəti öyrənən alim hesab edənlər və sosial tədqiqatda iştirakçılıq faktı ilə qane olaraq, elmi metod və status məsələlərini köhnəlmiş hesab edənlər tərəfindən bölünür.

*Məna və interpretasiya*

Güman ki, Ogüst Kontdan başlayaraq, sosiologiyanın əsas məsələsi onun elm olub-olmaması ilə bağlı sual idi. O, astrologiya, fizika, kimya, biologiya kimi qəbul olunmuş elmlərə münasibətdə hansı mövqedədir? Bu elmi təlimləri şəksiz olaraq, elmi edən nədir? Elm çox zaman empirik tədqiqatın sistematik metodları, verilənlərin təhlili, nəzəri təfəkkür və arqumentlərin məntiqi dəyərləndirilməsi kimi təsvir edilir, hansı ki, onlar müəyyən predmet haqqında biliklərin artmasına xidmət edir. Bu baxımdan sosiologiya elmdir, belə ki, sistematik elmi tədqiqat metodları, verilənlərin təhlili, mövcud sübutlar əsasında nəzəriyyələrin qiymətləndirilməsi və məntiqi arqumentasiyanı ehtiva edir. Ancaq getdikcə daha çox sosioloq öz sahəsinin elmiliyinin müzakirəsi zamanı narahat vəziyyətə düşür. Güman ki, onlar sosiologiyanın təbiət elmlərinə deyil, humanitar elmlərə daha yaxın yerləşdirilməsini münasib hesab edərdilər.

Aydındır ki, insanın öyrənilməsi bir çox hallarda təbiət hadisələrinin müşahidəsindən fərqlənir, ona görə də sosiologiya və təbiət elmləri ehtimal ki, heç zaman eyniyyət təşkil etməyəcəklər. İnsanlar sadəcə hansısa instinkt və ya bioloji imperativ sayəsində davranmırlar, onlar bir-birilə müəyyən məna ehtiva edən qarşılıqlı təsirdə olurlar. Ona görə də sosial həyatı təsvir və izah etmək üçün sosioloqlar insanların nədən müəyyən cür davrandığını anlamaq üsulunu tapmalıdırlar. Qurbağaların davranışının anlaşılması belə mürəkkəb səbəb-nəticə əlaqələrinin yenidən qurulmasını tələb etmir. İnsan davranışının mənayüklü xarakteri həm üstünlük, həm də problemdir. Sosioloqlar uğurlu təbiət elmlərinin metodlarını sadəcə olaraq götürə bilməzlər. Onlar spesifik tədqiqat sahəsini – insanları və sosial aləmi öyrənmək üçün uyğun olan metodları işləyib hazırlamalıdırlar. Vacib üstünlüklərdən biri sosioloqların birbaşa (məsələn, sual verməklə) öz tədqiqat obyektlərinə (başqa insanlara) müraciət edib, anlaşılan cavab ala bilmələridir. Tədqiqat iştirakçıları ilə ünsiyyət və öz interpretasiyalarının doğruluğunu təsdiqləmək imkanı sosioloji nəticələrin hər halda potensial olaraq təbiət elmlərinin nəticələrindən daha etibarlı (müxtəlif tədqiqatçılar eyni nəticələrə gələ bilər) və əsaslı (tədqiqatçı məhz güman etdiyini ölçür) olması deməkdir. Maks Veber bu üstünlükləri sosiologiyanın elmi

statusunun vacib elementləri kimi nəzərdən keçirirdi. Onun metodları təbiət elmlərinin metodlarından fərqlənsə də, tədqiqat prosedurları heç də az ciddi, sistematik və nəzəri əsaslandırılmış deyil.

Sosioloqlar təbiət elmləri üzrə tədqiqatçılara məlum olmayan çətinliklərlə üzləşirlər. Özünüdərketməyə malik olan fərdlər tədqiqat obyekti olduqlarını bilirlərsə, çox ustalıqla davranışlarını dəyişə, bununla da tədqiqatın nəticələrini yalnış yönləndirə bilərlər. Məsələn, gündəlik həyatda insanlar daim başqalarının onlar haqqında olan təsəvvürlərini idarə etməyə çalışırlar və təəssüratları idarəetmə prosesi sosioloji tədqiqatın gedişində də cərəyan edə bilər. Sosioloqlar aydın dərk etməlidirlər ki, respondentlər intervü və ya sorğu zamanı tədqiqatçıların onlardan gözlədiyini güman etdikləri cavabları verə bilərlər. Bu nümunələr insanların tədqiqinin vacib cəhətini – refleksivlik problemini nümayiş etdirir.

Sosioloji bilik cəmiyyətin özünə qayıdır və onu dəyişmək potensialı ilə öyrənilən sosial kontekstin bir hissəsinə çevrilir. Sosial refleksivliyin təbiət elmlərində analoqu yoxdur. Bu o deməkdir ki, sosiologiya elmdirsə, o, təbiət elmlərinin tədqiqat metodlarını özününküləşdirə bilməz. Sosiologiya özünün tədqiqat obyektinə adekvat metodları inkişaf etdirməlidir.

*Tənqidi məqamlar*

Sosiologiyanın elmiliyi ilə bağlı fundamental problem elmin məhz nədən ibarət olması haqqında fikir həmrəyliyini nəzərdə tutmasıdır. Əgər əvvəl bu təbiət elmlərinin metodlarına əsaslanırdısa, indi belə deyil. Elm tarixçilərinin bir sıra vacib tədqiqatları elmə dair belə təsəvvürləri dağıtdı. Tomas Kun (1970) elmdə radikal dəyişiklikləri - uzun müddət ərzində biliyin toplanmasının gözlənilən nəticəsi olan elmi inqilabları tədqiq etmişdir. Kun hesab edirdi ki, təbiət elmləri müəyyən nəzəriyyələrə əsaslanaraq, "elmyaratma" üsulları - "paradiqmalar" vasitəsilə mövcuddur. Normal elm mahiyyətinə görə paradiqmaların ciddi, fasiləsiz olaraq irəliləyişlərə gətirib çıxarmayan yoxlanılması və yenidən yoxlanılmasından ibarətdir. Ciddi dəyişiklik məqamları o zaman baş verir ki, kimsə anomaliyanı aradan qaldırmaq üçün paradiqmanın hüdudlarından kənara çıxır, bu isə yeni paradiqmanın yaranmasını şərtləndirir.

Elmin ideal tipinə növbəti zərbə elmi metodları tarixi aspektdən tədqiq edən Pol Feyerabend (1975) tərəfindən vuruldu. O qeyd edir ki, elmdə baş vermiş bir çox inqilabi kəşflərin elmi metodlara aidiyyatı yox idi. Bu kəşflər sadə sınaq və səhvlər, hətta səhv və təsadüflər nəticəsində baş vermişdi, bunu isə öyrətmək qeyri-mümkün idi. Feyerabendin gəldiyi nəticə belə idi ki, elmi metodun yeganə vacib prinsipi "hər şeyin yolverilən olması"dır. Yalnız elmi modeldən deviasiyanı dəstəkləyərək, innovasiyalara zəmanət vermək mümkündür. Yalnız bir metodun yolu ilə getmək staqnasiya və irəliləyişin olmaması deməkdir. Onilliklərdən sonra (1980-ci illərin əvvəllərində) sosioloji metodlarda təbiət elmlərinə oxşamaq cəhdi öz məqsədəuyğunluğunu itirdi.

*Aktuallığın davamı*

Elm indiyədək bir çoxları tərəfindən teoloji bilik və sağlam düşüncənin təsəvvürlərindən fərqli olan biliyin ali forması kimi qavranılır. Ancaq bu üstünlük elmi metodun geniş şəkildə mənimsənilməsi deyil, elmin praktiki uğurları haqqında məlumatlılıqla əlaqədardır. Hətta öz sahəsini elmi hesab etməyən sosioloqlar belə, bir qayda olaraq, özlərinin sistematik və metodoloji cəhətdən ciddi tədqiqatlarını gerçəkliyə uyğun biliyin əldə olunmasının ən yaxşı üsulu kimi görürlər. Məsələn, sosial təminat, səhiyyə və dövlət idarəetməsi sahələrində faktiki göstəricilərə əsaslanan siyasətlərin həyata keçirilməsi üzrə sabit tendensiya mövcuddur. Bu isə elmi tədqiqat metodlarının dövlət siyasətini formalaşdırmasının davamediciliyi deməkdir. Sosioloqlar həm də tədqiqatları maliyyələşdirən fondların tələbləri kimi məsələlərə də diqqət yetirməlidirlər. Bu fondlar isə maliyyələşdirmə qərarını verməzdən əvvəl elmi mötəbərlik və yeniliyin sübutunu gözləyirlər. Bundan əlavə, tənqidi realizm və onların bir sıra müasir tədqiqatlarda qəbul edilməsi sosioloqları "postpozitivist" dövrdə öz elmi səlahiyyətlərindən möhkəm yapışmağa vadar edir.

*İstinadlar və ədəbiyyat*

Benton, T., and Craib, I. (2010) Philosophy of Social Science: The

Philosophical Foundations of Social Thought (2nd edn, Basingstoke: Palgrave Macmillan).

Chalmers, A. F. (2013) What is this Thing Called Science? (4th edn, Maidenhead: OpenUniversity Press).

Feyerabend, P. (1975) Against Method (London: New Left Books).

Fuller, S. (1998) Science (Buckingham: Open University Press).

Kuhn, T. (1970) The Structure of Scientific Revolutions (Chicago: University of Chicago Press).

## İdeal tiplər (Ideal Type)

*İşçi tərif*

Tədqiqatçı tərəfindən sosial fenomenin əsas aspektlərindən yalnız bəzilərini ayırmaqla yaradılan "təmiz" konstruktdur. O, gerçək dünyanın konkret faktları arasında oxşar və fərqli cəhətləri təsbit etmək üçün istifadə olunur.

*Anlayışın mənşəyi*

"İdeal tip" anlayışı Maks Veber tərəfindən işlədilib və sosial fəaliyyətin sosiologiyanın forması kimi tədqiqi metodunun bir hissəsidir. Veberə görə, sosial həyatı təbii elmlərin metodları vasitəsilə anlamaq və izah etmək qeyri-mümkün idi. İnsan təbiətin digər canlı varlıqlarından fərqli olaraq məna mühitini yaradır, onun fərdi fəallığını anlamaq üçün onları sosial mühit kontekstinə yerləşdirmək lazımdır. Əlbəttə, insanlar bir çox sosioloqların əsas tədqiqat obyekti kimi nəzərdən keçirdiyi sosial institut və təşkilatlar yaradırlar. Ancaq Veber hesab edirdi ki, sosial fenomenlərin tam təsviri onların fərdi fəallıq səviyyəsində anlaşılmasını nəzərdə tutur ((1904) 1949). Bu yanaşma "anlayan sosiologiya" adını qazanıb. Veber bu yanaşmadan kapitalizmin mənşəyini, onun dini inanclarla əlaqəsinin əsas aspektlərini, müxtəlif cəmiyyətlərdə iqtisadi həyatın tiplərini, nüfuz və liderliyin tiplərini, həmçinin müxtəlif tarixi dövrlərdə cəmiyyətin təşkili formalarını öyrənmək üçün istifadə edib. İdeal tiplərin konstruktlaşdırılması Veber metodunun mühüm elementi

idi və ona sosioloji təhlilin makro- və mikrosəviyyələrini birləşdirməyə imkan verirdi.

*Məna və interpretasiya*

İdeal tiplər – "konstruktlardır". Bu o deməkdir ki, onlar müəyyən sosial hadisəyə marağı olan tədqiqatçılar tərəfindən yaradılıblar. Məsələn, biz sosializm, demokratiya, kibercinayətkarlıq, istehlak cəmiyyəti və əxlaqi panikanın ideal tiplərini yarada bilərik. Ancaq konstruktun yaradılmasının məqsədi heç də fenomenin dəqiq təsviri üçün onun mümkün qədər çox aspektinin birləşdirilməsi deyil. Veber qeyd edirdi ki, sosiologiya təbiət elmlərinin eksperimental metodlarını təkrarlaya bilməz, ona görə də cəmiyyət haqqında əsaslı bilikləri əldə etməyin digər metodlarını tapmaq lazımdır. İdeal tip bunu etməyin faydalı üsullarından biridir.

Məsələn, əgər biz Əl-Qaidə şəbəkəsinin "yeni terrorizmini" və ya özünü elan etmiş islam dövlətini başa düşmək istəyiriksə, yalnız müşahidə yolu ilə onun tipik aspektlərini – qlobal əlaqələr, sərbəst təşkilatlanma formaları, müxtəlif məqsədləri və vətəndaş obyektərinə qarşı ekstremal zorakılıq növlərini istifadə etməyə hazırlığını üzə çıxara bilərik. Daha sonra bu cəhətlər əsasında "ideal tipləri" konstruktlaşdırmaq olar. Aydındır ki, yeni real terrorizm halları heç də bu cəhətlərlə məhdudlaşmır, bəzi hallarda isə bir və ya bir neçə cəhət ümumiyyətlə olmaya bilər. Məsələn, Suriya və İraqda onun məqsədi mütəhərrik şəbəkə deyil, əraziləri işğal etmək və saxlamağa qadir effektiv ordu yaratmaq idi. Lakin "ideal tip" yaradaraq, biz qəsdən birtərəfli model yaradırıq, reallıqda bəlkə də heç vaxt olmayan və olmayacaq "təmiz" formanı quraşdırırıq. İnsanlar və təşkilatların fəallığı bizim yaratdığımız ideal tiplərdən fərqlənə bilər. Ancaq bu üsulun mahiyyəti yeni terrorizmin yaranmasının məntiqini üzə çıxarmaq, onu əvvəlki növləri ilə müqayisə edərək real terror hadisələri arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirməkdir. İdeal tiplər sosioloqların fərziyyələr irəli sürmək və müqayisələr aparmaq üçün istifadə etdikləri evristik alətlərdir.

İdeal tip bir növ sosial aləmin müşahidə edildiyi perspektivdir, o tədqiqatçıya öyrənilən fenomenlər haqqında bəzi realistik sualları formulə etməyə imkan verir. Ona görə ideal tiplərin yalan,

yoxsa doğru olmasını söyləmək mümkün deyil. Veberə görə, ideal tiplər elmi fərziyyə kimi empirik yoxlamadan keçirilə və əks nümunələr aşkar edildiyi halda buna uyğun olaraq falsifikasiya oluna bilməz. İdeal tiplərin dəyəri həyata keçirilməsinə imkan yaratdığı tədqiqatlarda, onların dərk olunmasına verdikləri töhfədədir. Əgər ideal tiplər gerçəkliyin daha yaxşı anlaşılmasına və yeni tədqiqat suallarını ortaya qoymağa gətirib çıxarmırsa, bu halda onlar faydasızdır və belə ideal tiplərdən imtina etmək lazımdır.

*Tənqidi məqamlar*

Veberin tənqidçiləri ideal tiplərin sosiologiyada tətbiqi imkanını məhdud hesab edirlər. Norbert Elias sarkastik olaraq qeyd etmişdir ki, real tipləri və empirik halları öyrənə biləcəyimiz halda ideal tipləri yaratmaq qəribə olardı. Belə tənqid ədalətli görünür, ancaq yadda saxlamaq lazımdır ki, ideal tiplər işin sadəcə ilkin mərhələsinin hissəsidir və onun empirik tədqiqatla davam edəcəyi nəzərdə tutulur.

İdeal tiplər problemi daha çox konseptin özündə deyil, onun istifadəsi sahəsindədir. O, ilkin olaraq, dərketmənin evristik aləti kimi işlədilən, lakin daha sonra müdafiəsi zəruri olan realistik xarakteristikaya çevrilir. Quraşdırılmış ideal tipi real sosial hadisənin ekvivalenti kimi nəzərdən keçirməyə başlayırlar və o, dərketməyə zəmin yaratmaq əvəzinə maneəyə çevrilir. Talkot Parsons belə bir "sürüşməyə" Veberin özünün kapitalizmə həsr olunan əsərində, konstruktdan unikal tarixi formaya keçiddə rast gəlib. Parsonsa görə, ideal tiplər müqayisəli tədqiqatlarda sosial hadisələrin ümumi cəhətlərinin müəyyən olunması üçün faydalıdır. Əsaslı empirik tədqiqatlar tələb edən unikal tarixi dövr və mədəniyyətlərin öyrənilməsi üçün isə faydası azdır.

*Aktuallığın davamı*

Sosiologiyada ideal tiplərin istifadəsi davam edir və bu, xüsusilə yeni sosial fenomenlərin meydana çıxması hallarına aiddir. Yeni sosial hərəkatları, yeni terrorizm növləri və yeni müharibələri öyrənən sosioloqlar tədqiq etdikləri hadisələrin ideal tiplərini yaradır, sonra isə onlardan konkret halların öyrənilməsində istifadə

edirlər. Məsələn, 1980-ci illərdə nəzəri yanaşmalar yeni sosial hərəkatları nisbətən sərbəst təşkilatlanan, ekoloji problemlər kimi yeni məsələlərə diqqət yönəltmək üçün birbaşa təsirin simvolik formalarından istifadə edən yeni orta təbəqədən ibarət hesab edirdilər. Belə ideal tipik model sərt tənqidə məruz qalırdı. Tarix sosioloqu Kreyq Kalhun (1993) hələ XIX əsrtdə "yeni hərəkat" modelinə bənzər hərəkatları üzə çıxarmışdı. Buna baxmayaraq, tədqiqat səylərini ardıcıl istiqamətləndirən ilkin ideal tip olmadan yeni hərəkatların indiki daha realistik anlamına gəlmək olmazdı. Bu, ideal tiplərin evristik alət kimi öz əhəmiyyətini saxlaması, tədqiqatları stimullaşdırması və sosial hadisələrin daha yaxşı anlaşılmasını təmin etdiyini göstərir.

Qoldtorpun sinfi sxemləri əsasında qurulan sinfi təhlil növünü tənqid edən Prendi (2002) bu sxemin Veberin ideal tipləri və onlara xas problemlərə oxşarlığını göstərir. Sosial siniflərin empirik tədqiqi ideal tipik sinfi kateqoriyaların bir sıra xarakteristikalarını özündə toplamalıdır. Bu prosedur müəyyən mənada ictimai həyatda olan stereotiplərin ümumiləşdirilməsinə bənzəyir: hər iki halda alınan ideal tiplər həddindən artıq sadələşdilir və real sinfi qruplarla eyniyyət təşkil etmir. Prendinin diqqət yetirdiyi problem ondan ibarətdir ki, belə təhlil tipinə əsaslanan nəzəriyyələr bir növ empirik falsifikasiyadan müdafiə olunublar. O, öz məqaləsində bu standart metoda mümkün alternativləri nəzərdən keçirir.

İstinadlar və ədəbiyyat

Calhoun, C. (1993) '"New Social Movements" of the Early Nineteenth Century', Social Science History, 17(3): 385–427.

Hekman, S. J. ([1983] 2006) Weber, the Ideal Type and Contemporary Social Theory (Notre Dame, IN: University of Notre Dame Press).

Lister, C. R. (2015) The Islamic State: A Brief Introduction (Washington, DC:Brookings Institution Press).

Parkin, F. (2009) Max Weber (rev. edn, London: Routledge), esp. chapter 1.

Prandy, K. (2002) 'Ideal Types, Stereotypes and Classes', British Journal of Sociology, 53(4): 583–601.

Weber, M. ([1904] 1949) 'Objectivity in Social Science and Social Policy', in E. A.
Shils and H. A. Finch (eds), The Methodology of the Social Sciences (New York: Free Press), pp. 50–112.

## Keyfiyyət metodları/Kəmiyyət metodları (Qualitative/Quantitative Methods)

*İşçi tərif*

Tədqiqata yanaşmalar arasında təməl bölgüdür. Bir tərəfdən subyektin təfəkkürü və qərar qəbuletmə prosesinə müfəssəl daxil olmaqla bilik əldə etmə (keyfiyyət metodları), digər tərəfdən isə sosial hadisələrin kəmiyyət xarakteristikalarının ölçülməsinə (kəmiyyət metodları) əsaslanır.

*Anlayışın mənşəyi*

Sosiologiyanın inkişafının ilkin dövrlərindən kəmiyyət tədqiqatları mərkəzi yer tuturdu. Dürkheym tərəfindən statistikanın intihar səviyyəsinin ölçülməsi və onun ölkələr üzrə müqayisəsi üçün istifadə olunması sosioloji tədqiqatın standart üsulu hesab olunur. XIX əsrdə sosiologiyanı cəmiyyət haqqında elm kimi təsdiq etmək cəhdinin yayılmasını nəzərə alsaq, sosioloqların kəmiyyət metodlarına üz tutması təəccüb doğurmur. Belə ki, bu metodlar dəqiqlik və ölçmənin etibarlılığını vəd edirdi. Belə metodlar hər şeydən əlavə müqayisəli və tarixi tədqiqatlar üçün imkanlar açırdı, onlar isə sosial dəyişikliklərin miqyasını (zaman-məkan perspektivində) göstərə bilərdi.

Keyfiyyət tədqiqatları əvvəlcə dar ixtisaslaşmış olub, daha əhəmiyyətli və miqyaslı kəmiyyət tədqiqatları üçün bir növ yardımçı fəhlə rolunu oynayırdı. Keyfiyyət metodları bir çox hallarda mənaları aydınlaşdırmaq məqsədilə kiçik pilot tədqiqatları formasında həyata keçirilirdi. 1970-ci illərdən başlayaraq, vəziyyət dəyişdi və tədricən keyfiyyət metodları müstəqil tədqiqat üsulu kimi qəbul olundu. Müstəqil sosioloqların getdikcə daha çox hissəsi üçün key-

fiyyət metodları kəmiyyət metodlarından üstün, insanın və sosial həyatın öyrənilməsi üçün daha uyğun və adekvatdır.

*Məna və interpretasiya*

Kəmiyyət metodları, adətən, məlumatı rəqəm və faiz formasında alaraq, sosial problemin miqyasını və ya oxşar fikirləri paylaşan əhali payını  qiymətləndirməyə imkan verir. Şübhəsiz ki, təsviri deskriptiv məlumat vacibdir və bizə cəmiyyətin dəqiq mənzərəsini yaratmağa yardım edir. Cəmiyyətdə fəhlə sinfinin payı nə qədərdir? Muzdlu işçilər arasında evli qadınlar neçə faizdir? Qlobal istiləşməyə insanların nə qədər hissəsi inanır? Bütün bu suallara cavab vermək kəmiyyət metodlarını tələb edir və tipik hallarda əhalinin reprezentativ seçməsini nəzərdə tutur. Onların öyrənilməsi ümumi nəticə çıxarmağa imkan verir. Adətən, kəmiyyət tədqiqatlarında istifadə olunan seçmələr keyfiyyət tədqiqatlarına xas seçmələrdən qat-qat böyük olur, bu isə statistik yoxlamaları mümkün edir.

Kəmiyyət metodları verilənlər haqqında ümumi nəticələri almağa yönəlmiş induktiv statistik təhlilin istifadəsi ilə irəliləyə bilər (məsələn, seçmədaxili qruplar arasındakı fərqlərin təsadüfi olmayıb, etibarlı olması ehtimalı əsasında). İnduktiv statistika diskriminant təhlildə geniş istifadə olunur, bu zaman sosioloqlar korrelyasiyaların aşkar olunduğu hansı dəyişənlərin səbəb-nəticə münasibətləri ilə əlaqələndiyini üzə çıxarmağa çalışırlar. Son zamanlar belə tədqiqatlar uyğun kompüter proqramlarının meydana çıxması ilə kifayət qədər asanlaşmışdır (məsələn, SPSS). Onlar ilkin verilənlərin daha rahat işlənilməsini və hesablamanın avtomatlaşdırılmasını təmin edir. Maraqlıdır ki, belə texnologiyaların inkişafı zaman etibarilə sosiologiyada keyfiyyət metodlarına dönmə ilə eyni vaxta təsadüf edib.

Keyfiyyət tədqiqatlarına aşağıdakı metodlar daxildir: fokus qruplar, etnoqrafik müşahidə, qismən strukturlaşdırılmış və strukturlaşdırılmamış sorğular, şəxsi müsahibə, iştiraklı müşahidə, bioqrafik tədqiqatlar, şifahi tarixçələr, narrativlərin təhlili, "əsaslandırılmış" nəzəriyyə (grounded theory) və həyat tarixçələri. Onların vasitəsilə tədqiqatçılar sosial həyatın necə yaşanıldığını, insanların öz sosial həyatına məna verərək, öz mövqeyini necə interpretasiya et-

məsini öyrənir. Qısası, keyfiyyət təhlilinin mənası bütövlükdə cəmiyyətin forma və kəmiyyət göstəriciləri deyil, insan həyatının keyfiyyətini dərk etməkdir. Keyfiyyət metodlarının uğur qazandığı istiqamətlərdən biri təmsil olunmamış və həssas qrupların səsinin eşidilməsidir. Evsizlik, özünə ziyan vermə, məişət zorakılığı, uşaq yaşantıları və digər bir sıra sosial məsələlər keyfiyyət metodlarından daha çox bəhrələnmişdir. Bu metodların həyata keçirilmə forması marginal qruplara sərbəst danışmaq imkanı verir.

Keyfiyyət metodlarının daha bir üstünlüyü tədqiqat nəticələrinin əsaslandırılmasını gücləndirmək imkanındadır. Müsahibə və ya etnoqrafik müşahidənin gedişində tədqiqatçı öyrəndiyi insanlara onların cavablarını necə şərh etdiyini deyə və şərhinin düzgün olub-olmadığını soruşa bilər. Müsahibədən sonra bütün mümkün anlaşılmazlıqları aradan qaldırmağa imkan verən müzakirə də aparıla bilər. "Əsaslandırılmış nəzəriyyə" yanaşmasında fərziyyənin formulə olunması, daha sonra empirik yoxlanılmasını nəzərdə tutan ənənəvi deduktiv metod tərsinə çevrilmiş olur. Belə ki, tədqiqatçı əvvəlcə müsahibə formasında məlumatları toplayır, daha sonra onları sistemləşdirir, təsnif edir, kodlaşdırır və kateqorizə edir. Bunu, necə deyərlər, məlumatların özündən "meydana çıxmalı" olan anlayış və nəzəriyyələri formalaşdırmazdan əvvəl həyata keçirirlər. Bütün bunlar tədqiqatçı və onun öyrənmə obyekti arasında sərt bölgüdən daha çox bütün tərəflərin prosesə fəal qoşulması deməkdir

*Tənqidi məqamlar*

Keyfiyyət metodlarının istifadəsinin genişlənməsi bir sıra faydalı və dərin tədqiqatların meydana çıxmasına zəmin yaratdı, ancaq bəzi sosioloqları kəmiyyət metodlarının öz əvvəlki əhəmiyyətini itirmə təhlükəsi narahat edir. Britaniyalı sosioloq tələbələrlə milli sorğuda onların kəmiyyət metodlarına münasibəti öyrənilmişdir. Vilyams (2008) və onun həmkarları aşkar etmişlər ki, bir çox tələbələr rəqəmlərlə iş və statistik texnikaların öyrənilməsi qarşısında qorxu hissi keçirirlər. Daha da narahatedici məqam onda idi ki, respondentlərin böyük hissəsi kəmiyyət metodlarına az maraq göstərir və ya ümumiyyətlə, maraq göstərmirlər. Belə ki, onların fikrincə, sosiologiya dəqiq elmlərdən daha çox humanitar elmlərə ya

xındır. Beləcə, çox güman ki, sosiologiyaya münasibətdə nəsil fərqi onun bir elm kimi statusunu, buradan da onun maliyyələşməsini və nəticə etibarilə tələbələrin cəlb olunmasını təhlükə altına ala bilər.

Keyfiyyət və kəmiyyət metodları arasındakı aydın fərqə baxmayaraq, bəzi sosioloqlar hesab edirlər ki, belə bölgü əvvəllər güman edildiyi qədər sərt deyil. Bir sıra hallarda keyfiyyət metodlarında ölçmələr olur və əksinə, kəmiyyət metodlarında məzmunlu mühakimələr təhlil edilir (Brayman, 2015). Keyfiyyət metodlarından istifadə edən tədqiqatçılar böyük həcmdə intervü mətni və materiallarının təhlili üçün proqram təminatlarından istifadə edir, onların vasitəsilə kodlaşdırma, kvantifikasiya və kateqorizasiyanı həyata keçirirlər. Bununla bərabər, ayrı-ayrı kəmiyyət tədqiqatları da respondentlərə sorğunun dəqiq çərçivələrindən kənara çıxmağa imkan verən qismən strukturlaşdırılmış intervülər əsasında aparılır. Sorğu metodları da həmçinin insanların mövqe və fikirlərini üzə çıxarmağa yönəlib, bu isə məna və interpretasiyalara maraq deməkdir. Bununla yanaşı, qarşılıqlı təsirin çoxsaylı konkret müşahidələri əsasında alınan nəticələr daha geniş tətbiq sahəsini nəzərdə tutur.

*Aktuallığın davamı*

Keyfiyyət metodlarından istifadə edən bəzi sosioloqlar güman edirlər ki, ölçmə və statistik yoxlamalar məna yaradan insanın öyrənilməsi üçün yararsızdır. Bununla bərabər, kəmiyyət tədqiqatlarının bəzi təəssübkeşləri keyfiyyət metodlarını etibarsız və mütləq ki, fərdiyyətçi olacaq dərəcədə hədsiz subyektiv hesab edirlər. Lakin müasir tədqiqatların getdikcə daha böyük hissəsində həm kəmiyyət, həm də keyfiyyət metodlarından istifadə edən qarışıq metodologiya rəhbər tutulur. Hər iki metodun tətbiqi, onların birinin istifadə olunduğu hallardan daha yüksək etibarlılığı təmin edir. Qarışıq metodlara əsaslanan tədqiqatlarda bu və ya digər metodun seçilməsi öyrənilən məsələlər və praktik əhəmiyyətlə müəyyənləşir.

Qarışıq metodologiyanın uğurlu istifadəsinə nümunə olaraq Burdyönün (1986) mədəni kapitalın tədqiqini, Silva və həmkarlarının üç ildən çox həyata keçirdikləri sosial xaricetmə tədqiqatını (2003-2006) göstərmək olar. Burada sorğular, ailə üzvləri ilə müsa

hibələr və fokus qrup metodu istifadə olunmuşdur (2009). Beləliklə, kəmiyyət və keyfiyyət metodları bir-biri ilə çulğalaşmışdır. Tədqiqatın müəllifləri öz yanaşmalarını "metodoloji eklektizm" adlandırırlar və vurğulayırlar ki, o, nəinki faktları təsdiqləməyə, həm də interpretasiyaları yoxlamağa imkan verir.

Ancaq qarışıq metodologiya yanaşması da problemsiz deyildir. Giddinqs və Qrant (2007) güman edirlər ki, bu metodologiya əsasında aparılmış tədqiqatların böyük hissəsi pozitivist yönümlüdür və tədqiqatın alternativ formalarına diqqətsizdir. Praqmatik və açıq-aşkar postpozitivist metodologiya yenidən dirilən pozitivizmin Troya atına çevrilir. Giddinqs və Qranta görə, hazırda bunu səhiyyə, təhsil və tətbiqi sosiologiyanın digər sahələrində populyar olan üç növ tədqiqatın nümunəsində (xüsusilə bu tədqiqatlar dövlət tərəfindən maliyyələşirsə) izləmək olar. Təbiət elmlərinin metodologiyasına əsaslanan pozitivist eksperimental layihələr indi dövlət tərəfindən maliyyələşən tədqiqatların "qızıl standartına" çevrilib və qarışıq metodologiyaya əsaslanan bir sıra praqmatik yanaşmalar bu ideyanı irəli çəkərək əhəmiyyətli tədqiqat alternativlərini diqqətdən kənarda qoyurlar. Ancaq son məqsəd öz-özlüyündə qarışıq metodologiya vasitəsilə deyil, onun pozitivist eksperimental layihəni elmi həqiqətə nail olmanın daha yaxşı və yeganə vasitəsi kimi gücləndirən müxtəlif variantlarını formalaşdırmaqdır.

*İstinadlar və ədəbiyyat*

Bryman, A. (2015) Social Research Methods (5th edn, Oxford: Oxford University Press), esp. parts 2, 3 and 4.

Giddings, L. S., and Grant, B. M. (2007) 'A Trojan Horse for Positivism? A Critique of Mixed Methods Research', Advances in Nursing Science, 30(1): 52–60.

Silva, E., Warde, A., and Wright, D. (2009) 'Using Mixed Methods for Analysing Culture: The Cultural Capital and Social Exclusion Project', Cultural Sociology, 3(2): 299–316.

Williams, M., Payne, G., Hodgkinson, L., and Poade, D. (2008) 'Does British Sociology Count?', Sociology, 42(5): 1003–21.

## Realizm (Realism)

*İşçi tərif*

Sosial tədqiqatlarda obyektiv xarici reallığın olması, həmçinin bu reallığın əsasında duran səbəblərin elmi tədqiqat üçün əlçatanlığında israr edən yanaşmadır.

*Anlayışın mənbəyi*

"Realizm" termininin tarixi qədim olsa da, diskurs olaraq sosial elmlərə XVI-XVII əsrlərdə realizm və idealizm tərəfdarlarının dərketmənin təbiətinə dair mübarizələri gedişində daxil olmuşdur. Realistlər hesab edirdilər ki, yalnız hissi təcrübə və müşahidə vasitəsilə dərk oluna bilən real xarici aləm mövcuddur. Elmin vəzifəsi real aləmin təsviri və izahının təqdim olunmasıdır, onlar təkmilləşdikcə biz həqiqətə daha da yaxınlaşırıq. İdealistlər idrakın xarici aləmdən deyil, insan zəkasından başladığını, təfəkkürümüzün strukturunun dünya haqqında biliklərimizi müəyyənləşdirdiyini hesab edirdilər. Bundan irəli gələrək, xarici aləmə heç nə ilə şərtlənməyən birbaşa "çıxış" yoxdur.

1970-ci illərdə realizmin Roy Bhaskar, Endrü Soyer ideyaları ilə bağlı olan yeni, "tənqidi" forması meydana çıxdı. Tənqidi realizmi sosial-konstruktivist yanaşmanın alternativi kimi nəzərdən keçirməyə başladılar, bu isə realist və idealistlərin köhnə mübahisəsinin sədası idi. Tənqidi realizm sosiologiyanın elmi vəzifələrini saxlamağa can atırdı, o, pozitivizmə qayıtmadan Britaniya sosioloqları arasında xüsusilə nüfuzlu olan tədqiqat ənənəsinə çevrildi. Tənqidi realizm istənilən növ sosial hadisələrin tədqiqi üçün yararlı metodu təmin edirdi, ancaq yalnız müəyyən sahələrdə, məsələn, ekososiologiyada (environmental sociology) özünün tam inkişafına nail ola bilmişdir.

*Məna və interpretasiya*

Tənqidi realizm – yalnız elm fəlsəfəsi deyil. O həm də tərəfdarlarının hesab etdiyi kimi müşahidə olunan hadisələrin səthini yarıb keçməyə, onların əsasında duran, real dünyanın hadisələrini doğuran səbəbləri əlçatan edən tədqiqat metodudur. Bu sosial elmləri

məhz "elm" kimi qorumaq cəhdidir. Onu dəstəkləyənlərin fikrincə, alimlərin əsas vəzifəsi qavrayıb müşahidə etdiyimiz dünyanın doğurduğu dərin sosial prosesləri aydınlaşdırmaqdır. Realistlərin ilkin ideyası ondan ibarətdir ki, insan cəmiyyəti təbiətin bir hissəsidir. Bu o demək deyil ki, onu da təbiət elmlərində tətbiq olunan analoji metodla öyrənmək lazımdır. Əksinə, realistik metodun həm təbiət elmləri, həm də sosial elmlər üçün uyğun olduğu qeyd edilir.

Tənqidi realizmin fundamental prinsipi ondan ibarətdir ki, bilik stratifikasiya olunmuşdur və realistlər biliyin həm mücərrəd, həm də konkret səviyyələri ilə işləyirlər. Mücərrəd bilik yüksək səviyyəli nəzəriyyələrdən ibarətdir (təbii elmlərin qanunları və ya cəmiyyətə dair ümumi nəzəriyyələr), konkret bilik isə müxtəlif tarixi şərtlərdən asılıdır. Konkret tarixi situasiyaların və ya "kəsişmələrin" öyrənilməsi detallı empirik tədqiqatlarla eyni dərəcədə vacibdir. Bu, təsadüfi amillər və zəruri münasibətlərin qarşılıqlı təsirinin müşahidə etdiyimiz spesifik nəticələri necə yaratmasını aydınlaşdırmağa imkan verir. Dikkens (2004) sadə bir nümunədə göstərir ki, barıt onun partlamasına səbəb olan qeyri-sabit struktura malikdir. Ancaq bu xüsusiyyətin gerçək olması bir sıra təsadüfi amillərdən - saxlama şəraitindən, alov mənbəyinədək məsafədən, hətta barıtın miqdarından asılıdır. Analoji olaraq insanlar da müəyyən qabiliyyətlərə (insan təbiətinə) malikdirlər, lakin onların gerçək olması təsadüfi tarixi amillərdən asılıdır: mövcud sosial münasibətlər bu qabiliyyətlərə yol açır, yoxsa onları məhdudlaşdırır, cəmiyyət onların reallaşması və istifadə olunması üçün kifayət qədər imkanlarla təmin edirmi?

Aydındır ki, tənqidi realizm bilik istehsalına sosial konstruktivizmdən fərqli yanaşır. Konstruktivist tədqiqatlar bir sıra hallarda, məsələn, qlobal istiləşmə kimi sosial problemi ekoloqların öhdəsinə qoyaraq aqnostik mövqe tutur. Realistlər isə öz növbəsində təbiət elmləri və sosial elmlərin idrak üsulunu birləşdirməyə, bununla da qlobal istiləşmənin daha dərindən anlaşılmasına, onun əsasındakı səbəblər və hərəkətverici mexanizmlərin üzə çıxarılmasına çalışırlar. Bəzi tənqidi realistlər Marksın özgələşmə nəzəriyyəsini realizm yönümlü ilkin sosial nəzəriyyə hesab edirlər. Belə ki, o, insan təbiəti və insanların "irsi mahiyyətini" reallaşdırmağa imkan verme-

yən kapitalist sosial münasibətlər kimi təsadüfi amilləri əlaqələndirir.

*Tənqidi məqamlar*

Tənqidi realizmin problemlərindən biri təbiət elmlərinin biliklərindən istifadə etməyə can atmasıdır. Sosioloqların bir qayda olaraq təbiət elmləri sahəsində peşəkar hazırlığının olmamasını və deyək ki, iqlim dəyişikliklərinin fiziki və kimyəvi tərəflərinə dair debatlarda iştirak edə bilmədiklərini nəzərə alsaq, onda bu elmlərin gətirdiyi dəlillər hansı əsasda qiymətləndirilə bilər? Əgər biz təbiət elmlərinin biliklərini sadəcə qəbul etsək, bir çox sosial konstruktivistlər bunu sadəlövhlük kimi dəyərləndirər. Çünki sosioloji elmi bilik çərçivəsində proseslərin öyrənilməsinin uzunmüddətli tədqiqat ənənəsi vardır, onun sayəsində elmi konsensus əldə olunur. Elm sosioloqları mütləq olaraq aqnostik mövqe tutmalıdırlar ki, nisbi məsafəni saxlaya, eksperimental və digər elmi metodların tələb etdiyi kimi "dəri altına girmə"ni təmin edə bilsinlər.

Tənqidi realizmin daxilində də eyni metod vasitəsilə məhz hansı sosial və təbiət elmlərinin öyrənilməsinin mümkünlüyünə dair mübahisələr mövcuddur. Məsələn, Bhaskar güman edir ki, onlar arasında fundamental fərq mövcuddur. Bu, ilk növbədə sosial və təbii strukturlar arasındakı fərqdən irəli gəlir. Sosial strukturlar uzun zaman ərzində hifz olunmur və onlar insanların öz davranışlarını necə qavramasından asılıdır. Buradan belə bir qənaətə gəlmək olar ki, sosial və təbiət hadisələrinin öyrənilməsində müxtəlif metodlardan istifadə etmək lazımdır. Belə olduqda isə tənqidi realizm onu postmodernizm və "dekorativ sosiologiyanın" digər variantlarına alternativ kimi cəlbedici göstərən vədini - vahid elmi yanaşma təklifini yerinə yetirə bilmir.

*Aktuallığın davamı*

Tənqidlərə baxmayaraq, qeyd etmək olar ki, nəzəri və metodoloji perspektivlərindən asılı olmayaraq, sosioloji tədqiqatlar təcrübədə "sadəlövh realizmin" müəyyən formasını alır. Əgər biz öyrənilməyə layiq real xarici aləmin mövcud olduğunu hesab etmiriksə, tədqiqat həyata keçirməyin mənası nədir? Tənqidi realizm so-

siologiyanı təbii aləmin reallığını inkar edən kəskin sosial-konstruktivist arqumentlərdən uzaqlaşdırmaq üsulu kimi qavranılır. Sərt konstruktivizmi professional məsuliyyətdən uzaqlaşmaq vasitəsi kimi anlayan bir çox sosioloqlar üçün tənqidi realizm indi mövcud olan qeyri-pozitivist alternativlər arasında ən cəlbedicisidir.

Tənqidi realizmi daha yaxşı anlamaq üçün bəzi nümunələrə nəzər salaq. Məsələn, Süzan Fitzpatrik (2005) göstərir ki, sosial problemlərin təhlilinə tənqidi realizm mövqeyindən yanaşma bu təhlili daha dəqiq və səbəblərə adekvat edir. Fitzpatrik evsizlərin problemlərini öyrənərək qeyd edirdi ki, bu problemə müasir yanaşmalar fərdi və struktur amilləri daha tam izahlar kimi nəzərdən keçirərək, birləşdirir. Ancaq bəzi struktur amillər, məsələn, yoxsulluq amili digərlərinə nisbətən daha mühümdür. Realistik yanaşmaya görə, izahlar həmişə təsadüfidir: əgər işsizlik cavanlar arasında artan zaman daha əhəmiyyətlidirsə, yaşlılara şəxsi amillər (məsələn, ağır itki) daha ciddi təsir göstərə bilər. Fərdi və sosial amillərin balansı sosial qruplar və evsizliyin konkret tipləri üzrə müxtəlif ola bilər. Realistik yanaşma bu mürəkkəbliyə daha çox uyğunlaşmışdır.

Tənqidi realizm həm də cinayətkarlığın tədqiqində istifadə olunub. O, kriminologiyanın siyasətdə aktuallığını yenidən canlandırmaq imkanı kimi nəzərdən keçirilir. Metyus (2009) müasir kriminologiyada cinayətkarlıq və residivizmin azaldılmasına münasibətdə pessimizmdən danışır, sanki heç nə işləmir. Ancaq o güman edir ki, realizm sadəcə strategiya və ya praktika olmağı deyil, daha əhəmiyyətli müdaxilələri tələb edir. Bu müdaxilələr müəyyən kontekstlərdə işlək olan nəzəriyyələrin reallaşdırılmasıdır. Mühüm aspekt yalnız müdaxilənin özü deyil, onun hansı səbəbdən uğursuz olmasıdır. Bütün müdaxilələr fəal insanlara yönəldiyindən əsas məsələ potensial cinayətkarın fikri proseslərini dəyişmək və ya formalaşdırmaqdır. Metyusun fikrincə, bu müdaxilələr radikal dəyişikliklərə gətirməsə belə, "kiçik uğurlar da irəliləyişdir" və onlar gələcək islahatlara yardım olacaqdır.

*İstinadlar və ədəbiyyat*

Bhaskar, R. A. ([1975] 2008) A Realist Theory of Science (London Verso).

Carter, B. (2000) Realism and Racism: Concepts of Race in Sociological Research (London: Routledge).

Dickens, P. (2004) Society and Nature: Changing our Environment, Changing Ourselves (Cambridge: Polity), esp. pp. 1–24.

Fitzpatrick, S. (2005) 'Explaining Homelessness: A Critical Realist Perspective', Housing, Theory and Society, 22(1): 1–17.

Matthews, R. (2009) 'Beyond "So What?" Criminology', Theoretical Criminology, 13(3): 341–62.

Sayer, A. (1999) Realism and Social Science (London: Sage).

## Refleksivlik (Reflexivity)

*İşçi tərif*

Bilik və cəmiyyət, tədqiqatçı və obyekt arasında münasibətlərin xarakteristikasıdır. Sosial aktorların daim özlərinə və yerləşdikləri sosial kontekstə yönəlməsini vurğulayır.

*Anlayışın mənşəyi*

"Refleksivlik" anlayışı refleksiya və özünürefleksiya haqqında təsəvvürlərlə əlaqəli olduğundan qədim tarixə malikdir. Ancaq onların sosial elmlərdə istifadəsi Corc Herbert Mid (1934) və Çarlz Kulinin (1902) sosial özümlülük (social self) anlayışına dair əsərləri, V.Tomasın sosial konstruktivist yanaşması, özünütəsdiqləyən və özünüinkar edən "öncəsöyləmələr" (prophecies) ilə bağlıdır. Mid və Kuli fərdi özümlülüyün anadangəlmə olduğunu inkar edirdilər. Kulinin fikrincə, özümlülük insanın başqaları ilə qarşılıqlı təsirinin gedişində özünə başqalarının onu gördüyü kimi baxması ilə formalaşır. Midin nəzəriyyəsində bioloji insan orqanizmi ilə sosial mühit arasında uzunmüddətli qarşılıqlı təsir prosesində "Mən" (I) və "mən"dən ibarət (me) ikitərkibli özümlülük formalaşır. Onlar fərdin daxilində daim bir-birilə dialoqdadır. Fərdi refleksivlik sosial əhəmiyyətli qarşılıqlı təsirin fonudur.

Lakin "fərdi refleksivlik" və "sosial refleksivlik" anlayışları sosial nəzəriyyədə yalnız XX əsrin sonunda mühüm əhəmiyyət kəsb etməyə başladı. Xüsusilə, Ulrik Bek (1994) və Entoni Gidden-

sin (1984) nəzəri ideyaları "refleksivlik" anlayışını fərdi səviyyədən sosial səviyyəyə qaldırdı, eyni zamanda həmin dövr ərzində keyfiyyət metodlarının vurğulanması diqqəti sosial həyatın fundamental refleksiv təbiətinə yönəltdi. Fərdi və sosial refleksivliyin mövcudluğu sosiologiyada pozitivizmin istənilən təzahürlərinin qarşısıalınmaz olaraq sıradan çıxarılması demək idi.

*Məna və interpretasiya*

Kuli, Mid və daha geniş götürsək, bütövlükdə simvolik interaksionizm ənənəsi üçün özümlülüyün formalaşması prosesi insanı refleksiv varlığa çevirirdi. O, sosial həyata fəal olaraq qoşulur və eyni zamanda sosial həyatı refleksiya edir. Belə fərdi refleksivlik o deməkdir ki, fəal insan onun necə davranmalı olduğu haqda elmi proqnozları darmadağın edə bilər. O həm də göstərir ki, "cəmiyyət" fiksasiya olunmuş, fərdlərdən asılı olmayan obyektiv varlıq deyil, fasiləsiz konstrukt yaratma prosesidir. Özünütəsdiqləyən öncəsöyləmələr həmçinin refleksivliyin bəzi nəticələrini göstərir. Mötəbər və ödəmə qabiliyyətli bankda problemlərin olması haqqında şayiələr investorları öz pullarını geri götürməyə vadar edə, bu isə öz növbəsində yalnış öncəsöyləmənin yerinə yetməsi və bankın ciddi problemlərlə üzləşməsinə səbəb ola bilər (Merton, 1949, 1954). Bilik və informasiyanın bütün növləri insanların qərar qəbuletmə prosesinə təsir edə və gözlənilməz hərəkətlərə səbəb ola bilər.

Entoni Giddens və Ulrik Bekin əsərlərində refleksivlik müasir cəmiyyəti anlamaq üçün açardır. Giddens və Bek hesab edirlər ki, "son" modern dövrü ənənələrdən uzaqlaşmış (detradisionalizasiya olunmuş) sosial kontekstdir. Bu halda fərdlər sosial strukturun dəstəyindən məhrum qalırlar və daim öz həyat və identiklikləri üzərində refleksiya etməli olurlar. Belə cəmiyyət formasını Bek "refleksiv modernləşmə", "ikinci modern" və ya "risk cəmiyyəti" adlandırır və onun sənaye cəmiyyətini əvəzləməsini qeyd edir. Yüksək refleksivliyin tədqiqat praktikası üçün nəticələri olduqca əhəmiyyətlidir. Sosioloji tədqiqatların nəticələri ictimai bilik ehtiyatının hissəsinə çevrilir və qərar qəbulunda istifadə olunur. Özünütəsdiqləyən və özünüinkar edən öncəsöyləmə hallarında aydın görünən rekursiv effektlər öz-özlüyündə sosial həyatın hissəsinə çevri-

lirlər. Beləliklə, xarici aləmin obyektiv öyrənilməsinə əsaslanan bəsit pozitivist yanaşma yalnışdır, belə ki, burada tədqiqatçı və tədqiqat obyekti arasındakı sərhəd silinmişdir. Sosioloji metodlar bu vəziyyəti əks etdirməlidir. Güman ki, məhz buna görə bioqrafik tədqiqat, şifahi tarix, tədqiqatçının öz bioqrafiyasının tədqiqi sosiologiyada populyarlıq qazanır. "Refleksivlik" anlayışı həm sosial nəzəriyyə, həm də sosioloji tədqiqat metodlarında mərkəzi yer tutaraq, onların ikisini ayrılmaz şəkildə əlaqələndirir.

*Tənqidi məqamlar*

Refleksiv modernləşmə nəzəriyyəsi və onunla əlaqəli fərdiləşmənin güclənməsi gümanı empirik tənqidə açıqdır. Nəzəriyyənin təsvir etdiyi bəzi sosial dəyişikliklər - ailə həyatının diversifikasiyası, nikah və boşanmaların sayının dəyişməsi şübhə doğurmur, məsələn, sənaye cəmiyyətinin öz yerini refleksiv modernizmə verməsi fikri mübahisəli görünür.  Risklərin idarə olunması müasir cəmiyyətlərin yeni təşkilati prinsipinə çevrilirmi? Sənaye istehsalı prosesləri hazırda qlobal miqyasa malikdir, zavodların böyük qismi inkişaf etməkdə olan ölkələrdə yerləşir. Ona görə qeyd etmək olar ki, sənaye kapitalizmi bu günün cəmiyyətini daha yaxşı xarakterizə edir. Fərdiləşmə və yüksək refleksivlik haqqında tezis də həddən artıq şişirdilmiş görünür. İnsanlar özlərini XX əsrin əvvəllərində etdikləri kimi sosial siniflə  eyniləşdirməyə də bilərlər, ancaq bu o demək deyil ki, onların həyat şərtləri və şansları sinfi mövqe ilə müəyyənləşmir. Əlbəttə, sosioloqlar "sinif" anlayışının əhəmiyyətinin davam etdiyini göstərən kimi fərdiləşmə tezisi güclü cavab reaksiyasına səbəb oldu.

Sosioloji tədqiqatda refleksivliyin tətbiqi də birmənalı qəbul edilmədi. Bəzi tədqiqatçılar üçün alimin öz tərcümeyi-halını tədqiqat prosesinə daxil etməsi öz arzuları önündə zəiflik edərək tədqiqata aid olmayan şəxsi məsələləri sadalaması deməkdir. O cümlədən, refleksivliyin vurğulanması sonu bilinməyən "refleksiyanın refleksiyası", "şərhin şərhinə" gətirib çıxara bilər. Bu isə tədqiqatçını bir növ iflic vəziyyətinə salır, onu sosial həyatı daha dərindən anlamaq və adekvat izah etməyə qabil olan etibarlı biliyin əldə edil-

_

məsindən yayındırır. Bundan əlavə, aydın olmayan məsələ həm də refleksiv tədqiqat təcrübəsinin irimiqyaslı sosial tədqiqatlara necə tətbiq olunmasıdır. Əgər cəmiyyətin əsasında duran pattern və qanunauyğunluqları aşkar etmək istəyiriksə, onda belə miqyaslı tədqiqatlar öz vacibliyini saxlamağa davam edir.

*Aktuallığın davamı*

Refleksiv metodlardan istifadə edən tədqiqatçıların heç də hamısı Bekin refleksiv modernləşmə və Giddensin detradisionalizasiya tezisinə imza atmır. Çoxları üçün refleksivlik sadəcə cəmiyyətin öyrənilməsinə peşəkar yanaşmanın bir hissəsidir, hansı ki, tədqiqatçıya özünün önyarqıları və nəzəri gümanlarını daha yaxşı anlamağa imkan verir. Əlbəttə, refleksivliyin müəyyən həddi öz vərdiş və praktikaları üzərində düşünməyə adət etməmiş tədqiqatçılara faydalı ola bilər.

Tədqiqatçının həyata keçirdiyi tədqiqat prosesinə özümlülüyünü daxil etməsini daha yaxşı anlamaq üçün Kim Eterinqtonun "Refleksiv tədqiqatçıya çevrilərək" (2004) əsərinə diqqət yetirmək yaxşı olar. O, refleksiv tədqiqatın praktik təlimatını təqdim edir. Ancaq heç də bütün sosioloqlar alimlərin öz bioqrafiyalarını tədqiqat işinə daxil etməsi ideyasını dəstəkləmir, bunu öz arzularının arxası ilə getmək kimi qiymətləndirirlər. Buna baxmayaraq, hazırda refleksivliyi öz tədqiqat layihəsinə daxil etməyə can atan kifayət qədər gənc alimə rast gəlmək olar.

*İstinadlar və ədəbiyyat*

Beck, U. (1994) 'The Reinvention of Politics: Towards a Theory of Reflexive Modernization', in U. Beck, A. Giddens and S. Lash, Reflexive Modernization: Politics, Tradition and Aesthetics in the Modern Social Order (Cambridge: Polity), pp.1–55.

Buttel, F. H. (2002) 'Classical Theory and Contemporary Environmental Sociology: Some Reflections on the Antecedents and Prospects for Reflexive Modernization Theories in the Study of Environment and Society', in G. Spaargaren, A. P. J. Mol and F. H. Buttel (eds), Environment and Global Modernity (London: Sage), pp. 17–40.

Cooley, C. H. (1902) Human Nature and the Social Order (New York: Scribner's).

Etherington, K. (2004) Becoming a Reflexive Researcher: Using Our Selves in Research (London: Jessica Kingsley).

Finlay, L., and Gough, B. (eds) (2003) Reflexivity: A Practical Guide for Researchers in Health and Social Sciences (Chichester: Wiley-Blackwell).

Giddens, A. (1984) The Constitution of Society (Cambridge: Polity).

Mead, G. H. (1934) Mind, Self and Society, ed. C. W. Morris (Chicago: University of Chicago Press).

Merton, R. H. ([1949] 1957) Social Theory and Social Structure (rev. edn, Glencoe, IL: Free Press).

## Sosial konstruktivizm (Social Constructionism)

*İşçi tərif*

Sosiologiya elmində sosial hadisələrin gerçək olub-olmamasına münasibətdə aqnostik mövqe tutan və onların sosial münasibətlər daxilində yaradılma üsullarını öyrənməyə üstünlük verən yanaşmadır.

*Anlayışın mənşəyi*

Sosial konstruktivizmin kökləri 1970-ci illərin əvvəllərində "sosial problemlərə" yanaşma ilə bağlıdır. O zaman sosial problemlər insanların diqqəti və dövlət resurslarına iddia kimi nəzərdən keçirilirdi. Belə iddiaların rəqabət mühitində resurslara çatması üçün mövcud tələblər olduqca yüksəkdir. Bu yanaşma isə bəzi tələblərin kölgədə qalması şəraitində digərlərinin geniş yayılmasını təhlil edirdi. Müasir konstruktivizm bilik istesalının əsasında duran sosial prosesləri öyrənən sosiologiyaya söykənir. Elmi biliyin sosiologiyası elmin özünü sosial fəallığın forması kimi nəzərdən keçirir, məhz bu səbəbdən onu sosioloji tədqiq etmək mümkündür. Elmi nəzəriyyələr onların yarandığı cəmiyyətlərin məhsuludur və elmi biliyin sosiologiyası çox vaxt bu nəzəriyyələrin güman edilən universal əhəmiyyətini şübhə altına alır.

Göstərilən iki istiqamətin birləşməsi sosiologiyada sosial konstruktivizmin geniş yayılmasına gətirib çıxardı. Bu ümumi perspektiv müxtəlif hadisələrin təhlilində istifadə olunmağa başladı - Avropanın sosial konstruktlaşdırılmasından tutmuş, silsilə qətllər, demensiya, seksuallıq və hətta okeanların tədqiqinə qədər. Bu tədqiqatların ümumi tərəfi onların tədqiqat obyektinin "təbii", "obyektiv" statusu haqqında sualı ortaya qoymasıdır. Sosial konstruktivizmin irəli sürdüyü arqumenyasiya feminizm, məhdud fiziki imkanlı şəxslərin haqları uğrunda hərəkatlar üçün də faydalıdır. Onlar həm qadınların, həm də əlillərin haqlarının pozulmasının "təbii" status-kvosunu sorğulayır.

*Məna və interpretasiya*

Sosial konstruktivizm sosiogiyada geniş tətbiq olunur və istər gender, istərsə də cinyətkarlıq kimi konkret sosial hadisələrin yaranmasına gətirib çıxaran bütün elementlərin təftişini nəzərdə tutur. Konstruktivizm konvensional müdrikliyi və sağlam zəka ideyasını inkar edir, belə ki, onlar gender və cinayətkarlığın mövcudluğunu təbii və ya normal hesab edirlər. Sosial konstruktivistlər üçün gender və cinayətkarlıq tarixi sosial proseslər və sosial münasibətlərdən yaranır. Bu, onu göstərir ki, gender və cinayətkarlıq daimi fenomenlər deyil, onların zamana və müxtəlif cəmiyyətlərə nəzərən dəyişməsini göstərmək mümkündür (həm mənasına, həm də formasına görə). Bu baxımdan sosial konstruktivizm cəmiyyət və onun institutlarının daim hərəkətdə olması ideyasına əsaslanır. Sosiologiyanın vəzifəsi bu fasiləsiz prosesi öyrənməkdir.

Konstruktivizmin heç də bütün yanaşmaları eyni deyil. Əsas bölgüyə görə (elmi biliyin sosiologiyasından götürülmüş), onun "güclü" və "zəif" formaları fərqləndirilir. Ancaq son zamanlar onlar "sərt" (strict) və "kontekstual" formaların fərqi kimi anlaşılır, belə bölgü daha neytral hesab olunur. Sərt konstruktivizmə görə, nə təbiət, nə də cəmiyyət özünü bilavasitə təqdim edir. Bütün fenomenlər yalnız insanların yaratdığı anlayış və nəzəriyyələr vasitəsilə əlçatan olur, onlar isə bəzən kifayət qədər radikal olan dəyişikliklərə açıqdır. Sərt konstruktivistlər ümumilikdə konstruktivizmin nü-

mayəndələri arasında cüzi azlıqdır. Konstruktivistlərin böyük hissəsi sosioloji diskursdan xaricdə olan gerçəkliyin mövcudluğunu qəbul etməyə hazırdırlar, ancaq bu gerçəkliyin bizim üçün necə əlçatan olması məsələsi problem olaraq qalır. Kontekstual konstruktivistlər sosial və ekoloji problemlər, müxtəlif sosial qrupların onlarla bağlı tələblərinə dair bir çox məqamları müzakirə edə bilərlər. Bununla bərabər, onlar göstərirlər ki, sosial problemlərin mövcud iyerarxiyası öz-özünə aydın kimi qəbul oluna bilməz. Bəzi problemlər xüsusi diqqət və gecikmədən həllini tələb edən kimi, digərləri sadə və əhəmiyyətsiz kimi görünürlər. Kontekstual konstruktivistlər ilkin çıxış nöqtəsi kimi sosial problemlərin mövcud nizamını götürürlər. Bu nizam sosial problemlərin həqiqi ciddiliyini əks etdirirmi? Sosiologiya arqumentləri irəli sürən və onları inkar edənlərin tədqiqində faydalı ola bilər. Bununla sosioloqlar zəmanət verə bilərlər ki, rasional dəyərləndirmə üçün zəruri olan bütün informasiya ictimailəşən olacaq.

Konstruktivistlərin necə işlədiyinə yaxşı nümunə kimi Hanniqanın (2014) 1980-ci illərdə xüsusilə aktuallaşan biomüxtəlifliyin itirilməsi probleminin tədqiqini göstərmək olar. Bu problem hələ 1911-ci ildə məlum idi, bunun sübutu yoxa çıxmaq təhlükəsi ilə üzləşən quş və heyvanların müdafiəsi haqda çoxsaylı qanunvericilik təşəbbüsləridir. Lakin bu problemə siyasi məna verən beynəlxalq qurumlar yox idi. 1980-ci illərdə dəyişən amil multimilli korporasiyaların vəziyyətə qoşulması idi ki, onlar da genetik resursları patentləşdirməyə, BMT-nin bazasında bioloji növlərin mühafizəsi sahəsində bir sıra yeni qanunların işlənilməsi də daxil olmaqla siyasətçilərin problemə diqqətini kifayət qədər təmin edən infrastrukturun yaradılmasına can atırdılar. Qısası, problemi irəli sürənlərin daha böyük hissəsi öz maraqlarını konkret tələblərlə ifadə etdilər və nəhayət, biomüxtəlifliyin itirilməsi problemini ekoloji proqramın zirvəsinə qaldırdılar. Əlbəttə, problemin mövcudluğunu inkar edənlər də var idi, lakin onların rəqibləri daha güclü və mütəşəkkil idi. Yalnız konstruktivist yanaşma problemlərin konstruksiya olunmasını və bununla əlaqəli yaranan iddialara diqqət yetirərək, bu konstruktlaşdırmanın necə və nəyə görə uğurlu olmasını göstərə bilər.

*Tənqidi məqamlar*

Konstruktivist tədqiqatların maraqlı olmasına baxmayaraq, onlar aqnostisizmə görə tənqid olunur. Məsələn, Hanniqanın biomüxtəlifliyi tədqiq etməsində nəzərdən yayınan bir məsələ var. Biomüxtəlifliyin itirilməsi getdikcə daha ciddi sosial və ekoloji problemə çevrilirmi? Bu sual sosial konstruktivizmin nümayəndələrinə ünvanlana bilməz. Onu cavablandırmaq üçün bioloqların, təbiət tarixi üzrə mütəxəssislərin və ekoloqların ekspert rəyinə ehtiyac vardır. Çox az sayda sosioloq var ki, biomüxtəliflik və bir sıra digər konkret məsələlər üzrə peşəkar mübahisələrdə iştirak edəcək qədər ekspert biliyinə malik olsun. Tənqidi realistlər kimi bəzi alimlər üçün belə ekspertiza olmadan sosiologiya sadəcə diskursiv tədqiqatlar seriyasından ibarətdir. Onlar isə məsələnin mahiyyətinə varmadan mühakimə, sənəd və mətnləri nəzərdən keçirirlər.

Sosial konstruktivizmin tənqidinin daha bir istiqaməti onun sanki tələblərin irəli sürülmə siyasətinə diqqət yetirməsi və bu səbəbdən elmi sosiologiyadan daha çox sosial və siyasi hərəkatlar üçün daha faydalı olmasındadır. Nisbətən daha nüfuzlu sosial qrupların siyasi debatları formalaşdırması və onlara nəzarət etməsi olduqca faydalı funksiyadır. Ancaq belə görünür ki, konstruktivizm bir çox hallarda məğlub olanların tərəfini tutur. Hesab edilir ki, konstruktivizm siyasi cəhətdən önyarqılıdır. Məsələn, qadın hüquqları uğrunda çalışan ictimai hərəkatlar qadının özəl ailə məkanındakı yerinin "təbii" olmadığını, övlad dünyaya gətirməyin isə gender bərabərliyi qarşısında "təbii" maneə olmadığını göstərmək üçün konstruktivizmdən istifadə etmişlər. Əsas tənqid arqumentlərin qeyri-legitimliyi olmayıb, konstruktivizmin elmi tədqiqat metodlarından daha çox siyasi strategiyaya yaxın olmasındadır.

*Aktuallığın davamı*

Sosial konstruktivizm sosiologiyada hədsiz uğur qazanıb, ehtimal ki, hazırda tədqiqatların böyük hissəsi bu yanaşma çərçivəsində aparılır. Şübhəsiz ki, o, sosial həyata aid yeni məlumatların əldə olunmasına imkan yaratdı. Sosial konstruktivizm bütün məlum fenomenlərin qaçılmaz sosial təbiətə malik olduğunu göstərir. Bu, insan cəmiyyətini təhlilin əsas fokusuna çevirir, sosioloqlara isə bu

işdə mərkəzi rolu həvalə edir. Yanaşma sosioloqların qarşısında dəqiq müəyyənləşmiş vəzifəni qoyduğu dərəcədə faydalı ola bilər. Bu vəzifə sosial konstruktlaşdırma proseslərini üzə çıxarmaq və bununla da ictimai diskussiya iştirakçılarını vacib məsələlər üzrə (bunu "ekspertlərin" öhdəliyinə buraxmayaraq) məlumatlandırmaq imkanı verir.

Sosial konstruktivistlərin tədqiqatlarının əhəmiyyətli hissəsi mediaməlumatlar və onların ictimai debatlara töhfəsinin öyrənilməsinə yönəlib. Yaxın keçmişdə olan nümunələr – 1964-cü ildə ABŞ-ın səhiyyə xidmətinin baş həkiminin tənqidi məruzəsindən sonra amerikan qəzetlərində tütün istifadəsinin təhlükəliliyinin konstruktlaşdırılması və 1998-ci ildə Minnesota ştatının tütün sənayesi nümayəndələrinin iştirakı ilə baş verən məhkəmə işidir. Tədqiqat Vanda Siu (2009) tərəfindən həyata keçirilib. O, milli liberal qəzet "New York Times"-da və biznes dairələrinə yaxın maliyyə qəzeti olan "Wall Street Journal"-da məruzə və məhkəmə prosesinin işıqlandırılmasını müqayisə edib. Hər iki halda aydın olmuşdu ki, "Wall Street Journal" mövzunu tütün sənayesinə simpatiya tərzində formulə edir, məsələn, baş həkimin məruzəsinin nəticələrinin əhəmiyyətini azaldır, Minnesota məhkəməsinin vəkillərini elmi faktları gizlətməkdə ittiham edir. Bu tədqiqat göstərir ki, qəzetlər ABŞ-da tütün istehlakının sosial konstruktlaşdırılmasını sadəcə işıqlandırmırdılar, həm də bu konstruktlaşdırma prosesinə fəal olaraq qoşulurdular.

Bütün sosial hadisələrin konstruktivist təhlil üçün potensial olaraq açıqlığını nəzərə alsaq, etiraf etməliyik ki, sosial konstruktivizmin özünün sosial konstruksiya kimi öyrənilməsi də zaman məsələsi idi. Motılin (2010) radikal konstruktivizmdən qətiyyətlə imtina etməsi bununla bağlıdır. Onun tədqiqatı millətçilik və identikliyin formalaşmasına həsr edilib, lakin ilk növbədə sosial konstruktivizmin müəllifə bəsit, amma ciddi variantlarında qeyri-adi, maraqlı və yanlış görünən tənqidi ilə bağlıdır.

*İstinadlar və ədəbiyyat*

Goode, E., and Ben-Yehuda, N. (2009) Moral Panics: The Social Construction of Deviance (2nd edn, Chichester: Wiley-Blackwell).

Hannigan, J. (2014) Environmental Sociology (3rd edn, London: Routledge), esp. chapter 5.

Motyl, A. J. (2010) ‘The Social Construction of Social Construction: Implications for Theories of Nationalism and Identity Formation’, Nationalities Papers, 38(1): 59–71.

Siu, W. (2009) ‘Social Construction of Reality: The Tobacco Issue’, Critical Public Health, 19(1): 23–44.

# MÖVZU 3. ƏTRAF MÜHİT VƏ URBANİZM

## Davamlı inkişaf (Sustainable Development)

*İşçi tərif*

İnkişaf etməkdə olan ölkələrin iqtisadi artımı ilə qlobal ətraf mühitin uzun müddət qorunmasını birləşdirən yanaşmadır.

*Anlayışın mənşəyi*

"Davamlı inkişaf" anlayışı ilk dəfə 1987-ci ildə BMT-nin Ümumdünya ətraf mühit və inkişaf komitəsinin (Brutland Komitəsi) məruzəsində formulə edilmişdir. Lakin tarixdə bu anlayışın sələflərini aşkar etmək olar. XVIII əsrin sonlarında Maltus əhalinin daim artması və Yer kürəsinin bu əhalini qidalandıra bilməməsi təhlükəsini təsvir etmişdir. Əhalinin sayı təhlükəsiz səviyyədə stabilləşdirilənə qədər onun artmasının nəticəsi kütləvi aclıq və sosial böhranlar olacaqdır. Con Stüart Mill ((1848) 1999) güman edirdi ki, məhdudlaşdırılmayan iqtisadi artım həyat keyfiyyətinin və ətraf mühitin pisləşməsinə gətirib çıxaracaqdır. Müasir dildə desək, həm Maltus, həm də Mill davamlı inkişafın nümunəsini tapmağa çalışırdılar.

1970-ci illərdə "Artımın hüdudları" məruzəsində (Meadows et al., 1972) beş qlobal trend göstərilmişdir – sənayeləşmənin sürətlənməsi, əhalinin sürətli artımı, zəif qidalanmanın geniş yayılması, yenilənən resursların tükənməsi, ətraf mühitin korlanması. Onların əsasında gələcəyin ssenariləri müəyyənləşdirilirdi. Məruzədə belə bir nəticəyə gəlinirdi ki, fasiləsiz iqtisadi inkişaf davamlı deyildir, yeni texnologiya və ikiqat əlçatan resurslara baxmayaraq, 2100-cü ildə dayana bilər. Bruntland Komitəsi bu təhlil ənənəsini davam etdirdi, eyni zamanda qlobal bərabərsizliyi azaltmaq yolu ilə iqtisadi inkişaf və ətraf mühitin qorunmasının birgə həyata keçirilməsi üçün platforma təklif etdi.

*Məna və interpretasiya*

"Ümumi gələcəyimiz" adlanan əsas məruzə (həmçinin, "Bruntland məruzəsi" kimi tanınır) BMT-nin Ətraf Mühit və inkişaf Üzrə Beynəlxalq Komissiyası tərəfindən hazırlanmışdır (World Commission..., 1987). Məhz bu məruzədə davamlı inkişafa "indiki nəslin tələbatlarına cavab verən və gələcək nəsillərə öz tələbatlarını ödəməkdən məhrum etməyən" kimi tərif verilmişdi. Bu anlayış siyasi nöqteyi-nəzərdən birmənalı deyil, kifayət qədər mütəhərrikdir və münaqişəli şərhlərin obyekti ola bilər. Buna baxmayaraq, müəyyən versiyalarda o, ekoloji problemlər və qlobal bərabərsizliklə mübarizə aparmağa çalışan ekoloqlar, hökumətlər, beynəlxalq təşkilatlar tərəfindən istifadə olunur. Yuxarıda göstərilən tərif müasir insanların önünə gələcək nəsillər üçün təhlükə törətmədən və bizim asılı olduğumuz ətraf mühitə ziyan vurmadan tələbatlarımızı ödəmək üçün yetərli sərvət istehsalının yollarını axtarmaq vəzifəsini qoyur. Davamlılıq və inkişafı birləşdirərən bu anlayış nisbətən zəngin olan Şimal yarımkürəsinin ekoloqlarına, hökumətlərinə və nisbətən yoxsul olan qlobal Cənub iqtisadiyyatlarını yaxşılaşdırmağa çalışanlara xitab edir. Bu, təhsil və savadlılıq səviyyəsi, səhiyyə, xidmətlərin təklifi və icmaların siyasi iştirakçılığı kimi bir sıra sosial göstəricilərin yaxşılaşdırılması ilə bağlı vəzifələrin irəli sürülməsinə gətirib çıxarır. Eyni zamanda, ekoloji göstəricilər, yəni korporativ və hökumətin ekoloji auditi, şəhərlərdə havanın keyfiyyəti, tullantıların təkrar emalı  və s. insanın ətraf mühitə təsirini azaltmağa yönəlmişdir. İndiyədək davamlı inkişaf təşəbbüslərinin çoxunun nəticəsi birmənalı olmamışdır: məsələn, kiçik icmalardan gələn bir sıra təkliflər və yalnız bəzi göstəricilərin yaxşılaşdırılması kimi.

BMT komitəsinin  ekosistemlərin qiymətləndirilməsinə dair məruzəsində ümumi dəyərləndirmə təqdim edilmiş və yekun hissədə vurğulanmışdır ki, bəşəriyyət hələ də ətraf mühitə bərpa olunmayan ziyan vuraraq, öz imkanlarına uyğun olmayan tərzdə yaşayır (UN Millenium..., 2005). Məruzədə ayrıca qeyd olunub ki, planeti gələcək nəsillərin öz tələbatlarını ödəməsi üçün münasib vəziyyətdə qoymaq vəzifəsinin yerinə yetirilməsi mümkün deyil, qlobal bərabərsizlik və yetərsiz qidalanmanın səviyyəsinin iki dəfə azaldılması 2015-ci il üçün mümkün olmayacaq. Əslində, qlobal bərabər-

sizlik səviyyəsi artır, insanın təbiətə ziyanlı təsiri güclənir, hər il təqribən 1,8 milyon nəfər qeyri-adekvat gigiyena, antisanitariya və keyfiyyətsiz su ucbatından həyatını itirir. Bu faktlar çətin ki, "davamlı inkişaf" konsepsiyası və praktikasını dəstəkləyə bilər.

*Tənqidi məqamlar*

Davamlı inkişaf konsepsiyasının inklüzivliyi, güman ki, onun güclü tərəfidir, məhz onun açıqlığı hamıya davamlı inkişafa öz töhfəsini verməyə imkan yaradır. Ancaq o həm də ictimai diskursu qeyri-ardıcıl edə, hamıya güzəştə gedən və buna görə də real problemlərin həllinə az təsir göstərən ola bilər. Davamlı inkişaf üzrə demək olar ki, iyirmi beş illik təşəbbüs təcrübəsindən sonra ən ciddi və təxirəsalınmaz problemlərin həllində irəliləyişlər yetərsiz səviyyədə qalır. Ehtimal ki, davamlı inkişaf konsepsiyasının öz əvvəlki vədlərini yerinə yetirməməsinin səbəbi onun radikal məzmuna malik olmayıb, qısamüddətli layihələrin irəli çəkilməsi üçün dumanlı ideoloji pərdəyə çevrilməsidir. Qısası, davamlı inkişaf adlandırılan, əslində, "nə davamlı, nə də inkişafdır" (Luke, 2005).

Digərləri konsepsiyanın özünü tənqidə məruz qoyurlar: o, Qərb konservatizmindən və ekoloji siyasətindən nəşət almışdır, ona daha çox sənaye dünyasının əsas probleminə, yəni ətraf mühitin qorunması məsələsinə yönəlmə xasdır. İnkişaf etməkdə olan dünyanın isə əsas qayğısı yoxsulluğun aradan qaldırılmasıdır. Bu, Qərb dövlətləri tərəfindən oynanılan xoşagəlməz tamaşaya gətirib çıxarır. Onlar inkişaf etməkdə olan ölkələri tropik meşələr və mərcan riflərini mühafizə edə bilməməkdə sərt qınayır, ancaq özləri əvvəlki kimi resurslardan israfçılıqla istifadəyə davam edirlər. Əksinə, inkişaf etməkdə olan dövlətlər şikayətlənirlər ki, istixana qazlarının tullantılarına qoyulan limitlər zəngin ölkələr üçün "dəbdəbə tullantısı" olduğu halda (məsələn, şəxsi avtomobillərin qazı), inkişafda olan ölkələr üçün "sağ qalmaq naminə tullantıdır". Belə polemikalar onu göstərir ki, davamlılıq və inkişaf bir-birinə uyğun olmayan məqsədlər ola bilər.

*Aktuallığın davamı*

Davamlı inkişaf asanlıqla tənqid oluna bilən konsepsiyadır.

Onda müasir dövrün ən həllolunmaz problemlərinin utopik həllet mə cəhdi özünü tapıb. Ancaq davamlı inkişafı fasiləsiz proses kimi nəzərdən keçirmək daha yaxşıdır, məhz bu proses həqiqətən əhəmiyyətə malikdir. Bundan əlavə, davamlı inkişaf konsepsiyasının belə böyük sayda insana, dövlətlərə və qeyri-hökumət təşkilatlarına cəlbedici olan alternativi yoxdur. Onun ən ciddi tənqidi kənardan deyil, daxildən – konsepsiyanın tərəfdarlarından olmuşdur. Minilliklərin astanasında ekosistemlər haqqında "Biz imkanlarımıza uyğun yaşamırıq" adlı məruzə tərəqqinin zəifliyini göstərir və milli dövlətləri fəal hərəkətə səsləyirdi (UN Millenium..., 2005). Sərt daxili tənqid davam etdikcə davamlı inkişaf konsepsiyası, güman ki, öz üstünlüyünü saxlayacaqdır. Xüsusilə onun sənaye istehsalı və ətraf mühit üçün yan təsirlərini nəzərə aldıqda davamlı xarakter daşıya bilən iqtisadi inkişaf formalarından biri turizmdir. Lakin turizm özü də təbiətə təsir göstərir. Mbayva və Stronza (2009) inkişaf etməkdə olan ölkələrdə "ekoturizmin" inkişaf imkanlarını tədqiq edirlər. Ekoturizm üç prinsipə əsaslanır: iqtisadi effektivlik, sosial bərabərlik və ekoloji davamlılıq. Hazırda inkişaf etməkdə olan ölkələrdə turist biznesi xarici vətəndaşların əlindədir və onun gəlirləri iqtisadi inkişafa zəmin yaratmaqdan daha çox ölkə hüdudlarından çıxarılır. Tədqiqatın müəllifləri qeyd edirlər ki, Botsvananın Okavanqo deltası regionunda xarici turist biznezi üstünlük təşkil edir, gəlirin 71%-i isə inkişaf etmiş ölkələrə axıb gedir. Yerli sakinlər aşağı məvacibli işlərlə kifayətlənir, ekspatlar isə rəhbər vəzifələri tuturlar. Yerli sakinlərin yaşadığı mühit turistlərin sifarişinə uyğun dəyişdikcə, onlar ev və doğma yer hissini, yerli rəhbərlər isə tədricən resurslara nəzarəti itirirlər. Aydındır ki, ekoturizmin baza prinsiplərinin gerçəkləşməsi çoxsaylı çətinliklərlə qarşılaşır. Mbayva və Stronza məqalədə buna nail olmanın yollarını aydınlaşdırırlar.

*İstinadlar və ədəbiyyat*

Baker, S. (2015) Sustainable Development (2nd edn, London and New York:Routledge).

Luke, T. (2005) 'Neither Sustainable, Nor Development: Reconsidering Sustainability in Development', Sustainable Development, 13(4): 228–38.

Mbaiwa, J. E., and Stronza, A. L. (2009) 'The Challenges and Prospects for Sustainable Tourism and Ecotourism in Developing Countries', in T. Jamal and M. Robinson (eds), The Sage Handbook of Tourism Studies (London: Sage), pp. 333–53.

Meadows, D. H., et al. (1972) The Limits to Growth (New York: Universe Books).

Mill, J. S. ([1848] 1999) Principles of Political Economy with Some of their Applications to Social Philosophy (Oxford: Oxford University Press).

UN Millennium Ecosystem Assessment Board (2005) Living Beyond our Means:

Natural Assets and Human Well-Being (Washington, DC: Island Press); available at www.millenniumassessment.org/en/Board Statement.aspx.

World Commission on Environment and Development (1987) Our Common Future (Oxford: Oxford University Press) [Bruntland report].

## Ətraf mühit (Environment)

*İşçi tərif*

Ekoloji sosiologiyada Yer planetinin təbii mühitidir, yəni iqtisadi və ya biznes-mühiti - bir sözlə, insanın yaratdığı mühit deyildir.

*Anlayışın mənşəyi*

Əgər ətraf mühit dedikdə təbii mühit nəzərdə tutulursa, onda bu anlayış "təbiət" anlayışından fərqlənmir. "Təbiət" anlayışı mürəkkəb, uzun tarixə və bir sıra mənalara malikdir. Sosiologiyada çox zaman mədəniyyət və cəmiyyət anlayışları ilə qarşılaşdırılır. Cəmiyyətin mövcud olduğu təbii dünyanı təsvir etmək üçün "ətraf mühit" anlayışı nisbətən son dövrlərdə tətbiq olunur. Müasir "ətraf mühit" anlayışı bitki, heyvan və ekosistemin daxil olduğu təbii qüvvə və obyektlər haqqında təsəvvürləri cəmləşdirir. Bu anlayış müharibədən sonrakı dövrdə *(II Dünya müharibəsi - **red. A.H.**)* "tə-

biət" anlayışını əvəzləyərək, 1960-cı illərdə inkişaf etmiş ölkələrdə ekoloji fəallar və "yaşıllar" arasında geniş yayıldı. Ancaq "ətraf mühit" anlayışının mənşəyi öz-özlüyündə insan müdaxiləsindən (xüsusilə, sənayeləşmə və urbanizmin genişlənməsi zəminində) müdafiəni tələb etdiyi üçün o, əxlaqi status kəsb etməyə başladı. Ən geniş mənada ətraf mühit Yer planetinin özüdür və kosmik missiya peyklərinin göstərdiyi fotolar konseptin aydın və geniş yayılan simvolunu təqdim edir. "Ətraf mühit" anlayışı sosiologiyaya turş yağışlar (acid rains), qlobal istiləşmə, tullantılarla çirklənmə kimi mövzuların əhəmiyyəti artdıqca daxil oldu. Hazırda "ətraf mühit sosiologiyası" (environmental sociology) başlıca olaraq ABŞ-da peşə sahəsidir, Avropada isə "ətraf mühitin sosiologiyası"nın (sociology of environment) daha geniş sosial konstruktivist perspektivdə yer alması daha üstündür.

*Məna və interpretasiya*

Bir çox sosioloqlar bioloji konsepsiyaları sosial həyatın öyrənilməsinə tətbiq edən izahlara şübhə ilə yanaşırlar. Bu, ətraf mühitin öyrənilməsinin sosiologiya çərçivəsində qəbulunun nədən uzun müddət tələb etməsinin səbəblərindən biridir. Bəzilərinə görə, ətraf mühit problemləri bərabərsizlik, yoxsulluq, cinayətkarlıq və sağlamlıqla müqayisə olunarsa, o, sosiologiyanın "kənarında" qalmaqdadır. Digərlərinə görə isə "ətraf mühit" anlayışı sosiologiyanı daha geniş anlamda yenidən formalaşdıran risk, terrorizm və qloballaşmaya analoji olaraq sosiologiyanın yeni mərkəzi problemlərindəndir. Ətraf mühit-cəmiyyət münasibətlərinin öyrənilməsi həm sosial münasibətlər, həm də təbiət fenomenlərinin dərk olunmasını nəzərdə tutur, belə ki, ətraf mühit problemləri cəmiyyət və ətraf mühitin hibridi şəklində meydana çıxır (İrvin, 2001). Sosioloqların təbiət elmlərinin dəlillərinə baş vurmasını tələb edən neft tullantıları və havanın çirklənməsi, geni dəyişdirilmiş qidalar və qlobal istiləşmə məsələlərinə nəzər salsaq, bunu kifayət qədər aydın görə bilərik. Sosioloqlar bu problemlərin nədən narahatlıq doğurması və insanlar üçün hansı nəticələrə səbəb olacağını anlayana qədər onlardan bu mövzularda faydalı fikir bildirəcəklərini gözləyə bilmərik. Lakin ətraf mühit problemləri heç zaman tamamilə təbii mənşəli olmur,

belə ki, çox zaman onlar insan fəaliyyəti ilə əlaqədardır. Bu səbəbdən təbiət elmlərinin nümayəndələri ekoloji problemləri həll etmək istəyirlərsə, bu problemlərin sosial səbəblərini başa düşməlidirlər. Alimlər tərəfindən ən ciddi ekoloji problem kimi nəzərdən keçirilən qlobal istiləşmənin irimiqyaslı sənaye istehsalının və müasir həyat tərzinin nəticəsi olduğu geniş şəkildə qəbul olunub.

Ekoloji problemlərlə məşğul olan sosioloqlar iki cəbhəyə ayrılıb. Birinci qrup - sosial konstruktivistlər ekoloji problemlərin "təbii" aspektlərini qəbul etmirlər və problemlərin ekoloqların, ekoloji fəalların göstərdiyi qədər ciddi olub-olmamasına aqnostik mövqedədirlər. Bunun səbəbi sosioloqların bir çox hallarda təbiət elmləri sahəsində peşəkar hazırlığının olmaması, buna görə təbiətşünas alimlərlə inandırıcı debat apara bilməməsidir. Sosial konstruktivistlər ekoloji problemlərin tarixi və sosiologiyasını tədqiq edir və geniş ictimaiyyəti onları nəzərdən keçirməyə hazırlayırlar.

İkinci cəbhədə ekoloji sosioloqlar və tənqidi realistlər yerləşir. Əgər ekoloji problemlər realdırsa və təhlükəlidirsə, onları həll etmək üçün sosial və təbii səbəbləri anlamaq lazımdır. Tənqidi realistlər (xüsusilə, Böyük Britaniyada) qeyd edirlər ki, ekoloji problemləri yaradan mexanizmləri izah etmək üçün sosioloqlar hadisənin mahiyyətini üzə çıxarmalıdırlar. Atmosferdə karbon qazının konsentrasiyası getdikcə daha çox Günəş enerjisinin qarşısını alacaq səviyyəyə çatdıqda, Yer səthinin temperaturu artır və biz təhlükəli nəticələrə malik təbii proseslərin meydana çıxmasının şahidi oluruq. Lakin bu təbii proseslər uzunmüddətli insan fəaliyyətinin nəticəsidir. Ona görə də hansı növ insan fəaliyyətinin bu proseslərin səbəbi və ya daha az asılı olmasını, hansının isə nəticəsi olmasını dəqiq müəyyən etmək lazımdır. Realistlər hesab edirlər ki, biz bu problemlərə münasibətdə aqnostik ola bilmərik.

*Tənqidi məqamlar*

"Ətraf mühit" anlayışının sosiologiyaya daxil edilməsinin qəbulu problemli oldu. Əgər sosioloqlar təbiətşünasların ekoloji problemlərə dair biliklərinə söykənməlidirlərsə, bu, sosiologiyanın tələb etdiyi tənqidi yanaşmaya xələl gətirmirmi? Sosial və təbiət elmlərinin istifadə etdiyi nəzəriyyə, metod və verilənlərin fərqliliyini nəzə-

rə alsaq, bu elm nümayəndələrinin birgə fəaliyyətə qadir olduğunu güman edə bilərikmi? Bir çox sosioloqların təbiət elmlərinə xas fundamental realizmə zidd olan sosial-konstruktivist yanaşmaya söykəndiyini nəzərə alsaq, hazırkı dövr üçün ən mümkün ssenari belədir: sosioloqlar öz-özlüyündə ekoloji problemləri deyil, bu problemlərə dair elmi bilik istehsalına cəlb olunan sosial qarşılıqlı təsir və prosesləri öyrənirlər.

*Aktuallığın davamı*

Ekoloji problemlərin əhəmiyyətini qiymətləndirmək üçün sosioloqlara müəyyən vaxt lazım oldu. Bu sahədə onlar ekoloji fəallar və ekoloqlardan kifayət qədər geri qalıblar. Ətraf mühit – kifayət qədər mübahisəli anlayışdır və çətin ki nə vaxtsa onun hamı tərəfindən qəbul ediləcək tərifi müəyyən olunacaqdır. Buna baxmayaraq, bizim cəmiyyət və təbiət arasındakı qarşılıqlı münasibətlərə dair biliklərimizi zənginləşdirən sosioloji tədqiqatlar və ətraf mühit nəzəriyyələri artmaqdadır. Qlobal iqlim dəyişikliyi, davamlı inkişaf təşəbbüsləri, ərzaq istehsalı üsulları və enerji qənaətinə artan maraq – bütün bunlar geniş ictimai rezonans qazandığından sosioloqlar bu məsələləri öz problem sahəsinə daxil etməlidirlər ki, yeni nəsil tələbələr üçün fənnin aktuallığını təmin edə bilsinlər.

Lever-Treysi (2008) hesab edir ki, daha rahat olan sosial konstruktivizmə üstünlük verərək, sosiologiya təbiət elmlərinin arqumentlərinə böyük şübhə ilə yanaşıb və bu səbəbdən ekoloji problemlərin (xüsusilə qlobal istiləşmənin) inteqrasiyasına qarşı mübarizə aparmışdır. Ancaq o hesab edir ki, qlobal istiləşməni sosiologiyanın mərkəzi probleminə çevirmək, sosioloqlara isə fənnlərarası yanaşmaya yönəlmək lazımdır. Bu, ona görə vacibdir ki, qlobal istiləşmənin öyrənilməsi, onun nəticələrinin zəiflədilməsi səylərinin və karbon qazı ilə çirklənmənin azaldılması təbiətşünas və sosial sahədə çalışan alimlərin birgə işini tələb edir. Lever-Treysiyə cavab verən Qrundman və Ster (2010) ekoloji problemlərə konstruktivist yanaşmanı müdafiə edirlər. Onlar hesab edirlər ki, konstruktivizm sosioloqlara siyasi debatlardan uzaq durmağa və elmi nəticələrə balanslaşdırılmış sosial mövqeni gətirməyə imkan verir.

*İstinadlar və ədəbiyyat*

Bell, M. M. (2015) An Invitation to Environmental Sociology (5th edn, Thousand Oaks, CA: Sage).

Dunlap, R. E. (2002) ‘Paradigms, Theories and Environmental Sociology’, in F. H. Buttel, P. Dickens and A. Gijswijt (eds), Sociological Theory and the Environment: Classical Foundations, Contemporary Insights (Lanham, MD: Rowman & Littlefield), pp. 329–50.

Grundmann, R., and Stehr, N. (2010) ‘Climate Change: What Role for Sociology? A
Response to Constance Lever-Tracy’, Current Sociology, 58(6): 897–910.

Irwin, A. (2001) Sociology and the Environment: A Critical Introduction to Society, Nature and Knowledge (Cambridge: Polity).

Lever-Tracy, C. (2008) ‘Global Warming and Sociology’, Current Sociology, 56(3): 445–66.

Sutton, P. W. (2007) The Environment: A Sociological Introduction (Cambridge: Polity).

## Miqrasiya (Migration)

*İşçi tərif*

İnsanların XX əsrdə geniş yayılan və adi hal alan, əsasən milli dövlət sərhədlərindən keçməklə bir coğrafi regiondan digərinə olan hərəkətidir.

*Anlayışın mənşəyi*

Bəşər tarixi boyu insanlar bir regiondan digərinə hərəkət edib, insan növünün bütün planetə yayılması, ilk növbədə, məhz bu fenomenlə bağlıdır. Müasir dövrdə isə şəhərlərdə kənd əhalisinin işə düzəlməsi üçün yeni imkanlar yarandıqca sənayeləşmə ayrı-ayrı ölkələrin daxilində miqrasiya axınının istiqamətini dəyişirdi. Eyni zamanda, işəgötürən və əmək bazarlarının işçi qüvvəsinə tələbatı ölkələrarası miqrasiyanın artmasına zəmin yaratdı. 1930-1940-cı illərdə nasistlərin milli azlıqları təqib etməsi bir çox Şərqi Avropa yəhudilərinin Qərbi Avropaya üz tutmasına gətirib çıxardı. Bu, miqrasiyanın çox vaxt məcburi olmasına nümunədir. Miqrasiya

müxtəlif etnik qrupların qarışmasına və etnik cəhətdən yekcins olmayan cəmiyyətlərin meydana çıxmasına zəmin yaradır. Avropa inteqrasiyası gedişində insanların sərbəst hərəkətinə mane olan bir sıra baryerlər aradan qalxdı, bu isə regional miqrasiyanı əhəmiyyətli dərəcədə artırdı. İrimiqyaslı miqrasiya olduqca müxtəlif səbəblərdən qaynaqlana bilər və miqrasiya nəzəriyyələri bunu nəzərə almalıdırlar.

*Məna və interpretasiya*

İmmiqrasiya ölkəyə daha sonra orada yaşamaq üçün daxil olmaq, emiqrasiya isə başqa bir yerdə məskunlaşmaq üçün ölkədən çıxmaqdır. İmmiqrasiya və emiqrasiyanın tədqiqi "mənbə ölkə" ilə "məqsəd ölkə" arasındakı miqrasiya patternlərinin müəyyənləşdirilməsi, habelə bu patternlərdəki dəyişikliklərin miqrasiya proseslərinə cəlb olunan fərd, icma və cəmiyyətlər üçün nəticələrinin öyrənilməsidir. Qlobal miqrasiyanın İkinci Dünya müharibəsindən başlayan intensivləşməsi və son onilliklərdə xüsusilə geniş vüsət alması onu bütün dünya üçün mühüm siyasi problemə çevirdi. Miqrasiya yeni fenomen deyil, lakin o, müasir dövrdə olduqca güclənib və qloballaşmanın inteqrasiya proseslərini sürətləndirib. Bu dəyişikliklər bəzi mütəxəssislərə hazırkı dövrü "miqrasiya dövrü" adlandırmağa zəmin yaradıb. Məsələn, 1989-cu ildə Şərqi Avropanın kommunist rejimlərinin süqutundan sonra Avropa "yeni miqrasiya" dövrünü yaşadı. Sərhədlərin açılması 1989-1994-cü illərdə bir neçə milyon insanın miqrasiyasına gətirib çıxardı. Bununla yanaşı, Yuqoslaviyadakı müharibə və etnik münaqişə beş milyona yaxın qaçqının Avropanın digər regionlarına üz tutmasına səbəb oldu. Son illərdə baş verən İraq və Suriya münaqişələri, ilk növbədə, Avropa İttifaqı ölkələrində sığınacaq axtaran insanların sayının artmasına gətirib çıxardı. Dövlətlər dağıldıqca "mənbə" və "məqsəd ölkələri" arasındakı sərhədin yoxa çıxması ilə miqrasiya patternləri əhəmiyyətli dərəcədə dəyişikliyə məruz qaldı.

1945-ci ildən başlayaraq, əhalinin qlobal yerdəyişməsini xarakterizə etmək üçün dörd modeldən istifadə etmək olar (Castles et al. 2013). ABŞ və Avstraliya "klassik modelə" uyğun gəlir. Bu ölkələrdə cəmiyyət immiqrasiyanın fəal olaraq həvəsləndirilməsi və

yeni miqrantların tamhüquqlu vətəndaş olması ilə formalaşırdı. Ancaq immiqrasiya məhdudiyyətsiz olmur, bir qayda olaraq, məhdudiyyətlər ölkəyə daxil olmasına icazə verilən miqrant sayının müəyyənləşdirilməsi vasitəsilə həyata keçirilir. Alternativ “kolonial modeli” Böyük Britaniyada müşahidə etmək olar, burada müxtəlif dövrlərdə əmək bazarının tələbini ödəmək üçün koloniyalardan miqrasiya dəstəklənirdi. Hindistan və Yamayka kimi Britaniya Birliyi ölkələrindən 1950-ci illərdə olan immiqrasiya buna ən yaxşı nümunədir. Üçüncü model “qonaq işçilər modeli”dir (“guest workers model”). Bu, sırf əmək bazarının tələblərinə uyğun qısamüddətli immiqrasiyanın stimullaşdırılmasıdır. Almaniya və Belçikada qəbul olunmuş bu model kolonial modeldən fərqli olaraq, miqrantlara ölkədə yaşadığı müddətdən asılı olmayaraq, vətəndaş olmağa imkan vermir. Dördüncü model isə qeyri-leqal immiqrasiyanın bütün formalarını əhatə edir. Son illərdə onun əhəmiyyəti zəngin ölkələrin miqrasiya siyasətinin sərtləşməsi ilə əlaqədar olaraq nisbətən artmışdır. Qloballaşma prosesləri ideya, informasiya və insan hərəkətinin daha dəyişkən olmasını şərtləndirmişdir.

Miqrasiya patternlərinin təsviri nəzəriyyələrində cəlbedici və itələyici amillər üstünlük təşkil edir. Münaqişə, müharibə, aclıq və siyasi basqı kimi itələyici amillər insanları emiqrasiyaya məcbur edir və ya itələyir. İnkişaf etmiş əmək bazarı, işədüzəlmə imkanları, münasib həyat şərtləri və ölkədəki siyasi təşfiq yeni immiqrantları özünə cəlb edir. Son zamanlar belə modellər həddən artıq sadələşdirilmiş hesab olunur, çünki miqrasiya patternləri getdikcə daha az nizamlı və daha qlobal olmaqdadır. Alternativ kimi mikro- və makroamillərin əlaqəsini göstərmək olar. Məsələn, makrosəviyyədə yeni miqrasiya çərçivələrini müəyyənləşdirən qanunvericilik dəyişikliklərinə, siyasi vəziyyət və regional blokların formalaşmasına (Avropa Birliyi kimi) baxmaq olar. Daha sonra isə insanlar üçün gəlirin əhəmiyyətliliyi, onların başqa ölkələr haqqında məlumatlılığı, mövcud ailə bağları kimi mikrosəviyyə amilləri ilə əlaqəni izləmək olar. Bu yolla konkret miqrasiya hallarının daha inandırıcı və əsaslandırılmış izahlarını formalaşdırmaq mümkündür.

*Tənqidi məqamlar*

Miqrasiya nəzəriyyələrinin tənqidçilərinə görə, bu nəzəriyyələrin çoxu əvvəlki konvensional baxışdan uzaqlaşa və yeni nəzəri yanaşma – mobilliyin tədqiqi ilə əlaqələnə bilməyib (Urry, Sheller, 2004). Miqrasiya patternlərinin əksər tədqiqatları dövlət mərkəzli olaraq, daha çox ölkələr arasındakı yerdəyişməyə diqqət yetirir, regional axınlar və geniş şəhərləşmə əraziləri daxilindəki yerdəyişmələr isə diqqətdən kənarda qalır. Yeni miqrasiya patternləri həm də milli dövlətə loyallıqdan bəhrələnən vətəndaşlıq və identiklik kimi konvensional anlayışlar üçün çağırışdır və möhkəmlənmiş mövqelərə sadiq nəzəriyyələr üçün yeni problemlər yaradır. Ancaq yuxarıda qeyd olunduğu kimi, bəzi yeni tədqiqatlar potensial çatışmazlıqları aradan qaldırmağa başlayıblar.

*Aktuallığın davamı*

Güman ki, miqrasiyanın tədqiqi bu fenomenin indiki miqyası, sürəti və əhatəsi ilə əlaqədar olaraq, sosiologiyanın əsas sahəsinə çevrilir. Sosioloqlar əvvəlki dövrlərlə müqayisədə yeni miqrasiya patternlərinin konturlarını cızıb, onların tendensiyalarını təsvir etməlidirlər (məsələn, sərhədləri keçməklə baş verən miqrasiyanın sürətlənməsi və diversifikasiyası; bir çox ölkələrə immiqrantlar müxtəlif yerlərdən gəlir). Miqrasiyanın qloballaşması (getdikcə daha çox ölkə insanların yerdəyişmə prosesinə həm “mənbə”, həm də “məqsəd” ölkəsi kimi cəlb olunur) və feminizasiyası (miqrantlar arasında qadınların sayı artır, bu isə əvvəlki patternlərdən fərqlənir) meyilləri mövcuddur (Castles et al. 2013). Çox güman ki, miqrasiyanın səviyyəsi artacaq, qadın miqrantlar daha çox olacaq, ölkələr isə daha fərqli tərkibli immiqrant qrupları ilə qarşılaşacaqlar. Bu da vacibdir ki, miqrasiya qloballaşan dünyamızın “normal” cəhətinə çevrilir. Hökumətlər və beynəlxalq təşkilatlar miqrasiya axınlarını idarə etməyin yeni yaradıcı üsullarını tapmalı olacaqlar.

Miqrasiyanın tədqiqində müxtəlif ölkələrin tematik öyrənilməsi faydalı ola bilər. Yaxşı nümunə kimi Robert Vinderin (2004) Britaniya immiqrasiya tarixinə dair işini göstərmək olar. Geniş tarixi perspektivi təklif edərək, Vinder ölkəyə və ölkədən olan miqrasiyanın müasir dövrə qədər tarixini təqdim edir. O, yada salır ki, miq-

rantlar çox zaman kəskin azadlıq hissinə və sərgüzəştlərə meyilliliyə malik, riskə gedən sahibkarlar olurlar. Bu tarixdə Britaniyadan miqrasiya da əhəmiyyətli yer tutur. Kitabın əsas ideyası Britaniyanın (bu, bir çox digər ölkələrə də aiddir) dərin səviyyədə immiqrantlarla məskunlaşmasıdır.

"Həyat üslubunun miqrasiyası" adlanan, nisbətən zəngin insanlar arasında yayılmış fenomenə həsr olunan tədqiqatda Benson və O'Reilli (2009) daha yaxşı həyat naminə başqa ölkəyə köçmək ideyasını tədqiq edir. Miqrasiya bəzilərinə alternativ və daha sadə həyat tərzi, digərlərinə özünü yenidən formalaşdırmaq və ya ağır həyat təcrübəsindən qaçmaq imkanı verir. Bu tip tədqiqatlar bir qədər qeyri-tipik olsa da, müəlliflər həyat üslubunun miqrasiyasını zəngin təbəqələrin nəzər nöqtəsindən tədqiq edərək, miqrasiya qərarını bütövlükdə həyat yolu kontekstinə yerləşdirirlər. Belə yanaşma miqrasiyanın digər tiplərinin öyrənilməsində də məhsuldar olar bilər.

Miqrasiya heç də həmişə könüllü seçim deyildir. Çox zaman buna insan alveri və köləliyi səbəb olur, hansı ki, bu halların tamamilə aradan qaldırıldığı qeyd olunurdu. Maskinin (2010) qısa tarixi icmalı göstərir ki, insan alverinin əsas hissəsi əhalinin dünyanın daha yoxsul bölgələrindən məcburi əmək və cinsi istismar məqsədilə çıxarılmasıdır və bu, mütəşəkkil beynəlxalq cinayətkarlığın nəzarətindədir. Maskinin tədqiqatı insan alveri ilə mübarizə və onun qarşısının alınması üçün dünya üzrə hökumətlərin yetərincə iş görüb-görməməsini sual altına qoyur. Tədqiqat inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə bu məsələ üzrə müasir diskussiyaları əhatə edir və bu, onun tələbələr üçün faydalı cəhətidir.

*İstinadlar və ədəbiyyat*

Benson, M., and O'Reilly, K. (2009) 'Migration and the Search for a Better Way of Life: A Critical Exploration of Lifestyle Migration', Sociological Review, 57(4): 608–25.

Castles, S. (2007) 'Twenty-First Century Migration as a Challenge to Sociology', Journal of Ethnic and Migration Studies, 33(3): 351–71.

Castles, S., de Haas, H., and Miller, M. J. (2013) The Age of Migration: International Population Movements in the Modern World

(5th edn, Basingstoke: Palgrave Macmillan).

Masci, D. (2010) 'Human Trafficking and Slavery: Are the World's Nations Doing Enough to Stamp it Out?', in Issues in Race, Ethnicity, Gender and Class: Selections from CQ Researcher (Thousand Oaks, CA: Pine Forge Press), pp. 25–46.

Urry, J., and Sheller, M. (eds) (2004) Tourism Mobilities: Places to Play, Places in Play (London: Routledge).

Winder, R. (2004) Bloody Foreigners: The Story of Immigration to Britain (London: Little, Brown).

## Özgələşmə (Alienation)

*İşçi tərif*

İnsanın öz təbiətinin mahiyyət əhəmiyyətli bəzi aspektlərindən və ya cəmiyyətdən ayrılması/uzaqlaşmasıdır. Bu da çox zaman gücsüzlük və köməksizlik hissinin yaranmasına gətirib çıxarır.

*Anlayışın mənşəyi*

Sosiologiyada "özgələşmə" termininin istifadəsi Karl Marksın kapitalizmin sosial münasibətlərə təsir mexanizmləri və insanın öz həyatı üzərində nəzarəti itirməsinə dair erkən ideyaları ilə bağlıdır. Marks özü xristianlığın Lüdviq Feyerbax tərəfindən fəlsəfi tənqidi ilə təsirlənmişdi. Xristianlıq özünün hər şeyə qadir, hər şeyi bilən Tanrısı və yalnız ölümdən sonra başqa dünyada əlçatan olan xilas ideyasının qəbul edilməsi ilə əslində insani olan qüvvənin ruhi varlığa proyeksiyası idi. Feyerbax hesab edirdi ki, belə bir proyeksiya insan qüvvələrinin özgələşdirilmə, uzaqlaşdırılma və ya mistifikasiya formasıdır, bunu ifşa etmək və aradan qaldırmaq lazımdır.

Marks ((1844) 2007) "özgələşmə" anlayışını dini kontekstdən çıxararaq, ondan sekulyar kapitalist sənaye cəmiyyətlərində əmək və həyat şərtlərinin təhlili üçün istifadə edirdi. Marksa görə, insanın xilası cəmiyyət həyatının bütün aspektləri üzərində nəzarətin fəhlə kütlələrini istismar edən azsaylı hakim sinfin əlindən qoparılmasındadır. Müəyyən dini inanclar ideoloji nəzarətin bir hissəsi idi və fəhlələri ölümdən sonra əsl xilası təmin edəcək qisməti qəbul etmə-

yə çağırırdı. XX əsrdə sənayeni öyrənən sosioloqlar öz empirik tədqiqatlarında “özgələşmə” anlayışını müxtəlif idarəetmə sistemlərinin istehsal münasibətlərini tədqiq etmək üçün istifadə edirdilər. Bu tədqiqatlar Marksın erkən əsərlərindən fərqli olaraq, daha çox sosial-psixoloji xarakter daşıyırdı.

*Məna və interpretasiya*

“Özgələşmə” anlayışı sosioloji diskursdan müasir mediaşərhlər və güzaran dilinə keçmişdir. Məsələn, belə bir fikir eşitmək olar ki, bütövlükdə bir nəsil cəmiyyətdən özgələşir və ya gənclərin özlərini submədəniyyətlərə aid etmələri onların hakim dəyərlərdən özgələşməsi deməkdir. Bu nümunələrdə uzaqlaşma və ayrılma ideyası aydın olsa da, sosiologiyada özgələşmə, ilk növbədə, kapitalist cəmiyyətlərindəki bərabərsizliklə assosiasiya olunur. Marksın tarixi-materialist yanaşması insanların istehsal və sağ qalmaq üçün birgə həyatı necə təşkil etməsindən başlayır. Marksa görə, özgələşmə real nəticələrə gətirib çıxaran obyektiv şərtlərdə olmaqdır. Bu şərtlərin dəyişdirilməsi təfəkkür tərzi və ya inamların dəyişməsi deyil, mövcudluq üsulunun özünün dəyişilməsi, şərtlərə nəzarəti əldə etməkdən ibarətdir. Belə görünə bilər ki, əvvəlki tarixi dövrlərdə əmək daha böyük fiziki səy tələb edirdi və daha yorucu idi. Ancaq bir sıra sosial qruplar (məsələn, kəndlilər və sənətkarlar) üçün onların əməyi bilik və bacarıqları nəzərdə tuturdu. Bu isə öz-özlüyündə məmnunluq hissi yaradırdı. Bundan əlavə, belə əmək o zamankı işçilərə indiki müasir müəssisələrdən, böyük ofislərdən, çağrı mərkəzlərindən və “fast-fud” restoranlarındakından daha çox öz əmək prosesinə nəzarət etməyə imkan verirdi. Bu gün isə əmək əvvəlkindən daha az fiziki səy tələb edir, lakin ona nəzarət etmək daha da mürəkkəbləşir, bu isə öz növbəsində özgələşmənin səviyyəsini artırır.

Marksın nəzəriyyəsində kapitalist münasibətlərinin dörd əsas sahədə özgələşmə yaratdığı güman edilir. Fəhlələr özlərinin *işçi qüvvəsindən* özgələşir, çünki onlar işəgötürənin müəyyən etdiyi vəzifələri yerinə yetirməyə məcburdurlar. Onlar *əmək məhsulundan* özgələşirlər, belə ki, bu məhsul kapitalistlər tərəfindən mənimsənilir və gəlir əldə etmək üçün satılır, fəhlələr isə yalnız onun müəy-

yən hissəsini əməkhaqqı kimi alırlar. Fəhlələr həm də bir-birindən özgələşir, belə ki, kapitalizm onları iş yerlərinə görə, müəssisə və regionları isə bazarda tuta biləcəkləri yerlərə görə rəqabət aparmağa məcbur edir. Nəhayət, Marks hesab edir ki, əmək insanın mahiyyət xarakterli xüsusiyyəti olduğundan öz əməyindən özgələşmə insanın öz "növünə xas mahiyyətindən" özgələşməsi deməkdir. Beləliklə, əmək heç bir məmnunluq hissi gətirmir, sağ qalmaq üçün məvacib almaq vasitəsinə çevrilir. "Əmək" haqqında təsəvvürlər də neqativ məna kəsb etməyə başlayır və daha xoş "istirahət" sferasından ayrılır. Marks özgələşmə probleminin həllini kapitalist istismarı münasibətlərinin məhvi və kommunizmə doğru hərəkatda görürdü. Bunun sayəsində istehsal prosesinə kollektiv nəzarət və özgələşmənin aradan qaldırılması təmin olunacaqdı.

*Tənqidi məqamlar*

Marksın tezisi mücərrəd xarakterinə, onun ümumi sosial nəzəriyyəsi və inqilabi nəticələrlə əlaqəsinə baxmayaraq, sosiologiyaya ciddi təsir etmişdir. Sosioloqlar "özgələşmə" anlayışını empirik tədqiqatlarda daha faydalı etmək üçün onu bu əlaqədən ayırıblar. Nəticədə əmək şərtləri və idarəetmə rejimlərinin fərqi ilə şərtlənən özgələşmənin səviyyələrini müqayisə etmək mümkün olub. XX əsr ərzində "özgələşmə" anlayışından istifadə etmə cəhdləri olmuşdur. Buna nümunələrdən biri kimi Robert Blaunerin "Özgələşmə və azadlıq" (1964) əsəridir. Əsərdə sənayenin dörd sahəsi üzrə əmək şərtlərinin özgələşdirici effektinin müqayisəli təhlili aparılmışdır. Blauner fəhlələrin özgələşməsinin əsas aspektlərini - gücsüzlük, mənasızlıq, izolyasiya və özünüuzaqlaşdırmanı necə yaşaması ilə maraqlanırdı. O, belə qənaətə gəldi ki, bir sıra işəgötürmə növlərində bu aspektlərin hər birini ölçmək, hansı iş növünün ən yüksək, hansının isə ən aşağı özgələşmə səviyyəsini yaratdığını qiymətləndirmək mümkündür. Blauner aşkar etdi ki, xüsusilə konveyer istehsalında olan yeknəsək zavod işi özgələşmənin ən yüksək səviyyəsini yaradır. Ancaq istehsal xətləri avtomatlaşdırıldıqdan sonra özgələşmə səviyyəsi aşağı düşdü, belə ki, avtomatlaşdırma işçilərə öz əməyinə daha çox nəzarət etməyə imkan verdi. Blaunerin tədqiqatının nəticələri texnologiyaların insanı əvəzlədikcə işçi qüvvəsinin

dekvalifikasiyasını qaçılmaz hesab edən standart marksist nəzəriyyələrə ziddir. Blaunerin özgələşmə nəzəriyyəsinə subyektiv perspektivi daxil etməsi yenilikçi və empirik cəhətdən məhsuldar addım idi. Bunun sayəsində fəhlələrin baxış və təcrübəsi də özgələşmənin sosioloji nəzəriyyəsində özünə yer tapdı. Blauner həm də kapitalizmi dağıtmadan belə özgələşmənin azaldılmasının mümkünlüyünü göstərdi.

*Aktuallığın davamı*

"Özgələşmə" anlayışını sosiologiyada daha geniş şəkildə istifadə etmək cəhdlərinə baxmayaraq, o, marksizmlə ayrılmaz əlaqədə qavranılır. 1989-cu ildə marksist rejimlərin nominal olaraq iflasa uğramasından, marksist inqilab nəzəriyyəsinin isə öz mövqeyini itirməsindən sonra bu anlayışın gələcək aktuallığı şübhə doğurur. Ancaq yapon idarəetmə praktikalarının tədqiqi həm də onu nəzərdə tuturdu ki, işçi qrupların və kollektiv qərar qəbulunun istifadəsi işçilərin özgələşməsini azaldır və əmək münasibətlərini yaxşılaşdırır. "Özgələşmə" anlayışının digər sahələrdə də istifadə cəhdləri olmuşdur. Bu isə onun yeni yüzillikdə yenidən canlandırılmasına xidmət edə bilər.

Smit və Bom (2008) kriminologiyada Dürkheymin "anomiya" anlayışının geniş istifadəsinə qarşı çıxır və qeyd edirlər ki, özgələşmə daha həcmli və faydalı perspektivə malikdir. Onlar hesab edirlər ki, anomiya nəzəriyyəsi üçün mərkəzi ideya normanın olmamasıdır, ancaq o, özgələşmə nəzəriyyəsinin sadəcə beş ölçüsündən biridir. Digər dördü isə - gücsüzlük, mənasızlıq, izolyasiya və özünükənarlaşdırma, adətən, kriminologiyanın diqqətindən kənarda qalır. Bu, ona gətirib çıxarır ki, kriminologiya cinayətkarlığa nəzarətə həddən artıq yaxın olaraq qalır və cinayi davranışı izah edə bilmir. Smit və Bom güman edirlər ki, "özgələşmə" daha inteqrativ anlayışdır və kapitalist sosial strukturunun özgələşdirici təsirlərinin azaldılmasının daha effektiv üsullarını tapmaq imkanlarını açır.

Yuil (2005) analoji olaraq özgələşmə nəzəriyyəsinin sağlamlığa tətbiqini nəzərdən keçirir. Bir qayda olaraq, səhiyyə sosioloqları özgələşmə və sağlamlıq arasındakı əlaqəyə diqqət yetirmirlər. Bu, qəribə görünür, belə ki, Marksın orijinal nəzəriyyəsinə görə,

kapitalist iqtisadiyyatının istismarçı və özgələşdirici şərtləri insanın rifah və sağlamlığı da daxil olmaqla, onun mövcudluğunun maddi, emosional və cismani aspektlərinə təsir edib, onu formalaşdırır. Yuil anlayışın Marksa görə təyinini qəbul edir və səhiyyə sosiologiyasının bir sıra məsələlərini özgələşmə prizmasından nəzərdən keçirir.

İstinadlar və ədəbiyyat

Archibald, W. P. (2009) 'Marx, Globalization and Alienation: Received and Underappreciated Wisdoms', Critical Sociology, 35(2): 151–74.

Blauner, R. (1964) Alienation and Freedom: The Factory Worker and his Industry (Chicago: University of Chicago Press).

Marx, K. ([1844] 2007) Economic and Philosophic Manuscripts of 1844, ed. and trans. Martin Milligan (Mineola, NY: Dover).

Smith, H. P., and Bohm, R. M. (2008) 'Beyond Anomie: Alienation and Crime', Critical Criminology, 16(1): 1–15.

Yuill, C. (2005) 'Marx: Capitalism, Alienation and Health', Social Theory and Health, 3: 126–43.

## Risk (Risk)

*İşçi tərif*

Ulrik Bekə görə, potensial təhlükələrdən uzaqlaşmaq və ya onları azaltmaq cəhdidir. Bu, xüsusilə süni olaraq insan tərəfindən yaradılmış risklərə aiddir.

*Anlayışın mənşəyi*

"Risk" termini güzəran həyatından götürülmüş və sosioloji konsepsiya kimi sosial dəyişikliklərin daha geniş nəzəriyyəsi olaraq istifadə edilmişdir. Risklərin qəbul edilməsi və məmnunluq gətirən riskli məşğuliyyətlərə (məsələn, ekstremal idman növləri) maraq bir çox insanın təhlükə elementini ehtiva edən gündəlik həyatının bir hissəsidir. Bu hərəkətlərin əksəriyyəti əvvəlcədən nəzərə alınan risklərdir, belə ki, bu hərəkətlərin maksimal dərəcədə təhlükəsiz həyata keçirilməsi üçün səy göstərilir. Bu və ya digər fəaliyyət istiqa-

mətinin müsbət və ya mənfi cəhətlərini qiymətləndirmək, müvəffəqiyyət ehtimalını müəyyənləşdirmək və onunla bağlı maliyyə və digər təhlükələri minimallaşdırmaq üçün biznes, hökumətlər və könüllü təşkilatlar xüsusi risk dəyərləndirməsi təlimindən istifadə edirlər.

Sosioloqlar "risk" anlayışından istifadə edəndən bəri o, daha geniş xarakter daşıyır. Hazırda insanlar sənaye cəmiyyətlərində modernizmin ziyanlı aspektləri üzərində düşündükcə diqqəti daha da güclənmiş sosial şərtlərə yönəldirlər. Ulrik Bek (1992) və Entoni Giddens (1991) müasir cəmiyyətlərin dərk olunması üçün böyük əhəmiyyətə malik risk nəzəriyyəsinin formalaşmasına mühüm təsir göstərmişlər. "Risk" anlayışı səhiyyə, cinayətkarlıq, deviantlıq, ətraf mühit və sosial nəzəriyyə daxil olmaqla geniş tədqiqat sahələrinə sirayət etmişdir.

*Məna və interpretasiya*

"Risk" yeni fenomen deyil. İnsan həmişə təbii fəlakətlər, yanğın, bədbəxt hadisə və başqaları tərəfindən zorakılıq kimi müxtəlif təhlükələrlə üzləşmişdir. Ancaq sosioloqlar qeyd edirlər ki, indiki qlobal istiləşmə, nüvə silahının yayılması kimi artan təhlükə riskləri təbii və insan nəzarətindən kənar deyildir. Bunlar daha çox süni risklərdir, sənaye istehsalında elmi biliklərin tətbiqinin, texnoloji irəliləyişin planlaşdırılmamış nəticəsidir.

Gündəlik həyatda qəbul edilən bir sıra qərarlar da risk və qeyri-müəyyənliklə bağlıdır. Bir çox insannın peşə həyatı qısamüddətli müqavilələr, müntəzəm olmayan məşğulluq, təhlükəsizliyin olmaması ilə səciyyələnir, bununla yanaşı, insanların identikliyi əvvəlki qədər ənənəvi mənbələrə (ailə və icma kimi) köklənməyib. Nəticədə meydana çıxan qeyri-müəyyənliklər eyni zamanda həm imkan, həm də riskdir. Belə ki, fərdlər əvvəlkindən daha çox dərəcədə öz rersurslarına güvənməyə və onlar üçün əlçatan olan məlumat "topası" əsasında qərar qəbul etməyə məcburdurlar. Nikah həmişə nisbətən sadə məsələ, həyat yolunun mərhələsi və yetkin seksuallığın stabilləşdirilməsi vasitəsi olub. İndi bir çoxları nikaha girmədən birgə yaşayır, boşanma səviyyəsi, o cümlədən növbəti nikah səviyyəsi yüksəkdir. İnsanlar riskləri, artan qeyri-müəyyənlik şərai-

tini qiymətləndirməyə məcburdurlar. Məhz bu səbəbdən risk konsepsiyası sosioloji diskursa və insanların gündəlik həyatına daxil olub (Arnoldi 2009).

Son iyirmi il ərzində çoxsaylı terror hücumları icmaların təhlükəsizliyi və hökumətlərin öz vətəndaşlarını qorumaq qabiliyyəti haqqında təsəvvürləri dəyişdi. İndi hava limanında sərnişinlərin qurbana çevrilmək riskinin azaldılması üçün daxili uçuşlara minik belə bir sıra təhlükəsizlik tədbirlərini (o cümlədən, bədən skanını) nəzərdə tutur. Müasir həyat tərzinin məhsulu olan risklər bizi yeni seçimlər və çağırışlar, həmçinin yeni qərar qəbulu zərurəti qarşısında qoyur. Hətta sadə görünən və qida ilə bağlı qərarlar belə bu və ya digər ərzaqların üstün, yaxud çatışmayan cəhətlərinə dair fikir və məlumat əsasında qəbul olunur.

Ulrik Bekə görə, "risk" anlayışı hətta daha böyük əhəmiyyətə malikdir. O hesab edir ki, hazırda biz sənaye cəmiyyətinin tədrici ölümünü yaşayırıq. Yeni "risk cəmiyyəti" meydana gəlir, burada mərkəzi rol risklər və onların qarşısının alınmasıdır, ətraf mühit problemləri isə ön plana çəkilir. XIX-XX əsrlərdə siyasətdə sərvətlərin paylanması məsələsinə diqqət yetirən solçu və sağçı partiyaların müzakirələrində işçi və işəgötürənlər arasındakı maraqlar münaqişəsi əsas yer tuturdu. Bek (2002) güman edir ki, sənaye cəmiyyətinin sinfi münaqişəsi öz əhəmiyyətini itirib, çünki insanlar "sərvət tortu"nun zəhərləndiyi təqdirdə onun bölüşdürülməsi uğrunda mübarizənin mənasız olduğunu anlayıblar. Biz "ümumdünya risk cəmiyyəti"nin astanasındayıq, burada hətta nisbətən zəngin dövlətlər sənaye tullantıları, iqlim dəyişiklikləri, ozon qatının məhvi qarşısında immunitetə malik deyillər. Risklərin idarə olunması gələcəyin qlobal nizamının əsas xarakteristikası olacaqdır. Ayrıca götürülmüş milli dövlət yeni qlobal çağırışların qarşısında durmağa qadir deyildir. Karbon qazı tullantılarının azaldılması yolu ilə beynəlxalq Kioto razılaşması kimi əməkdaşlıq adi hal olmalıdır.

*Tənqidi məqamlar*

Risk nəzəriyyəsinin tənqidində əsas istiqamət onun öz əhəmiyyətini şişirtməsidir. Məsələn, ekoloji risk və təhlükələr haqqında əvvəlkindən daha çox məlumatın olmasına baxmayaraq, Bekin

"risk cəmiyyətinə" keçidə dair tezisini dəstəkləyən empirik tədqiqat və konkret göstəricilər kifayət qədər deyildir. Yaşıllar Partiyası sinfi münaqişəyə əsaslanan siyasi partiyaların keçmişdə qalmasını göstərə bilən elektoral irəliləyiş əldə etmədi. Milli siyasətdə "sağlar" və "sollar"a əsaslanan köhnə partiyalar üstün mövqedə qalmaqdadır. Qlobal səviyyədə sərvət və onun bölüşdürülməsi əsas olaraq qalır, çünki inkişaf etməkdə olan dövlətlər böyük səylə zəngin və yoxsullar arasındakı uçurumu aradan qaldırmağa çalışırlar. İnkişaf etməkdə olan ölkələrdə nəhəng mütləq yoxsulluq problemi dünya siyasətinin mərkəzində qalmaqda davam edir. Bəzi tənqidçilər risk nəzəriyyəsinin "risk" anlayışı və onun müxtəlif mədəniyyətlərdən asılı olaraq fərqlənməsinə münasibətdə kifayət qədər sadəlövh olduğunu hesab edirlər. Bir cəmiyyətdə risk hesab edilən digərində risk hesab olunmaya bilər. Analoji olaraq, zəngin sənaye ölkəsində çirklənmə kimi nəzərdən keçirilən amil inkişaf etməkdə olan daha yoxsul ölkədə sağlam iqtisadi artımın əlaməti kimi görülə bilər. "Risk" anlayışı mədəni olaraq şərtlənmişdir, bu isə risklə mübarizə üzrə beynəlxalq razılaşmaları olduqca çətinləşdirir.

*Aktuallığın davamı*

Risk nəzəriyyəsinin bir sıra mühakimələri şişirdilmiş görünsə də, şübhəsiz ki, son dövrlərin sosial dəyişiklikləri qeyri-müəyyənliyin artması və ənənəvi, adət olunan həyat tərzinə istinadın azalmasına gətirib çıxarmışdır. Beləcə dəyişən yeni dünya kontekstində risklərə həssaslıq artır və fərdlər daha geniş məsələlər dairəsi üzrə öz qərarlarını qəbul etmək zərurəti ilə üzləşirlər. Sağlamlığa qlobal təhlükələr – donuz qripi, Böyük Britaniyada MMR (Measles, Mumps, Rubella) vaksini ətrafında milli mübahisələr, internetin uşaqlar üçün təhlükəsinə dair daimi müzakirələr əvvəllər qeyri-siyasi hesab olunan məsələlərin indi "siyasi" sferaya yerdəyişməsini göstərir.

Cudit Qrin (2009) "risk" anlayışının öz tədqiqat sahəsi üçün məhsuldarlığını qəbul edir. Səhiyyə sosiologiyasında xüsusilə də insanların xəstəliyi necə mənalandırması və sağlamlıq riskləri ilə əlaqədar öz hərəkətlərini necə planlamasını dərk etmək vacibdir. Ancaq o hesab edir ki, "risk" anlayışı ilk növbədə empirik tədqiqat-

lar aparanlar üçün artıq o qədər də faydalı deyil. Çünki risklərin öyrənilməsi indi daha dar sahə olur və yalnız risklərin qiymətləndirilməsi, rasional qərar qəbulu və hesablama texnikası kimi bir neçə istiqamətə aiddir. Hazırda risk nəzəriyyəsinin terminlərinə əsaslanaraq tədqiqatların işlənilməsi çox məhdud ola bilər.

*İstinadlar və ədəbiyyat*

Arnoldi, J. (2009) Risk (Cambridge: Polity).

Beck, U. (1992) Risk Society: Towards a New Modernity (London: Sage).__ (2002) Ecological Politics in an Age of Risk (Cambridge: Polity).__ (2008) World at Risk (Cambridge: Polity).

Giddens, A. (1991) Modernity and Self-Identity: Self and Society in the Late Modern Age (Cambridge: Polity).

Green, J. (2009) 'Is it Time for the Sociology of Health to Abandon "Risk"?', Health, Risk and Society, 11(6): 493–508.

Tulloch, J., and Lupton, D. (2003) Risk and Everyday Life (London: Sage).

## Sənayeləşmə (Industrialization)

*İşçi tərif*

Britaniya və Avropada XVIII əsrin ortalarından başlayaraq istehsal sahəsində insan və heyvan əməyinin maşınla əvəz olunması prosesidir.

*Anlayışın mənşəyi*

Müasir dövrə qədər "sənaye" (industry, industrious) sözü "səy göstərən", "çalışqan", "zəhmətkeş" mənalarını verirdi. XVI əsrin sonlarına doğru "sənaye" termini "manufaktura istehsalı və ticarəti" mənasında da istifadə olunurdu. Daha sonralar anlayışın mənası sənaye istehsalının konkret sahələrini ifadə etmək üçün genişləndirildi: məsələn, faydalı qazıntıların əldə olunması, elektronika və hətta xidmət sahələri (service industries). Beləliklə, "sənayeləşmə" anlayışı sənayeyəqədərki və ya qeyri-sənaye cəmiyyətindən sənaye istehsalının üstünlük təşkil etdiyi cəmiyyətə doğru uzunmüddətli dəyişiklik prosesini nəzərdə tutur. Bu baxımdan sənaye-

ləşmə modernləşmənin ən vacib aspektidir. Avropa və Şimali Amerikadakı sənaye inqilabı Böyük Britaniyadan - XVIII əsrin ortalarından XIX əsrin ilk onilliklərinədək olan dövrdən başlayıb. Bu dövrdə sənayeləşmə prosesi işə salındı və o, irihəcmli istehsala şərait yaradan yeni texnologiyalar, metallurgiya və daş kömür istehsalının inkişafı ilə qarşılıqlı əlaqəli, özünühifzedən xarakter daşımağa başladı. İstehsalın artması əhalinin yerdəyişməsi demək idi. İnsanlar kəndləri, əkinçilik sahələrini tərk edib iş tapmaq üçün yeni zavod və fabriklərin yerləşdiyi böyüməkdə olan şəhərlərə üz tuturdular.

XIX əsrin sonuna doğru daimi texnoloji dəyişikliklərə əsaslanan sənaye cəmiyyətindən danışmaq olar. Belə cəmiyyətdə sənaye prosesləri hakim rola malik idi və məşğul əhalinin çox hissəsi kənd təsərrüfatı deyil, sənaye istehsalı sahəsində idi. Bir çoxları bunu müsbət inkişaf kimi nəzərdən keçirsə də, sənaye cəmiyyətinin çoxsaylı tənqidçiləri də var idi. Onlar əhalisi artmış şəhərlərdə dəhşətli həyat və iş şəraitini, həmçinin maşınların ənənəvi peşə bacarıqları və vərdişlərinə dağıdıcı təsirini qeyd edirdilər. İlk sosioloqlar əmək bölgüsünün radikal ekspansiyasını, meydana çıxan sinfi münaqişəni və daha sekulyar olan şəhər həyatını öyrənirdilər. 1970-ci illərdən etibarən sosioloqlar sənaye cəmiyyətlərinin çoxunda sənaye istehsalı sahəsində işləyənlərin azalması, xidmət sahələrində (təhsil, səhiyyə, maliyyə sektoru) çalışanların artması ilə tədricən postsənaye cəmiyyətinə keçidin baş verdiyini qeyd edirdilər.

*Məna və interpretasiya*

Sənayeləşmə insan və heyvan əməyinin maşınlarla əvəz olunmasıdır. Öz-özlüyündə texnoloji inkişaf yeni deyil, onu ibtidai cəmiyyətlərdə yeni sosial təcrübələrin (daha effektiv ovçuluq və yaşayış yerinin tikilməsi üsulları kimi) meydana çıxmasına zəmin yaradan daş alətlərin yaradılmasından başlayaraq izləmək olar. Ancaq XVIII əsrin sənaye inqilabı məhz inqilabi dəyişiklik kimi nəzərdən keçirilir və onun əhəmiyyəti eramızdan doqquz min il əvvəl başlayan, insanların həyatına birgə oturaq yaşayış tərzini və əkinçiliyi gətirən neolit inqilabı ilə müqayisə olunur. Sənayeləşmə böyük insan kütlələrinin gündəlik həyatı və mövcudluq üsulunu tamamilə

transformasiya edir. Sənaye cəmiyyəti texnologiyanın insan və təbiət arasında əlaqəni şərtləndirdiyi cəmiyyətdir.

Sənayeləşmə getdikcə artan sənaye prosesi üçün xammal və resurs mənbəyi kimi nəzərdən keçirilən təbiət və insan arasında qarşılıqlı münasibətləri dəyişib. XIX əsrin əvvəllərində bir çoxları sənayeləşmənin dayandırılması və geri döndərilməsinin mümkün qısamüddətli proses olub-olmamasına dair suallar verirdi. Əsrin sonunda bunun mümkünsüz olduğu aydınlaşdı. Hazırda deindustrializasiya (sənayeləşmənin geri döndərilməsi) nəinki qeyri-real, həm də planetin əhalisinin kəskin azaldılması olmadan qeyri-mümkün görünür. Əhali sayı isə sosioloqların bütün proqnozlarını üstələmişdir. Yer kürəsinin yeddi milyarddan çox sayı olan əhalisinin davamlılığı yalnız qida məhsulu istehsalının sənayeləşməsi, nəqliyyatın inkişafı və qlobal əmək bölgüsü sayəsində mümkündür.

1970-ci illərdən başlayaraq, bəzi postsənaye dəyişiklikləri nəzəriyyələrinə görə mikrosxemlər, hesablama sistemləri, sputnik və informasiya texnologiyalarının istifadəsi ilə əlaqəli olan elektrotexnika inkişafının son dalğası adi sənayeləşmənin hüdudlarını aşan irəliləyişdir. Lakin bütün bu texnologiyalar indiyədək insan və heyvanların deyil, maşınların üstünlük təşkil etdiyi sənaye müəssisələrində yaradılır. Kompüterlər hələ də zavodlarda istehsal olunur və elektrostansiyaların yaratdığı enerji ilə işləyir. İnternet möhtəşəm qlobal kommunikasiya vasitəsidir, lakin o, müvafiq texnoloji cihazlar və enerji mənbəyi olmadan əlçatan deyil. Ehtimal ki, informasiya texnologiyalarını sənayeləşmə prinsiplərindən uzaqlaşma deyil, onun daha inkişaf etmiş forması kimi təsvir etmək daha düzgün olardı.

Sənayeləşmənin ən mühüm aspektlərindən biri onunla əlaqədar olaraq insanların hərəkətidir. Bu XIX əsrdə kəskin sürətlənən urbanizasiya prosesi kimi məlumdur. Sənaye istehsalı ev və fabriklərin, infrastrukturun tikintisi üçün materiallar yaratdı, bu isə əhalinin kənd həyat tərzi üçün səciyyəvi olan kənd təsərrüfatı rayonlarından çıxmasını sürətləndirirdi. Əksər insanlar üçün yeni şəhərlər yeni sənaye ixtiraları ilə dolu (qaz, elektrik, maşınlar), həmçinin daha yüksək əməkhaqqı verilən tamamilə yeni cəmiyyət kimi görünürdü. Britaniyada Vilyam Morris, Con Raskin daxil olmaqla, bir

çox tənqidçilər ənənəvi həyat tərzi və əxlaqının itirilməsini, yeni sosial problemlərin yaranmasını qeyd edirdilər. İlk sosioloqlar həm də icma ruhunun və sosial həmrəyliyin itirilməsini, fərdiyyətçilik və hesablayıcı eqoizmin artmasını qeyd edirdilər (Tönnies (1887) 2001).

*Tənqidi məqamlar*

Bir çox hallarda sənayeləşmə davam edən prosesdir və getdikcə daha çox ölkə öz inkişafında sənayeləşmədən keçir. Ancaq 1970-ci illərdən başlayaraq, postsənaye nəzəriyyələri diqqəti sənaye inkişafı keçmiş ölkələrin başqa istiqamətdə hərəkət etməsinə yönəldirlər. İstehsal prosesləri inkişaf etmiş ölkələrdən işçi qüvvəsinin daha ucuz və tənzimetmə rejimlərinin zəif olduğu inkişaf etməkdə olan ölkələrə ötürülür. Bu, inkişaf etmiş ölkələrdə sənaye istehsalı səviyyəsinin aşağı düşməsi, məşğulluğun əmtəə istehsalı üçün xammal və maşınlar deyil, xidmət sahələrində cəmləşməsinə gətirib çıxarır. Xidmət sahələrində iş "emosional zəhmət" adı ilə cəmlənən tamamilə başqa vərdişlər toplusunu tələb edir. Bu, işçi qüvvəsinin feminizasiyasının vacib səbəbidir, belə ki, daha çox qadın təhsil alır və haqqı ödənilən əmək fəaliyyətinə başlayır. Aydındır ki, bu ölkələrdə "sənayeləşmə" anlayışı artıq əvvəlki mənanı vermir, lakin Çin, Filippin və Hindistan kimi sənayeləşmə yoluna yeni qədəm qoymuş ölkələrin təcrübəsini əks etdirir.

*Aktuallığın davamı*

Postsənaye tezisi Böyük Britaniya, ABŞ və Fransa kimi ölkələrin vəziyyətini təsvir edir, lakin qeyd etmək lazımdır ki, bu ölkələr digər yerlərdəki sənaye proseslərinin yaratdığı istehsal tullantılarının təsirindən yan keçə bilmirlər. İnkişaf etmiş ölkələrdə sosial-iqtisadi dəyişikliklər sənayeləşmənin sonu deyil, onun hazırda bütün dünyada baş verməsi deməkdir. Sənaye dəyişiklikləri və bunun nəticəsində insan həyatının transformasiyası hələ ki, postsənaye dəyişikliklərinin miqyası ilə eyni deyil. Sənayeləşmə hədsiz dərəcədə sürətli əhali artımına zəmin yaradan qlobal tarixi inkişaf prosesidir, sənaye istehsalı indi də bu artımı təmin etməkdədir.

İnkişaf etməkdə olan ölkələrin çoxu sənayeləşmə mərhələlərinə inkişaf etmiş ölkələrdən daha gec qədəm qoyublar. Bu, ətraf mühitin vəziyyəti ilə bağlı narahatlığın qlobal debatların mərkəzi məsələsinə çevrilməsi ilə eyni vaxta təsadüf edib. Bəzi tədqiqatçılar modernləşmənin ekoloji formalarının zəruri olmasını israr edirlər. Bununla erkən sənayeləşmə dövründə sənaye inkişafının yaratdığı tullantıların dağıdıcı səviyyəsindən yan keçmək və inkişaf etməkdə olan ölkələrin modernləşməsinə şərait yaratmaq olar. Fricns və həmkarları (2000) bu tezisi Vyetnamın inkişafı ilə əlaqədar üç istiqamətdə nəzərdən keçiriblər: ətraf mühitin vəziyyətinə dair məlumatlılıq, dövlət və bazar arasında münasibətlər, texnoloji inkişaf. Hər üç halda onlar modernləşmənin Avropa kontekstində işlənilmiş ekoloji nəzəriyyəsinin gözləntilərindən ciddi fərqləri aşkar ediblər. Nəzəriyyənin inkişaf etməkdə olan ölkələr üçün faydalı olmaqdan ötrü yenidən işlənilməsi zəruridir. Lakin islahatlar, demokratikləşmə, beynəlmiləlçilik və Vyetnam iqtisadiyyatının liberallaşması ekoloji modernləşmənin Avropadan fərqli formalarını ortaya qoya bilər.

*İstinadlar və ədəbiyyat*

Clapp, B. W. (1994) An Environmental History of Britain since the Industrial Revolution (London: Longman).

Frijns, J., Phuong, P. T., and Mol, A. (2000) ‘Ecological Modernization Theory and Industrialising Economies: The Case of Viet Nam’, Environmental Politics, 9(1): 257–92.

Kumar, K. (2005) From Post-Industrial to Post-Modern Society: New Theories of the Contemporary World (2nd edn, Oxford: Blackwell).

Tönnies, F. ([1887] 2001) Community and Society [Gemeinschaft und Gesellschaft] (Cambridge and New York: Cambridge University Press).

## Urbanizm (Urbanism)

*İşçi tərif*

Müasir şəhər və şəhər tipli ərazilərə xas fərqləndirici xüsusiyyət  və onun ətraf regionlara və kəndlərə təsiridir.

*Anlayışın mənşəyi*

Şəhərlər irimiqyaslı insan məskənləridir, çox zaman da ətraf ərazi və daha kiçik yaşayış yerləri üzərində iqtidar mərkəzləridir. Şəhərlərin hələ qədim zamanlardan məlum olmasına baxmayaraq, şəhər və şəhərdə yaşamanın fərqli və xüsusi həyat forması olduğu haqqında sosioloji tezis yalnız XIX əsrin sonlarında formalaşmışdır. O zamanlar urbanizasiya şəhər əhalisinin sayının və sıxlığının sürətli artımına gətirib çıxarırdı, bu isə çoxları üçün sivilizasiyanın yeni mərhələsinin başlanğıcı demək idi. Ferdinand Töni ((1887) 2001) və Georq Zimmel ((1903) 2005) müasir şəhərlərlə əvvəlki tip yaşayış məskənlərini müqayisə edir və yeni mühitdə fərdlərin yeni fiziki və sosial strategiyaları tətbiq etmələrini göstərirdilər. Şəhər tədqiqatları 1920-ci illərdə Çikaqo məktəbinin tədqiqatları ilə "yetkinliyə" çatdı. Robert Park, Ernst Bercess və Lui Virt Çikaqo məktəbinə xas, "şəhər ekologiyası" kimi tanınan yanaşmanı tətbiq edirdilər. Bu yeni istiqamət şəhərlərlə bağlı aparılan tədqiqatlara uğurlu start verdi. Bu sahədə daha sonrakı işlər diqqəti sosial hərəkatların rolu və şəhər həyatını formalaşdırmaqla bərabər, onun vasitəsilə formalaşan qloballaşma proseslərinə yönəltdi.

*Məna və interpretasiya*

Şəhər tədqiqatlarının başlanğıcı Ferdinand Töni ilə bağlıdır. 1880-ci illərdə o, icma daxilində *(Gemeinschaft)* sıx və uzunmüddətli olan əlaqələrin öz yerini cəmiyyət daxilində *(Gesellschaft)* daha sərbərt və ötəri olan əlaqələrə verməsi haqqında yazırdı. Töni bunu qaçılmaz hesab edir, lakin göstərirdi ki, transformasiya prosesində fərdiyyət getdikcə daha eqoistik və instrumental olduqca, həyati əhəmiyyətli nəsə yoxa çıxır. Şəhər tədqiqatlarının əsasını qoyan digər sosioloq Georq Zimmel şəhər həyatı təcrübəsini və onun keyfiyyət aspektlərini təsvir etməyə çalışır və diqqəti insanların bunun öhdəsindən necə gəldiyinə yönəldirdi. Zimmel güman edirdi ki, bu, xüsusi "doyma mexanizmi", "bunun hamısını əvvəl görmüşük" kimi mental yönəlişliyin vasitəsilə baş verir. Bu isə şəhər həyatının hisslərə yorucu təsirini azaldır və ya aradan qaldırır. Belə adaptiv mexanizmlərsiz şəhər mühiti dözülməz olardı.

Lui Virt (1938) şəhər təcrübəsinə dair ona qədər olan müxtəlif yanaşmaları urbanizm "həyat tərzidir" fikri ilə möhkəmləndirdi. Müasir urbanizmin meydana gəlməsi insan mövcudluğunun yeni formasının yaranmasının göstəricisi idi. Sakinlər arasında əlaqələrin çoxu ötəri və fraqmentardır, konkret nəticəyə yönəlib və öz-özlüyündə dəyərə malik deyil. Bilet alma, avtomobilə yanacaq doldurma, bankdakı əmanətlərin razılaşdırılması – bütün bunlar Virtin "ikincili əlaqələr" adlandırdığı rutinləşmiş qarşılıqlı təsiri üçün tipikdir. Onları ailədən və ya icmadakı ilkin əlaqələrdən əsas fərqləndirən cəhət budur ki, insanlar öz "mən"lərilə ikincili əlaqələrə yalnız uğurlu qarşılıqlı təsir üçün yetərli olduğu qədər qoşulurlar. Belə qarşılıqlı təsir yalnız başqa məqsədlər üçün vasitədir. Əlbəttə, ikincili əlaqələr əhəmiyyət daşıyır, lakin Virt hesab edir ki, urbanizm onların sosial münasibətlərin hakim tipinə çevrilməsini tələb edir. Nəticədə isə cəmiyyətin tamlığını təmin edən sosial əlaqələr zəifləyir.

Çikaqo məktəbi şəhər tədqiqatlarını sosiologiya elminə yerləşdirməyə zəmin yaradan ilkin alətlərlə təmin etmişdir. Bu istiqamətin nümayəndələri şəhər ekologiyası kimi tanınan yanaşmanı inkişaf etdiriblər. Onun çərçivəsində şəhərlərin daxili sosial differensiasiyasını təmin edən proses təhlil olunurdu. Robert Parkın qeyd etdiyi kimi, şəhər möhtəşəm seçim mexanizmidir. Bioekologiyanın anlayışlarından (yaşamaq uğrunda mübarizə, invaziya və suksessiya) istifadə edərək şəhərlərin konsentrik halqalar seriyası kimi inkişaf etdiyini göstərmək mümkün oldu. Biznes şəhər mərkəzinə meyil edir, orda isə həm də tənəzzül prosesində olan özəl yaşayış evləri olur. Növbəti halqa şəhərin çoxdan formalaşmış rayonlarıdır. Onların arxasında isə nisbətən zəngin sosial qrupların (üçüncü halqa) yaşadığı şəhəryanı ərazilərdir (ingiliscə, "*suburb*"). Ekologiyada olduğu kimi, invaziya və suksessiya prosesləri daim konsentrik halqaların sərhədlərini keçən hərəkətə səbəb olurlar. Bununla da şəhərlər onları fərqləndirən dinamik və mobil xarakteri saxlayırlar. Ekoloji yanaşma daha çox empirik tədqiqatları stimullaşdırdı, buna baxmayaraq, bioloji analogiyalara maraq azaldı.

Şəhər tədqiqatlarının nisbətən sonrakı istiqamətləri şəhər məkanının fasiləsiz restrukturizasiyasını üzə çıxardı. Belə ki, biznes

daim öz yerini dəyişir, sərmayəçilər torpaq və əmlak alır, yerli hakimiyyət orqanları məşğulluğa dəstək verir və yaşıl ərazilərin saxlanılması üzrə tədbirlər görür. Şəhər məkanının restrukturizasiyası daimi prosesdir, çünki özəl firmalar rəqabət üstünlüyü axtararaq daim öz yerini dəyişir və indi bu proses qlobal xarakter almışdır. Nəticədə bəzi rayonlar tənəzzülə uğrayır, digərləri isə sürətlə dirçəlir. Bu həm də urbanizm formasının biznes mühiti ilə birgə dəyişdiyini göstərir, son zamanlar sənaye müəssisələri ofis binaları ilə əvəzlənir, köhnə sənaye obyektləri isə özəl evlərə çevrilirlər.

*Tənqidi məqamlar*

Urbanizm konsepsiyasının problematikliyi onun şəhər həyatının ümumi səciyyəsi kimi istifadə olunmasıdır, ancaq bu anlayış yalnız ABŞ və Avropada ilkin tədqiqatlar əsasında formulə edilmişdir. Doğrudanmı London, Nyu-York və Paris kimi zəngin Qərb şəhərləri inkişaf etməkdə olan ölkələrdəki Mumbay, Nayrobi və ya Dəkkə ilə oxşardır? Əhalinin yüksək sıxlığından əlavə fərqlər də böyük görünür. Məsələn, inkişaf etməkdə olan ölkələrdəki şəhərlərin mərkəzi rayonunu əhatə edən müvəqqəti yoxsul gecəqonduların inkişaf etmiş ölkələrdə məkan ekvivalentləri yoxdur. Hətta bir şəhərin hüdudlarında şərait müxtəlif olur, bu isə Zimmel və Virtin təsvir etdikləri mənzərənin yalnız işgüzar mərkəzi rayonlara və əsas ticarət kvartallarına tətbiq olunduğunu göstərir.

Urbanizmin şəhərlərlə bağlı aparılan bir sıra tədqiqatlarda meydana çıxan neqativ xarakteristikası da sual altına qoyula bilər. Güman ki, şəxssizləşmiş şəhər mühiti çoxları tərəfindən sərbəstlik və onun yaratdığı azadlıqdan istifadə imkanı kimi qavranılır. Bu mənada urbanizmi əvvəlki və fərdiyyəti sıxışdıran icmalarla müqayisədə irəliyə addım kimi interpretasiya etmək olar. “Seçim icmalarının”, yəni dost və həmfikirlər birliyinin formalaşması da urbanizm fenomeninin həddən ziyadə fərdiləşməyə gətirməsi fikrini inkar edir. Herbert Hans (1962) qeyd edirdi ki, şəhər tipli qəsəbələr amerikan şəhərlərində immiqrant qruplarının adi yaşayış forması idi. O göstərdi ki, urbanizm nəinki icma həyatını dağıtmaz, həm də onu yarada bilər. Ümumilikdə, ekoloji perspektiv şəhərin şüurlu şəkildə layihələndirilməsi və planlaşdırılmasının vacibliyini nəzərə

almır, hansı ki, bunlar irəli sürülən problemlərin yumşalmasına gətirib çıxarır.

*Aktuallığın davamı*

Urbanizm diqqətimizi tarixi cəhətdən unikal olan sıx məskunlaşmış şəhər mühitinin xüsusi xarakter daşıdığına yönəldir. Bəlkə də, Zimmelin şəhərlərdəki mənəvi həyata yanaşması impressionist xarakter daşıyır, lakin o, şəhərdə yaşamağın nə demək olduğunun anlaya bilirdi. O, bizə şəhərin mühüm sosioloji və məkan fenomeni olduğunu göstərdi. Çikaqo məktəbinin özünün ekoloji yanaşmasını təqdim etdiyi dövrdən bəri şəhər tədqiqatları xeyli dəyişib. Manuel Kastels (1983) və Alberto Meluççinin (1989) həyata keçirdiyi, şəhər sosial hərəkatlarının və onların şəhər həyatına təsirinin tədqiqi bu mövzunun dərk olunmasına yeni istiqamət gətirdi. Devid Harvinin (2006) şəhər landşaftı və urbanistik formaların dəyişikliklərinin urbanistik tədqiqi də eyni rol oynadı.

Hazırda urbanizm ilkin nəzəriyyəçilərin güman etdiyindən olduqca daha rəngarəng ola bilər. "Dünya şəhərləri"nin meydana çıxması isə göstərir ki, xarici qüvvələr və qloballaşmanın təzyiqi də nəzərə alınmalıdır. Son illərdə şəhər tikintisinin planlaşdırılması dayanıqlı inkişaf ideyalarının təsiri altındadır. Məsələn, Duqlas Far (2008) hesab edir ki, ABŞ yanlış yoldadır və insan toplumunu təbii ətraf mühitə uyğunlaşdırmaq üçün şəhər tikintisinin əhatəli islahatlarına ehtiyac duyur.

Şəhər təcrübəsinə maraqlı baxışa Şaron Zukinin "Çılpaq şəhər" (2010) adlı əsərində rast gəlmək olar. Bu, 1980-ci illərdə ABŞ-da şəhər yenidənqurulmasına şəxsi səyahətdir. Bu yenilənmə, bir tərəfdən, köhnə tikililərin və hətta bütöv rayonların yenidən tikilməsi, digər tərəfdən, şəhər autentikliyinin itirilməsi ittihamı ilə səciyyələnirdi. Zukin yazır ki, özəl kapitalın axını Nyu-Yorkda şopinq və təhlükəsizliyə həddən artıq diqqət yetirilməsinə gətirib çıxardı. O, insanların gecəqonduların, yüksək cinayətkarlıq səviyyəsinin, ağır narkotik satışının itirilməsinə görə "göz yaşı axıtmasını" dəstəkləməsə də, 1980-ci illərin yekcinsləşdirici yenidərqurmasının neqativ hallarla birgə müxtəliflik, kreativlik və şəhər dinamizmini yox etməsi haqqında yazır. Zukinin yanaşması çox şəxsidir, lakin o,

nostalgiyadan uzaqdır və müasir şəhər planlaşdırması qarşısında olan çağırışları anlamağa yardım edir.

*İstinadlar və ədəbiyyat*

Abrahamson, M. (2014) Urban Sociology: A Global Introduction (New York: Cambridge University Press).

Castells, M. (1983) The City and the Grass Roots: A Cross-Cultural Theory of Urban Social Movements (London: Edward Arnold).

Farr, D. (2008) Sustainable Urbanism: Urban Design with Nature (New York: John Wiley).

Gans, H. J. (1962) The Urban Villagers: Group and Class in the Life of Italian-Americans (2nd edn, New York: Free Press).

Harvey, D. (2006) Spaces of Global Capitalism: Towards a Theory of Uneven
Geographical Development (London: Verso).

Melucci, A. (1989) Nomads of the Present: Social Movements and Individual Needs in Contemporary Society (London: Hutchinson Radius).

Simmel, G. ([1903] 2005) 'The Metropolis and Mental Life', in J. Lin and C. Mele(eds), The Urban Sociology Reader (London: Routledge), pp. 23–31.

Tönnies, F. ([1887] 2001) Community and Society [Gemeinschaft und Gesellschaft] (Cambridge and New York: Cambridge University Press).

Wirth, L. (1938) 'Urbanism as a Way of Life', American Journal of Sociology, 44(1): 1–24.

Zukin, S. (2010) Naked City: The Death and Life of Authentic Urban Places (Oxford and New York: Oxford University Press).

## MÖVZU 4. CƏMİYYƏTİN STRUKTURLARI

### Bürokratiya (Bureaucracy)

*İşçi tərif*

Modern sənaye cəmiyyətlərində geniş şəkildə qəbul edilən mövqe iyerarxiyası, yazılı qaydalar və kontraktlara əsaslanan təşkilat növüdür.

*Anlayışın mənşəyi*

"Bürokratiya" fransız mənşəli *bureau* (ofis və ya yazı stolu) və yunan mənşəli *kratos* (hakimiyyət) sözlərinin birləşməsindən qaynaqlanır. Bürokratiyanın "rəsmilərin hakimiyyəti" kimi müasir konsepsiyası XVIII əsrin ortalarına, yəni onun yalnız hökumət rəsmilərinə aid edildiyi dövrə təsadüf edir. Tədricən əksər təşkilat formalarına sirayət edən bu anlayış sürətlə neqativ mənada görülməyə başladı. Bürokratik hakimiyyəti tənqid edən bir sıra bədii əsərlər vardır. Məsələn, Frans Kafkanın "Məhkəmə" romanında bürokratik hakimiyyət anlaşılmaz və şəxssizləşdirilmiş rəsmiliyin dəhşətli ifadəsi kimi tənqid edilir. İnsanları "rəsmiliyə" həbs edən, səmərəsiz və israfçı olaraq görülən bürokratiyalar haqqında bu neqativ baxış populyar mədəniyyətdə də mövcuddur.

Bürokratiyanın sosioloji tədqiqi, ilk növbədə, klassik bürokratiyanın "ideal tip"ini yaradan Maks Veberin ideyalarının təsiri altındadır. Bürokratiyanı səmərəsiz olaraq görən öncəki baxışlardan fərqli olaraq, Veber iddia edirdi ki, müasir bürokratiya faktiki olaraq təşkilatın hələ ki meydana çıxmış ən səmərəli forması olduğu üçün çox geniş yayılıb. O, həmçinin demokratiya prinsipi ilə toqquşan, irrasional nəticələr ortaya çıxaran bürokratik dominantlıq formalarının yaradıcılığı boğmağa və təşəbbüskarlığı zəiflətməyə meyil etdiyini də qəbul edir. Bu baxımdan onun baxışları bürokratiyaları cəmiyyətdə neqativ sosial qüvvə kimi görən ənənəni qismən davam etdirir.

*Məna və interpretasiya*

Müasir həyat mürəkkəbdir və asan idarə edilən müəyyən təşkilat formasına ehtiyac duyur. Veber bürokratiyanı formal təşkilatın dominant modeli kimi görürdü və bu xarakteristika sosioloji tədqiqatlara öz təsirini davam etdirir. Bürokratiya Çin imperiyası kimi ənənəvi sivilizasiyalarda mövcud olsa da, yalnız sənaye kapitalizminin yüksəlişi ilə bürokratiyalar cəmiyyətin bütün sferalarında istifadə edilməyə başlandı. Veberə görə, bu intişar və ekspansiya qaçılmaz olmaqla yanaşı, modernizmin tələbləri ilə ayaqlaşmağın yeganə yolu idi. Müasir rifah sistemini və ya milli səhiyyə sistemini yazılı qeydlər və qaydalar, eləcə də arxivləşdirilmiş sənədlər olmadan təsəvvür etmək qeyri-mümkün olardı. Veber modern bürokratiyanın müəyyənedici aspektlərini göstərmək üçün diqqəti real nümunələrin ortaq cəhətlərinə yönəldərək ideal və ya "saf" bürokratiya növünü formalaşdırdı.

Veberin ideal tipi aşağıdakı cəhətləri özündə ehtiva edirdi: İqtidarın ən yüksək zirvədə yer aldığı dəqiq nüfuz iyerarxiyası. Bu ümumi strukturda yuxarıda yer alanlar aşağıdakılara nəzarət və onları müşahidə edir.

Rəsmilərin davranışı təxmin edilən və nizam formalaşdıran yazılı qaydalarla idarə olunur.

İşçilər əməkhaqqı alır, uzunmüddətli müqavilələri olur və onlar tam iş günü işləyirlər. İnsanlar ömür boyu təşkilat daxilində öz karyeralarını qura bilərlər.

Rəsmilərin işi və şəxsi həyatının aydın şəkildə ayrı olması onlar bir-birinə qarışdırılmır.

Bütün resurslar (stollar, kompüterlər, qələmlər, kağız və s.) təşkilatın mülkiyyətidir; işçilərə öz "istehsal vasitələri"nə sahib olmağa icazə verilmir.

İdeal tip güman ki, heç vaxt mövcud ola bilməsə də, real təşkilat ona nə qədər yaxındırsa, o öz məqsədlərinə çatmaqda bir o qədər effektivdir.

Veber güman edirdi ki, cəmiyyət bürokratik təşkilatlar tərəfindən idarə edildikcə, o, insanları daxilində həbs edən "polad qəfəs"ə oxşayacaq. Əksər insanlar hesab edir ki, bürokratik sistemlərlə şəxsi kontakta girdikdə, fərdi ehtiyacların qarşılanması əngəllə-

nir. Çünki şəxsi mülahizələr və ya emosional çağırışlar diqqətə alınmır. Bürokratiyalar minlərlə, hətta milyonlarla məsələ üzərində işləyərkən effektivliyi maksimallaşdırmaq üçün yaradılmışdır. Ona görə də bərabər münasibət prinsipi öz-özlüyündə insanlar arasında bir sıra narazılıqlar yaradır. Daha ciddi problem bürokratik dominantlığın demokratiyaya müxalif ola bilməsidir. Belə ki, fasiləsiz idarəetmə mexanizmi real qüvvə əldə edərək demokratik proses və seçkiləri təhlükə altına alır.

*Təndiqi məqamlar*

Veberin arqumentlərinin tənqidçiləri onun perspektivini təş kilat həyatını funksional edən qeyri-formal münasibətlər və kiçik qrup dinamikalarına məhəl qoymayan mahiyyətcə *natamam* yanaşma kimi görürlər. Blaunun 1963-cü ildə ABŞ-ın vergi agentliyi üzərində apardığı tədqiqatın nəticələri göstərdi ki, işi yerinə yetirmək naminə prosedur qaydaları daim pozulur, iyerarxiyanın aşağı pillələrində isə qeyri-formal qarşılıqlı yardım və məsləhətlər sisteminə əsaslanan qrup loyallığı meydana çıxır.

Digər tənqidçilərə görə də Veberin bürokratiya haqqında düşüncələri kifayət qədər tam deyil. Ziqmunt Bauman (1989) iddia edir ki, İkinci Dünya müharibəsi ərzində alman nasional sosialistləri tərəfindən yəhudi əhalisinin kütləvi qırğını yalnız modern dövlətin bürokratik mexanizmindən istifadə edilməklə mümkün olmuşdu. Müharibə şəraitində milyonlarla insanı bütün Avropa boyu konsentrasiya düşərgələrinə göndərməyə və çox böyük sayda şəxsi detalları qeyd etməyə cəlb edilən nəhəng qurum sistematik, çox diqqətli bürokratik planlaşdırma və icraat tələb edirdi. Rəsmiləri şəxsi, əxlaqi məsuliyyətdən yayınmağa qadir edən amil bürokratiyaların anonimliyi idi. Baumana görə, Holokost normal sivilləşmiş modernizmdə bir aberrasiya deyil, onun mərkəzi təşkilatlandırıcı aspektinin - bürokratiyanın nəticəsidir.

Veberin digər tənqidçiləri onun perspektivini *həddən artıq neqativ* hesab edirlər. Pol du Qay (2000) bürokratiyaya şamil edilən əksər problemlərin prosedur qaydalarını neytrallaşdırmaq cəhdlərindən irəli gəldiyini iddia etməklə bürokratiya və ənənəvi bürokratik etosun lehinə güclü arqument formalaşdırır. O hesab edir ki,

Baumanın tədqiqatı irqçi münasibət və ideologiyalara, habelə zorakılıqdan və hədə-qorxudan istifadəyə əsaslanan Holokostun real səbəblərinə nəzər yetirmir. Bürokratik etos hamıya qarşı bərabər davranış deməkdir və bürokratiyaların mühüm müdafiə mexanizmlərindən istifadəsi yalnız iqtidarı gücləndirmir, həm də siyasi liderlərin ondan sui-istifadəsinə mane olur.

*Aktuallığın davamı*

Veber bürokratizasiyanın bütün nəticələrini görməmiş ola bilər və onun ilkin təhlilinə qarşı bəzi tənqidlərin rədd edilməsi mümkündür. Sosioloqların indiyədək onunla mübahisədə olması Veberin müasir dünyanın əsas aspektini göstərməsinə işarədir. Veber sosial həyatın daha çox sferalarına yayılan "cəmiyyətin rasionallaşması"nda bürokratiyanın önəmli amil olduğunu aydınlaşdırır. Biz onun təhlilinin ayrı-ayrı detallarında nöqsan görsək də, kapitalizmin və bürokratiyanın müasir növlərinin qlobal ekspansiyası o deməkdir ki, Veberin arqumentinin ümumi mahiyyəti adekvatlığını qoruyur və ciddi qəbul edilməlidir.

Keysi (2004) sərbəst şəbəkələrin bürokratiyalara xas sərt iyerarxiyaları əvəzləməsini güman edən son tədqiqatlara zidd olaraq bildirir ki, bürokratiya işçilərin həyatına bəzi yeni fəaliyyət növlərinin daxil olmasına imkan verib. Əgər bu geniş yayılarsa, ilkin olaraq, "bürokratiya"nın nədən ibarət olması haqqında mövcud düşüncəmiz dəyişə bilər. Keysi iş yerində spirituallığın ifadəsinə icazə verən bürokratik təşkilatlar trendinə diqqət yetirir. Əksər fərdlər iş yerində Nyu Eyc fəaliyyətlərini icra edir, Ford, İBM, Apple kimi iri korporasiyalar isə menecerlər üçün əlçatan olan seminarlar təşkil etməklə "işdə spirituallıq" proqramlarını həvəsləndirirlər. Keysi qeyd edir ki, bürokratiyalar sərtləşmək əvəzinə dəyişən cəmiyyətlərə uyğunlaşır və onlarla birgə təkamül edir.

Artan tədqiqatlar toplusu göstərir ki, bürokratik prosedurlar təşkilat daxilindəki qadınlar üçün faydalı ola bilər. Çünki bu prosedurlar karyera yüksəlişlərinin öz imtiyazlarını qorumaq üçün kişilər tərəfindən istifadə edilən istisnaedici vasitələrin hissəsi olmuş şəxsi əlaqələr və sosial şəbəkələrə deyil, qabiliyyət və səriştəyə əsaslanmasını təmin edir. De-Hart Devis (2009) qadınlar və kişilərin bü-

rokratik iş yerlərini necə qavramasını tədqiq etməklə bu arqumenti genişləndirir. Eklektik metod yanaşmasının istifadə olunduğu araşdırma aşkar gender fərqlərini ortaya qoydu. Qadınlar daha çox səmərəlilik, legitimlik və bürokratiyanın ədalətliliyinə vurğu edərkən, kişilər ifrat nəzarət və qaydalar üzərində fokuslanırlar. Müəllifin gəldiyi qənaət ondan ibarətdir ki, qadınlar onları gücləndirən və bərabər şərtlərdə karyera irəliləyişini və iştirakını mümkün edən elementlərə xüsusi diqqət ayırırlar. Bu, bürokratiyanı kişi dominantlığının təşkilati forması kimi təsvir edən bəzi feminist nəzəriyyələrinə zidd olan nəticədir.

*İstinadlar və ədəbiyyat*

Bauman, Z. (1989)Modernity and the Holocaust (Cambridge: Polity).

Blau, P. M. (1963)The Dynamics of Bureaucracy (Chicago: University of Chicago Press).

Casey, C. (2004) ‘Bureaucracy Re-enchanted? Spirit, Experts and Authority in Organizations’, Organization, 11(1): 59–79.

DeHart-Davis, L. (2009) ‘Can Bureaucracy Benefit Organizational Women?’, Administration and Society, 41(3): 340–63.

Du Gay, P. (2000)In Praise of Bureaucracy: Weber, Organization, Ethics (London: Sage).

## Din (Religion)

*İşçi tərif*

Dürkheymə görə, insanların sadiq olduqları və onları bir icmada birləşdirən müqəddəs obyektlərlə əlaqəli inanclar və praktikaların vahid sistemidir.

*Anlayışın mənşəyi*

Din bütün məlum insan cəmiyyətlərində bu və ya digər formada aşkar edilə bilər. Ən qədim cəmiyyətlərdə dini simvollar və mərasimlərin aydın izləri üzə çıxır. Qədim mağaralardakı təsvirlər

dini inanc və praktikaların 40 min il öncə belə mövcud olduğunu göstərir. O zamandan bəri din insan təcrübəsinin mühüm hissəsi olmağa davam edir. Ən qədim Avropa dinlərini özündə ehtiva edən inanc və praktikalar spesifik sosial institutlar formalaşdırmaqdan daha çox gündəlik həyatın bir komponenti idi. Bu, dünyanın digər hissələrində hələ də doğruluğunu qoruyur. Müasir sənaye cəmiyyətlərində din iqtisadiyyat və siyasət kimi həyatın digər sahələrindən ayrı təşkilat forması kimi mövcuddur. XX əsrdə din sosiologiyasında əsas diskussiyalar sekulyarlaşma nəzəriyyəsi ətrafında idi. Bəziləri dinin öz mövqelərini yavaş-yavaş itirdiyini, digərləri isə dini təşkilatlarda formal üzvlüyün tənəzzül yaşamasına rəğmən dini inancların gücləndiyini qeyd edirlər.

*Məna və interpretasiya*

Marks dini sinfi olaraq bölünmüş cəmiyyətlərdə kütlələri həyatın ağır reallıqlarından uzaqlaşdıran bir sığınacaq kimi görürdü. Öz möminlərinə ölümdən sonra həyatın varlığı vədini verən xristianlıq eyni zamanda onların "burada və indi" maddi həyatının əzablı, çətin və əziyyətlərlə dolu ola bildiyini öyrədirdi. Marksa görə, bu, onu sübut edir ki, dinlər siyasi nəzəriyyələrdə mövcud olan ideoloji elementlərə qarşı davamlı deyillər. Daha firavan o biri dünyanın vəd olunması fəhlələrin istismarının davam etməsinə zəmin yaradır. Maks Veber isə dünya dinlərinin tədqiqində daha fərqli nəticələrə gəlir. O hesab edirdi ki, din mühafizəkar bir qüvvə ola bilər, lakin bu, heç də qaçılmaz deyil. Məsələn, hinduizm maddi dünyadan qaçmağı, ona nəzarət edib formalaşdırmağı vurğulayaraq, uzun müddət Hindistanda sosial dəyişiklikləri əngəlləmişdir. Qərbdə isə xristianlıq günah və günahkarlara qarşı daim mübarizə aparmaqla mövcud nizama meydan oxuyan gərginlik və emosional dinamikanı yaratmışdı. Oxşaq olaraq, katolik kilsəsi Polşada 1980-ci illərdə kommunist rejimini devirən "Həmrəylik" hərəkatının legitimləşdirilməsində həlledici rol oynadı. Beləliklə, dinlər sosial dəyişikliklərə zəmin yarada da bilər.

Emil Dürkheym dinin davamlılığını onun əsas səciyyəsi olaraq görürdü. O bildirirdi ki, bütün dinlər dünyanı müqəddəs və dünyəvi sferalara bölür, müqəddəs obyektlər və simvollara mövcudiy-

yətin digər rutin aspektlərinə nisbətən daha fərqli davranılır. Dinlərin uzun zaman ərzundə mövcud ola bilməsinin səbəbi sosial bağların yaradıldığı və gücləndirildiyi əsas vasitə olmasındadır. Mərasim və rituallar insanları bir-birinə bağlamaqda son dərəcə əhəmiyyətli olduğu üçün din müxtəlif həyat böhranları, doğum, ölüm və evlilik kimi keçid məqamlarında özünü büruzə verir. Ciddi dəyişikliklər dövründə kollektiv mərasimlər insanların qrup həmrəyliyini yenidən təsbit edir. Mərasimlər "kollektiv coşqu" – insanları dünyəvi qayğılarından uzaqlaşdırmaqla, onları müvəqqəti olaraq daha ali bir hala daxil edən kollektiv toplantılarda ortaya çıxan güclü hisslər və enerji yaradır. Dürkheymə görə, insanların dini təcrübəsi sadəcə ideologiya və ya özünüaldatma kimi kənara atıla bilməz. O, faktiki olaraq həqiqi sosial qüvvələrin real təcrübəsidir.

Din sosiologiyası xüsusilə də sosial həmrəyliyin yaradılması baxımından dini institutlar və təşkilatların necə işlədiyini öyrənir. Çoxsaylı bir-birinə rəqib dinlər olduğu yerdə müxtəlifliklər sabitliyi pozan münaqişələrə çevrilə bilir. Buna bir neçə nümunə mövcuddur: Şimali İrlandiyada protestantlar və katoliklər, Hindistanda müsəlmanlar, siqhlər və hinduslar, Bosniya və keçmiş Yuqoslaviya ərazisində xristianlar və müsəlmanlar arasındakı münaqişələr, habelə ABŞ-da yəhudilər, müsəlmanlar və dini azlıqlara qarşı "nifrət cinayətləri".

*Tənqidi məqamlar*

Dünyəviləşmə dinin sosial həyatın müxtəlif sferaları üzərində öz təsirini itirmə proseslərini təsvir edir. Əgər biz tamamilə dünyəvi cəmiyyətdə yaşasaydıq, "din" anlayışı lüzumsuz, əhəmiyyətsiz olardı. Qərbi Avropada mövcud tendensiya "mənsubluq olmadan inanma" kimi təsvir edilir ki, aparılan sorğular da insanların əksəriyyətinin Tanrı və tanrılara inansa da, kilsə üzvlüyünün qürub çağında olduğunu göstərir (Davie 1994). ABŞ-da isə həm dini inanc, həm də kilsə iştirakı yüksəkdir. Ümumi nəticəyə gəlmənin çətinliyi sekulyarlaşma dərəcəsinin ölçülmə üsulu ilə bağlı fikirayrılığıdır.

Dini inancları olsa da, bir çox insan kilsə mərasimlərində və xidmətlərində iştirak etmir, yaxud da əksinə, vərdiş etdiyinə görə və ya dostları ilə görüşmək üçün müntəzəm olaraq kilsəyə gedən,

lakin güclü şəxsi inancları olmayan insanlar da var. Hətta tarixi yanaşma da yekun nəticəyə gəlməyə imkan vermir. Sənayeləşmədən əvvəl kilsə iştirakının yüksək, “keşişlik” institutunun ali sosial statusa, insanların kütləvi şəkildə güclü dini inanclara malik olmasını güman etmək olar. Lakin bütün bu fərziyyələr tarixi tədqiqatlar tərəfindən alt-üst edilmişdir. Orta əsrlər Avropasında əksər insanlar ən yaxşı halda dini inanclara münasibətdə laqeyd idilər və kilsə mərasimlərində dini bağlılıqdan daha çox borc hissinə görə iştirak edirdilər. Digər tərəfdən, bu gün daha az insan gündəlik həyatda ilahi və ruhi varlıqların mövcud olması düşüncəsinə sahibdir. Dürkheymin tezisinin tənqidçiləri iddia edirlər ki, kiçikmiqyaslı cəmiyyətlərin öyrənilməsi əsasında ümumiləşdirmə apararaq bütün dinlərin mahiyyətini başa düşmək mümkün deyil. XX əsr ərzində dünya cəmiyyətlərinin əksəriyyəti daha multikultural oldu: təkmillətli cəmiyyət daxilində müxtəlif dinlər mövcud ola bilərdi. Dürkheymin dinə sosial həmrəyliyin mənbəyi kimi baxması da çoxdinli cəmiyyətlər üçün az inandırıcı olmaqla yanaşı, bu tezis həm də müxtəlif dini inanclar ətrafında cəmiyyətdaxili konfliktləri adekvat şəkildə açıqlamır. Həmçinin dinin ruhlar və ilahi varlıqlara deyil, cəmiyyətə sitayiş olması fikri də şübhə doğurur. Bu, bir reduksionist arqument kimi görünə bilər. Hansı ki, bu zaman dini təcrübə sosial fenomenlə eyniləşdirilir. Bu arqument gerçəkliyin “ruhi” səviyyəsinin mövcudluğunu belə inkar edir.

*Aktuallığın davamı*

Ənənəvi dinlər öz gücünü itirdikcə, dindarlıq müxtəlif dini hərəkatlar çərçivəsində fərqli istiqamətlərə yönəldilir. İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində dünyəviləşmənin çox az göstəriciləri vardır. Yaxın Şərq, Asiya, Afrika və Hindistanın bir çox yerlərində həyat dolu və dinamik islam fundamentalizmi mövcuddur. Analoji olaraq, milyonlarla katolik Roma Papasını qarşılayır, pravoslav xristianlıq isə onilliklərlə davam edən kommunist repressiyalarından sonra keçmiş SSRİ-nin bir sıra regionlarında həvəslə qəbul olunur. Hətta ABŞ-da güclü rola malik olan din populyar yevangelik hərəkat və “teleyevangelizm” kimi yeni formalar alır.

Mişel Maffesoli (1995) "tayfalar dövründə" yaşadığımızı iddia edir. Bunu ümumi musiqi zövqləri, ideyalar, istehlak seçimləri və əyləncə üsulları ilə bir araya gələn kiçik qrupların sürətli artımı göstərir. Bu "neo-tayfalara" bağlılıq zəif və qısaömürlü ola bilər, lakin onlar insanın güclü sosiallaşma ehtiyacını, Dürkheymin təbiri ilə desək, "dini" tələbatını göstərir. Ənənəvi dinlər öz üzvlərinin sayını qorumağa çalışarkən, bəzi sosioloqlara görə, sekulyar ideyalar artıq özünü dini rolda göstərir. Buna nümunə gələcək demokratiya üçün səbirsizlənən, partikulyar olanı ümumbəşəri olanla əlaqələndirən insan hüquqlarına sekulyar fokuslanmadır. Xristian ənənəsi ilə oxşarlığa malik olan insan hüquqları diskursu "sekulyar din"in bir formasını təmsil edir (Rider 2003). Lakin bu "din"in mərkəzi fərd olmaqla, cəmiyyət və ya icma deyil.

Yeni dini hərəkatların maraqlı araşdırmalarından biri Karlo Barone tərəfindən İtaliyada "Soka Qakkay" cəmiyyətinin araşdırılmasıdır (2007). 75 il əvvəl meydana çıxan bu hərəkat İtaliyada xüsusən sürətlə böyüyən dini hərəkatdır. Müəllif onun niyə bu qədər uğurlu olduğunu açıqlayır. Bu din 1990-cı illərdən bəri Yaponiya hökumət koalisiyalarında mühüm rol oynayan Komeito siyasi partiyasına bağlı olmaqla qeyd edilən ölkədə 8 milyon üzvə malikdir. Lakin qeyri-yapon üzvlərin çoxu onun siyasi bağlantısının fərqində olmayaraq, bu dini yalnız özəl, şəxsi məsələ olaraq görür. Soka Qakkayın nailiyyətinin başlıca səbəbi onun təşkilati metodlarındadır. Üzvlər kiçik qrupda birləşir və güclü həmrəylik hissi yaradan təcrübələri paylaşmağa həvəsləndirilirlər, qrupun diqqəti isə emosional olaraq yüklənmiş mühitdə müqəddəs obyektlər üzərinə fokuslanır. Bir sözlə, qruplar Dürkheymin qeyd etdiyi kollektiv coşqu yaratmaqla, öz üzvlərini nisbətən tez və asanlıqla inteqrasiya edir.

*İstinadlar və ədəbiyyat*

Aldridge, A. (2013) *Religion in the Contemporary World: A Sociological Introduction* (3rd edn, Cambridge: Polity).

Barone, C. (2007) *'A Neo-Durkheimian Analysis of a New Religious Movement: The Case of Soka Gakkai in Italy'*, Theory and Society, 36(2): 117–40.

Davie, G. (1994) *Religion in Britain Since 1945: Believing without*

*Belonging* (Oxford: Blackwell).

Fenn, R. K. (2009) *Key Thinkers in the Sociology of Religion* (New York: Continuum).

Jones, R.P,. Cox D. and Navarro-Rivera J. (2012), *The 2012 American Values Survey: How Catholics and religiously unaffliliated will shape the 2012 elestions and beyond (Washington, DC*, Public Religion Research Institute

Maffesoli, M. (1995) *The Time of the Tribes: The Decline of Individualism in Mass Society* (London: Sage).

Reader, R. (2003) '*The Discourse of Human Rights – A Secular Religion, Implicit Religion*, 6 (1): 41–51.

## Əmək bölgüsü (Division of Labour)

*İşçi tərif*

İstehsal prosesində geniş iqtisadi qarşılıqlı asılılıq yaradan iş vəzifələri və məşğuliyyətlərin bir-birindən ayrılmasıdır.

*Anlayışın mənşəyi*

Əmək bölgüsünün ilk sistematik araşdırmalarından biri A.Smitin "Millətlərin rifahı" (1776) əsəridir. Kitabda əmək bölgüsü iynə istehsalı fabrikinin nümunəsində təsvir edilir. Smit iddia edirdi ki, bir adam  gündə 20 iynə istehsal edir, lakin bu işi bir neçə sadə fəaliyyətə ayırmaqla kollektiv şəkildə gündə 48 min iynə istehsal edilə bilər. Bu, planlı və sistematik əmək bölgüsü ilə qazanılacaq böyük mənfəətin klassik nümunəsidir. Emil Dürkheym ({1893} 1984) daha geniş anlamda industrial əmək bölgüsünün cəmiyyəti birləşdirən sosial həmrəylik formasında fundamental dəyişikliklərə səbəb olmasına dair nəzəriyyə irəli sürdü. O, oxşarlıqlara əsaslanan ənənəvi həmrəylik formalarının müxtəlifliklər və əməkdaşlıqdan (kooperasiya) qaynaqlanan modern formaya doğru dəyişdiyini müşahidə edirdi. Dürkheymə görə, əmək bölgüsü sadəcə iqtisadi fenomen olmayıb, bütövlükdə cəmiyyətin transformasiyasıdır.

*Məna və interpretasiya*

Müasir cəmiyyətlər çoxsaylı peşə kateqoriyaları və artan ixti

saslaşma ilə müəyyənləşən əmək bölgüsünə əsaslanır. Əmək bölgüsü həyatın normal cəhətinə çevrildiyinə görə onun bəşər tarixindəki əhəmiyyətini çətinliklə qavrayırıq. Halbuki aqrar cəmiyyətlərin ən erkən formalarında birbaşa kənd təsərrüfatında çalışmayanların əksəriyyəti uzun müddət şagirdlik dövrü keçən sənətkarlar idi. Bu, ona görə zəruri idi ki, onlar öz vəzifələrinin yalnız bir aspektini deyil, onun bütün aspektlərini əhatə etməli idilər. Sənayeləşmə maşın mexanizmləri və genişləndirilmiş əmək bölgüsündən istifadə etməklə eyni malları daha sürətlə, ucuz və səmərəli istehsal edərək bir sıra ənənəvi sənət növlərini məhv etdi. Manufaktura işçiləri uzun təlim prosesi keçmədən istehsal prosesinin yalnız bir hissəsini öyrənirdilər, bu isə onlara tez bir zamanda məhsuldar olmağa kömək edirdi. Bu prinsip işin digər formalarına da özünü göstərirdi. Nəticə isə ənənəvi cəmiyyətlərdəki təqribən 30 sənətin yerinə minlərlə peşə, rol və vəzifə adlarının yaranması oldu.

Emil Dürkheym əmək bölgüsünü çox vacib proses kimi görürdü. Bu fenomen sahibkarlar və işçilər arasında potensial konflikt kimi ciddi problemlər doğursa da, onun uzunmüddətli üstünlükləri də var idi. Ənənəvi cəmiyyətlərdə kollektivçilik fərd üzərində dominant idi və fərdiyyətçilik minimallaşdırılırdı. Cəmiyyəti birgə saxlayan həmrəylik forması oxşarlıqlar, stabil və nisbətən dəyişməz institutlardan, ümumi həyat tərzləri və nüfuz sahiblərinə hörmətdən qaynaqlanan "mexaniki həmrəylik" idi.

Kapitalizm, sənayeləşmə və urbanizasiyanın inkişafı ilə ənənəvi həyat və onunla birlikdə "mexaniki həmrəylik" aradan qalxdı. Əksər tənqidçilər sosial həmrəyliyin dağılması və fərdiyyətçiliyin təşviqinin daha çox konfliktə, sosial və əxlaqi aşınmaya yol açacağından qorxurdular. Lakin Dürkheym bununla razılaşmadı. O iddia edirdi ki, əmək bölgüsünün genişlənməsi nəticəsində həmrəyliyin yeni forması - "orqanik həmrəylik" meydana çıxır. Dürkheymə görə, rolların ixtisaslaşması daha böyük cəmiyyətlərdə sosial həmrəyliyi möhkəmləndirəcək, kiçik və qapalı icmalardan fərqli, daha möhkəm qarşılıqlı asılılıqlarla əlaqələndirəcəkdir. Hamımız çoxsaylı insanlar və onların bizim həyatımızı təmin edən əmtəə və xidmətlərindən asılıyıq. İndi bu asılılıq qlobal xarakter almağa başlayır. Bəzi istisnaları nəzərə almaqla, qeyd etmək olar ki, müasir cə-

miyyətdə insanların əksəriyyəti yedikləri ərzaq məhsullarını istehsal etmir, yaşadıqları evləri tikmir, istehlak etdikləri bütün maddi məhsullarla özlərini təmin etmirlər. Faktiki olaraq, "orqanik həmrəylik" daha möhkəm qarşılıqlı asılılıq yaradır, bundan əlavə, fərdi fərqlər və kollektiv məqsədləri daha effektiv balanslaşdırır.

*Tənqidi məqamlar*

Əmək bölgüsü millətlər arasında qlobal iqtisadi qarşılıqlı asılılığa səbəb olub. Bu mənada, Dürkheym əmək bölgüsünün dünya xalqlarını daha da yaxınlaşdıracağını və daha sıx əməkdaşlığa sövq edəcəyini iddia etməkdə haqlı idi. Lakin əksər tənqidçilərə görə, əmək bölgüsü işin deqradasiyası və işçilərin peşə səriştəsindən məhrum olması hesabına inkişaf edir. Kütləvi sənaye istehsalının yaranması ilə əlaqələndirilən elmi idarəetmə prinsipləri sosioloqların "aşağı etimad" sistemləri adlandırdığı, yəni menecmentin bütövlükdə iş prosesinə nəzarət etdiyi və işçilərin iş yerində çox az muxtariyyətə malik olduğu istehsal metodlarını ortaya çıxardı. "Aşağı etimad" sistemlərində işçilər bir qayda olaraq işindən məmnun olmur və bu isə o deməkdir ki, özlərini şirkətlə identifikasiya etmirlər. Yüksək yadlaşma səviyyəsi və işdə aşağı davamiyyət bu sistemlərin nəticəsidir. XX əsr boyu işçilər "aşağı etimad" sistemlərinə tab gətirməli oldular. Bir çox insan indi də buna davam edir və onların böyük əksəriyyəti yüksək istismarçı əməyin adi bir hal olduğu inkişaf etməkdə olan ölkələrdədir. Qlobal əmək bölgüsünün Qərbdə istehlakçılar üçün üstünlükləri olsa da, o həm də səfalət və istismar mənbəyidir.

*Aktuallığın davamı*

1970-1980-ci illərdən bəri nəhəng istehsal müəssisələrində standartlaşmış məhsulların kütləvi istehsalına əsaslanan əvvəlki modelin aradan qalxması və məqsədli sahəvi bazarlara uyğunlaşdırılmış istehsala marağın artması müşahidə olunur. Bu proses nəzəri yanaşmalarda Fordist istehsaldan post-Fordist çevikliyinə doğru keçid kimi dəyərləndirilib. Bu çeviklik istehsal metodları, depolama praktikaları və istehsal prosesinin menecer-işçi münasibətlərindən

məhsulların marketinqinə qədər hər bir aspektində baş verir. İstehsalat qrupları, problem həllinin komanda üsulları və sahəvi marketinq - qlobal iqtisadiyyat çərçivəsində rəqabət üstünlükləri naminə restrukturizasiyaya can atan şirkətlərin atdığı addımlardan bəziləridir. 2008-ci il qlobal maliyyə böhranı korporativ və hökumət qərarverməsi, habelə qlobal əmək bölgüsü üçün mühüm nəticələrlə yadda qaldı.

XX əsrin sonlarından etibarən inkişaf etmiş ölkələrin xidmət sektorlarında sürətli artım müşahidə edilirdi. Lakin növbəti mərhələ "offşorinq" - sistematik olaraq getdikcə daha çox iş vəzifələrinin xaricə köçürülməsi ola bilər (Blinder 2006). Blaynder bildirir ki, offşorinq xidmət istehsalına əsaslanan inkişaf etmiş iqtisadiyyatlarda inqilabi nəticələrə səbəb olacaq. Əksər ofis və xidmət vəzifələri asanlıqla offşora köçürülə bilər, onlar stabil və daha yaxşı ödənişli olduğundan belə işlərin itirilməsi şoku ən çox orta sinif və peşəkar qruplar tərəfindən hiss ediləcək. Məsələn, universitet kursları internet vasitəsilə dünyanın hər yerindən verilə bilər, bankinq və əksər müştəri xidməti rolları da buna oxşardır. Beləliklə, ortaya çıxan sual ondan ibarətdir ki, "postsənaye iqtisadiyyatlarında" hansı növ işlər qalacaq? Blaynder güman edir ki, bu qayğı və nəqliyyat kimi birbaşa əlaqə tələb edən peşələr olacaqdır. Lakin offşorinqin bu dərəcədə radikal olub-olmayacağı hələ aydın deyil.

London nümunəsi üzərində Ceyn Vills (2010) və həmkarları bütün dünyadan Britaniyaya gələn miqrantların bar işi, təmizlik işi, sosial qayğı və ictimai qidalanma kimi sahələrdə etirazsız olaraq işləməsindən böyük şəhərlərin asılı olduğunu göstərirlər. Əksər şəhərlər iş axtaran miqrantları cəlb etsə də, bu tədqiqat son iyirmi ildə müəyyən dəyişikliklərin baş verdiyini ortaya qoydu. Azad bazar iqtisadiyyatının neoliberal modeli subkontraktlar sisteminin normallaşması, əməkhaqqının azalması, əmək şəraitinin pisləşməsinə zəmin yaratdı və bu, Londonu demək olar ki, tam şəkildə şəhəri hərəkətdə saxlayan xarici işçi qüvvəsindən asılı hala gətirdi. Bu, yoxsulluq və sosial həmrəylik kimi siyasi məsələləri aktuallaşdırır. Vills və həmkarlarının yazdığı kitabda bu vacib məsələlərin mümkün həlləri təklif olunur.

*İstinadlar və ədəbiyyat*

Blinder, S. (2006) 'Offshoring: The Next Industrial Revolution?', Foreign Affairs, March/April: 113–28.

Durkheim, É. ([1893] 1984)The Division of Labour in Society (London: Macmillan). Morrison, K. (1998) Marx, Durkheim, Weber: Formations of Modern Social Thought(London: Sage), pp. 128–51.

Smith, A. ([1776] 1991) The Wealth of Nations (London: Everyman's Library).

Wills, J., Datta, K., Evans, Y., Herbert, J., May, J., and McIlwaine, C. (2010) Global Cities at Work: New Migrant Divisions of Labour (London: Pluto Press).

## İstehlakçılıq (Consumerism)

*İşçi tərif*

İstehlak mallarının davamlı olaraq əldə olunmasının həm iqtisadiyyat, həm də şəxsi rifaha faydalı olduğunu təşviq edən və nisbətən zəngin cəmiyyətlər üçün tipik olan həyat tərzidir.

*Anlayışın mənşəyi*

Güman ki, istehlahçılığın kökləri XIX əsrin əvvəllərinin sənaye inqilabına təsadüf edir. Bu zaman maddi məhsulların istehsalı kəskin artmış və onların ucuz qiymətə olması geniş sosial qrupları istehlaka cəlb etməyə imkan vermişdir. İlk olaraq, yuxarı siniflər və aristokratiya müasir istehlakçılara çevrildilər. Məhz bu qrup lüks malların geniş bazarını formalaşdırdı. XIX-XX əsrlər boyu nümayişkaranə istehlakçılıq bir sıra digər sosial qrupların da təcrübəsinə çevrildi, XX əsrin ortalarına yaxın isə istehlakçılıq bir həyat tərzi kimi inkişaf etmiş iqtisadiyyatları xarakterizə etməyə başladı.

İstehlakçılığın artmasının mühüm səbəblərindən biri XX əsrin əvvəllərindən etibarən kreditlərin asan əldə edilməsi oldu. Ötən əsrin sonlarından başlayaraq isə böyük borclarla yaşamaq normaya çevrildi və sosial status uğrunda mübarizə daha çox istehlak formalarına əsaslanmağa başladı. 1960-cı illərdən bəri sosioloqlar bildirirlər ki, kapitalist cəmiyyətlər yüksək maddi həyat standartları və daim nəyisə əldə etmək arzusunu təşfiq edən istehlakçılıqdan asılı vəziyyətə düşüb. Bu dəyişikliklər istehlak cəmiyyətinin meydana

çıxmasına gətirib çıxarıb. Eko-aktivistlər iddia edirlər ki, yüksək istehlak cəmiyyətlərinə keçid ətraf mühitə dağıdıcı təsir göstərir və zəruri olmayan israfçılığa, dayanıqsız praktikalara gətirib çıxarır.

*Məna və interpretasiya*

Kapitalist sənaye cəmiyyətləri kütləvi istehsal sisteminə əsaslanır. Bu həm də kütləvi istehlakın mövcud olması deməkdir. Mallar və xidmətlər alınmalı və istehlak edilməlidir. Baxmayaraq ki, istehlak və istehsal prosesləri çox müxtəlif coğrafi məkanlarda baş verə bilər. Mallar ən ucuz olduğu yerdə istehsal olunmalı, amma ən yaxşı qiymətlərin qoyula biləcəyi yerdə istehlak edilməlidir. Bunların isə müxtəlif yerlərdə olması daha düzgündür. XX əsrdə kapitalist sənaye cəmiyyətlərinin mərkəzi istiqaməti “istehsal paradiqması”ndan “istehlak paradiqma”sına doğru dəyişdi. İndi müasir sosiologiyada nisbətən zəngin cəmiyyətlərin “istehlak cəmiyyətləri” və ya “istehlak kapitalizmi” kimi xarakterizə olunması adi haldır.

İş tədricən identikliyin formalaşması prosesində daha az əhəmiyyət daşıyır. Bunun əvəzində istehlak ən azından daha çox azadlıq və fərdilik hissini verən müxtəlif elementlər əldə etməklə insanlara şəxsi identiklik qurmaq imkanı verir. İstehlak və istehlakçılıq ideologiyasının mərkəzi fokusu əmtəələrin mübadilə dəyərində məhsulların dəbə meyilli yönləndirilməsinə əsaslanaraq sürətli dəyişimini, nəticədə isə israfçılığı təşviq edir. İstehlakçının məhsul və brendlərlə identifikasiyası istehlakı gündəlik həyatın vacib hissəsinə çevirir. İkincisi, korporasiyalar istehsal tələbatlarını prioritetləşdirmək və yalnız bundan sonra müştərilər haqqında narahat olmaq deyil, əksinə, daha çevik və differensiasiya olunmuş istehlakçı tələbi yaratmağa çalışırlar. Belə keçid unifikasiya olunmuş “Fordist” istehsal metodlarının tənəzzülünü və sahəvi bazarları təmin edən daha çevik “post-Fordist” metodlara doğru meyli göstərir. İşçi deyil, məhz istehlakçı hakim aktordur. Üçüncüsü, istehlak cəmiyyətləri şəxsi identikliklərin inşasını mümkün edərək, istehsala əsaslanan sosial münaqişələrin mərkəzsizləşməsinə və sosial status uğrunda rəqabət mübarizəsinin simvolik mübadilələrə əsaslanmasına gətirib çıxarırlar. İstehlakçılığa və istehlak cəmiyyətinə doğru meyillənmə iqtisadi, siyasi və mədəni sferalarda əhəmiyyətli dəyişikli-

yi əks etdirir.

İstehlakçılıq həm də düşüncə tərzi, mentallıq, hətta davamlı olaraq istehlak arzusunu formalaşdıran bir ideologiyadır. İstehlak sosioloqları iddia edirlər ki, istehlak həzzi məhsulların istifadəsindən deyil, satın alınan şeylərin öncədən gözlənilməsindən qaynaqlanır. İnsanlar məhsul axtarışı ilə dərgiləri, vitrinləri və "ümumdünya hörümçək toru"nu gözdən keçirməklə və bu əmtəələri satın almamışdan öncə onları arzulamağa zaman xərcləyirlər. Kempbell (2005) iddia edir ki, modern istehlakçılığın ən həzverici və vərdişyaradıcı aspekti malların həsrəti, istənilməsi, arzulanması, axtarılmasıdır. Bu, reklam işi ilə təhrik edilən arzulama, həsrətlə gözləməyə əsaslanan və insanların niyə heç zaman qane edilmədiyini izah edən istehlakın "romantik etikası"dır.

*Tənqidi məqamlar*

İstehlakçılıq konsepsiyası kapitalizmi anlamağa yeni istiqamət əlavə etsə də, onun kapitalist ekspansiyanın *səbəbi* olması aydın deyildir. İstehlakın istehsala impuls verməsi ideyası istehlakçıların tələblərinə ağırlıq gətirsə də, bəzi tədqiqatçılar şirkətlərin marketinq və brendinq büdcələrinin insanları aktiv istehlakçılara çevirərək, arzular və tələblər yaratmağı qarşılarına məqsəd qoyduqlarını bildirməklə bu ideyanı ağlabatan hesab etmirlər. Əsas məsələ isə bu sistemdə kimin - istehsalçı, yoxsa istehlakçının hakim gücə sahib olmasıdır. Böyük transmilli kapitalist korporasiyalar həqiqətənmi istehlakçı tələbinin mərhəmətinə bağlıdır?

Tənqidlərin daha bir tipi istehlakçılığın özünə yönəlib. O, sosial münasibətləri və ətraf mühiti dağıdıcı kimi nəzərdən keçirir. İstehlakçılıq istəkləri tələbatlara çevirmək və insanları bu tələbatları reallaşdırmağa qadir olduqlarına və bunu etməli olduqlarına inandırmaq vasitəsilə "işləyir". Beləliklə, bizim istehlakımız üçün potensial olaraq sonsuz sayda dəb, yeni əmtəə və xidmətlərin axını meydana çıxır. Arzu və tələbatların belə qarışması təhlükəli görünür, belə ki, xoşbəxtliyin alına bildiyi və bu tip əmtəə istehlakının təbii olması kimi saxta inancı doğurur. Əksinə, biz istəkləri tələbatlardan ayıraraq, birinciləri ixtisar edərək, dünyadakı bütün insanların həqiqi tələbatlarının qarşılanmasını təmin etməliyik. Problem

odur ki, tələbatları müəyyən etmək üçün göstərilən bütün səylər uğursuzluğa düçar olub. Tələbatlar mədəni özünəməxsusluğa malikdir, həqiqi və süni tələbatların fərqləndirilməsinin hamının razı olacağı ciddi meyarı mövcud deyildir.

*Aktuallığın davamı*

"İstehlakçılıq" anlayışı və ondan irəli gələn istehlak cəmiyyəti sosioloji tədqiqatlar üçün məhsuldar olub. İstehsal proseslərinin istehlak qəlibləri ilə əlaqələndirilməsi kapitalizmin daha balanslaşdırılmış və yaxşı dərk olunmasını mümkün edib. Məsələn, bu iki elementi bir araya gətirən yanaşma "istehsal və istehlak çarxı" nəzəriyyəsidir. Bu nəzəriyyə modernizmin insan cəmiyyəti və təbii mühit arasındakı münasibəti necə transformasiya etdiyini başa düşmək üçün sənayeləşmə, kapitalist iqtisadiyyat və kütləvi istehlakı özündə birləşdirir. "Çarx" obrazı onu göstərir ki, kütləvi istehsal və istehlak sistemi başladığı halda, onun dayandırılması qeyri-mümkündür.

İstehlakçılıq sadəcə həyat tərzi deyil, inkişaf etmiş dünyada bütövlükdə həyat yolunun adi bir fenomenə çevrilən aspektidir. Cons və həmkarlarına görə (2008), mövcud hal ondan ibarətdir ki, Britaniyada və ya başqa bir yerdə nisbətən yaşlı əhali əvvəlki nəsillərdən daha yüksək gəlirə malikdir və bəziləri erkən yaşda tam və ya qismən təqaüdə çıxmağı seçirlər. Yaşlı insanların indiki nəsli post-1945-ci il istehlak cəmiyyətini yaratmağa kömək edirdi. İlk "istehlak vətəndaşları" kimi onlar xidmətlərin passiv istehlakından daha çox yaşlı vaxtlarında belə fəal istehlakçı olmağa davam edirlər. Bu empirik tədqiqat istehlakçılığın yaşlı insanlara necə təsir etməsi və fenomenin özünün onların təsirinə necə məruz qalmasını aşkara çıxarır.

"Yaşıl istehlak" artan trendə çevrilir, halbuki bu anlayış kifayət qədər geniş və müəyyən edilməsi çətindir. Gilq və həmkarlarının Devon qraflığında (İngiltərədə) 1600 ailə arasında apardığı anket sorğusunda məhz nəyin yaşıl istehlakın daha dayanıqlı həyat tərzlərini qəbul etməyə motivləşdirdiyi öyrənilmişdir. Tədqiqat dörd əsas qrupu aşkar etdi: "Sadiq eko-aktivistlər" dayanıqlı istehlaka daha çox meyillidirlər - yerli, orqanik və ya "ədalətli ticarət"

rejiminə uyğun məhsulları alır, qida tullantılarını kompostlaşdırırlar. "Dominant eko-aktivistlər" qida tullantılarını kompostlaşdırmaqdan başqa digər məsələlərdə oxşar davranırlar. "Təsadüfi eko-aktivistlər" belə davranışa bəzən və ya nadir hallarda meyil edirlər. Dördüncü qrup ətraf mühitin müdafiəsinə biganə olan insanlardır ki, göstərilən davranışlar onlara ümumiyyətlə xas deyil.

Dayanıqlı istehlak və ekoloji dəyərlər arasında əlaqə mövcuddur. Bu isə hökumətlərin yaşıl istehlakdan daha dayanıqlı həyat tərzinə keçidi təşviq etməsinin zəruriliyini göstərir.

*İstinadlar və ədəbiyyat*

Aldridge, A. (2003)Consumption (Cambridge: Polity).

Campbell, C. (2005) The Romantic Ethic and the Spirit of Modern Consumerism (Oxford: Blackwell).

Gilg, A., Barr, S., and Ford, N. (2005) 'Green Consumption or Sustainable Lifestyles? Identifying the Sustainable Consumer',Futures, 37(6): 481–504.

Jones, I. R., Hyde, M., Higgs, P., and Victor, C. R. (2008) Ageing in a Consumer Society: From Passive to Active Consumption in Britain (Bristol: Policy Press), esp.chapter 5.

## Kapitalizm (Capitalism)

*İşçi tərif*

Qərbdə meydana çıxmış, biznesin inkişafı, yenidən investisiya üçün gəlir istehsalına və bazar mübadiləsinə əsaslanan iqtisadi sistemdir.

*Anlayışın mənşəyi*

XVIII əsr siyasi iqtisadçıları bazarları, mübadiləni, qiymətləri və malların istehsalını müzakirə edirdilər. Adam Smit isə iddia edirdi ki, bazarda müəyyən sosial nizam və iqtisadi tarazlıq azad mübadilənin "görünməz əl"i tərəfindən meydana çıxır. Lakin "kapitalizm" termini XIX əsrin ortalarına - Marks və Engelsin istehsalın kapitalist formasını müzakirə etməsinə qədər meydana çıxmadı.

Marksa görə, kapitalizm burjuaziya və ya kapitalist sinfinə gəlir gətirmək naminə bazarda mübadilə üçün malların istehsalına əsaslanan istismarçı iqtisadi sistemdir. Marksist nəzəriyyədə kapitalizm sosial inkişafın kommunizmə qədərki yekun mərhələsidir. Kommunizm isə özündən əvvəlki sinfi cəmiyyətlərə xas nəhəng bərabərsizliyi sonlandıracaq.

Alternativ konsepsiyanı Maks Veber irəli sürmüşdü, onun kapitalizmi kalvinist dini inanclarla əlaqələndirən yanaşması Marksın irimiqyaslı tarixi sxemi ilə ziddiyyət təşkil edirdi. Veberə görə, kapitalizm inqilabi dəyişikliyin məhsulu deyildi və o, gələcəkdə kommunizmə yol açmayacaqdı. Fəhlə sinfinin gələcəyi kapitalizmin sonu deyil, onun inkişafı ilə bağlıdır. O qeyd edirdi ki, uzunmüddətli rasionallaşma prosesi və bürokratik təşkilatların yayılması modernizmi anlamaq üçün fundamental rola malikdir. Kapitalizm ən azından bürokratik hakimiyyətin boğucu effektlərini yumşaldan rəqabət və innovasiyanı təşviq edərək, yeni ideyaların həyata keçirilməsi azadlığına icazə verdi.

*Məna və interpretasiya*

Marksın nəzəriyyəsi kapitalizmə dair ən nüfuzlu nəzəriyyə olaraq qalır. O, kapitalizmi bütövlükdə insan cəmiyyətlərinin tarixinin feodal cəmiyyətində törəyən son mərhələsi kimi nəzərdən keçirir. Marks primitiv ovçu-yığıcı cəmiyyətləri ilə başlayan, qədim quldarlıq quruluşu, sonra isə torpaq sahibkarları və təhkimlilər arasındakı bölgüyə əsaslanan feodalizmlə davam edən proqressiv mərhələləri qeyd edirdi. Tacirlərin və sənətkarların meydana çıxması aristokratiyanı əvəz edəcək kapitalist və ticarət sinfinin başlanğıcı anlamına gəlirdi. Marks kapitalizmdə iki əsas elementi qeyd edir: kapital – pul, istehsal maşınları və hətta fabriklər daxil olmaqla gələcəkdə daha çox gəlir qazanmaq üçün istifadə edilə və ya yenidən investisiya olaraq qoyula bilən istənilən aktivlər. İkincisi, muzdlu əmək, yəni istehsal vasitələrinə sahib olmayan və ödənişli iş tapmalı olan işçi kütləsi. Kapitala sahib olanlar hakim sinfi, əksəriyyət isə fəhlə sinfini və ya proletariatı formalaşdırır. Kapitalistlər və fəhlələr qarşılıqlı asılı olsa da, bu, istismarçı münasibətdir və öz növbəsində sinfi mübarizəni kəskinləşdirir. Marks iddia edirdi ki, tədri-

cən bütün siniflər aradan qalxacaq və maraqları birbaşa münaqişədə olan iki əsas sinif qalacaqdır.

Bununla belə, Marks sadəcə tənqidçi deyildi, o, kapitalizmin yüksək produktivliyini, insanları dini hakimiyyətin zəruri olmayan boyunduruğundan və "kənd həyatının axmaqlığından" azad etdiyini aydın şəkildə görürdü. Kapitalizm insanın öz gələcəyini təbii qüvvələrin mərhəmətinə sığınmadan formalaşdıra biləcək nəhəng potensiala malik olduğunu sübut etdi. Problem ondan ibarət idi ki, əgər insanlar öz müqəddəratına nəzarət etməlidirlərsə, bunun üçün zəruri əməkdaşlıq rəqabətcil kapitalist sosial münasibətlərlə əngəllənir. Nəhəng istehsal qüvvələri və onların uğrunda rəqabət aparmaq zərurəti arasındakı ziddiyyət yalnız inqilab yolu ilə aradan qaldırıla bilər. Marksın 150 il əvvəl verdiyi inqilab proqnozu gerçəkləşmədi.

Kapitalizmin inkişafında əhəmiyyətli fərqlər baş verdi: o, Marksın dövrünə xas "ailə kapitalizmi"ndən menecer kapitalizminə (yəni, şirkətlərin ailə üzvlərinin nəzarətindən çıxması), daha sonra isə XX əsrin ümumi rifah kapitalizminə (yəni iri şirkətlərin öz əməkdaşlarına uşaqlara qayğı, ödənişli məzuniyyət, həyatın sığortalanması kimi bir sıra xidmətləri təklif etməsi) doğru uzun yol keçdi. Rifah kapitalizminin ən yüksək səviyyəsi 1930-cu illərdən əvvələ təsadüf etdi. Məhz bundan sonra həmkarlar ittifaqları fəhlələrin sistemdən faydalanmaq cəhdlərinin əsas mənbəyinə çevrildilər. Ən sonuncu mərhələ isə digər böyük şirkətlərdə paya sahib olan korporasiyaların geniş təcrübəsinə əsaslanan "institusional kapitalizm"dir. Onun əsasında korporasiyaların digər şirkətlərin aksiyalarına sahib olması kimi geniş yayılmış təcrübə durur. Bir-birilə əlaqəli olan direktor şuraları korporativ aləmin böyük hissəsinə nəzarət edir, belə ki, qərar qəbulu zamanı şirkətdə bloklayıcı aksiyalar paketi başqa korporasiyaya məxsusdur. Qloballaşmanın intensivləşməsi ilə əksər böyük korporasiyalar artıq beynəlxalq iqtisadi kontekstdə fəaliyyət göstərirlər.

*Tənqidi məqamlar*

Veber və marksist mövqelər arasındakı debat hər zaman əxlaqi və normativ mühakimələri özündə ehtiva edib. Marksistlərə gö-

rə, kapitalizm bərabərsizlik yaradan və bərabərsizlik üzərində inkişaf edən, "tarixin zibil qutusuna" atılmalı olan iqtisadi sistemdir. Veberçilərə görə isə kapitalizm istismarçı olsa da, ona alternativ sistemlər daha az məhsuldar və daha çox avtoritardır, həmçinin onlar demokratiyanın miqyasını və şəxsi azadlığın ifadəsini məhdudlaşdırırlar. Kapitalist iqtisadiyyatların ümumi dəyərləndirilməsi baxımından sosioloqlar arasında hələ də bir razılaşma yoxdur.

Əksər sosioloqlar Marksın kapitalizmin devrilməsi və inqilab proqnozunun tamamilə yanlış olduğunun sübuta yetirildiyini qəbul edirlər. İnqilabların baş verdiyi yerlərdə - Rusiya (1917) və Çində (1949) Marksın modeli tətbiq edilmədi, çünki onlar özündə inkişaf etmiş sənaye proletariatını deyil, kəndlilər və kənd təsərrüfatı işçilərini ehtiva edirdi. XX əsrin sonunda sovet kommunizminin süquta uğraması həm də bir eranın sonu kimi qəbul edilir, qloballaşma və ümumdünya kapitalist sistemlərinin daha sıx inteqrasiyası isə sosializm və kommunizm istiqamətində istənilən hərəkət üçün maneədir. Əksər marksistlərə görə, Marksın kapitalist iqtisadiyyatların adaptiv qabiliyyətlərini aşkar şəkildə doğru qiymətləndirə bilməməsinə rəğmən, onun kapitalizmin əsas mexanizmləri və böhrana meyilliliyinə verdiyi təhlil hələ də özünü doğruldur.

*Aktuallığın davamı*

Sovet İttifaqı, Şərqi Avropa və dünyanın digər regionlarında kommunist rejimlərinin süquta uğramasından az vaxt keçməsinə baxmayaraq, hazırda kapitalist sistemlərinin dünyada hökmran olmasına dair ciddi fikir ayrılığı yoxdur. 1989-cu ildə Berlin divarının sökülməsi və Almaniyanın birləşməsi, SSRİ-nin parçalanması və Şərqi Avropada kommunizmin süqutundan sonra kommunizm/sosializm artıq sadəcə ölü bir ideologiya idi. Hazırkı müxaliflik postsosialist hərəkatlar (məsələn, antiqloballaşma və antikapitalist hərəkatlar, habelə anarxist və ekoloji kampaniyalar kimi) formasını alıb.

Ən son tədqiqatlarda milli kapitalist iqtisadiyyatlar daxilində müxtəlifliklərə maraq artmışdır. ABŞ və Danimarkada kapitalizmin Kempbel ve Pedersen tərəfindən həyata keçirilən (2007) müqayisəsi "kapitalizmin müxtəliflikləri" debatlarına faydalı yanaşma ola bi-

lər. Çox zaman kapitalist iqtisadiyyatların minimal iqtisadi tənzimləmə, aşağı vergi səviyyəsi və kiçikhəcmli dövlət sosial təminatı ilə daha effektiv "işlədiyi" qeyd olunub. Lakin Danimarka bu düşüncəni alt-üst edir. Kapitalizmin Danimarka versiyası nisbətən yüksək vergilər, böyük dövlət büdcəsi, yüksək tənzimləmə dərəcəsi və açıq iqtisadiyyata əsaslansa da, hələ də daha aşağı tənzimləmə modelinə yaxın olan kapitalizm versiyaları ilə uğurla rəqabət aparır. Tədqiqatçılara görə, Danimarkada şirkətlər əmək bazarlarını, peşə və qabiliyyətləri koordinasiya edən və tənzimləyən, habelə sənayenin inkişafı siyasətini həyata keçirən dövlət institutları sayəsində üstünlüklər əldə etdikləri üçün uğurludur. Məhz bu institutlar Danimarkanın rəqabət qabiliyyətini müəyyən edir. Onlar qlobal bazarlarda uğur qazanmaq üçün birdən daha çox yol olduğunu göstərir.

Qlobal istiləşmə ilə bağlı narahatlıqlar kontekstində kapitalizmin "dayanıqlı" olub-olmayacağı ciddi bir məsələyə çevrilib. Markandya (2009) hesab edir ki, bu, yalnız bazar əsaslı tədbirlərin karbon qazı tullantılarının azaldılması istiqamətində işləyəcəyi halda mümkündür. O göstərir ki, əgər biz karbon tullantılarının azaldılmasını və stabilləşməsini istəyiriksə, ekoloji problemlər, xüsusilə də iqlim dəyişikliyi dövlət tənzimləməsini və koordinasiyalı fəaliyyət tələb edir. Bununla belə, istənilən karbon reduksiya layihəsi yalnız ədalətli hesab olunduğu təqdirdə uğur qazana bilər. Buna görə də, Markandya karbon tullantılarının adambaşına düşən qlobal kvotasının tətbiq edilməsi ideyasını irəli sürür. Əgər karbon tullantıları kvotası sistemi uğurlu olarsa, $CO_2$-in hər tonu 420 ABŞ dolları ətrafında olmalıdır. 2009-cu ildə karbon qazının hər tonu üçün bazar qiyməti 15 avro idi. Bazar qiymətindəki bu radikal bərabərsizlik kapitalizmin və qlobal istiləşmənin qarşısını almağa yönəlmiş bazar yönümlü tədbirlərin imkanlarını ciddi şübhə altına alır.

*İstinadlar və ədəbiyyat*

Campbell, J. L., and Pedersen, O. K. (2007) 'Institutional Competitiveness in the Global Economy: Denmark, the United States and the Varieties of Capitalism', Regulation and Governance, 1(3): 230–46.

Ingham, G. (2008) Capitalism (Cambridge: Polity).

Markandya, A. (2009) ‘Can Climate Change be Reversed under Capitalism?’, Development and Change, 40(6): 1139–52.
Marx, K., and Engels, F. ([1848] 2005) The Communist Manifesto (London: Longman).

## Təhsil (Education)

*İşçi tərif*

Əsasən icbari məktəb təlimi vasitəsilə bilik və bacarıqların nəsildən-nəslə ötürülməsini təmin edən sosial institutdur.

*Anlayışın mənşəyi*

Təhsil bilik, bacarıq və davranış normalarının ötürülməsidir. Bunların vasitəsilə cəmiyyətin yeni üzvləri onun bir parçasına çevrilir. Bu gün təhsil əsasən “doğru bir şey” kimi görünür. Təhsil sistemindən keçərək yazıb-oxumağı, hesablamağı öyrənmiş, təfəkkür vərdişlərini mənimsəmiş əksər insanlar təhsilin faydalı olması ilə razılaşarlar. Lakin sosioloqlar təhsil və tədrisi fərqləndirirlər. Təhsil zəruri bilik və bacarıqları əldə etməyə imkan verən, şəxsi üfüqləri genişləndirən və bir sıra məkanlarda reallaşdırılan sosial institut kimi müəyyən oluna bilər. Tədris isə formal prosesdir, onun vasitəsilə müəyyən tip bilik və bacarıqlar öncədən işlənilmiş tədris proqramlarına uyğun olaraq ötürülür. Bir qayda olaraq, tədris müəyyən yaşa qədər məcburi xarakter daşıyır. İnkişaf etmiş ölkələrdə icbari təhsil genişlənərək, kollec və hətta universiteti də əhatə edir.

XVIII əsrin sonlarına qədər məktəb təhsili özəl məsələ idi və yalnız ən zəngin ailələr uşaqlarına təhsil verə bilirdi. XIX əsrdən başlayaraq (xüsusilə də, XX əsrdə) industrial iş yerləri və ofislərdəki işçilər arasında savadlılıq və riyazi bilik ehtiyacı nəzərə alınaraq icbari dövlət təhsil sistemləri formalaşdırıldı. Funksionalist nəzəriyyələr məktəblərin formal funksiyasını təhsilli və səriştəli əhalini yetişdirməkdə görürsə, əksər marksist və radikal tənqidçilər iddia edirlər ki, bərabərsizliyin hökm sürdüyü kapitalist cəmiyyətinin norma və dəyərlərini gizli şəkildə özündə ehtiva edən tədris proqra

mı vardır. Ən son tədqiqatlar diqqəti təhsilin daha çox mədəni reproduksiya, mədəni dəyər, norma və təcrübələrin ümumən ötürülməsinə, həmçinin buna nail olmanın mexanizm və proseslərinə yönəldirlər.

*Məna və interpretasiya*

Emil Dürkheym təhsili cəmiyyətdə sosial həmrəyliyi qoruyan ümumi dəyərləri uşaqlara aşılayan əsas sosiallaşma agentivliyi hesab edirdi. Dürkheym xüsusilə əxlaqi prinsiplərə və qarşılıqlı məsuliyyətə önəm verirdi, belə ki, bir sıra tədqiqatçıların fikrincə, məhz bu prinsiplər həmrəyliyi pozan rəqabətli fərdiyyətçiliyin qarşısını alır. Lakin Dürkheymə görə, sənaye cəmiyyətlərində təhsil daha bir funksiyanı yerinə yetirir – bu, ailədə qazanılması qeyri-mümkün olan ixtisaslaşmış peşə vərdişlərinin öyrədilməsidir. Talkot Parsons bu funksionalist yanaşmanı inkişaf etdirdi. Onun fikrincə, təhsilin başlıca funksiyalarından biri müsabiqə xarakterli imtahanlar və qiymətləndirmə sistemi vasitəsilə fərdi nailiyyətlərin əsas dəyər olaraq aşılanmasıdır. İmtahanlar mühüm əhəmiyyət kəsb edir, belə ki, onlar partikulyar ailə standartlarından fərqli, universal meritokratik meyarlara əsaslanaraq, insanların sinif, gender və etnik mənsubiyyət deyil, şəxsi qabiliyyət və nailiyyətlərinə əsasən yer tutmasını təmin edir.

Lakin çoxsaylı tədqiqatlar təhsil və tədrisin həyat şanslarını bərabərləşdirməyə kömək etmək əvəzinə, sosial bərabərsizlikləri daha da artırdığını göstərir. Pol Villis (1977) Birmingem şəhərində bir məktəbin nümunəsi üzərində Britaniyadakı vəziyyəti araşdırarkən belə bir tədqiqat sualı irəli sürür: Nəyə görə fəhlə sinfindən olan uşaqlar bir qayda olaraq, valideynlərinin işinə oxşar işlərə düzəlirlər? Bu, meritokratik təhsil sistemi üçün aktual məsələdir. Villis gənc oğlanların imtahan və ya karyeranı deyil, məktəbi tezliklə tərk etməyi və pul qazanmağı aşılayan antiməktəb submədəniyyətlərini aşkar etdi. O, belə submədəniyyətlərin "göy yaxalıqlı" fəhlə sinfi mədəniyyətinə yaxın olduğunu göstərir. Beləliklə, məktəb uğursuzluqları məqsədyönlü olmasa belə, uşaqları fəhlə sinfi həyatına hazırlayırdı.

*Tənqidi məqamlar*

Funksionalist nəzəriyyə təhsil sisteminin formal funksiyalarını qeyd etməkdə doğru mövqe sərgiləyir. Lakin xüsusən də hazırkı multikultural cəmiyyətlərdə bütün cəmiyyət üçün ümumi dəyərlər həqiqətən varmı? Marksistlər məktəblərin uşaqları sosiallaşdırması ilə razıdırlar, lakin onların fikrincə, bu, imkanların bərabərliyi prinsipi ilə bağlı olmayıb, kapitalist şirkətlərini işçi qüvvəsi ilə təmin etmək məqsədini daşıyır. Məktəb həyatının strukturları iş həyatının strukturları ilə uyğunluq təşkil edir: konformluq müvəfəqiyyətə gətirib çıxarır, müəllimlər və menecerlər tapşırıqlar verir, şagirdlər və işçilər onları icra edir, məktəb və iş heyəti iyerarxik şəkildə təşkil olunur və bu, qaçılmaz bir şey kimi təqdim edilir (Bovls və Gintis 1976).

"Gizli tədris planı" ideyası təhsil sosiologiyasına ciddi təsirə malik olub. İlliç (1971) iddia edirdi ki, məktəblər gəncləri məşğul saxlamaq və iş həyatına başlayana qədər onları küçədən uzaq tutmaq üçün yaradılan nəzarət təşkilatlarıdır. Onlar sosial nizamın qeyri-tənqidi qəbulunu təşviq etməklə, uşaqlara sinfi mövqelərini bilməyi öyrədir. İlliç təklif edirdi ki, cəmiyyətdə təhsil resurslarının hər kəsin ehtiyac duyduğu istənilən zaman əlçatan olması və insanların standartlaşdırılmış kurrikulumu öyrənməyə məcbur olmadan özlərinin istədiklərini öyrənməsinə xidmət edən "məktəbsizləşdirmə" həyata keçirilsin. Resurslar kitabxanalarda və informasiya depo-banklarında (bu gün internet şəbəkəsində) toplana və hər bir şagird üçün əlçatan edilə bilər. Bu ideyalar öz dövründə ümidsizcəsinə idealist görünürdü. Lakin hazırda internet vasitəsilə distant təhsil tendensiyası və ömür boyu öyrənmə ideyası artıq o qədər də qeyri-real görünmür.

*Aktuallığın davamı*

Ciddi tənqidlər qarşısında təhsilin müsbət funksiyalarına necə bəraət qazandıra bilərik? Məktəb tədrisi struktur bərabərsizliklərin reproduksiyasının bir hissəsidir, lakin eyni zamanda o, insanları bu bərabərsizlikləri dərk etməyə və onlara qarşı gəlməyə qadir edən bilik və bacarıqlarla təchiz edir. Əlavə olaraq, təhsil sisteminin struktur rolunu tamamilə anlayan bir sıra müəllimlər vardır ki, onu

təkmilləşdirməyə və daxildən dəyişdirməyə çalışırlar. Heç bir dəyişiklik perspektivini təklif etməyən istənilən nəzəriyyə sosial strukturun gücünə daha çox ağırlıq verir və insanın yaradıcı agentivliyini yetərincə dəyərləndirmir. Təhsil – yalnız təhsil sisteminin müasir vəziyyəti deyil, ümumilikdə cəmiyyətə dair bir sıra diskussiyaların mühüm mövzusudur.

Son illərdə inkişaf etmiş əksər cəmiyyətlərdə məktəb və kollec səriştəsinin qazanılmasında qızların oğlanları "geridə qoyması" müşahidə olunur. Oğlanların nədən geri qalması və bu vəziyyətin dəyişdirilməsinə dair mübahisələr meydana çıxır. Güman edilirdi ki, qızlar uğur əldə etmək qarşısında əvvəlki maneələrə artıq sinə gəriblər. Lakin Birləşmiş Krallıqda həyata keçirilmiş empirik tədqiqat onu göstərdi ki, yüksək uğurlar əldə edən 12-13 yaşlı qızlar hələ də qəbul edilmiş feminlik normaları şəraitində "həddən artıq ağıllı" olmağa can atdıqları zaman identiklik problemi ilə üzləşirlər. Qızlar nəinki sinif yoldaşları ilə münasibətlərdə çətinliklər yaşayır, həm də müəllimin diqqəti uğrunda mübarizə aparmalı olurlar. Yüksək nailiyyətlər əldə etmiş gənc qızlar və qadınlar üçün həyat reallığı akademik nailiyyətlərin çılpaq statistiklarında göstərildiyindən daha mürəkkəbdir.

*İstinadlar və ədəbiyyat*

Bartlett, S., and Burton, D. M. (2007) Introduction to Education Studies(London: Sage), esp. chapter 2.

Bowles, S., and Gintis, H. (1976) Schooling in Capitalist America: Educational Reform and Contradictions of Economic Life(New York: Basic Books).

Gatto, J. T. (2002) Dumbing us Down: The Hidden Curriculum of Compulsory Schooling (2nd edn, New York: New Society).

Illich, I. D. (1971) Deschooling Society (Harmondsworth: Penguin).

Skelton, C., Francis, B., and Read, B. (2010) 'Brains before Beauty? High Achieving Girls, School and Gender Identities', Educational Studies, 36(2): 185–94.

Willis, P. (1977) Learning to labour: How working-class kids get working class jobs (London: Saxon House).

Zamudio, M., M, Russel, C, Rios, F.A, and Bridgeman J.L., (eds) (2011) Critical theory matters: Education and ideology.

## Təşkilat (Organization)

*İşçi tərif*

Sosial tələbatların ödənilməsi və ya müəyyən məqsədi icra etmək üçün daxilən strukturlaşdırılmış sosial qrup və ya kollektivdir.

*Anlayışın mənşəyi*

Tarixən təşkilatlar təhlükəsizliyin təminatı, qida axtarışı və yaşayış yerinin tikilməsi üçün birləşən ilk insan qruplarından başlayır. Lakin sosiologiyada "təşkilat" anlayışının özü nisbətən yenidir. Təşkilat tədqiqatlarının çıxış nöqtəsi Maks Veberin bürokratiyalara kapitalizmin və müasir həyatın fundamental səciyyəsi kimi verdiyi təsvirdir. Veber bürokratiyanı sadəcə təşkilat formalarından biri kimi qəbul edir. Lakin onların müasir, rasional formaları mövcud olanların ən effektividir, ona görə də bütün təşkilatlar son nəticədə bürokratik olmağa məhkumdur. Sonrakı nəzəriyyə və tədqiqatlar bu təməl interpretasiyanı genişləndirmiş və ya tənqid etmişlər. Tədricən təşkilat sosiologiyası təşkilati struktur və funksiyalar nəzəriyyəsindən qeyri-formal münasibətlərə, təşkilat mədəniyyətinə, iqtidar və gender münasibətlərinin necə işləməsinə və şəbəkələrin genişlənməsi məsələlərinə yönəldi.

*Məna və interpretasiya*

Təşkilatlar kiçik insan qruplarından transmilli korporasiyalara və çoxmillətli qeyri-hökumət təşkilatlarına (QHT-lər) qədər dəyişir, lakin tədqiqatların böyük hissəsində nisbətən iri srtukturlar – milli hökumətlər, universitetlər, məktəb, xəstəxana, dini və xeyriyyə təşkilatları, şirkət və həmkarlar ittifaqları maraq obyektidir. Təşkilatlar institutlarla qarşılaşdırıla bilər. Mədəniyyəti təşkil edən təsbit olunmuş norma, dəyər və davranış nümunələri institutlar deməkdir (nikah, ailə, təhsil). Təşkilatlar isə, adətən, yazılmış qayda, norma və prosedurlar vasitəsilə müəyyən məqsədlərə nail olmaq üçün niy-

yətli şəkildə yaradılan birliklərdir. Bundan əlavə, belə formal təşkilat qismən leqal tələblərə söykənir. Məsələn, universitetlər qiymətləndirmə siyasətlərindən səhiyyə, təhlükəsizlik və işdə bərabərliyə qədər hər şeyi idarə edən qanunları təmin etməlidirlər. Bu tip rəsmi təşkilatlar bütün dünyada dominant forma olaraq qalır.

Təşkilatlar hər kəsin həyatına müdaxilə edir: "Biz təşkilatlarda doğulur, təşkilat daxilində təhsil alırıq, əksəriyyətimiz həyatının çox hissəsini təşkilatlar üçün çalışmaqla keçirir" (Etzioni 1964). Təşkilatlar həm də modern həyat üçün ehtiyac duyulan koordinasiyanın böyük hissəsini icra edir. Lakin maraq münaqişələri kooperasiya kimi təşkilatlarda mərkəzi yer tutur. İşçilər və işəgötürənlər, yaxud müxtəlif işçi qrupları və işçilər arasında hakimiyyət uğrunda mübarizənin nəticəsi təşkilatın ümumi fəaliyyəti, həmçinin məqsədlərini müəyyənləşdirə bilər. Belə münaqişələrin tanınması təşkilatları fasiləsiz olaraq işləyən maşınlar kimi nəzərdən keçirən funksionalist yanaşmadan imtina deməkdir (Silverman 1994). Tam dəqiq ifadə olunmasa da, funksionalizm təşkilatı oradakı insanlardan ayırır. Daha müasir "sosial fəaliyyət" yanaşmasına görə təşkilat - "fərqli və çox zaman münaqişədə olan maraq və məqsədlərə malik insanların davamlı və daim dəyişən koalisiyasıdır; bu insanlar iqtidarda olanların tələblərinə cavab verən dəqiq çərçivələr daxilində öz vəzifələrini yerinə yetirməyə can atırlar" (Watson 2008: 110). Bu yanaşma zaman keçdikcə təşkilatın daxili strukturunun necə dəyişdiyini anlamağa zəmin yaradır və tədqiqat diqqətini təşkilatlarla xarici qruplar arasındakı dəyişən münasibətlərə yönəldir.

Börns və Stalker (1966) Şotlandiyada elektron avadanlıq istehsal edən şirkətlərdə apardıqları tədqiqatda təşkilatın iki növünü aşkar etdilər: mexanistik və orqanik. Mexanistik təşkilatlar bürokratikdir. Orqanik təşkilatlar isə daha sərbəst strukturludur və onların ümumi məqsədləri dar şəkildə müəyyən olunmuş vəzifələrdən üstündür. Daha sonra Sayn və həmkarları (2006) 1996-2001-ci illərdə fəaliyyətə başlayan internet şirkətlərini tədqiq etmək üçün mexanistik və orqanik strukturların arasındakı qarşılaşdırmanı istifadə etdilər. Güman etmək olardı ki, belə bizneslər daha az formallaşdırılmış struktura malikdir və bir çox hallarda orqanik tipli təşkilatlardır, ancaq bu, mütləq olaraq belə deyil. İlkin mərhələdə mexa-

nistik strukturlu şirkətlər daha effektiv fəaliyyət göstərirlər, belə ki, ixtisaslaşmış rollar qeyri-müəyyənliyi  və anlaşılmazlığı azaldır, həlledici mərhələdə təşkilatın səmərəliliyi artır. Bu səbəbdən mexanistik və orqanik strukturların qarşılaşdırılması mütləq xarakter daşıya bilməz, təşkilatın hər bir formasının effektivliyi şirkətin inkişaf mərhələsindən asılıdır.

Təşkilatlar xüsusi olaraq yaradılmış fiziki mühitdə mövcuddur. Məsələn, menecerlər və icraçı direktorlar çox zaman şaquli təsnifat sistemində yuxarıya daha yaxın yerləşirlər. Otaqların, dəhlizlərin, açıq məkanların nizamlanması da nüfuz sisteminə bağlıdır, rəhbər tərəfindən əməkdaşlara daim nəzarət etmək imkanı yaradır. Bu, "koll-sentrlər" və açıq planlama olan ofislər üçün xarakterikdir. Mişel Fuko (1973, 1978) iddia edirdi ki, görünənlik işçinin nə dərəcədə nəzarət altında olmasını göstərir. Həmçinin, qeyri-müəyyənlik vasitəsilə işçinin özünənəzarəti mövcuddur, belə ki, müşahidənin olub-olmaması naməlum olduğundan, bu, insanı "hər ehtimala qarşı" daim öz davranışına nəzarət etməyə məcbur edir.

*Tənqidi məqamlar*

Əsas təşkilat konsepsiyalarının uzun müddət mövcud olan tənqidinə görə, formal qayda və prosedurlar olsa da, onları birmənalı şəkildə müəyyənedici kimi qəbul etmək yanlış olardı. Təcrübədə təşkilatlar qaydalardan yan keçmək və ya onlara əməl etməmək sayəsində fəaliyyət göstərirlər. Məsələn, sənaye təşkilatları təhlükəsizlik texnikası və əməyin gigiyenasına dair geniş qaydalar toplusuna malik ola bilər, lakin işçilər işi vaxtında yerinə yetirə bilmək üçün onlardan yan keçəcəklər. Meyer və Roven (1977) formal qaydalara mərasim və ritual xarakteri daşıyan, lakin təşkilatın real həyatı haqqında çox az məlumat verən "miflər" kimi baxırdılar.

Oxşar olaraq, təşkilatları xarakterizə etdiyi söylənilən qeyri-şəxsi şaquli iyerarxiyalar, xüsusilə yüksək pillələrdə yanıldıcı ola bilər. Qeyri-formal sosial şəbəkələr təşkilatın bütün səviyyələrində inkişaf edir, idarəetmə səviyyəsində isə onlar, bəlkə də, ən böyük önəm daşıyır. Direktorlar şurası və hissədarlar şirkət məqsədlərinin və siyasətinin müəyyənləşdirilməsinə görə məsuliyyət daşıyırlar, ancaq reallıqda həlledici qərarları yalnız bir neçə insan qəbul edir,

digərlərinə isə bu qərarları dəstəkləmək qalır. Müxtəlif şirkət rəhbərləri şəxsən tanış ola, eyni klub üzvü ola, eyni yerlərdə vaxt keçirə bilərlər. Belə şəxsi əlaqələr qeyri-formal müzakirə, məsləhətləşmə və bəzən biznes-elita adlandırılan yüksək təbəqədən olan fərdlərin şəbəkələri üzrə məlumatın ötürülməsinə gətirib çıxarır. Belə vəziyyətdə hakimiyyət və nəzarətin qaçılmaz olaraq kiçik bir elitanın əlində cəmləşəcəyini Robert Mişels (1911, 1976) öncədən söyləmişdi. O, bunu "oliqarxiyanın dəmir qanunu" (oliqarxiya – azlığın idarəetməsi) adlandırır və hesab edirdi ki, bu həm təşkilatlar daxilində, həm də bütövlükdə cəmiyyətdə gerçək demokratikləşməyə əngəldir.

1970-ci illərdən etibarən feminist tədqiqatları təşkilatlarda gender rollarının disbalansına diqqət yetirirdi. Bu araşdırmalar təşkilatları cinsə görə peşə seqreqasiyası terminləri ilə təsvir edirdilər – qadınlar aşağı məvacibli rutin fəaliyyətə cəlb olunur, ucuz və etibarlı işçi qüvvəsi kimi istifadə edilir və kişilərlə eyni karyera irəliləyişi imkanlarına malik olmurlar. Qadınlar kişi bürokratiyasının tələblərini ödəyir, kişilərə çox işləmək, səyahət etmək və yalnız öz işinə fokuslanmağa şərait yaradırlar. Beləliklə, müasir təşkilat – kişilərin hökmranlıq etdiyi, qadınların isə iqtidardan məhrum olduğu mühitdir (Kanter 1877; Ferguson 1984).

*Aktuallığın davamı*

Konvensional təşkilati modellər və Yaponiyada müharibədən sonra sənayeləşmə dövründə meydana çıxan böyük şirkətlər arasında bəzi təməl fərqlər vardır. Yapon şirkətlərində daha az aşkar olan iyerarxiya sezilir: bütün səviyyələrdə işçilərlə təşkilati siyasət haqqında danışılır, işçilər Qərbdəkilərə nisbətən daha az ixtisaslaşır, korporasiyalar "ömür boyu işlə təmin etməyə" meyilli olurlar. Lakin iqtisadi problemlər tədricən olduqca qeyri-çevik və çoxxərcli hesab edilən yapon modelində dəyişikliyə səbəb oldu. Əksər analitiklər Yaponiyada Qərbə xas olana yaxın daha rəqabətcil, fərdiyyətçi biznes təşkili modelini tapmağa çalışırdılar (Freedman 2001). Şəbəkələrin artması və təşkilatın şəbəkələnmiş modeli son illərdə olduqca çox müzakirə edilmişdir, lakin bu dəyişikliyin miqyası hələ tam aydın deyil (Castells 2009). Ənənəvi təşkilat daxilində mü-

əyyən qeyri-formal münasibətlər olsa da, formal təşkilatlar olmadan müasir dünyanın uğurlu koordinasiyası ehtimal daxilində görünmür.

Hazırda təşkilatlarda daha çox qadın işləyir və gözləmək olardı ki, bu dəyişiklik ilk növbədə proqressiv hesab olunan, bərabərlik prinsipinə əsaslanan siyasi təşkilatlarda, yəni fəhlə partiyaları və həmkarlar ittifaqlarında üzə çıxacaq. Gilyom və Poçik (2011) bu ehtimalı həmkarlar ittifaqlarının nümunəsində yoxlamaq üçün bioqrafik metoddan istifadə ediblər. Bu tədqiqat onu ortaya çıxardı ki, bu gün qadınlar yeni birlik üzvləri və aktivistləri arasında yaxşı təmsil olunurlar; bu, Böyük Britaniyada ittifaqların özünün proaktiv və hədəfi bəlli fəaliyyətlərinə görədir. Lakin hətta ən çox feministləşmiş ittifaqlarda belə qadınlar hələ də liderlik mövqeləri baxımından daha aşağı səviyyədə təmsil edilirlər. Görünən odur ki, qadınları daha yüksək mövqelərə həvəsləndirməyi hədəfləyən siyasətə rəğmən, "maskulin təşkilati mədəniyyət", qeyri-formal kişi şəbəkələri və işlə ailə həyatını balanslaşdırmaq problemi gerçək gender bərabərliyinin formalaşmasına əngəl törədir.

*İstinadlar və ədəbiyyat*

Burns, T., and Stalker, G. M. (1966) The Management of Innovation(London: Tavistock).

Castells, M. (2000) The Rise of the Network Society (2nd edn, Oxford: Blackwell).

Etzioni, A. (1964) Modern Organizations (Englewood Cliffs, NJ: Prentice Hall). Ferguson, K. E. (1984) The Feminist Case against Bureaucracy (Philadelphia: Temple University Press).

Foucault, M. (1973) The Birth of the Clinic: An Archaeology of Medical Perception (London: Tavistock).—— (1978)The History of Sexuality (London: Penguin).

Freedman, C. (ed.) (2001)Economic Reform in Japan: Can the Japanese Change? (Cheltenham: Edward Elgar).

Godwyn, M., and Gittell, J. H. (eds) (2012) Sociology of Organizations: Structures and Relationships (Thousand Oaks, CA: Pine Forge Press).

Guillaume, C., and Pochic, S. (2011) 'The Gendered Nature of Union Careers: The Touchstone of Equality Policies? Comparing France

and the UK',European Societies, 13(4): 607–31.

Kanter, R. M. (1977)Men and Women of the Corporation (New York: Basic Books). Lune, H. (2010) Understanding Organizations(Cambridge: Polity).

Meyer, J. W., and Rowan, B. (1977) 'Institutional Organizations: Formal Structure as Myth and Ceremony', American Journal of Sociology, 83: 340–63.

Michels, R. ([1911] 1967) Political Parties(New York: Free Press).

Silverman, D. (1994) 'On Throwing Away Ladders: Re-writing the Theory of Organizations', in J.Hassard and M. Parker (eds), Towards a New Theory of Organizations (London: Routledge), pp. 1–23.

Sine, W. D., Mitsuhashi, H., and Kirsch, D. A. (2006) 'Revisiting Burns and Stalker: Formal Structure and New Venture Performance in Emerging Economic Sectors', Academy ofManagement Journal, 49(1): 121–32.

Watson, T. J. (2008) Sociology, Work and Industry(5th edn, London: Routledge).

## MÖVZU 5. QEYRİ-BƏRABƏR HƏYAT İMKANLARI

### Gender (Gender)

*İşçi tərif*

Müəyyən cəmiyyət üzvlərindən gözlənilən və arzu olunan sosial, mədəni və psixoloji xüsusiyyətlər və davranışdır.

*Anlayışın mənşəyi*

1960-cı illərdə çoxsaylı nəzəri və empirik feminist tədqiqatları hətta müasir cəmiyyətlərdə belə  kişi və qadınlar arasında ciddi bərabərsizliyə diqqət yönəldənə qədər gender sosiologiya üçün əhəmiyyətli dərəcədə məhəl qoyulmayan mövzu olaraq qalırdı. Klassik sosiologiya əksər hallarda kişilərin üstünlüyünə əsaslanan gender nizamını elə mövcud olduğu  kimi qəbul edirdi. Məsələn, funksionalist nəzəriyyələrdə gender rollarının cəmiyyətin funksional tələbatlarından nəşət aldığı qeyd olunurdu: qadınlara ev təsərrüfatındakı “ekspressiv” rollar, kişilərə formal iqtisadiyyatdakı “instrumental” rollar şamil edilirdi. Feminist tədqiqatlar isə bu, ilk baxışdan təbii görünən bərabərsizliyi sorğulayır və göstərirdilər ki, kişi hökmranlığı bir çox tərəfləri ilə sinfi bərabərsizliyə bənzəyir. Buna baxmayaraq, bəzi tədqiqatçılar gender bərabərsizliyini izah etmək üçün mövcud sosioloji nəzəriyyə və anlayışlardan, məsələn, sosiallaşma nəzəriyyəsi və ya münaqişə nəzəriyyələrinin birindən istifadə edirdilər. Son illər “gender” anlayışının özü həddən artıq “sərt” hesab olunur. Bəzi tədqiqatçılar isə bu anlayışın qeyri-sabit və daim dəyişən olduğunu güman edirlər.

*Məna və interpretasiya*

Sosiologiyada cins (kişi və qadınlar arasında anatomik və fizioloji fərqlər) və gender (kişi və qadınlardan gözlənilən psixoloji, sosial və mədəni fərqlər) anlayışları fərqləndirilir. Bir çox sosioloq-

lar qeyd edir ki, bioloji xüsusiyyətlərlə insanların nümayiş etdirdiyi müxtəlif sosial davranışlar arasında əlaqələndirici mexanizmin olmasının heç bir sübutu yoxdur. Bu, genderin mürəkkəb sosial konstrukt olmasını göstərir.

Bəzi sosioloqlar gender sosiallaşmasını müşahidə edilən gender fərqlərinin izah olunmasına kömək edən sosiallaşma agentivlikləri - ailə, məktəb, kütləvi media və s. vasitəsilə gender rollarının mənimsənilməsi prosesi kimi nəzərdən keçirirlər. Ailədə, yaşıdlar qrupunda və məktəbdə bir qayda olaraq özünüeyniləşdirmənin gender formaları təşfiq olunur. Onlar uşaqlar tərəfindən mənimsənilir və bununla da gender fərqləri təkrarlanır, kişi və qadınlar sosiallaşma prosesində fərqli rolları mənimsəyirlər. Gender differensasiyalı oyuncaqlar, geyim, verilişlər, film və videooyunlardakı stereotipik rollar - hamısı gender gözləntilərinə münasibətdə komformluğun mədəni dəstəklənməsinin nümunələridir. Son tədqiqatlar onu göstərir ki, gender sosiallaşması sadə və birtərəfli proses deyil, çünki insanlar bu prosesə fəal olaraq qoşulur, gözləntiləri inkar edə və ya dəyişdirə bilir, bu isə sosiallaşmanı daxilən qeyri-stabil və inkar olunmağa açıq edir.

Bəzi sosioloqlar cins və gender arasındakı təməl fərqləndirmənin yanlış olmasını və mədəniyyətin üzərində gender fərqlərinin yaratdığı bioloji nüvənin olması ehtimalını təkzib edirlər. Onlar cinsi bioloji olaraq determinləşən, genderi mədəni olaraq mənimsənilən kimi nəzərdən keçirməkdənsə, cins və genderi sosial konstrukt kimi anlamağı təklif edirlər. Yəni məsələ yalnız gender identikliyində deyil, insan bədəninin özünün də sosial qüvvələrin təsiri ilə formalaşması və dəyişməsindədir. İnsanlar öz bədənlərini demək olar ki, istədikləri kimi fiziki məşq, pəhriz, pirsinq, fərdi dəb, plastik cərrahiyə və cinsin dəyişilməsi üzrə əməliyyatlarla yarada və dəyişə bilərlər. Gender identikliyi və cinsi fərqlər fərdi insan bədənləri ilə ayrılmaz şəkildə bağlıdır, mədəni və bioloji olaraq şərtlənən tərəfləri fərqləndirmək demək olar ki, qeyri-mümkündür.

Konnel (2005) patriarxat və maskulinliyi gender münasibətləri nəzəriyyəsinə inteqrasiya edərək, genderə ən hərtərəfli yanaşmalardan birini təklif etmişdir. O hesab edir ki, əmək, iqtidar və kateksis (şəxsi və (və ya) cinsi münasibətlər) - müxtəlif olsa da, onlar cə-

miyyətin birgə təsir göstərən və bir-birilə münasibətlər zəminində dəyişən, qarşılıqlı asılılığa malik hissələri və qüvvələridir. Əmək prosesi əməyin ev təsərrüfatı və əmək bazarında cinsə görə bölgüsü sayəsində baş tutur. İqtidar dövlət, ordu və ailə kimi sosial institutlarda hökm, məcburetmə və ideologiya şəklində gerçəkləşir.

Kateksis nikah, seksuallıq və uşaq tərbiyəsi də daxil olmaqla emosional, intim və şəxsi münasibətlərin daxili dinamikasına aiddir. Gender nizamının zirvəsində hegemon maskulinlik yerləşir. O, mədəniyyət vasitəsilə özəl həyat və müxtəlif sosial sahələrə sirayət edir. Hegemon maskulinlik heteroseksuallıq və nikahla, ancaq bundan əlavə həm də hökmranlıq, haqqı ödənilən əmək, güc və fiziki möhkəmliklə birbaşa olaraq əlaqəlidir. Çox az sayda kişi bu şəkilləndirilmiş obraza uyğun gəlsə də, onların əksər hissəsi hegemon maskulinliyin üstünlüklərindən istifadə edir. Maskulinliyin üstün olduğu gender nizamında homoseksuallıq əsl kişiliyə müxaliflik kimi nəzərdən keçirilir. Homoseksual maskulinlik stiqmatizasiya olunaraq, kişi gender iyerarxiyasının ən aşağı hissəsində yerləşir. Feminliyin bütün növləri hegemon maskulinliyə tabe olunan mövqelərdə formalaşır. Subordinasiyaya tabe olmayan identiklik və həyat üslublarını formalaşdıran qadınlar mövcuddur, onlara feministlər, lesbianlar, "evdə qarımışlar", mamaçalar, ifritələr, intim xidmət işçiləri, əl əməyi işçiləri aiddir, lakin onların müqavimət göstərən feminlik təcrübələri bir qayda olaraq "tarixdən gizlədilmiş" olur.

*Tənqidi məqamlar*

Bir sıra tədqidçilər qeyd edir ki, hegemon maskulinliyin mövcudluğu aydın olsa da, Konnel onun sözün əsl mənasında qaneedici təsvirini təqdim etməyib. Çünki Konnel nəyin "hegemonluğa" qarşı çıxdığını dəqiq təyin etmir. Məsələn, indi uşaq tərbiyəsinə daha çox kişi cəlb olunur. Bunu hegemon maskulinliyin davamı, yoxsa ona zidd tendensiya kimi qəbul etməliyik? Nəyin hegemon maskulinliyi zəiflətdiyini bilməyənədək, onu ilk növbədə nələrin konstruksiya etdiyini necə bilmək olar? Bəzi sosial psixoloqlar da belə bir sual üzərində düşünür ki, kişilər dominant norma və təsəvvürlərə uyğun maskulinliyi özlərində necə formalaşdırırlar? Əgər onlar özləri hegemon maskulinlik ideallarına uyğun yaşamırlarsa, belə uyğunsuz-

luq onlar üçün nə deməkdir? Qısası, hegemon maskulinliyə müqavimət praktik mənada nəyə bənzəyə bilər?

*Aktuallığın davamı*

"Gender" anlayışı sosiologiyada mühüm əhəmiyyət kəsb etməyə başlayıb. Bu, qismən feminist tədqiqatların nəticəsidir. Lakin nisbətən yeni olan seksuallıq ("kvir nəzəriyyəsi" adlanan sahə də daxil olmaqla) tədqiqatları da bu anlayışdan geniş şəkildə istifadə edib və onu dəyişib. Batler (2004) hesab edir ki, gender "performativdir". Gender öz predmetinə bərabər deyil, o həm də bədənə ayrılmaz aidliyə malik deyil. O, daha çox fasiləsiz fəallıq, yerinə yetirilmə prosesində olan iş və ya performansdır. Deməli, gender qeyri-sabit sosial kateqoriyadır, çoxsaylı variasiyaları özündə ehtiva edə və radikal dəyişkən ola bilər. Məsələn, yeni yaranan liberalizasiya hərəkatlarındakı yeni transgender, biseksuallıq və lesbianlıq performanslarını göstərmək olar. Genderin mahiyyəti və anlaşılma forması insanların öz genderini necə həyata keçirməsindən asılıdır, bu performansın xarakteri isə sürətlə dəyişə bilər.

Gender bərabərsizliyi bir çox cəmiyyətlərdə təsdiqlənmiş faktdır, lakin onun miqyası fərqlidir. Mandel (2009) gender bərabərsizliyinin azaldılması istiqamətində dövlət müdaxiləsinin nəticələrini müqayisə etmək üçün on dörd inkişaf etmiş ölkədə gender nizamı və dövlət siyasətini təhlil edib. O yazır ki, bəzi ölkələrdə uşaqlara görə qadınlara müavinətlər verilir, digərlərində əmək şərtləri və ailə yükünü yüngülləşdirirlər. Ancaq hər iki halda dövlətin fəaliyyəti gender rollarının ənənəvi bölgüsünə əsaslanır və bu, qadınların daha zəif iqtisadi vəziyyətinə son qoymur. Daha çox qadının haqqı ödənilən əmək fəaliyyətinə başlamasına imkan verən siyasətlər daha səmərəli görünür. Lakin Mandelin qeyd etdiyi kimi, onlar ayrılıqda işlək olmayıb, ağır ailə zəhmətini qadınların üzərinə qoyan ideologiyaların dəyişməsini tələb edir. Odur ki, uşağa qulluq üçün valideynlərə (yəni kişilər də daxil olmaqla) məzuniyyətin verilməsi ailə yükünü daha bərabər əsaslarla bölüşdürmək üçün ilk praktiki addımlardandır.

*İstinadlar və ədəbiyyat*

Bradley, H. G. (2012) Gender (2nd edn, Cambridge: Polity).
Butler, J. (2004) Undoing Gender (London: Routledge).
Connell, R. W. (2005) Masculinities (2nd edn, Cambridge: Polity).
Holmes, M. (2007) What is Gender? Sociological Approaches (London: Sage).
Mandel, H. (2009) 'Configurations of Gender Inequality: The Consequences of
Ideology and Public Policy', British Journal of Sociology, 60(4): 693–719.

## İnterseksionallıq (Intersectionality)

*İşçi tərif*

Birölçülü konseptuallaşdırmanın güman etdiyindən daha mürəkkəb ayrı-seçkilik formalarını yaradan, sinif, irq və (və ya) etnik mənsubiyyət, gender, əlillik və seksuallıq daxil olmaqla, sosial bərabərsizliyin müxtəlif tiplərinin kəsişməsidir.

*Anlayışın mənşəyi*

Marksdan sonra sosiologiya sosial sinifləri fərdlərin həyat şanslarını müəyyən edən əsas bərabərsizlik forması kimi nəzərdən keçirirdi. XX əsr ərzində getdikcə bərabərsizliyin digər istiqamətlərinin əhəmiyyət daşıdığı qəbul edilmiş, 1970-ci illərdə isə müasir cəmiyyətlərdə bərabərsizliyin müxtəlif mənbələrdən bəhrələnməsi qənaətinə gəlinmişdir. Məsələn, sinif və genderin bir-birini qarşılıqlı gücləndirməsinə dair nəzəriyyə yaratmaq cəhdlərinə baxmayaraq, bu sahədə sistematik yanaşma yox idi. Sosioloji tədqiqatların diqqəti bərabərsizliyin sosial sinifdən fərqli formalarına yönəldikcə aydın olurdu ki, sinfi nəzəriyyələr bilavasitə bu bərabərsizlik formalarına transfer oluna bilməz. İnterseksionallıq konsepsiyası ilk olaraq Kimberli Krinşou (1989) tərəfindən ABŞ-da irq və cinsin kəsişməsini təhlil etmək üçün istifadə olunmuşdur. Tezliklə bu konsepsiya Andersen və Kollinz (1990; 2016) tərəfindən 1990-cı ildə dərc olunmuş məcmuədə tətbiq edilir, məcmuədə sinif, irq, gen-

der və seksuallığın insan identikliklərini formalaşdırması və həyat şanslarını müəyyən etməsi təhlil edilirdi (Crenshaw, 1989). Qaradərili feministlərin tədqiqatları interseksional nəzəriyyələrin inkişafında instrumental xarakter daşıyırdı və bu nəzəriyyələr uzun müddət məhz amerikan elmində meydana çıxaraq inkişaf etmişdir. Hazırda isə vəziyyət tədricən dəyişməkdədir (Crenshaw, 1991).

*Məna və interpretasiya*

Bərabərsizliyin yeganə forması kimi "sinif" anlayışından tədricən uzaqlaşma sosioloqları bu fikrə gətirdi ki, müasir insanların həyatını dərk etmək üçün siniflə digər bərabərsizlik formalarının əlaqəsini üzə çıxarmaq lazımdır *(Andersen and Collins 1990, 2016; Rothman 2005).* Hazırda sosial və mədəni rəngarənglik faktının tanınmasından başlayan interseksionallıq nəzəriyyəsi bunu etməyə çalışanlar arasında ən nüfuzlusudur. Bu, bəsit yanaşma deyil. Yanaşma onu nəzərdə tutur ki, "qaradərili", "fəhlə sinfi", qadınlar", "əlillər", "homoseksuallar" kimi kateqoriyaları nəzərdən keçirən sosioloji tədqiqat və nəzəriyyələr həddən artıq ümumiləşdirmələrə yol verirlər. Sosioloqların fəhlə sinfi və qadınların təcrübəsini müzakirə etməsi nə deməkdir? Sinfi mövqe fəhlə sinfindən olan əksər insanların ilkin özünüidentifikasiyası olmaya da bilər. Ağdərili heteroseksual fəhlənin həyatı qaradərili homoseksual fəhlədən olduqca fərqlənə bilər, məhz empirik tədqiqatlar identikliyin hansı formasının daha əhəmiyyətli olduğunu göstərməyə qadirdir.

İnterseksionallığın tədqiqi konkret hallarda bir-birilə çuğlaşan fərqlərin müxtəlif formalarının öyrənilməsinə yönəlmişdir. Bu, insanların real olaraq yaşadığı həyatın olduqca mürəkkəb təhlil formalarına gətirib çıxarır. Bu tədqiqatlar sadəcə təsviri xarakter daşımır. O, cəmiyyətdə bərabərsizlik və ayrı-seçkilik yaradan iqtidar münasibətlərinin necə cərəyan etdiyini anlamağa yönəlmişdir (Berger and Guindoz 2009). İnterseksionallığın tədqiqi sinif, irq və genderin bəsit cəmi demək deyildir. Əksinə, bu kateqoriyalardan hər biri digərinə təsir göstərir, birlikdə isə "kontekstdən asılı olaraq bəzən təzyiqə məruz qalan, marginal, bəzən isə imtiyazlı və üstünlük verən olur" (Smooth 2010:34). Bir sözlə, interseksional kateqoriyalar onları təşkil edən diskret elementlərinə bölünməyən sosial möv-

qələri yaradır, onlar hissələrin cəmindən daha geniş məna daşıyırlar.

İnterseksional tədqiqatlarda insanın real həyatına daxil ola bilən keyfiyyət metodlarına və həyat boyu bərabərsizliyin təsirini rekonstruksiya edən bioqrafik metoda üstünlük verilir. Belə metodoloji seçim interseksional tədqiqatları sorğu və kəmiyyət təhlilinin əsas rol oynadığı meynstrim olan sinfi tədqiqatlardan fərqləndirir. İnterseksionallıq həm sosial həyatın rəngarəngliyinin təsviri, həm də bu rəngarəngliyin nəzəriyyəsidir. Lakin o həm də müxtəlif sosial mövqelərin qarşılıqlı təsirinə önəm verən üsul, yəni metodologiya kimi nəzərdən keçirilə bilər. Bu metodologiya sosial təcrübənin müxtəlifliyinə daha hərtərəfli və etibarlı yanaşmanı təmin etmək üçün işlənilmişdir.

*Tənqidi məqamlar*

İnterseksional nəzəriyyədə və bu istiqamətdə olan tədqiqatlarda bəzi problemlər də mövcuddur. Təhlilə bərabərsizliyin neçə forması və identikliyin neçə kateqoriyası daxil edilməlidir? Bəzən buna "et cetera" ("və sairə") adı verirlər: bəzi tədqiqatlarda sinif, gender və irqə "və sairə" əlavə edirlər ki, bərabərsizliyin çoxsaylı mənbələrini göstərmiş olsunlar (Lykke, 2011). Əgər belədirsə, tədqiqatçılar əldə etdikləri nəticələrini təsdiqləmək üçün zəruri olan bütün mənbələri əhatə edib-etmədiklərini necə bilirlər? İkinci problem istifadə olunan kateqoriyalara aid edilən nisbi çəkidir. Biz bu kateqoriyaları bərabər çəkili kimi qəbul etməliyik, yoxsa onların bəzilərinin insan həyatına təsirinin digərlərindən daha vacib olduğunu güman etməyə əsas var? Məsələn, marksist nəzəriyyəyə görə, kapitalist cəmiyyəti şəraitində sinfi mövqenin imkan və həyat şanslarını müəyyən edən əsas hərəkətverici qüvvə olmasını güman etmək daha əsaslıdır. Fərdi identikliyin müxtəlif elementlərinin kəsişmə üsullarının təhlili ümumi məsələyə çevrildi, lakin yadda saxlamaq lazımdır ki, Böyük Britaniya və digər ölkələrdə etimada layiq sosioloji tədqiqatlar var ki, onlar sosial yoxsulluğun (disadvantage) struktur patternlərini üzə çıxarmaqda davam edirlər: məsələn, sinfi fraksiyalar və ya etnik azlıqlar kimi böyük sosial qruplara aid olan

və oxşar sosial mövqe tutan fərdlərin həyat şanslarına təsir göstərən patternləri.

*Aktuallığın davamı*

"İnterseksionallıq" anlayışı yalnız yoxsulluq deyil, bütövlükdə sosial həyatın rəngarəng təcrübəsini üzə çıxarmaq cəhdləri ilə əlaqədar olaraq mühüm əhəmiyyət kəsb edir. Bir sıra tədqiqatlar göstərir ki, sosial həyat daha incə fərqləri nəzərə aldıqca daha mürəkkəb şəkildə üzə çıxır. Barnard və Törner (2011: 4) qeyd edirlər ki, "Milton-Kinsdə yaşayan, elmi dərəcəyə malik, induizmə sitayiş edən, üçüncü nəsil orta sinfə aid olan hind qadınının təcrübəsi ilə əlil həyat yoldaşı və iki övladla Bredfordda yaşayan, ali təhsili olmayan, islam dininə mənsub olan, ikinci nəsil orta sinfə aid hind qadınının təcrübəsi arasında çox az ümumilik ola bilər".

Son illər çox vaxt qeyd olunur ki, hüquq bərabərliyinə dair qanunvericiliyin effektiv olması üçün sosial siyasət interseksionallığa diqqət yetirməlidir (Hancock 2007). Alonso (2012) bu tezisi Portuqaliya nümunəsində nəzərdən keçirir. Bu ölkə bərabərlik siyasətinin hazırlanmasına vətəndaş cəmiyyətinin müxtəlif qruplarının cəlb olunmasının zəngin tarixinə malikdir. Portuqaliyanın tapdığı həll yolunun mahiyyəti hüquq bərabərliyi məsələləri ilə işləyən mövcud strukturların koordinasiya modelinin inkişafına zəmin yaratmaqdır. Müəllif qeyd edir ki, bəzi məhdudiyyətlərə baxmayaraq, bu yanaşma mövcud struktur daxilində olan təcrübə və ekspertizanın saxlanılmasına imkan verir. Bu həm də kəsişən bərabərsizlik formalarına həm ayrı-ayrı qruplar, həm də ölkə miqyasında təsir potensialını yaradır. Tam inteqrasiya olunmuş interseksional rejimin tarixi qısa olsa da, o öz gələcəyi üçün yol açır.

*İstinadlar və ədəbiyyat*

Alonso, A. (2012) 'Intersectionality by Other Means? New Equality Policies in Portugal', Social Politics, 19(4): 596–621.

Andersen, M. L., and Collins, P. H. (eds) ([1990] 2016) Race, Class, and Gender: An Anthology (9th edn, Boston, MA: Cengage Learning).

Barnard, H., and Turner, C. (2011) Poverty and Ethnicity: A Review of the Evidence (York: Joseph Rowntree Foundation).

Berger, M. T., and Guidroz, K. (eds) (2009) The Intersectional Approach: Transforming the Academy through Race, Class, and Gender (Chapel Hill: University of NorthCarolina Press).

Crenshaw, K. W. (1991) 'Mapping the Margins: Intersectionality, Identity Politics and Violence against Women of Color', Stanford Law Review, 43(6): 1241–99.

Hancock, A.-M. (2007) 'Intersectionality as a Normative and Empirical Paradigm', Politics and Gender, 3(2): 248–54.

Lykke, N. (2011) 'Intersectional Invisibility: Inquiries into a Concept of Intersectionality Studies', in H. Lutz, M. T. H. Vivar and L. Supik (eds), Framing Intersectionality: Debates on a Multifaceted Concept in Gender Studies (Farnham: Ashgate), pp. 207–20.

Rothman, R. A. (2005) Inequality and Stratification: Class, Race and Gender (5th edn,Upper Saddle River, NJ: Prentice Hall).

Smooth, W. G. (2010) 'Intersectionalities of Race and Gender and Leadership', in K.O'Connor (ed.), Gender and Women's Leadership: A Reference Handbook, Vol. 1(London: Sage), pp. 31–40.

Taylor, Y., Hines, S., and Casey, M. E. (eds) (2010) Theorizing Intersectionality and Sexuality (Basingstoke: Palgrave Macmillan).

## "İrq" /Etniklik (Race/Ethnicity)

*İşçi tərif*

"İrq" termini ilə bioloji əlamətlərə, məsələn, dəri rənginə əsasən aid edilən müxtəlif xüsusiyyət və qabiliyyətlər ifadə olunur. Etniklik üzvləri məhz onları fərqləndirən ümumi mədəni identikliyi dərk edən sosial qrupu ifadə edir.

*Anlayışın mənşəyi*

Sosial qruplar arasında dərinin rənginə əsaslanan fərqləndirmə qədim sivilizasiyalara da xas idi, hərçənd ki, qəbilə və ya qohumluq əlamətinə görə sosial bölgü daha səciyyəvi idi. Bu fərqləndirmələr müasir "irq" ideyası ilə bir o qədər də bağlı deyil. XIX əsrin əvvəllərindən etibarən "irq" dəqiq bioloji, daha sonralar isə ge-

netik mənalar kəsb etməyə başladı, bu isə anlayışın elmi nəzəriyyələr və təsnifat sxemləri ilə əlaqələnməsi demək idi. XVIII əsrin sonu - XIX əsrin əvvəllərində "irqə" dair elmi nəzəriyyələr işlənilərək, inkişaf etməkdə olan ölkələrdə əraziləri idarə edən Britaniya və digər Avropa dövlətlərinin imperiya ambisiyalarına bəraət qazandırmaq üçün istifadə olunurdu. Onlar elmi irqçiliyin nümunəsinə çevrildi, alman nasional-sosializmi, Cənubi Afrikada aparteid sistemi ağdərili irqçi qruplara (məsələn, ABŞ-da Ku-kluks klan) "elmi" işartı verdi.

Müasir anlamda "etniklik" anlayışı 1930-cu illərə təsadüf edir və 1945-ci ildən sonra meydana çıxan "etnik azlıqlar" anlayışı ilə sıx bağlıdır. "İrq" anlayışı sosial elmlərdə tamamilə nüfuzdan düşdüyündən onun yerini qrup mədəniyyətlərini vurğulayan "etniklik" anlayışı tutdu. Etnik mənsubiyyətlə əlaqəli qeyri-məqbul şərtlər və diskriminasiya formalarının tədqiqi "etnik azlıqlara" ("azlıq" burada mütləq mənada say göstəricisi deyil) və ya "etnik azlıq qruplarına" şamil olundu. Bəzi sosioloqlar hesab edirlər ki, "irq" sözünün özü ümumişlək olduğundan, bu konsepsiyanı ümumiyyətlə inkar etmək lazım deyil, tədqiqatçılar onun istifadə üsulları, ona verilən mənaları nəzərdən keçirməlidirlər.

*Məna və interpretasiya*

"İrq" və "etniklik" anlayışları ona görə birlikdə verilib ki, hazırda onlar arasındakı əlaqə ortaq məsələdir. Buna baxmayaraq, onları asanlıqla fərqləndirmək olar. "İrq" mürəkkəb anlayışdır, belə ki, onun elmi istifadəsi nüfuzdan düşsə də, cəmiyyətdə geniş istifadə olunur və hətta üstünlük təşkil edən təsəvvürləri ifadə edir. Lakin bioloq və sosioloqlar üçün bioloji nöqteyi-nəzərdən "təmiz" irq mövcud deyil. İnsan populyasiyalarında fiziki fərqlər aydın müşahidə olunsa da, onlar irqlər arasında genetik fərqlərə əsaslanmır. Bir sıra sosioloqlar "irq" konsepsiyasının ideoloji konstruktdan başqa heç nə olmadığını göstərirlər. Bu səbəbdən xüsusilə Şimali Amerikadan kənarda olan bir çox sosioloqlar "irq" sözünü dırnaq içində yazaraq, mənasının problematikliyini vurğulayırlar.

"İrq" anlayışından istifadə etməklə insanların ayrı-ayrı bioloji qruplara bölünməsini sosioloqlar "irqləşdirmə" adlandırır. ABŞ-da

quldarlıq və Cənubi Afrikada aparteid sistemi nümunələri onu göstərir ki, irqi cəmiyyət çox zaman məhkəmə sisteminin, səhiyyə, təhsil, məşğulluq imkanlarının qeyri-bərabər əlçatanlığı ilə səciyyələnən sosial bərabərsizliyin radikal formalarına əsaslanır. “İrq” anlayışı elm tərəfindən nə qədər nüfuzdan salınsa da, onun tarix boyu real nəticələri Vilyam Tomasın məşhur aforizmi ilə ifadə oluna bilər: “İnsanlar situasiyanın real olduğunu hesab edirlərsə, o, öz nəticələrinə görə realdır”. “İrq” anlayışı biologiyada kök salmışdır, “etniklik” isə mədəniyyətə, daha dəqiq desək, mədəniyyətlərə önəm verir. Etnik qruplar bir-birindən dilinə, tarixinə, dininə, sosial normalarına və paylaşdıqları ümumi yaddaşa görə fərqlənirlər. “Etniklik” anlayışında düşmənçiliyin olmaması kritik əhəmiyyətə malikdir. O, gənclərin öz etnik icmasının həyat tərzini, norma və inamlarını mənimsədikcə, daim təkrarlanan və tam olaraq sosial xarakter daşıyan prosesi ifadə edir.

Müəyyən etnik qrupları fərqləndirən cəhət onların öz mədəni sərhədlərini saxlamaq üçün müəyyən təcridetmə mexanizmlərindən istifadə etmələridir (məsələn, qarışıq nikahlara qadağa kimi). “Etniklik” “irq” kimi bioloji “yükə” malik olmadığından sosioloqlar üçün daha faydalı anlayışdır. Lakin “etnik” termininin istifadəsi də problematik ola bilər. Avropada bu termin çox zaman yerli (qeyri-etnik) olduğu güman edilən mədəniyyətdən fərqlənən mədəniyyətləri nəzərdə tutur. Lakin etniklik cəmiyyətin müəyyən seqmenti deyil, onun bütün üzvlərinə aiddir.

“Etnik azlıqlar” konsepsiyası sosiologiyada geniş istifadə olunur, ancaq məsələ yalnız rəqəm göstəricilərində deyil. Azlıqlar hakim qruplara nəzərən daha az mənfəətli mövqeyinə görə müəyyənləşir və onların azsaylı olması heç də mütləq deyildir. Etnik azlıqlar bir qayda olaraq ayrı-seçkilik və irqçilik təcrübəsindən irəli gələn güclü qrup həmrəyliyinə malik olurlar. Sıxışdırılmaq təcrübəsi həm də insanların ümumi maraqlarını dərk etməsini gücləndirə bilər. Beləliklə, sosioloqlar “azlıq” anlayışından hərfi mənada deyil, tabe olan mövqeyini ifadə etmək üçün istifadə edirlər. Bir çox hallar olur ki, azlıq əslində çoxluqdur. Nümunə kimi, Cənubi Afrikada aparteid sistemini və ya bir çox iri şəhərlərin mərkəz hissəsindəki əhalinin tərkibini göstərə bilərik. Bir çox azlıqlar əhalinin

digər hissəsindən etnik və ya fiziki fərqlərə malikdirlər. Məsələn, Böyük Britaniyada hindlilər və asiyalılar, ABŞ-da afroamerikanlar fərqlənirlər, bununla belə, italyan və polyak mənşəli britaniyalı və ya amerikanlar azlıqların nümayəndələri kimi demək olar ki fərqlənmirlər. Bir çox hallarda dərinin rəngi kimi fiziki amillər etnik azlıq kimi tanınmaqda həlledici olur, ona görə də etnik birliklərə bölgü demək olar ki heç zaman neytral xarakter daşımır.

*Tənqidi məqamlar*

Kvazi-irqçi yönümlər əsrlər boyu mövcud olmuşdur. "İrq" anlayışı "irq elminin" yüksəlişi ilə birlikdə fiksə olunmuş əlamətlərdən meydana çıxmışdır. Heç bir faktiki əsasa malik olmayan ağ "irqin" üstünlüyünə inam faktiki olaraq açıq-aşkar ağ irqçiliyin əsas elementi olaraq qalır. "İrqin" bioloji interpretasiyası nüfuzunu itirsə də, onun yerində yeni, mədəni irqçilik meydana çıxdı. O, biolojidən daha çox mədəni arqumentlərdən istifadə edərək, etnik qrupların davamlı olaraq ayrılmasına bəraət qazandırır. Bir qayda olaraq, belə irqçiliyin arqumentləri çoxluğun mədəniyyəti ətrafında onun etnik azlıqlarının assimilyasiyasını gözləmək haqqına əsaslanır. Ona görə də yeni irqçilik plüralistik multikulturalizmə qarşı düşmənçi mövqedədir. Öz mədəniyyətini hifz etməyə çalışan etnik azlıqlar assimilyasiyadan imtina etdiklərindən böyük ehtimalla marginal vəziyyətə düşürlər. Rasizmin getdikcə daha çox bioloji deyil, mədəni amillərə əsaslanması faktı onun müxtəlif növlərinin mövcudluğunun göstəricisidir, bu halda müxtəlif qruplar fərqli formalarda ayrı-seçkiliyə məruz qalırlar. İrqçiliyin yeni formalarının meydana çıxması indiyədək olan "irq" və etnikliyin sərhədlərini sildi, irq hazırda həm də mədəni aspektləri ehtiva edir. Bu isə "etniklik" anlayışını sosiologiyada az əhəmiyyətli edə bilər.

*Aktuallığın davamı*

Bioloji irqçilikdən mədəni irqçiliyə keçid onu göstərir ki, irqçilik ideyaları elm və cəmiyyətdə uzun müddət davam edə bilər. Genetikanın son nailiyyətləri, irqi profilləşdirmənin qayda-qanunun qorunması kimi istifadəsi və miqrasiya ilə əlaqədar narahatlığın art

ması etniklik və etnik münasibətləri siyasətin ön planına çıxarır. “İnstitusional irqçilik” anlayışı ABŞ-da 1960-cı illərdə vətəndaş hüquqları uğrunda mübarizənin hissəsinə çevrilərək və Britaniya hökumətinin rəsmi məruzəsində yer alaraq, irq və irqçilik problematikasını genişləndirib, onu fərdi səviyyədən institusional və təşkilati səviyyəyə qaldırıb.

İrqçiliyin formaları və müşahidə olunan təzahür səviyyələri müxtəlif ölkələrdə eyni deyildir. Mişel Vevyorkanın (2010) tədqiqatları Avropada irqçiliyin formaları arasında həm oxşar, həm də əhəmiyyətli fərqləri üzə çıxarıb. Bir tərəfdən, irqçilik öz müasir formalarında modernizm dövrünün məhsuludur. Sənayeləşmə, kütləvi miqrasiya, müstəmləkə siyasəti və onun nəticələri, həmçinin ticarət əlaqələrinin genişlənməsi həm ölkələr arasında konfliktlərin, həm də ölkədaxili gərginlik və münaqişələrin artmasına gətirib çıxardı. Bunun təzahür formalarından biri də irqçilikdir. Bu baxımdan Avropa ölkələri arasında oxşarlığın olmasını gözləmək olar. Digər tərəfdən, irqçilik heç də hər yerdə eyni deyil. Vevyorka modernizmin çağırışlarına müxtəlif cavabları səciyyələndirən dörd növ irqçiliyi fərqləndirir. O göstərir ki, bütövlükdə kolonial dövr ərzində ali və aşağı irq haqqında təsəvvürlərə əsaslanan universalist yanaşma Avropada uzun müddət hökmran mövqedə olub. Ancaq indi irqçi iddialar dəyişib və onlar zəifləyən sosial mobillik və milli kimliyin itirilməsi ilə əlaqəli narahatlıqla bağlıdır.

Xüsusilə islam və “Qərb” arasında “sivilizasiyaların toqquşması” ideyası Samuel Hantinqton (1996) tərəfindən qloballaşma dövrünün mümkün nəticəsi kimi populyarlaşdırılmışdır. Lakin bu tezisin empirik sübutu zəifdir. Çiozza (2002) Hantinqtonun tezisinə nəzərən 1946-1997-ci illərdə müşahidə olunan beynəlxalq münaqişələrə baxıb belə bir sual verməyi tövsiyə edir: Bu münaqişələrdən hansılar irimiqyaslı sivilizasiyaların toqquşmasının nəticəsidir? Tədqiqatda bəzi empirik göstəricilər nəzərdən keçirilir, lakin Hantinqtonun proqnozlaşdırdığı kimi sivilizasiyaların qarşılıqlı təsirindən yaranan münaqişələrin artmasının hər hansı sübutları üzə çıxmır. Eyni sivilizasiya qrupuna aid olan ölkələr öz daxilində heç də müxtəlif sivilizasiyalara aid ölkələrdən az münaqişədə deyillər.

*İstinadlar və ədəbiyyat*

Ansell, A. (2012) Race and Ethnicity: The Key Concepts (2nd edn, London: Routledge).

Chiozza, G. (2002) 'Is There a Clash of Civilizations? Evidence from Patterns of International Conflict Involvement, 1946–97', Journal of Peace Research, 39(6): 711–34.

Huntington, S. P. (1996) The Clash of Civilizations and the Remaking of World Order (New York: Simon & Schuster).

Spencer, S. (2006) Race and Ethnicity: Identity, Culture and Society (London: Routledge).

Wieviorka, M. (2010) 'Racism in Europe: Unity and Diversity', in M. Guibernau and J. Rex (eds), The Ethnicity Reader: Nationalism, Multiculturalism and Migration (2nd edn, Cambridge: Polity), pp. 345–54.

## Patriarxat (Patriarchy)

*İşçi tərif*

Cəmiyyətin bəzi və ya bütün institut və sferalarında kişilərin qadınlar üzərində sistematik hökmranlığıdır.

*Anlayışın mənşəyi*

Kişilərin hökmranlığı ideyasının tarixi olduqca qədimdir, bir çox dinlər bunu həm təbii, həm də zəruri hesab edir. Sosiologiyada patriarxatın ilk nəzəri təsviri Engelsin kapitalizm şəraitində qadınların kişilərə tabeliyini nəzərdən keçirməsidir. Engels hesab edir ki, kapitalizmdə iqtidar tam şəkildə kiçik kişi qrupunun əlində cəmləşir, çünki sistem əvvəlkinə nisbətən daha çox kapital istehsal edir və kişilər öz sərvətlərini kişi varislərinə ötürdükcə sinfi və gender bərabərsizliyi güclənir.

Müasir patriarxat nəzəriyyəsinin əsas mənbəyi feminizmdir. 1960-cı illərdən başlayaraq, o, modern cəmiyyətlərdə fasiləsiz kişi hökmranlığını izah etmək üçün "patriarxat" anlayışını inkişaf etdirərək, tətbiq edir. Müxtəlif feminist nəzəriyyəçiləri bu anlayışın faydasına münasibətdə fərqli mövqedədirlər. Buna baxmayaraq, feminizmdə liberal, sosialist, radikal mövqelər də daxil olmaqla, yeni

tədqiqat perspektivləri və feminist izahları meydana çıxıb. "Şəxsi olan siyasidir" kimi səslənən feminist sloqanı məişət sferasının kişi hökmranlığının bərqərar olduğu əsas yer olmasına işarədir, bu isə əvvəllər qəbul olunmayan məsələ idi. Qadınların ardıcıl olaraq sıxışdırılması gündəlik cinsçi mühakimə və gümanlarda, qadın və qızların media obrazlarında, özəl və ictimai həyatda kişilər tərəfindən həyata keçirilən zorakılıq və cinsi cinayətlərdə özünü büruzə verir. XX əsrin sonlarında empirik tədqiqatlar cəmiyyətin müxtəlif sahələrində patriarxatın fərqli formalarını üzə çıxararaq, onun möhkəm empirik əsasını təmin etmişdir.

*Məna və interpretasiya*

"Patriarxat" anlayışı feminizmin radikal formalarının əsasıdır. O, öz-özlüyündə universaldır və qadınların kişilər tərəfindən sıxışdırılmasının geniş dairəsini əhatə edir. Məsələn, qadınlar biznes, siyasət və sosial həyatın digər sahələrində mövqe tutmaq uğrunda mübarizə apardığı halda kişilər fəal və ya passiv formada onların bu mövqelərə çıxışını rədd edirlər. Bir çox radikal feministlər üçün konvensional ailə patriarxatın vacib elementidir, hansı ki, qadınlar ödənişsiz ev işi görür və bununla da kişilərə ictimai sahədə azadlıqdan zövq almaq imkanı verilir. Qadınlar hətta birlikdə yaşadıqları kişi ilə bərabər işlədikdə belə, əvvəllər olduğu kimi ev işinin çox hissəsini yerinə yetirirlər. Şulamit Fayrstoun (1970) kişi hökmranlığının fundamental bioloji bərabərsizliklə möhkəmləndiyini qeyd edirdi. Yalnız qadınlar övlad dünyaya gətirə bildiklərindən kişilərdən asılı vəziyyətə düşürlər. Kapitalist cəmiyyətlərində belə bioloji bərabərsizliyin institusional əsası nuklear ailədir, ona görə də qadınların emansipasiyasının vacib şərti onun dağılması olmalıdır.

Radikal feministlər üçün kişi zorakılığı və qadınlara qarşı bu təhlükənin olması kişi hökmranlığını gücləndirir. Məişət zorakılığı və cinsi zorakılıq, ictimai sahədə cinsi zorakılıq və cinsi qısnamalar, rutin münasibətlərin gedişində kişi davranışının aqressiv təbiəti - bütün bunlar geniş yayılmış və ziyanlı, lakin etiraf olunmayan kişi hökmranlığına öz töhfəsini verir. Bu, heç də bütün kişilərin fəal şəkildə belə davranış nümayiş etdirməsi demək deyildir, ancaq radikal feminizm israr edir ki, onların hamısı ayrı-ayrı kişilərin zorakı-

lığı ilə möhkəmlənən patriarxatdan faydalanırlar. Geniş mədəni kontekstdə qadınlar jurnal, moda, televiziya və digər kütləvi informasiya vasitələrində obyektləşdirilir. Bir sıra media reprezentasiyalar qadınlara daha çox cinsi obyekt kimi diqqət yönəldir. Patriarxat müasir cəmiyyətlərin bütün institutlarında öz əksini tapıb və feminist tədqiqatları bunu aydın şəkildə işıqlandırıblar.

Patriarxatın Silviya Volbi (1990) tərəfindən həyata keçirilmiş rekonseptuallaşdırılması detallı empirik tədqiqat üçün konsepsiya açmış olur. O qeyd edir ki, "patriarxat" anlayışı artan gender bərabərliyini nəzərə ala bilməyib. Volbinin təhlilinin mərkəzində patriarxatın özəl və ictimai formaları arasındakı fərq dayanır. Patriarxatın özəl formaları məişət və intim münasibətləri, ictimai formaları isə muzdlu əmək, dövlət və siyasəti ehtiva edir. XX əsr ərzində patriarxatın özəl formalarından ictimai formalarına əhəmiyyətli keçid baş verdi. Belə ki, qadınlar əvvəllər onlara məhdud dərəcədə əlçatan olan sahələrdə iştirak etməyə başladılar. İndi qadınların iqtisadiyyatın rəsmi sektorunda daha gözəgörünən olması faktının özü hələ gender bərabərliyinə nail olunduğu demək deyildir. Məsələn, qadınlar bir qayda olaraq, kişilərə nisbətən daha aşağı maaş alır, onlar ictimai yerlərdə kişi zorakılığı ilə üzləşir, kütləvi media və qlobal internet şəbəkəsində qadınlar haqqında seksuallaşdırılmış təsəvvürlərlə rastlaşırlar.

*Tənqidi məqamlar*

"Patriarxat" anlayışı həm sosioloji meynstrim, həm də feminist nəzəriyyəsi çərçivəsində tənqidə məruz qalıb. Bir çox tədqiqatçılar onu təsviri anlayış kimi qəbul edə bilsə də, o həm də qadınların sıxışdırılmasının istənilən formasının həddən artıq mücərrəd və müəyyən inandırıcı mexanizmi olmayan qeyri-adekvat izahı üçün istifadə olunub. Bəzi radikal feministlər qeyd edir ki, patriarxat bütün bəşər tarixi boyu və bütün mədəniyyətlərdə mövcud olmuşdur, ona görə də universaldır. Ancaq belə bir geniş konsepsiya tarixi və mədəni variativlik üçün yer qoymur, irqi, sinfi və etnik mənsubiyyətin qadınların vəziyyətinə təsirinin əhəmiyyətini nəzərdən qaçırır. Başqa sözlə, patriarxatın universal xarakter daşıması fikrinin tərəfdarları bioloji reduksionizmə yuvarlanmaq riskini artırırlar.

Qaradərili və inkişaf etməkdə olan ölkələrdəki bir sıra feministlər güman edirlər ki, meynstrim feminizm qadınların etnik əlamətə görə ayrılmasına önəm vermir, belə ki, o , inkişaf etmiş ölkələrdə yaşayan, orta sinfə aid ağdərili qadınların təcrübəsinə əsaslanır. Belə ümumiləşdirmə əsaslandırılmış deyil, qadın təcrübəsi etnik və sinfi mənsubiyyətdən asılı olaraq dəyişkəndir. Qaradərili amerikan feministləri qaradərili icmalarda gender bərabərsizliyinə quldarlıq irsi, seqreqasiya və vətəndaş hüquqları uğrunda hərəkatların təsirini vurğulayırlar. Onlar qaradərili qadınların həm etnik, həm də gender əlamətinə görə ayrı-seçkiliyə məruz qalmasına diqqət yetirirlər. Analoji olaraq, ağdərili feministlər tərəfindən ailənin patriarxatın özəl formalarının mərkəzləşdiyi əsas yer kimi izahı qaradərililər icmasına uyğun gəlmir. Belə ki, bu icmalarda ailə rasizmdən müdafiənin əsas təminatçısıdır. "Qara feminizm" (Black Feminism) nəzəriyyələri fəhlə sinfindən olan qaradərili qadınların üzləşdiyi çoxsaylı problemləri və interseksional bərabərsizlikləri daha dərindən aydınlaşdırır.

Nisbətən yeni postmodern nəzəriyyələri və sosial konstruktivizm qadın identikliyi və təcrübəsinin ümumi əsaslarının mövcudluğu ilə razı olmayıb, qadınların cəmiyyətdəki vəziyyətini izah edən nəzəriyyənin mümkünlüyünü inkar edirlər. Biz güman edə bilmərik ki, orta sinif və fəhlə sinfindən olan, ağ və ya qaradərili, paytaxt və ya kənddən olan qadınların hamısı onlar üçün ümumi olan "qadın olmaq" identikliyinə malikdirlər. Ümumiyyətlə, sosioloji tədqiqatlarda bioloji və essensialist bazisə malik "qadın" və "kişi" anlayışlarını (əgər bu əsaslar gender tədqiqatları tərəfindən çoxdan inkar olunubsa) müzakirə etməyin əhəmiyyəti varmı? Postmodern dönüş provokativdir, lakin feminist aktivistləri və alimlər üçün ciddi problem ortaya qoyur, onların empirik tədqiqatları kişilərin hökmranlıq etdiyi cəmiyyətlərdə qadınların üzləşdiyi bərabərsizliklərin miqyasını aydın təsvir edir.

*Aktuallığın davamı*

Feminizm nəzəriyyəçiləri hesab edirlər ki, patriarxal hökmranlıq müxtəlif sosial formalar – məsələn, dil və diskurs vasitəsilə həyata keçirilir. Kifayət qədər balanslı bir məqalədə (2009) Keys

və Lippard zarafatların patriarxal münasibətləri əbədiləşdirməsi, feministlərin isə həmin zarafatları sıradan çıxaran yeni zarafatlar yaradaraq cinsçiliyi necə aşkara çıxarmasından bəhs edirlər. Bu tədqiqatda müəlliflər 1900-dən çox zarafatı təhlil ediblər. Onların əsas mövzuları "kişilərin əhəmiyyətsizliyi" (25,7%), istifadə olunan anlayış və kateqoriyalar arasında kişi stereotipləri üstünlük təşkil edir (62%). Lakin tədqiqatçılar kişiləri diskreditasiya etmək cəhdlərindən kənar olan və ya gender tənqidinin stereotipik fikirlərinə çox az sayda istisnaya rast gəliblər (3,8%). Tədqiqatçıların fikrincə, yumor bərabərsizliyin yüksək səviyyədə olduğu cəmiyyətdə güclü ideoloji silah olaraq qalmaqdadır.

Kişilərin qadınlara münasibətdə zorakılıq problemini qanunvericilik səviyyəsində həll etmək cəhdlərinə baxmayaraq, bəzi qruplar belə dəyişikliklərin əleyhinədir. Dragiyeviç (2008) ABŞ-da atalıq hüquqları diskursu çərçivəsində antifeminist arqumentləri öyrənmişdir. Bu arqumentlər qadınlara münasibətdə zorakılıq əleyhinə qanuna qarşıdırlar. Bu qanunun əleyhinə olan fikirlərin çoxu onun formal bərabərliyə münasibətdə az işlək olmasının, bu sahədə qanunvericiliyin uşaqların birlikdə tərbiyəsi və birgə qəyyumluğuna yönəlməli olmasının vacibliyinə əsaslanır. Lakin Dragiyeviç qeyd edir ki, belə arqumentlərin məqsədi məişət zorakılığının müzakirəsini məhdudlaşdırmaq və ya ondan yan keçməkdir. Qadınların maraqlarını nəzərə alan qanunvericiliyin əleyhinə olan reaksiyalar onu göstərir ki, sosial dəyişikliklər xətti proses olmayıb, iqtidar, bilik və təsirlilik uğrunda fasiləsiz mübarizədən ibarətdir.

*İstinadlar və ədəbiyyat*

Case, C. E., and Lippard, C. D. (2009) 'Humorous Assaults on Patriarchal Ideology', Sociological Inquiry, 79(2): 240–55.

Dragiewicz, M. (2008) 'Patriarchy Reasserted: Fathers' Rights and Anti-VAWA Activism', Feminist Criminology, 3(2): 121–44.

Firestone, S. (1970) The Dialectic of Sex: The Case for Feminist Revolution (London: Jonathan Cape). hooks, b. (1981) Ain't I a Woman? Black Women and Feminism (Boston: South End Press).

Walby, S. (1990) Theorizing Patriarchy (Oxford: Blackwell), esp. chapter 8.

## Sinif (Class)

*İşçi tərif*

Böyük sosial qrupların fəaliyyət növü, həyat üslubunun seçimi və əmlak sahibliyi ilə müəyyənləşən müqayisəli iqtisadi mövqeyidir.

*Anlayışın mənşəyi*

Marks və Veberin nəzəriyyələrində fərqlərin olması səbəbindən sosioloqlar uzun müddət sosial sinfə dair məsələdə razılığa gələ bilmirdilər. Marksa görə, sinif istehsal vasitələrinə ümumi münasibətdə olan insan qrupudur, yəni onlar ya əmlak sahibidirlər, ya da əmlak sahibi deyildirlər. Sinfi sistemləri insan tarixinin daha böyük hissəsi ərzində izləyə bilərik. Sənaye dövrünə qədərki cəmiyyətlərdə iki sinif var idi: torpaq sahibləri (aristokratlar, zadəganlar və ya quldarlar) və torpaqda işləyənlər (təhkimli kəndlilər, qullar, azad kəndlilər). Ancaq sənaye cəmiyyətində fabrik, ofis, maşın və bunları əldə etmək üçün zəruri kapital torpaqdan daha vacib olan istehsal amillərinə çevrildilər. Müasir kapitalizmdə sinfi antaqonizm kapitalistləri, yəni istehsal vasitələrinə sahib olanları və fəhlələri (Marks onları "proletariat" adlandırır) - sağ qalmaq üçün kapitalistlərə işləməyə məcbur olanları ayırır.

Veber də siniflərin obyektiv iqtisadi şərtlər əsasında mövcud olduğunu hesab edir, lakin obyektiv mövcud olan iqtisadi şərtlərin müxtəlifliyini nəzərə alır. Sinfi bölgü yalnız istehsal vasitələrinə malik olmaqdan deyil, həm də insanın əldə edə biləcəyi iş növlərini müəyyənləşdirən vərdiş və səriştədən asılıdır. Əmək bazarındakı mövqe insanların həyat şanslarına gücü təsir edir. Yüksək kvalifikasiya tələb edən (həkim, hakim və s.) idarəetmə vəzifələri fabrikdəki iş və ya rutin ofis əməyindən, daha yüksək əməkhaqqına, işəgötürmə və əmək şərtlərinə, daha çox üstünlüklərə (məsələn, bonus və mükafatlar şəklində) malikdir. Beləliklə, sinfi mövqe mürəkkəb

amillər toplusu ilə müəyyənləşir və yalnız istehsal vasitələrinə sahibliyə müncər oluna bilməz. Veber sinfi həm də statusdan fərqləndirirdi, hansı ki, obyektiv iqtisadi vəziyyətdən daha çox fərdin başqaları tərəfindən qavrayışı əsasında formalaşır. Son illər mübahisələr "sinif" anlayışının praktik əhəmiyyətini itirib-itirməməsi, sinfi sxemlərə istehlak vərdişləri və digər mədəni amillərin daxil edilməsinin zəruri olub-olmaması ərtafındadır.

*Məna və interpretasiyası*

Hazırda əksər sosioloqlar razılaşar ki, sinif müasir sənaye ölkələrini səciyyələndirən sosial stratifikasiya formasıdır, hərçənd ki, kapitalizmin genişlənməsi zəminində bu, digər cəmiyyətlərə də yayılmışdır. Siniflər ümumi iqtisadi resurslardan istifadə edən böyük insan qruplarıdır və bu, onlar üçün əlçatan olan həyat tərzinə təsir göstərir. Sərvət sahibliyi və məşğuliyyət növü - sinfi fərqlərin iki əsas prinsipidir. Bir qayda olaraq, sosioloqlar onunla razılaşırlar ki, sinif ən mütəhərrik stratifikasiya formasıdır: siniflər hüquqi şəxs olmadığından onlar arasındakı sərhədlər dinamikdir və məsələn, siniflərarası nikaha hüquqi məhdudiyyət yoxdur. Ancaq bu halda belə, tədqiqatlar göstərir ki, anadan olanda müəyyənləşən sinfi mövqe sinfi sistem daxilində fərdin yerdəyişmə imkanlarını aradan qaldırmasa da, məhdudlaşdırır.

Sosial mobilliyin öyrənilməsi göstərir ki, insanlar cəmiyyətdəki sinfi mövqelərini dəyişə bilir və bunu edirlər, bu isə deyək ki, belə hərəkətə yol verməyən Hindistanın kasta sistemindən kəskin şəkildə fərqlənir. Sinfi sistem qeyri-şəxsiləşdirilmişdir, fərdi sinfi mövqe insanın ayrıca həyat sahəsini formalaşdıran şəxsi münasibətlərlə əlaqəli olmayaraq, obyektivdir. Nəzəri və empirik tədqiqatlar sinfi mövqe və sosial həyatın digər istiqamətləri arasında (məsələn, seçkidə səsvermə zamanı siyasi mövqe, təhsil səviyyəsi, sağlamlıq vəziyyəti və s.) əlaqəni üzə çıxarmağa yönəlmişdir. Sosioloqlar müasir cəmiyyətin sinfi strukturunun xəritəsini yaratmağa çalışıblar. Bunun üçün onlar bir neçə zəruri kateqoriya çərçivəsində peşəkar strukturu maksimal olaraq tam nəzərə alan sxemlər yaradıblar. Adətən, sosioloqlar sosial sinfin ümumi göstəricisi kimi məşğuliyyət növünü götürürlər, belə ki, tədqiqatlara əsasən eyni pe-

şədən olan insanlar bir qayda olaraq, oxşar həyat tərzinə və yaxın həyat şanslarına malikdirlər.

"Relyasyon" (relational) sinfi sxemlər bir sıra analitiklər tərəfindən istifadə olunur. Belə ki, bu sxemlər cəmiyyət daxilində dəyişən gərginlik və bərabərsizliyi, həmçinin dəyişən məşğuliyyət kateqoriyaları və yeni peşə meyillərini üzə çıxarmağa imkan verir. Qoldtorp uzun illər sinfi təhlillə məşğul olmuş və empirik tədqiqatlarda istifadə etmək üçün yararlı olan Veber yanaşmasına əsaslanan sxem yaratmışdır. Qoldtorpun sxemi iyerarxik olmayaraq, müasir sinfi strukturun "relyativ" təbiətinin reprezentasiyasıdır. Onun ilkin sxemi sinfi mövqeyi bazarın və əmək münasibətlərinin vəziyyətinə əsasən müəyyənləşdirirdi. Bazardakı vəziyyət əməkhaqqının səviyyəsi, məşğulluğun zəmanəti və karyera inkişafı imkanlarını müəyyənləşdirir. Əmək münasibətləri nəzarət, hakimiyyət və idarəetmə məsələləri ilə bağlıdır. Bir qədər sonra Qoldtorp (2000) əmək müqavilələrinin müxtəlif növlərinə diqqət yetirərək, məşğulluq sahəsindəki münasibətləri vurğulamışdır.

*Tənqidi qeydlər*

Sosiologiyada siniflərin tədqiqi və təhlili dərin tarixə malikdir, ancaq bu istiqamət 1980-ci illərdən başlayaraq, sinfin əhəmiyyətinin davamlı olaraq azaldığını hesab edən sosioloqlar tərəfindən tənqidə məruz qalıb. Pakulski və Voters (1996) hesab edirdilər ki, qloballaşma qlobal əmək bölgüsünə səbəb olub, bunun sayəsində isə əsas bərabərsizliklər milli dövlətlər daxilində deyil, dövlətlər arasında yaranır. İnkişaf etmiş ölkələr əsasən xidmət sahələrindəki məşğulluq və artan fərdiləşmə ilə səciyyələnən postsənaye ölkələrinə çevriliblər, bu isə sosial sinifdən daha çox istehlakçılıq və həyat üslubunun seçiminə əsaslanan status konvensionallığının və bərabərsizlik sisteminin yaranmasına səbəb olub.

Digər tənqidçilər ali təhsilin təsiri və onun imkanları genişləndirməsini, habelə yeni texnologiyaları (məsələn, internet) istifadə edən və sinfi sistemə öz yolunu açan uğurlu sahibkarları daha yüksək mobillik və daha fəal siniflərarası hərəkətin göstəricisi kimi nəzərdən keçirirlər.

Sinfi təhlilin daha bir problemi onun, adətən, kişilərin təmsil etdiyi ailə başçısının sinfi statusuna əsaslanmasına görə gender kateqoriyasını nəzərə ala bilməməsidir. Qadının sinfi mövqeyi onun aid edildiyi kişiyə əsasən müəyyənləşirdi. Belə yanaşma XX əsrin əvvəllərinə uyğun olsa da, hazırda getdikcə daha çox ailəli qadının haqqı ödənilən əmək fəaliyyətinə başladığı dövrdə etibarlı deyildir. Bu həm də tələbələr, təqaüdçülər və işsizlər kimi qrupları müəyyən sinfi kateqoriyalara aid etməyi çətinləşdirir, sinfi sxemlər qeyri-müfəssəl və natamamdır.

*Aktuallığın davamı*

Sinfi identifikasiyanın zəifləməsi nəzərə alınsa da, bu, heç də o demək deyil ki, siniflər insanın həyat şanslarının formalaşmasında qeyri-relevant amilə çevrilib. Subyektiv olaraq, insanlar özlərini fəhlə sinfi və ya orta sinfin nümayəndəsi kimi qavramaya da bilər, ancaq çoxsaylı sosioloji tədqiqatlar davamlı olaraq onu göstərir ki, anadan olduğumuz sinif həyat şanslarımızı müəyyən edən güclü determinantdır (Crompton 2008). Həm Marks, həm də Veberin yanaşmalarında təkidlə qeyd olunur ki, sosial bərabərsizliyin necə və niyə təkrarlanmasını dərk etmək üçün sosial siniflərin obyektiv xarakter daşımasını diqqət mərkəzində saxlamaq lazımdır. Əslində, son 30 il ərzində bir çox inkişaf etmiş ölkələrdə zənginlər və yoxsullar arasında uçurum bu ölkələrin iqtisadiyyatında artım olduğu halda belə genişlənmişdir.

Çan və Qoldtorp (2007) Veberin sinif və status arasındakı ilkin fərqləndirməsinə qayıdaraq, onları fərqli nəticələrə gətirsələr də, stratifikasiyanın bir-birilə əlaqəli iki forması kimi nəzərdən keçirirlər. Böyük Britaniyada insanların iqtisadi vəziyyəti və həyat şansları sinfi mənsubiyyətlə müəyyən olunmaqda davam edir, bu, onların siyasi yönümləri (solçu, sağçı) və seçkilər zamanı iki əsas siyasi partiya - konservativ, yoxsa leyboristlərə səs verəcəklərini də müəyyənləşdirir. Lakin tədqiqat göstərir ki, mədəni istehlak formaları, yaxud  insanın libertarian və ya avtoritar yönümlərinin formalaşması sosial sinifdən daha çox sosial statusla  şərtlənir. Buna bax mayaraq,  sinif və status kifayət qədər mürəkkəb  qarşılıqlı  münasi

bətdədir. Məsələn, sinfi mənsubiyyət insanın siyasi dəyərləri və əsas elektoral seçimlərini əvvəlcədən proqnozlaşdırmaq imkanı verən ən yaxşı göstəricidir, status isə onun senzura, nəzarət və etik problemlərə dair mövqeyinə daha ciddi təsir göstərir.

Sinfin əhəmiyyətinin azalmasını güman edən daha yeni nəzəriyyələrə gəldikdə isə, bəzi tədqiqatçılar özünəməxsus yerlərdə sinfi mənsubiyyət təcrübəsini öyrəniblər. Vinsent və onun həmkarları (2008) keyfiyyət metodlarını tətbiq edərək insanlara əlçatan olan resurslar və uşaqlara qulluğu xüsusi vurğulayaraq, Londonun mərkəzi rayonlarında fəhlə sinfinə mənsubluğun empirik tədqiqini həyata keçiriblər. Müəlliflərin vurğuladığı əsas fərq həyat uğrunda mübarizə aparanlarla bunun öhdəsindən gələ bilən çoxluq arasındadır. Bu çoxluq yüksək sosial kapitala (dəstək göstərməyə hazır dost və ailəyə), mədəni kapitala (təhsil haqqında sənədlərə) və iqtisadi kapitala (hətta qeyri-stabil olsa da, məşğulluğa) malikdir. Tədqiqatdakı fəhlə sinfinin nümayəndələri heterogen qrup olsa da, sosial sinif həyat şanslarının ən vacib obyektiv göstəricisi olaraq qalır.

*İstinadlar və ədəbiyyat*

Chan, T. W., and Goldthorpe, J. H. (2007) 'Class and Status: The Conceptual
Distinction and its Empirical Relevance', American Sociological Review, 72(4): 512–32.

Crompton, R. (2008) Class and Stratification (3rd edn, Cambridge: Polity).

Edgell, S. (1993) Class (London: Routledge).

Goldthorpe, J. H. (2000) On Sociology: Numbers, Narratives and the Integration of Research and Theory (Oxford: Oxford University Press).

Pakulski, J., and Waters, M. (1996) The Death of Class (London: Sage).

Vincent, C., Ball, S. J., and Braun, A. (2008) "It's Like Saying "Coloured":Understanding and Analysing the Urban Working Classes', Sociological Review, 56(1): 61–77.

**Sosial mobillik (Social Mobility)**

*İşçi tərif*

Fərdin və ya sosial qrupun sosial stratifikasiya sistemində yuxarı və ya aşağıya doğru yerdəyişməsidir. İnkişaf etmiş müasir cəmiyyətlərdə sosial mobillik sosial-sinfi sistem çərçivəsində hərəkət deməkdir.

*Anlayışın mənşəyi*

Sosial mobilliyin tədqiqi İkinci Dünya müharibəsindən sonrakı dövrdə başlayıb. Bu dövrdə sosioloqlar rifah cəmiyyətinin inkişafı gedişində xüsusilə sinfi bərabərsizliyin azalıb-azalmaması ilə maraqlanırdılar. Bəzi iqtisadçılar hesab edirdi ki, sənayeyəqədərki dövrdə nisbətən aşağı səviyyəli bərabərsizlikdən start götürərək, sənaye dövrünün təmin etdiyi fasiləsiz iqtisadi artımın ilkin mərhələsi bərabərsizliyin güclənməsinə gətirib çıxarır. Lakin zaman keçdikcə sosial mobilliyin artması gedişində bu tendensiya geri çəkiləcək və bərabərləşmə prosesi başlayacaqdır. 1960-cı illərdə ABŞ-da aparılan tədqiqatlar faktiki yerdəyişmələrin miqyasının az olmasına baxmayaraq, ciddi şaquli mobilliyi üzə çıxardı. Fəhlə sinfindən orta sinfin yuxarı təbəqələrinədək olan uzaq mobillik hələ də nadir hal idi, enən mobillik daha geniş yayılmışdı. “Ağyaxalılar” üçün olan iş yerləri “göyyaxalılar” üçün olanlardan daha böyük sürətlə artdığından sonuncuların övladları “ağyaxalılar” üçün nəzərdə tutulan iş yerlərini əldə edə bilirdilər.

Lipsey və Bendiks (1959) tərəfindən vacib tədqiqat aparılmışdı. Onlar doqquz ölkə üzrə göstəriciləri təhlil etmişdilər (Böyük Britaniya, Fransa, Qərbi Almaniya, İsveç, İsveçrə, Yaponiya, Danimarka, İtaliya, və ABŞ). Əsasən kişilərin “göyyaxalılar” sinfindən “ağyaxalılar” sinfinə doğru mobilliyinə diqqət yetirərək, onlar maraqlı nəticələrə gəldilər. ABŞ-ın daha açıq ölkə olması haqqında fikirlər öz təsdiqini tapmadı: ABŞ üçün şaquli mobillik 30%, Avropa üçün isə 27-31% idi. Müəlliflər belə qənaətə gəldilər ki, bütün sənaye ölkələrinə “ağyaxalılar” üçün olan iş yerlərinin analoji artımı xasdır, bu isə yüksələn mobilliyə səbəb olmuşdur. Hazırda mobilliyin tədqiqi getdikcə daha çox gender və etnik mənsubiyyət əla-

mətlərini ehtiva edərək cəmiyyətdə ümumi mobilliyin zəifləməsi və ya güclənməsini qiymətləndirməyə yönəlib.

*Məna və interpretasiya*

Sosial mobillik fərd və ya fərdlər qrupunun müxtəlif sosial-iqtisadi mövqelər arasında yerdəyişməsidir. Şaquli mobillik sosial-iqtisadi pilləkəndə yuxarı və ya aşağıya doğru hərəkət deməkdir. Gəlirləri, kapitalı və statusu artan fərdlər sosial iyerarxiyada yuxarıya doğru hərəkət edir, iqtisadi və status mövqeyi pisləşənlər isə aşağı enən mobillik yaşayırlar. Müasir cəmiyyətlərdə coğrafi yerdəyişmələr də böyük rol oynayır, belə ki, insanlar tez-tez iş axtarışında yeni regionlara köçürlər, mobilliyin bu növünə "üfüqi mobillik" deyilir. Göstərilən iki mobillik növü birgə də baş verə bilir, məsələn, insan vəzifəcə yüksəlir və eyni zamanda bu yüksəliş başqa yerə, hətta başqa ölkəyə köçməyi nəzərdə tutur.

Sosioloqlar sosial mobilliyin iki əsas komponentini öyrənirlər. *Nəsildaxili* mobilliyin tədqiqi fərdlərin öz həyat yolu ərzində sosial iyerarxiyada nə dərəcədə yuxarı və aşağı yerdəyişməsini nəzərdən keçirir. *Nəsillərarası* mobilliyin tədqiqi övladların sosial iyerarxiyada valideyn və ulu valideynlərinə nəzərən nə dərəcədə yuxarı və ya aşağı hərəkət etdiklərini öyrənir. Debatlar sənaye cəmiyyətinin inkişafı gedişində sosial mobillik səviyyəsinin artıb-artmaması, sinfi sistemin nisbi sabitliyi və ya dəyişkənliyi ilə əlaqədardır. Əgər yüksələn mobilliyin səviyyəsi aşağıdırsa, demək olar ki, sinif hələ də insanların həyat şərtlərinə ciddi təsir göstərir. Ancaq mobillik göstəriciləri indi əvvəlkindən daha yüksəkdirsə, onda sinfi bölgünün öz gücünü itirməsi, cəmiyyətin daha çox meritokratikliyi və bərabərsizliyin az olmasını demək mümkündür.

Böyük Britaniyada mobillik səviyyəsi bütövlükdə müharibədən sonrakı dövrdə (II Dünya müharibəsi – *red.*) fəal tədqiq olunurdu. Bu sahədə empirik göstəricilərin böyük massivi toplanmışdır. Devid Qlass (1954) 1950-ci illərə qədərki uzun müddət ərzində nəsillərarası mobilliyi təhlil edib. O, belə qənaətə gəlib ki, yaxın mobillik səviyyəsinin əhəmiyyətli olmasına baxmayaraq, Böyük Britaniya o qədər də açıq cəmiyyət deyildi. Yüksələn mobillik göstəriciləri enən mobillikdən daha yüksək olsa da, ən aşağı səviyyədə

olanlar bir qayda olaraq elə eyni səviyyədə qalırdılar. Con Qordtorp və həmmüəllifləri "Müasir Britaniyada sosial mobillik və sinfi struktur" ((1980) 1987) kitabında Qlassın tədqiqatlarından sonra mobillik formalarının nə dərəcədə dəyişdiyini üzə çıxarmağa çalışırdılar. Müəyyən olundu ki, kişi mobilliyinin ümumi səviyyəsi əvvəlki dövrlərə nisbətən daha yüksəkdir və əhəmiyyətli dərəcədə sinfi sistem daxilində uzaq yerdəyişmə göstəriciləri vardır. Lakin peşə sistemi bərabər olmayıb: 1980-ci illərin əvvəllərində "göy yaxalılardan" olan kişilərin peşə və idarəetmə vəzifələri tutmaq şansı daha yüksək idi, ancaq bu, imkanların artması və bərabərsizliyin azalmasının deyil, məşğulluğun strukturundakı dəyişikliklərin nəticəsi idi. Qoldtorp və Cekson yeni göstəricilərdən istifadə edərək, mütləq mənada nəsildaxili mobilliyin azalmasını demək üçün əsasın olmadığı, uzaq mobillik səviyyəsinin isə azalması qənaəti üçün əsas olduğunu göstərdilər. Onlar həm də kiçiklər üçün yüksələn və enən mobilliyin arasındakı balansın daha qeyri-məqbul olduğunu, yüksələn mobilliyin artan göstəricilərinə qayıdış ehtimalının az olduğunu üzə çıxardılar.

*Tənqidi məqamlar*

Sosial mobilliyə dair tədqiqatların tənqidi onun ənənəvi olaraq kişilərin əmək həyatının tədqiqinə yönəldiyini vurğulayır. Bu, 1950-1960-cı illərdə kişilərin "evə çörək gətirən", qadınların evdar roluna əsaslanan ideologiya dönəmində aydın və məntiqli olsa da, tədricən qadınların haqqı ödənilən əməyə daha çox cəlb olunması ilə aktuallığını itirmişdir. Doğrudan da, hazırda gəlirləri sayəsində mövcud ev təsərrüfatının faktiki başçısı olan qadınların sayı artır. Nisbətən yeni tədqiqatlar müasir qadınların əvvəlkilərdən daha çox imkanlara malik olduğunu göstərir, orta sinifdən olan qadınlar isə daha yaxşı vəziyyətdədirlər. Əgər mobillik tədqiqatları cəmiyyətin açıq və ya qapalı olması ilə bağlı dəyişikliklərin daha real mənzərəsini vermək istəyirsə, qadın təcrübəsini nəzərə almalıdır.

Sosial mobillik tədqiqatlarının uzun müddətdir ki, mövcud olan tənqidi Böyük Britaniya və digər inkişaf etmiş ölkələrin meritokratik olmasını vurğulayır, belə ki, mükafat daha fəal olan və və müvəffəqiyyətə qabil olana çatır. Peşə uğurunun əsas amili sinfi və-

ziyyət olmayıb, qabiliyyət və səylərdir. Milli Uşaq İnkişafı Tədqiqi Mərkəzinin empirik göstəricilərini istifadə edərək, Sanders göstərdi ki, parlaq və zəhmətkeş Britaniya uşaqları sosial üstünlük və ya çatışmazlıqdan asılı olmayaraq, uğura nail olurlar. Böyük Briyaniya bərabərlik cəmiyyəti deyil, lakin mahiyyətcə ədalətli cəmiyyətdir: orada mükafat, doğrudan da, işləyən və buna layiq olana gəlir. Tənqidçilər fərdi nailiyyəti fərdin sinfi mövqeyini müəyyən edən amillərdən biri kimi görür. Lakin insanın sosial mənşəyi ona əhəmiyyətli dərəcədə təsir göstərməkdə davam edir: belə ki, dezavantajlı ailədən olan uşaq digərləri ilə eyni sinfi mövqeni tutmaq üçün başqalarından daha çox sayda üstün cəhətlər nümayiş etdirməlidir.

*Aktuallığın davamı*

"Sosial mobillik" anlayışı məşğulluğun strukturundakı tendensiyaları və siniflər arasındakı mobilliyi üzə çıxarmaq üçün vacibdir. Hazırda bir çoxları qloballaşma və iqtisadi bazarların tənzimlənməməsinin zəngin və yoxsullar arasında fərqin artmasına, sinfi bərabərsizliyin güclənməsinə gətirdiyini qeyd edir. Bu isə sosial mobillik imkanlarının azalmasında təzahür edir. Ancaq yadda saxlamaq lazımdır ki, bizim davranışımız heç də tam olaraq sinfi bölgü ilə müəyyən olunmayıb və bir çox insan heç nəyə baxmayaraq, sosial mobillikdə iştirak edir.

Sosial mobilliyin tədqiqi, bir qayda olaraq, irimiqyaslı kəmiyyət sorğuları formasında həyata keçirilib və ilk növbədə, onun ölçüsü hesablanıb. Lakin bəzi tədqiqatçılar keyfiyyət metodları vasitəsilə balans yaratmağa çalışıb, insanların həyat boyu mobillik imkanlarını necə qavraması barədə daha detallı məlumat toplayıblar. Berto və Tompson (2007) ailə münasibətlərinin dinamikası, "reallığa çevrilməmiş karyera haqqında arzular" və sorğuların əhatə edə bilmədiyi bütün qarşılıqlı təsir növləri kimi təzahür edən sosial mobillik aspektlərini konkret ailə tarixçələri və icma həyatından olan əhvalatlar vasitəsilə öyrəniblər. Beləliklə, keyfiyyət tədqiqatları sosial mobilliyin subyektiv tərəflərini (və ya onun çatışmazlığını) təhlil etməyə, mikro- və makrosəviyyəli tədqiqatlar arasındakı uçurumu aradan qaldırmağa imkan verir.

Sosial dəyişikliklər və inqilablar sosial mobilliyə necə təsir göstərir? Herts və həmkarları (2009) bu sualı postsosialist Bolqarıstanın tədqiqində qarşıya qoydular. Tədqiqat 1995-2001-ci illərdə - radikal dəyişikliklər, iqtisadi tənəzzül və dövlət xərclərinin kəskin azalması (xüsusilə, təhsil sahəsində) dövründə ölkədə nəsillərarası sosial mobilliyin kəskin azalmasını üzə çıxardı. Aşağı təhsilli ailələrdən olan uşaqlar təhsil səviyyəsinin azalması və bununla yanaşı, nəsillərarası sosial mobilliyin zəifləməsindən əziyyət çəkirdilər. Herts və həmkarları təsvir olunan hadisələrin əsas səbəbinin təhsilin maliyyələşdirilməsinin azalması, işsizliyin artması, əvvəllər mövcud olan bərabərlik siyasətindən imtinada görürdülər. Keçmiş sosialist ölkələrində belə dəyişikliklərin dağıdıcı nəticələrə gətirib çıxarması təəccüblü deyil. Lakin bunu da nəzərə almaq lazımdır ki, 2008-ci ilin ümumdünya maliyyə böhranı Herts və həmkarlarının təsvir etdikləri meyillərlə mübarizəni təxirə sala bilər.

*İstinadlar və ədəbiyyat*

Bertaux, D., and Thompson, P. (2007) Pathways to Social Class: A Qualitative Approach to Social Mobility (New York: Transaction).

Glass, D. (1954) Social Mobility in Britain (London: Routledge & Kegan Paul).

Goldthorpe, J. H. (2005) ‘Progress in Sociology: The Case of Social Mobility Research’, in S. Svallfors (ed.), Analyzing Inequality: Life Chances and Social Mobility in Comparative Perspective (Stanford, CA: Stanford University Press), pp. 56–82.

Goldthorpe, J. H., and Jackson, M. (2007) ‘Intergenerational Class Mobility in Contemporary Britain: Political Concerns and Empirical Findings’, British Journal of Sociology, 58(4): 525–46.

Goldthorpe, J. H., Llewellyn, C., and Payne, C. ([1980] 1987) Social Mobility and Class Structure in Modern Britain (2nd edn, Oxford: Clarendon Press).

Hertz, T., Meurs, M., and Selcuk, S. (2009) ‘The Decline in Intergenerational Mobility in Post-Socialism: Evidence from the Bulgarian Case’, World Development, 37(3): 739

Lipset, S. M., and Bendix, R. (1959) Social Mobility in Industrial Society (Berkeley: University of California Press).

Platt, L. (2005) Migration and Social Mobility: The Life Chances of Britain's Minority Ethnic Communities (Bristol: Policy Press).
Saunders, P. (1996) Unequal but Fair? A Study of Class Barriers in Britain (London: IEA Health and Welfare Unit). 52.

## Status (Status)

*İşçi tərif*
Cəmiyyətdə insanların fərd və ya sosial qrup üzvü olaraq nüfuzu və prestijinin toplumun üzvləri tərəfindən tanınmasına əsaslanan mövqeyidir.

*Anlayışın mənşəyi*
Sosial status sosiologiyanın, ilk növbədə, simvolik interaksionizm ənənəsi ilə bağlı əsas anlayışıdır. Veberə görə, status sosial qrupların nüfuzunun başqalarının gözündə tanınması əsasında onların fərqləndirilməsidir. Ənənəvi cəmiyyətlərdə status çox zaman insanı şəxsi tanımaqla birbaşa müəyyən edilirdi və uzun müddət ərzində müxtəlif kontekstlərdə çoxsaylı qarşılıqlı təsirlə əlaqəli idi. Lakin əhali sayının artması ilə insana bilavasitə status vermək imkanı getdikcə azalırdı. Veber qeyd edirdi ki, status tədricən həyat tərzi (indi daha çox həyat üslubu adlandırdığımız) ilə ifadə olunmağa başlayır. Evin və interyerin dizaynı, geyim tərzi, nitq və fəaliyyət növü başqalarının gözündə insanın sosial mövqeyinin konturlarını müəyyənləşdirir, eyni statusa malik olanlar isə ümumi identikliklə səciyyələnən icmalar yaradırlar.

*Məna və interpretasiya*
Maks Veber güman edirdi ki, cəmiyyətlər hakimiyyət və maddi resurslar uğrunda rəqabət və mübarizə ilə parçalanmışdır. Ancaq sinfi münaqişəni cəmiyyətin əsas parçalanma mənbəyi hesab edən Marksdan fərqli olaraq, Veber sosial sinfi cəmiyyətdəki münaqişənin əsaslarından biri və bəlkə, ən əsas olmayanı hesab edirdi. Müasir stratifikasiyalı cəmiyyət çoxölçülüdür və sadəcə sinfi bölgüyə qədər reduksiya oluna bilməz. Həmçinin, sosial status və

"partiya" mənsubiyyəti (cəmiyyətdə təsir imkanlarına can atan qrup və təşkilatlar) nəzərə alınmalıdır. Status, sinif və "partiya" mənsubiyyəti bir-birilə çuğlaşıb, qarışıb. Bunun sayəsində cəmiyyətdə əlçatan olan mümkün mövqelər çoxluğunu ehtiva edən sosial strukturun mürəkkəb mənzərəsi formalaşır. Əgər Marks status fərqlərinin sinfi bölgü ilə şərtləndiyini və onunla paralel getdiyini hesab edirdisə, Veber status mövqelərinin sinifdən asılı olmayaraq dəyişə bildiyini göstərirdi. Aristokrat ailələr tədricən öz var-dövlət və hakimiyyətini itirsələr də, bu, onların statusunun itirilməsi demək deyildi. Bəzi aristokratik ailə nümayəndələri nüfuzlu sosial şəbəkələrdə (yüksək status, aşağı iqtisadi kapital) iştirakını davam etdirərək, yüksək statuslarını saxlayırdılar. Əksinə, yalnız məşhurluğu ilə məşhur olan müasir tanınmışlar çox zəngin ola, lakin ikrah hissi ilə qarşılana bilər (aşağı status, yüksək iqtisadi kapital).

Qəbul etdiyimiz sosial rollar statusumuzdan asılıdır və insanın sosial statusu müxtəlif sosial kontekstlərdə fərqli ola bilər. Məsələn, tələbə kimi fərd müəyyən statusa malikdir və biz ondan tədris auditoriyasında müəyyən davranış gözləyirik, lakin oğul və ya qız kimi o, tamam başqa gözləntiləri doğrultmalıdır. Buna oxşar olaraq, fərd bir dost kimi sosial nizamda tamam fərqli mövqeyə malikdir və uyğun olaraq onun qəbul etdiyi rollar da dəyişir. Hamımız çoxlu sayda statusa malikik, onları eyni zamanda ifa edirik, belə çoxluq "status toplusu" adlanır. Sosioloqlar askriptiv *(fərdin şəxsi səylərindən asıl olmayaraq mənsub olduğu – red. **A.H.***) və nail olunmuş statusları fərqləndirirlər. Askriptiv status insana bir növ əvvəlcədən verilir. Çox zaman bioloji amillərə əsaslanır – cins, yaş ("kişi", "yeniyetmə") və s. Nail olunmuş status insanın öz səyləri nəticəsində əldə etdiyi statusdur ("həkim", "atlet", "menecer").

Nail olduğumuz statusların daha vacib olduğunu düşünmək bizə xoşdur, lakin bununla heç də hamı razı deyil. Hər bir cəmiyyətdə digərləri üzərində üstünlüyü olan statuslar vardır və adətən, bu aparıcı statuslar fərdin ümumi sosial mövqeyini müəyyən edir. Gender və "irq" çox zaman aparıcı statuslar kimi nəzərdən keçirilir, lakin bəzi hallarda deviant, ətraf mühiti qoruyan və xristian statusu da aparıcı ola bilər. Müəyyən statusa aid edilən prestij də zaman

keçdikcə dəyişir, çox zaman sosial qrupların konkret fəaliyyəti ilə bağlı olur. Bir vaxtlar Şimali Amerika və Avropada "qaradərili" statusu neqativ idi, belə ki, o, ağdərili çoxluğun mədəniyyəti tərəfindən aid edilirdi. Qaradərili olmaq daim ayrı-seçkilik, önyarqı və sosial stiqma ilə qarşılaşmaq demək idi. Bir müddətdən sonra qaradərililərin hüquqları uğrunda hərəkatlar və bərabərhüquqluğun təminatı üzrə kampaniyalar bu statusu müsbət tərəfə yönəltdi, onu qürurverici tarixi və mədəni ənənə ilə bağladı. Bu nümunə göstərir ki, hətta askriptiv statuslar belə dəyişən sosial definisiya və qiymətləndirmələrin obyekti ola bilər.

*Tənqidi məqamlar*

Veber və onun müasir ardıcıllarının statusun sosial stratifikasiya sistemində sosial sinif qədər əhəmiyyətini sübut edən arqumentlərinə baxmayaraq, tənqidi mövqedə olanlar hesab edir ki, belə yanaşmada sinfi mövqenin həyat şanslarını müəyyən etməkdə davam etməsi nəzərə alınmır. Sosial mobillik tədqiqatları göstərdi ki, onun səviyyəsi əvvəlkindən yüksək olsa da, sinfi strukturun aşağı səviyyəsində nəsillərarası mobillik demək olar ki, müşahidə olunmur. Sinif sosial mövqe və statusu müəyyən edən daha təsirli amildir, yəni əksinə deyil. Sosial bərabərsizlik də ilkin olaraq struktur iqtisadi dəyişikliklərə rəğmən davam edir və bu insanların fərdi seçim və qiymətləndirmələri ilə izah oluna bilməz. Kromptonun (2008) qeyd etdiyi kimi, maddi yoxsulluq və kəskin deprivasiya halları cəmiyyətin sosial-iqtisadi və peşə strukturunun dərk olunmasını tələb edir.

*Aktuallığın davamı*

Müasir cəmiyyətlər maddi məhsulların daim mənimsənilməsinə yönəlmiş istehlak cəmiyyətinə çevrilib. Sinfi nəzəriyyəçilərin tənqidinə baxmayaraq, ola bilər ki, müxtəlif "zövqlərə" əsaslanan status fərqləri hazırda sosial sinif mövqeyini möhkəmləndirir. Müasir cəmiyyətlər istehlakçıyayönümlü olduqca, sosial status daha az deyil, əksinə, daha çox əhəmiyyətli olur. İstehlak cəmiyyətində insanlar sinfi fərqləri həyat üslubunun indikatoru olan əmtəələrə sahiblənərək təsbit edirlər. Bu fərdiləşməyə, özünün sosial sinfi və di-

gər ənənəvi kimliklərlə deindentifikasiyaya gətirir. Lakin bu, sosial sinfin öz əhəmiyyətini itirməsi demək deyildir, insanlar yenə də sosial sinfi öz şəxsi identikliklərinin əsas cəhəti hesab edirlər. İstehlakçılığa doğru yönəlmə daha dəyişkən, mürəkkəb və xırda sosial fərqlərin yaranmasını şərtləndirir, cəmiyyətdə status rəqabətini daha da genişləndirir.

Maraqlı məqalələrindən birində Mari Reje (2008) sosial statusun insanları niyə narahat etməsi sualını qoyur. O, "komplimentar qarşılıqlı təsir" gedişində insanların özünün və başqasının status mövqeyinə necə maraq göstərməsini nəzərdən keçirir. İnsan onunla oxşar qabiliyyətlərə malik başqaları ilə münasibətə girərək (məsələn, biznesdə) öz mövqeyini yüksəltmək imkanı qazanır. Ancaq qabiliyyətlər heç də həmişə görünən olmadığından status markerləri oxşar istedada malik insanları bir-birinə bağlayan vacib siqnallara çevrilə bilər. Komplimentar qarşılıqlı təsir haqqında tezis insanların müəyyən kontekstlərdə hansı səbəbdən müəyyən status atributlarını seçdiyini izah edə bilər. Məsələn, biznes sahəsində "Rolex" şirkətinin saatları və "Armani" brendli kostyumlara maraq belə izah oluna bilər ki, bu predmetlər biznes qabiliyyətinin olmasının görünən işarələri kimi qəbul edilib. Onlara investisiya edərək, biznesmenlər faydalı əlaqələr yaratmaq şanslarını artıra bilərlər. Reje hesab edir ki, "başqalarından geri qalmamaq" arzusu göründüyü qədər dayaz əlamət olmaya bilər.

Ricvey və həmkarlarının eksperimental tədqiqatında (2009) təsbit olunub ki, gender status fərqlərinin vacib amilidir. Məqalə sosial fərqlərə malik insanlarla sadəcə iki görüşdən sonra statusun necə formalaşmasına həsr olunub. Eksperimentlər vacib gender bölgüsünü üzə çıxardı. Həm kişilər, həm də qadınlar şəxsi statusuna inam formalaşdırsalar da, növbəti görüşədək bu inamı saxlayanlar qadınlar deyil, məhz kişilər idi. Bu mənada kişilər öz mühakimələrinə əsaslanan davranışların "ilkin hərəkətvericisinə" çevrilirlər. Ancaq status fərqləri təsbit edildikdən sonra qadınlar da kişilər kimi insanlara onların statusuna əsasən yanaşmağa meyil edirlər. Məhdud həcminə baxmayaraq, bu tədqiqat status fərqlərinin sosial bərabərsizliyin təkrarlanmasında vacib amil olmasını göstərir.

*İstinadlar və ədəbiyyat*

Bourdieu, P. (1986) Distinction: A Social Critique of the Judgement of Taste (London: Routledge & Kegan Paul).

Chan, T. W. (ed.) (2010) Social Status and Cultural Consumption (Cambridge: Cambridge University Press).

Crompton, R. (2008) Class and Stratification: An Introduction to Current Debates (3rd edn, Cambridge: Polity).

Rege, M. (2008) 'Why Do People Care about Social Status?', Journal of Economic Behavior and Organization, 66(2): 233–42.

Ridgeway, C. L., Backor, K., Li, Y. E., Tinkler, J. E., and Erickson, K. G. (2009) 'How Easily Does a Social Difference Become a Status Distinction? Gender Matters', American Sociological Review, 74(1): 44–62.

**Yoxsulluq (Powerty)**

*İşçi tərif*

Cəmiyyətdə əsas və ya normal hesab edilən nemətlərə əlçatanlığın olmaması ilə səciyyələnən vəziyyətdir.

*Anlayışın mənşəyi*

Yoxsulluq şərtlərinin əksər cəmiyyətlərdə olmasına baxmayaraq, anlayışın istifadəsi XIX əsrin sonu, XX əsrin əvvəllərinə təsadüf edir. Sib Rauntrinin Nyu-York şəhərində həyata keçirdiyi yoxsulluğun tədqiqi (1901) cəmiyyətdə yoxsulluğun miqyasını müəyyən etməyə çalışan növbəti işlərə istiqamət verdi (2000). Bu tədqiqat istiqaməti olduqca əhəmiyyətlidir, belə ki, yoxsulluq səviyyəsinin azaldılması üzrə tədbirlərin qiymətləndirilməsi zamanı nə qədər insanın belə şəraitdə yaşamasını bilmək vacibdir. 1950-ci illərin sonundan etibarən Piter Taunsendin işlərindən sonra yoxsulluğun qiymətləndirilməsinin alternativ metodu geniş istifadə olunmağa başladı. Taunsend (1979) yoxsulluğun həyat tərzinə əsaslanan, deprivasiyaya yol açan relyasyon izahını təklif etdi (məsələn, "evdə soyuducu yoxdur" kimi). Bu yanaşma əvvəl hesab edildiyindən daha yüksək olduğu aşkar edilmiş yoxsulluq səviyyəsini qiymətləndir-

məyə imkan verdi. Taunsendin konsepsiyasında yoxsulluq mütləq olmaqdan daha çox nisbidir. Daha sonrakı tədqiqatlarda insanların özlərinin nəyə ehtiyac duyduğunu öyrənmək üçün sorğu və intervü metodlarından istifadə olundu. Bir çox milli dövlətlər (o cümlədən, Avropa Şurası) ev təsərrüfatının gəlir səviyyəsinin ölkə üzrə orta gəlir səviyyəsi ilə müqayisəsinə (bir qayda olaraq, orta gəlirin 50-60%-i) əsaslanan "yoxsulluq həddini" müəyyən ediblər. Bunun əsasında belə vəziyyətdə olan vətəndaşların sayı müəyyənləşdirilir.

*Məna və interpretasiya*

Sosioloqlar yoxsulluğun iki əsas konsepsiyasını fərqləndirirlər: mütləq və nisbi yoxsulluq. Mütləq yoxsulluq sağlam həyat tərzinin saxlanılması üçün zəruri olan maddi yaşayış minimumu ideyasına əsaslanır. Ərzaq, ev, geyim çatışmazlığı şəraitində yaşayan insanlar mütləq yoxsulluq vəziyyətindədirlər. Bu yanaşmaya görə, bir sıra inkişaf etməkdə olan ölkələrin geniş əhali qrupları mütləq yoxsulluq vəziyyətində yaşayır. Banqladeş, Mozambik və Namibiyanın əhalisinin üçdə biri, Ruanda əhalisinin üçdə ikisi, Nigeriya əhalisinin 70%-i hazırda mütləq yoxsulluq vəziyyətində yaşayırlar. Lakin yoxsulluğun ümumi standartının olması mübahisəli məsələdir, belə ki, tələbatların necə təyin olunması mədəniyyətdən asılıdır.

Müasir sosioloqların böyük hissəsi alternativ anlayış olan "nisbi yoxsulluq"dan istifadə edirlər. O, cəmiyyətdəki ümumi həyat standartları ilə uzlaşdırılır. Bu anlayışın seçilməsinin əsas səbəbi yoxsulluğun müəyyənləşməsinin mədəniyyətlə şərtlənməsi ideyasının geniş yayılması, onun universal standartlara uyğun ölçülməsinin qeyri-mümkünlüyü ilə bağlıdır. Bir cəmiyyətdə əsas hesab edilən əşyalar başqa birində var-dövlət predmeti kimi görünə bilər. İnkişaf etmiş ölkələrdə müntəzəm su təchizatı, hər gün müntəzəm olaraq meyvə və tərəvəz yemək ilkin tələbat olsa da, inkişaf etməkdə olan ölkələrdə onlar heç də normal həyatın hissəsi deyil, ona görə də bunların olmamasının yoxsulluğun göstəricisi hesab olunması əsaslandırılmış deyildir. Hətta zaman keçdikcə, biliklərimiz genişləndikcə, mütləq yoxsulluğun təyini də dəyişmişdir, başqa sözlə, mütləq yoxsulluğun özü də nisbidir.

Buna baxmayaraq, “nisbi yoxsulluq” anlayışını “əlac” hesab etmək düzgün olmazdı. Cəmiyyətlərin inkişafı gedişində yoxsulluq meyarları dəyişikliklərə məruz qalır. Soyuducu, mərkəzi istilik sistemi və telefonun olmasının var-dövlət hesab edildiyi zamanlar var idi, lakin indi əksər insanlar bunları ilkin tələbat hesab edirlər. Bəzi tədqiqatçılar hesab edir ki, nisbi yoxsulluq konsepsiyası diqqəti o faktdan uzaqlaşdırır ki, indi cəmiyyətin ən yoxsul üzvləri yenə də əvvəlkindən daha yaxşı yaşayırlar. Onlar belə bir sual ortaya qoyurlar: zəngin ölkələrdə həqiqi yoxsulluq mövcuddurmu? Yoxsulluq vəziyyətində yaşayan sosial qruplar ən çox uşaqlar, yaşlı insanlar, qadınlar və bəzi etnik azlıqlardır. Yoxsulluq şansı daha yüksək olanlar dezavantajlı vəziyyətdə və ya diskriminasiyaya məruz qalanlardır.

Yoxsulluğun izahı ya fərdin günahlandırılması (“qurban özü günahkardır”), ya da cəmiyyət quruluşunun günahlandırılması ilə bağlıdır (“sistem günahkardır”). “Yoxsullar həmişə bizimlə olacaq” fikri uzun tarixə malikdir və ilk növbədə, kasıb insanların özlərinin öz vəziyyətlərinə görə məsuliyyət daşımasını nəzərdə tutur. Bu nəzər nöqtəsinə əsasən cəmiyyətdə uğur qazanmaq üçün çoxsaylı imkanlar vardır və əgər hansısa insanlar uğura nail olmayıblarsa, özlərini günahlandırmalıdırlar. XIX əsrdə fəaliyyət göstərən “Yoxsul evləri” və “İş evləri” uğursuzluğa düçar olduğu hesab edilən insanlar üçün nəzərdə tutulmuşdu. Bu yanaşma sonralar öz populyarlığını itirsə də, o, 1980-ci illərdə neoliberal siyasətçilərin yoxsulluğu müəyyən həyat tərzi və yönəlişliklərlə izah etməsi ilə ikinci həyat qazandı. Amerikan sosioloqu Çarlz Mürrey (1984) “aşağı sinfin” (underclass) meydana gəldiyindən danışır. Onlara sosial müavinət alaraq yaşamaq və işləmək istəyinin olmaması ilə səciyyələnən asılılıq mədəniyyəti xasdır.

Sistemi qınayan yanaşma müəyyən yoxsulluq səviyyəsini yaradan sosial-iqtisadi şərtləri nəzərdən keçirir. Mütəmadi iqtisadi artım və tənəzzül, təhsil siyasəti və sistemindəki dəyişikliklər, əsas sosial bölgü əlamətləri (sinif, gender, etnik mənsubiyyət), əlillik - bütün bunlar fərdi həyat şanslarının formalaşması və bəzi insanların yoxsulluqla üzləşməsi ehtimalına ciddi şəkildə təsir göstərir. Belə struktur izahlar əsas məsuliyyəti fərdin üzərinə qoymaqdan imtina

edir. Bu yanaşma 1930-cu illərdə Riçard Touninin təklif etdiyi nəzəriyyəyə əsaslanır. Bu nəzəriyyəyə əsasən, yoxsulluq fenomeni zənginlik və yoxsulluğun qütbləşməsinə gətirən sosial bərabərsizliyin bir aspektidir. Yoxsulluqla mübarizənin əsas yolu insanın özünü qınamaq deyil, sosial bərabərsizliyin sosial-iqtisadi siyasət vasitəsilə azaldılmasıdır. Yoxsuluq səviyyəsinin azaldılması fərdi baxış və münasibətin dəyişilməsi məsələsi deyil. Bunun üçün gəlirlərin daha bərabər paylanması siyasəti zəruridir. Böyük Britaniyada belə siyasətə nümunə minimal əməkhaqqının və iş yeri üzrə imtiyazların müəyyənləşdirilməsidir. Onların məqsədi yoxsulluq səviyyəsinin azaldılmasıdır. İqtisadiyyatın restrukturizasiyası da yoxsulluq səviyyəsinin artmasına səbəb ola bilər. 1980-ci illərdə emal sənayesinin çökməsi, məşğulluğun suburbanizasiyası və az ödənişli xidmət sektorunun artması işədüzəlmə imkanlarını məhdudlaşdırdı. Ümumiləşdirərək qeyd edək ki, yoxsulluq səviyyəsi cəmiyyətdəki struktur dəyişiklikləri nəzərə alaraq izah olunmalıdır.

*Tənqidi məqamlar*

"Yoxsulluq" anlayışının istifadəsinin tənqidi zamanı bir sıra arqumentlər irəli sürülür. Əgər mütləq yoxsulluğun mədəni aspektdən tənqidini qəbul ediriksə, onda ortada qalan nisbi yoxsulluq olur. Lakin tənqidçilər nisbi yoxsulluq konsepsiyasında sosial bərabərsizliyin alternativ təsvir üsulunu görürdülər, bu isə bizim anlayışımıza heç nə əlavə eləmirdi. Əgər yoxsulluq standartları sosial inkişaf nəticəsində dəyişirsə, onda anlayışın ilkin məqsədi (məhrumiyyətin kəskin formalarının təsbiti və onlar haqqında məlumat səviyyəsinin artırılması) dəyişir. Müasir həyatın texnoloji atributlarının çoxuna malik və sosial təminat sisteminə əlçatımlığı olan ailələr sözün əsl mənasında yoxsul hesab oluna bilərlərmi?

Bəzi sosioloqlar "yoxsulluq" anlayışından imtina edərək, "sosial təcrid" anlayışına üstünlük verirlər. O, yoxsulları müəyyən vətəndaş hüquqlarından məhrum edən prosesləri təsbit etməyə imkan verir. Yoxsulluğun ölçülmə metodları da tənqidə məruz qalmışdır. Təcridetmə indeksi əsasında olan ideya indikatorlar qrupunun müəyyənləşdirilməsini nəzərdə tuturdu. Bəs, bu indikatorların seçimi

ixtiyari deyilmi? Bəzi indikatorları başlıca və ya real tələbatları ödəyən, digərlərini isə sadəcə arzu kimi qəbul etdikdə, biz hansı meyarlara əsaslanırıq? İsti səhər yeməyi və istirahət günləri kimi kateqoriyalar bir çox hallarda yoxsulluq deyil, şəxsi seçim və prioritetlərlə əlaqəli ola bilər. Belə ixtiyari seçicilik diqqəti inkişaf etməkdə olan ölkələrdə mütləq yoxsulluğun real problemlərindən uzaqlaşdıra bilər.

*Aktuallığın davamı*

Tənqidlərə baxmayaraq, "yoxsulluq" anlayışı müasir sosioloji tədqiqatlarda əhəmiyyətli olaraq qalır. Bu, xüsusilə müvafiq sahələrdə siyasəti müəyyənləşdirənləri məlumatlandırmaq məqsədi olan hallara aiddir. "Nisbi yoxsulluq" anlayışı bərabərsizliyin müzakirəsi üçün əhəmiyyətli idi. Onun sayəsində bu müzakirələr daha sosioloji səciyyə daşımağa başlayıb, diqqəti yoxsulluğun artmasına gətirib çıxaran, geniş sosial qrupları tamhüquqlu vətəndaşlıqdan təcrid edən sosial-iqtisadi proseslərə yönəldib.

"Aramızda həmişə yoxsullar olacaq" ideyası da nisbətən yeni tədqiqatların bu ideyanı təkzib edən nəticələri ilə üzləşib. Bu tədqiqatlar göstərir ki, istənilən konkret dövrdə yoxsulluq vəziyyətində olanların böyük hissəsi əvvəllər daha yaxşı həyat şərtlərində yaşayıblar və ya gələcəkdə yoxsulluqdan qurtulmağa nail ola bilərlər (Jenkins, 2011). Mobilliyin əhəmiyyətli səviyyədə olması onu göstərir ki, bəzi insanlar yoxsulluqdan yan keçməkdə daha uğurludurlar, lakin ömür boyu yoxsul yaşamağa məcbur olacağını dərk edənlər daha çoxdur. Bu mənada yoxsulluğun humanizasiyası baş verib, yoxsul yaşayanlar artıq cəmiyyətin qalan hissəsindən ayrı imiş kimi nəzərdən keçirilmir.

*İstinadlar və ədəbiyyat*

Alcock, P. (2006) Understanding Poverty (3rd edn, Basingstoke: Palgrave Macmillan).

Hulme, D. (ed.) (2010) Global Poverty: How Global Governance is Failing the Poor (London: Routledge).

Jenkins, S. P. (2011) Changing Fortunes: Income Mobility and Poverty Dynamics in Britain (Oxford: Oxford University Press).

Lister, R. (2004) Poverty (Cambridge: Polity).

Murray, C. A. (1984) Losing Ground: American Social Policy 1950–1980 (New York: Basic Books).

Rowntree, B. S. ([1901] 2000) Poverty: A Study of Town Life (Bristol: Policy Press).

Townsend, P. (1979) Poverty in the United Kingdom (Harmondsworth: Penguin).

# MÖVZU 6. MÜNASİBƏTLƏR VƏ HƏYAT YOLU

## Ailə (Family)

*İşçi tərif*

Qarşılıqlı öhdəliyi paylaşan, qan bağlılığı, evlilik və ya övladlığa götürmə ilə bir-birinə bağlı fərdlərdən ibarət sosial qrupdur.

*Anlayışın mənşəyi*

"Ailə" anlayışı cəmiyyət qədər qədimdir və klassiklərdən bu günə qədər sosioloqların ailə haqqında bəhs etmək üçün müəyyən səbəbləri olub. Bu gün əksər sosioloqlar inanır ki, biz "ailə" haqqında sanki universal bir modelin mövcud olması kimi danışa bilmərik. Təkvalideynli ailə, ögey ana və ögey atadan ibarət ailələr kimi müxtəlif ailə formaları mövcuddur və sosioloqlar bu müxtəlifliyi əks etdirmək üçün cəm halında "ailələr"dən bəhs edirlər.

Əvvəlki ailə həyatının uşaqların stabil, harmonik şəkildə yetişdirildiyi "qızıl əsr"i haqqında heç də bütün ideyalar özünü doğrultmadı. Məsələn, əksər siyasətçi və şərhçilər bu günün ailələrini kraliça Viktoriyanın dövründəki aşkar stabilliklə müqayisə edirlər. Lakin XIX əsr İngiltərəsində ölüm göstəriciləri olduqca yüksək, evliliklərin orta müddəti 12 ildən az idi, 21 yaşdan aşağı bütün uşaqların 50 faizi ən azı valideynlərindən birini itirmişdi. Oxşar şəkildə Viktorian dövrü ailəsinin nizam-intizamı bu gün əksər insanlar üçün qəbuledilməz olan çox sərt qanunlar və fiziki cəzalandırmalara əsaslanırdı. Orta sinfə aid qadınlar az və ya çox dərəcədə evlərinə bağlı olduqları halda, əksər "mötəbər" kişilər tez-tez bordellərə baş çəkirdilər. Uşaq əməyi də geniş yayılmışdı. Tarixi sosiologiya çox zaman bizim ortaq düşüncədən qaynaqlanan tarixi yaddaşımızın qeyri-realist və nostalji xarakterli olduğunu göstərir.

*Məna və interpretasiya*

Bu gün ailəni müəyyən etmək ciddi çətinliklər doğurur. Sosioloqlar həm ayrıca götürülmüş milli cəmiyyətlərdə, həm də dünya üzrə bütün cəmiyyətlərdə ailə formalarının müxtəlifliyinin mövcudluğunu qəbul edirlər. Dünyanın bəzi yerlərində əsrlərlə mövcud olan ənənəvi ailə strukturları bu gün də nisbətən dəyişməz formada davam edir. Lakin inkişaf etmiş cəmiyyətlərdə insanların ailə nizamında önəmli dəyişikliklər baş verib və bu, ailə həyatının tədqiqinin yeni üsullarını zəruriləşdirmişdi.

İnkişaf etmiş ölkələrdə etnik azlıqlardan ibarət qrupların (məsələn, Cənubi Asiya və ya Qərbi Hindistan mənşəli) mövcudluğu, həmçinin feminizm kimi sosial hərəkatların təsiri ailə formalarında nəzərəçarpacaq mədəni müxtəlifliyə səbəb oldu. Yoxsullar, ixtisaslı işçi sinifləri, orta və yuxarı siniflərdəki müxtəlif qruplar arasında sinfi bölünmələr ailə strukturunda əsas variasiyaların təməlini təşkil edir. Həyat boyu ailə təcrübəsinin variasiyaları da diversifikasiyaya səbəb olur. Məsələn, bir şəxs hər iki valideynin birlikdə olduğu ailədə böyüyə, sonra evlənə, daha sonra isə boşana bilər. Başqa bir şəxs yalnız təkvalideynli ailədə yetişə, bir neçə dəfə evlənə və hər evlilikdən uşaqları ola bilər.

Ailə üzvləri ölkə və dünya boyu hərəkət etdikcə, valideynlər, nənələr-babalar, geniş ailə arasındakı bağlar getdikcə zəifləyir. Digər tərəfdən, bu gün insanlar daha çox yaşayır və bir ailənin üç nəsli - evlənmiş nəvələr, onların valideynləri və nənələr-babalar sıx münasibətdə yaşaya bilir. Qeyd etmək lazımdır ki, indi ailənin təşkilində heç zaman olmadığı qədər cinsi müxtəliflik vardır. Homoseksuallığın getdikcə əksər Qərb cəmiyyətlərində qəbul edilməsi ilə partnyorluq və ailələr həm homoseksual, həm də heteroseksual münasibətlərə əsaslanmaqla formalaşır.

Ailənin növləri, strukturu və praktikalarının diversifikasiyası geniş yayılmış nüvə ailəsinə əsaslanan ideallaşdırılan ailə forması haqqında anlayışı tədricən əhəmiyyətsizləşdirir. Uşaq tərbiyəsi üçün daha sabit və etibarlı görünən ənənəvi ailə formasını canlandırmaq üçün bir çox cəhdlər edilib. Lakin bu ideallaşdırma qeyd edilən ailə tipinin intim zorakılıq və uşaqların istismarı kimi qaranlıq tərəflərini nəzərdən qaçırır. Bəzi inkişaf etmiş ölkələrdə eyni-

cinslilərin evliliyinin leqallaşdırılması və yüksək dərəcədə boşanmaya meyilli olan ögey ana-ata və qarışıq ailələrin normallaşırılması ailə ideyaları və ailələrin reallığı arasındakı uçurumun tədricən daraldığını göstərir.

*Tənqidi məqamlar*

Ailələrin qarşılıqlı yardım və dəstəkdən qaynaqlanması haqqında hakim ideya mübahisəlidir. Empirik tədqiqatlar bəzilərinin faydalandığı, bəzilərinin isə əlverişsiz durumu ilə səciyyələnən bərabərsizliyin ailə həyatının adi aspekti olduğunu aşkar edib. Kapitalist istehsalı ailə həyatı və iş həyatının daha aydın bölünməsi, nəticədə isə qadın və kişi, özəl və ictimai sahələrin fərqlənməsini şərtləndirdi. Çağdaş inkişaf etmiş cəmiyyətlərdə uşaqlara qayğı və ev işləri kimi daxili-məişət vəzifələri əsasən qadınların üzərinə düşür (bu, iqtisadiyyatın rəsmi sektorunda çalışanlara da aiddir). Qadınlar nəinki ev təmizliyi və uşaq qayğısı kimi vəzifələri daşıyır, həm də şəxsi münasibətləri saxlamaq və yaşlı qohumlara qayğı göstərmək üçün böyük emosional zəhmət sərf edirlər.

Feministlər məişət zorakılığı, evlilikdaxili cinsi təcavüz və uşaqların cinsi istismarı kimi ailə həyatının "qaranlıq tərəfləri"nə diqqət çəkirlər. Ailə həyatının bu amansız cəhətlərinə uzun müddət məhəl qoyulmaması sosiologiyada ailələrin ifrat dərəcədə pozitiv və optimist olaraq təsvirinə (mərhəmətsiz dünyada bir sığınacaq kimi) səbəb olub. Feminist tədqiqatları göstərir ki, ailənin intim özəl strukturu onu gender əsaslı təzyiq, emosional və fiziki zorakılıq üçün bir məkana çevirir. Bu tədqiqatlar toplusu ailənin daha çox demistifikasiyasına xidmət etmişdir.

*Aktuallığın davamı*

Müxtəliflik ailə tədqiqatlarının mərkəzi xarakteristikası olsa da, qloballaşma mədəniyyətləri bir-birinə yaxınlaşdırdığı üçün bəzi ümumi ailə modellərini ayırmaq mümkündür. Məsələn, Terborn (2004) iddia edir ki, klanlar və qohum əsaslı qrupların təsiri azalır və həyat yoldaşının azad seçiminə doğru artan trend özünü göstərir. Qadın hüquqları evlilik təşəbbüsü və ailədə qərarvermə baxımından getdikcə daha geniş şəkildə tanınır. Əvvəllər daha qadağanedici

olan cəmiyyətlərdə həm kişilər, həm də qadınlar üçün seksual azadlığın daha yüksək səviyyələri inkişaf edir. Habelə uşaq hüquqlarının genişlənməsi və eynicinsli partnyorluqların qəbulu ümumi tendensiyaya çevrilir.

1981-2001-ci illər arasındakı rəsmi hökumət statistikasının təhlilində Veyr və digərləri (2007) "nüvə ailəsi"nin uzunmüddətli qürub yaşadığı iddiasını yoxlayıblar. 2001-ci ildə əhalinin üçdə biri aşkar şəkildə "nüvə" ailələrində yaşayıb, lakin ailə formaları daha çox müxtəlifliyə malik idi: təkvalideynli, yalnız cütlükdən ibarət, bir neçə partnyorla münasibət saxlayan, genişləndirilmiş "nüvə ailəsi" formaları. Bununla belə, müəlliflər bildirirlər ki, "nüvə ailəsi" mühüm olaraq qalır, xüsusilə də "nüvə ailəsi" formalarında yaşayan orta yaşlıların belə yaşayış formasında qalma ehtimalı daha çoxdur. Təkvalideyn və tək yaşayan şəxslərin artması ilə nəticələnən boşanma və münasibətlərin pozulmasını nəzərə alsaq, "nüvə ailəsi"nə doğru və ya ondan uzaqlaşma yollarının əhəmiyyətli dərəcədə dəyişdiyi meydana çıxır.

Ögey ailələr artdıqca (nikahda olanlardan heç olmasa birinin başqa nikahdan övladının olduğu ailə tipi - *red.* ***A.H.***) belə ailələrin cəmiyyət tərəfindən necə qarşılanması sualı yaranır? Onlar neqativ anlamda görünür, yoxsa ailənin normal tipi kimi geniş şəkildə qəbul edilir? Avstraliyada aparılan bir tədqiqatda Planits və Fini (2009) ögey ailə üzvlərinin özlərinin bölüşdüyü qalıcı, neqativ ögey ailə stereotiplərini aşkar ediblər. Bu neqativ xarakteristikalardan bəziləri "affektivliyin çatışmazlığı", "yardım etməmə" və "qırılan bağ"lardır. Müxtəlif ailə və ev təsərrüfatı formalarının normallaşmasına rəğmən, bu tədqiqat "bioloji ailə" ideallarından qaynaqlanan stereotiplərin davam etdiyini göstərir.

*İstinadlar və ədəbiyyat*

Chambers, D. (2012) A Sociology of Family Life (Cambridge: Polity).

Pahl, J. (1989) Money and Marriage (Basingstoke: Macmillan).

Planitz, J. M., and Feeney, J. A. (2009) 'Are Stepsiblings Bad, Stepmothers Wicked and Stepfathers Evil? An Assessment of Australian Stepfamily Stereotypes', Journal of Family Studies, 15(1): 82–97.

Therborn, G. (2004) Between Sex and Power: Family in the World, 1900–2000 (London: Routledge).

Ware, L., Maconachie, M., Williams, M., Chandler, J., and Dodgeon, B. (2007) 'Gender Life Course Transitions from the Nuclear Family in England and Wales 1981–2001', Sociological Research Online, 12(4): www.socresonline.org.uk/12/4/6.html.

## Həyat yolu (Life Course)

*İşçi tərif*

Fərdin həyatı boyu sosial olaraq müəyyənləşən müxtəlif mərhələlərdən keçməsidir.

*Anlayışın mənşəyi*

Uzun müddət insan həyatı hamımızın keçdiyi universal, dəyişməz bir neçə bioloji mərhələdən ibarət həyat mərhələləri kimi nəzərdən keçirilirdi. Hamımız körpə, uşaq, gənc, yetkin, yaşlı insan oluruq və nəhayət, ölürük. Lakin 1970-ci illərdən etibarən uşaqlıq dövrü, gənclik submədəniyyətləri və yaşlılığın sosiologiyanın diqqət mərkəzinə çevrilməsi ilə insanın həyat yolunun hissəsi olan təbii və bioloji mərhələlərin sosial konstrukt kimi dərk edilməli olduğu aydınlaşdı.

Tarixi sosiologiya üzə çıxardı ki, feodal cəmiyyətlərində uşaqlıq təcrübəsi mahiyyətcə müasir cəmiyyətlərdən olduqca fərqlidir: uşaqlıq yetkinlikdən fərqləndirilən ayrıca bir mərhələ sayılmırdı. "Balaca yetkinlər" olaraq görülən və davranılan uşaqlar mümkün qədər tez işləməyə sövq edilirdi. Özünəməxsus cəhətləri olan gənclik mədəniyyəti isə yalnız İkinci Dünya müharibəsindən sonra orta ömür uzunluğunun artdığı və daha çox insanın dərin qocalığa qədər (yəni səksən yaşdan yuxarı) yaşayacağına ümid etdiyi dövrdə meydana çıxdı. Sosioloqlara görə, "həyat yolu" anlayışı "həyat tsikli" anlayışından daha münasibdir, çünki birincisi müxtəlif cəmiyyətlərdə fərqli tarixi dövrlərdə üzə çıxarılan nəzərəçarpan variasiyalara da "icazə verir".

*Məna və interpretasiya*

Həyat yolu istənilən cəmiyyətin sosial strukturu, mədəniyyəti və iqtisadi sisteminin məhsuludur. Bu o deməkdir ki, həyat yolunun mərhələlərinin sayı və forması müxtəlif cəmiyyət və tarixi dövrlər üçün fərqlidir. Sadə bir nümunə ölüm prosesi və ölümün özüdür. İnkişaf etmiş cəmiyyətlərin çoxunda orta ölüm yaşı 75-dir və ölüm yaşlanma ilə sıx əlaqəlidir. Əvvəlki dövrlərdə isə funksional səhiyyə sistemi və ya infeksion xəstəliklərin səbəbləri haqqında bilgi yox idi, uşaq ölümlərinin göstəricisi isə olduqca yüksək idi. Nəticədə isə ölüm həyatın daha gec olan mərhələləri ilə əlaqələndirilmirdi. Sosial sinif, gender və etniklik kimi digər sosial amillər də həyat yolu mərhələlərinin yaşanma tərzinə təsir edir. XIX əsrdə yuxarı təbəqədən olan uşaqlar qapalı təhsil müəssisələrinə qəbul olunur və uzun müddət orada təhsil alırdılar. Fəhlə sinfinə aid olan ailələrdəki 13 yaşlı oğlan uşaqlarının kömür mədənində və sənayedə, qızların isə ev təsərrüfatında işlərə cəlb olunması normal bir hal idi. Uşaqlıq həyat yolunun universal, bioloji yaşla bağlı mərhələsi deyildi.

Həmçinin, yaş kohortları (eyni ildə və ya eyni zaman müddətində doğulan insan qrupları) eyni hadisələrdən təsirlənməyə meyilli olduğu halda, digər yaş kohortları bu hadisələrdən təsirlənmir. Ona görə də bütöv bir nəsillərə oxşar həyat təcrübəsi xas olur. Eyni dövrdə doğulan insan qrupları (yaş kohortları) ümumi mədəni və siyasi istinad nöqtələrinə (hökumətlər, münaqişələr, musiqi trendləri və s.) sahibdir. 2001-ci ilin 11 sentyabr hücumları, Əfqanıstan və İraq ərazisinə müdaxilə fərqli şərhlərə baxmayaraq, bütöv bir nəslin həyat təcrübəsində iz qoydu. "Beybi bumer"lər adlanan nəsil ilk dəfə olaraq ev televizorlarına, gənclik mədəniyyətinin yeni formalarına sahiblənən, artan gəlir səviyyələrinə, seksuallıq və əxlaq baxımından daha liberal davranışlara malik nəsil oldu. Onların həyat yolu valideynlərinin və nənə-babalarının həyat yolundan əhəmiyyətli dərəcədə fərqlənirdi.

Uzun müddət sosioloqlar uşaqlıq dövrünü aşkar və universal həyat mərhələsi olaraq öyrənirdilər. Lakin o, həyatın spesifik mərhələsi kimi sadəcə 300 illik tarixə malikdir. Ənənəvi cəmiyyətlərdə kiçikyaşlı uşaqlar uzunmüddətli körpəlikdən sonra "uşaqlıq dövrü" adlanan mərhələ olmadan dərhal icma daxilində işçi rolların icrası-

na keçirdilər. Orta əsrlərin obrazları və rəsm əsərlərini öyrənən sosial tarixçi Filip Aryes qeyd edirdi ki, o dövrdə "uşaqlıq" olaraq bildiyimiz anlayış və ya həyat mərhələsi mövcud deyildi. Rəsm əsərlərində yetkin insan geyimində, valideynlərinin üslubunda geyindirilmiş, yaşlarından daha yaşlı görünən uşaqlar təsvir olunurdu. Bizə "uşaqlıq" kimi məlum həyat mərhələsi daha sonrakı dövrlərdə sosial olaraq yaradılmışdır. İndi də bir çox uşaqlar və gənclər əvvəlki kimi erkən yaşlarından mədənçilikdən kənd təsərrüfatına qədər iqtisadiyyatın müxtəlif sahələrində işləyir. BMT-nin uşaqlıq dövrünün tərifini və uşaq hüquqlarının vahid toplusunu yaratmaq cəhdi uşaqlığın universal həyat mərhələsi olmadığının dolayı yolla etiraf olunmasıdır. Əlbəttə, biz bütün həyat mərhələləri ilə bağlı belə sosial konstruktivist ideyanı yeniyetməlik, gənclik və orta yaş dövrünə şamil edə bilərik.

Sosioloqlar ilk növbədə inkişaf etmiş ölkələr üçün səciyyəvi olan həyat yolunun yeni mərhələsi - gənc yetkinlik (və ya erkən yetkinlik) nəzəriyyəsi üzərində işləyirlər. Gənc yetkinlik 20-30 yaşlarında olan, nisbətən müstəqil, lakin hələ evlənməmiş, yaxud uşaq sahibi olmayan insanlar üçün səciyyəvidir. Nəticədə onlar bu yaşda münasibət növləri və öz həyat tərzləri ilə bir növ eksperiment aparırlar. Lakin bu mərhələni bütün sosial siniflər və etnik qrupların eyni tərzdə yaşamadığı görünür. Güman ki, "gənc yetkinlik" anlayışı 20 yaşa çatmış, boş vaxta və səyahət etmək qabiliyyətinə, alternativ həyat tərzlərini təcrübə etmək imkanına malik olan daha zəngin fərdlərdən ibarət kiçik qrupları təsvir etmək üçündür. Bu həyat mərhələsi güman ki, həm də erkən yaşda ənənəvi ailə həyatına daxil olmaq əvəzinə, universitet təhsili alan və karyera quran gənc qadınları da özündə ehtiva edir.

*Tənqidi məqamlar*

İnsan həyatına sosial konstruktivist yanaşma fərdi həyat tərzlərinin tədqiqinə yeni istiqamət gətirməkdə çox faydalı oldu. Bəzi postmodern filosoflara görə, qeyd edilən yanaşma hələ ki, kifayət qədər uğur əldə edə bilməyib. Belə ki, onlar hələ də konkret dəyişiklikləri nəzərdə tutan həyat mərhələləri üzrə keçid ideyasını rəhbər tutur. Bu isə həyat yoluna artıq mövcud olmayan strukturun aid

edilməsinə və ya həyat tsiklinin bioloji modelinə qayıdışa gətirib çıxara bilər. Tənqidin mahiyyəti həyat yolu tədqiqatlarının hələ də qəti şəkildə bioloji mərhələlər üzərində qurulan erkən tədqiqatlardan tam olaraq ayrıla bilməməsidir. Postmodernistlərə görə, insanın həyat yolu özünəməxsus mərhələlərin şəbəkəsi olmayıb, daha çox kontinuumdur. Müəyyən həyat mərhələlərini ayırmaq cəhdi isə ona yanlış ardıcıl nizamı aid edir. Ancaq belə tənqid icbari orta məktəb, sosial müavinət hüququ, məcburi təqaüd yaşı kimi həyat yolu mərhələləri ilə assosiasiya edilən sosial markerlərin tam təsirini nəzərə ala bilmir. Bunlar insanların özünü necə qavraması ilə bağlı simvolik markerlərdir.

*Aktuallığın davamı*

"Həyat yolu" konsepsiyası sosiologiyada nisbətən zəif inkişaf edib. Lakin anlayışın uşaqlıq dövrü, ailə həyatı, gənclik mədəniyyətləri, yaşlanma prosesi və şəxsi münasibətlərə daxil edilməsi daha öncəki, bioloji əsaslı həyat tsikli yanaşmasından uzaqlaşan yeni tədqiqat istiqamətinin mümkünlüyünü göstərdi. Bu anlayış həm də müxtəlif sosial mövqelərdə olan fərdlərin həyat yolunun mərhələlərini necə yaşadığını öyrənməyə imkan verən bioqrafik metod və şifahi tarix kimi yeni tədqiqat üsullarına marağı stimullaşdırdı. Bu istiqamətdə tədqiqatlar aktorların sosial baxış perspektivini nəzərə almaqla həyat yolunun müxtəlif mərhələlərindəki struktur-agentivlik problemi üzrə yeni informasiyanı təqdim edə bilər.

Həyat yolunun müxtəlif mərhələlərindəki müəyyən hadisələr həyatımızın sonrakı dövrlərində yaşımızın qavranılmasında digərlərindən daha mühümdürmü? Şafer (2008) bu suala müsbət cavab verir. Subyektiv yaşa dair mükəmməl məqaləsində o, insanların yaş persepsiyası fenomenini nəzərdən keçirir. Şaferin statistik təhlili göstərir ki, uşaqlıq dövründə ananın ölümü öz yaşını olduğundan çox hiss etməklə bağlı subyektiv qavrayışı şərtləndirir, atanın ölümü isə həmin təsirə malik deyil. O iddia edir ki, həyat yolunun ən vacib keçid mərhələləri ilə fərdin sosial özümlülüyünün inkişafı arasında əhəmiyyətli əlaqə mövcuddur, onlar gələcək yetkinlik dövründə subyektiv yaş və sağlamlığın qavrayışına təsir göstərirlər.

*İstinadlar və ədəbiyyat*

Ariès, P. (1965) Centuries of Childhood (New York: Random House).

Hunt, S. (2005) The Life Course: A Sociological Introduction (Basingstoke: Palgrave Macmillan).

Priestley, M. (2003) Disability: A Life Course Approach (Cambridge: Polity).

Schafer, M. H. (2008) 'Parental Death and Subjective Age: Indelible Imprints from Early in the Life Course?', Sociological Inquiry, 79(1): 75–97.

## İcma (Community)

*İşçi tərif*

Mübahisəli anlayışdır. Müəyyən ərazidə yaşayan, ümumi maraqları paylaşan, bir-birilə sistematik qarşılıqlı təsirdə olan insan qrupudur.

*Anlayışın mənşəyi*

"İcma" termini XIV əsrdən etibarən istifadə edilib. O zaman mənası zadəgan olmayan "sadə adamlar" idi. XVIII əsrdən bəri "icma" spesifik bir regionda yaşayanları və ya ümumi maraqlara malik insanları ("maraq icması") təsvir etmək üçün istifadə edilib (Villiams 1987). XIX əsrdən etibarən daha kiçikmiqyaslı "icma" anlayışı  ondan daha böyük və qeyri-şəxsi xarakterə malik "cəmiyyət"dən fərqli və ona zidd istifadə olunmağa başladı. Alman sosioloqu Ferdinand Töni (1887, 2001) "Gesselschaft"ın (assosiativ bağlar) sürətlə genişlənməsilə  "Gemeinschaft"ın (icma bağları) qürubunu ortaya çıxardı. Belə qarşılaşdırma sosioloji tədqiqatlarda və sosial interpretasiyalarda dəfələrlə təkrar edilib. "İcma" anlayışı normativlik elementini ehtiva etdiyindən sosioloji təhlildə ondan istifadə problematikdir.

İcmaya dair erkən tədqiqatlar araşdırmaçıların spesifik lokallıqları daha yaxşı anlaması üçün həmin yerlərə cəlb olunmasını nəzərdə tuturdu. Lakin çox zaman bu tədqiqatlar nəzəri dəqiqliyi ça-

tışmayan sadə bir təsvir kimi nəzərdən keçirilirdi. 1970-ci illərdən etibarən isə icmaların tədqiqi mənasız görünməyə başladı və yeni nəsil sosioloqlar arasında sürətlə əhəmiyyətini itirdi. Lakin 1980-1990-cı illərdə gündəlik həyat və həyat üslublarına olan artan maraq tədqiqatçıların lokal səviyyədə əhəmiyyətlilik qazanmış gender, etniklik və digər sosial bərabərsizlik problemlərinə müraciət etməsinə gətirdi. Son iyirmi ildə isə tədqiqat maraqları qloballaşma və onun lokal effektləri arasında əlaqəyə, onlayn virtual icma quruculuğuna və artan coğrafi mobilliyin icma münasibətlərinə təsirinə yönəldi.

*Məna və interpretasiya*

"İcma" anlayışı bir sıra mənalar kəsb etməklə yanaşı, bəzi ziyanlı normativ implikasiyaları da özündə ehtiva etdiyi üçün təsbit edilməsi çətin bir konsepsiyadır. Ancaq iki mənanı fərqləndirək. Artıq müsəlman icmasından, akademik icmadan, lgbt icmasından və başqalarından bəhs etmək adi hala çevrilib. Bu tərif ümumi maraqlar haqqında təsəvvürlərə əsaslanır, yəni insanlar coğrafi baxımdan bir-birindən ayrı ola və tanış olmaya bilərlər, ancaq onların hamısının ümumi maraqları vardır, buna görə də o insanlar maraq icmasını təşkil edirlər. "Ümumiliyinin" nədən irəli gəldiyi o qədər də aydın deyil, bu, ümumi identiklik və maraqların qavranılması ola bilər. Digər tərəfdən, bəzi tədqiqatçılar xüsusilə miqyas etibarilə kiçikölçülü icmaları qohumluq şəbəkələri, qonşuluq, iş yoldaşları və dostların ərazi əsaslı sosial qrupları olaraq görürlər. Belə məkan əsaslı tərif 1950-1960-cı illərin erkən icma tədqiqatları ənənəsinə qayıdışdır. Bu, iki tərifin müəyyən hallarda üst-üstə düşməsi mümkündür. Məsələn, konkret bir "mədənçilik icması" ideyası lokallaşdırıla, iş yerində yaradılan ümumi maraqlar və ümumi identiklik anlayışını özündə ehtiva edə bilər.

Li və Nyubi (1983) tərəfindən aparılan icma tədqiqatları bu anlayışın üç aktual alternativ tərifini müəyyənləşdirdi. Birincisi, icma - insanların yaşadığı bir lokallıq və məhdudlaşdırılmış ərazi kimi. Bu təriflə bağlı problem ondan ibarətdir ki, o sosiolojidən daha çox coğrafi bir mahiyyət kəsb edir. Spesifik bir ərazidə çoxlu sayda insan yaşaya, lakin bir-birinə heç nə ilə bağlanmaya bilər. Bu tərif

sosial münasibətləri və insanlar arasında qarşılıqlı təsirin olub-olmamasını nəzərə almır. İkincisi, bəzi tədqiqatlar icmanı bir lokallıq daxilindəki sosial münasibətləri özündə ehtiva edən "lokal bir sistem" olaraq görürlər. Burada isə problem ondan ibarətdir ki, sosial sistemi quran sosial münasibətlər sosial qrupları bir-birindən uzaqlaşdıran antaqonizmlər və nifrətdən qaynaqlana bilər. Bu situasiyanı vahid bir "icma" olaraq qəbul etmək düzgündürmü? Nəhayət, icma ümumi identikliyi özündə ehtiva edən münasibət tipi kimi müəyyən edilir. Li və Nyubi bunu "ümumilik" (communion) adlandırırlar, hansı ki, hətta insanlar lokallıqdan uzaqlaşdığı zaman belə mövcud olmağa davam edir.

*Tənqidi məqamlar*

"İcma" anlayışı ilə bağlı əsas problem sosial təhlilin normativ qərəzə çevrilməsi ilə bağlı təhlükədir. İcma hər zaman insani məskunlaşmanın daha böyük formalarından əxlaqi və sosial olaraq ali görülür. Töninin irəli sürdüyü "icma" və "cəmiyyət" qarşılaşdırması problemin aşkar nümunəsidir. Hətta onun tədqiqatı əsasən sürətli urbanizasiya və sənaye inkişafının səbəb olduğu müəyyən mühüm sosial dəyişikliklərin dəqiq təsviri olsa da, bu proses daxilində daha dəyərli və daha mühüm olanın itirildiyi təəssüratı yaranır.

İcma tədqiqatları onun həyatının zəngin təsvirini ortaya çıxarmaq üçün müəyyən edilən bir ərazi daxilindəki münasibətləri öyrənməyə yönəlir. Belə təsvirin çatışmayan cəhəti icma daxilində konkret insanların həyatını icmadankənar dünya ilə əlaqələndirə bilməməsidir. Nəticədə əksər sosioloqlar sosial münasibətlərin tədqiqinə daha obyektiv yanaşmanı təmin edən sosial şəbəkə təhlilinə üstünlük verərək, analitik alət olaraq "icma" anlayışından imtina edirlər. Bu yanaşmanın bir üstünlüyü lokal sosial şəbəkələri kənar dünya ilə əlaqələndirmək üçün icmaların hüdudlarını aşa bilmə qabiliyyətidir. Bu, bizim yaşadığımız daha mobil, qloballaşan dünyada xüsusilə önəmli amildir. Məsələn, qlobal miqrasiya strukturları şəbəkələrin dövlət sərhədlərinin fövqündə olmasını nəzərdə tutur, miqrant işçilər isə həm gəldikləri icma, həm də onları qəbul edən icma ilə sıx əlaqədə olurlar.

*Aktuallığın davamı*

İcma ideyasının sosiologiyada davamlı olacağına şübhə etmək üçün bir səbəb vardır. Anlayışa qarşı tənqid axınına baxmayaraq, o, diqqətimizi daha fundamental məsələyə - insanların yaşadığı həyatın *keyfiyyətinə* çəkir. Öncəki "icma" tədqiqatları daha çox daxili həyata yönümlü olsa da, onların ortaya çıxardıqları çox zəngin və informativ təsvirlərin sonrakı obyektiv metodlardan istifadə edilməklə təkrarlanması olduqca mürəkkəbdir. İcma tədqiqatları insanın öz həyatının böyük hissəsini yaşadığı əhəmiyyətli münasibətləri daha yaxşı anlamağa kömək edə bilər. Bu tədqiqatların münaqişə, sosial bərabərsizlik və bu gün adiləşən geniş sosial şəbəkələri də əhatə etdiyini nəzərə alsaq, onlar hələ də qlobal-lokal əlaqələrin dərk edilməsinə yardım edə bilər.

Qloballaşma sosial həyatın hər bir aspektində və insanın bütün həyatı boyu bir çox dəyişikliklərə səbəb olur. Həyatın sonrakı mərhələlərində qloballaşmanın təsirləri Fillipsonun (2007) yaşayış yeri və yaşlılıq dövrünə dair tədqiqatında müzakirə edilir. İcma həyatının yaşlı insanlar tərəfindən qavranılması haqqında son tədqiqatlar əvvəllər mövcud olmuş "xəyali icmalara" ("imagined community") münasibətdə güclü nostalgiyanın olmasını vurğulayır. Bu, tam olaraq qlobal proseslərin nəticəsi deyil, belə ki, oxşar münasibət sürətli qloballaşmanın indiki dövründən əvvəl də olmuşdur. Lakin bu tədqiqatda qeyd edilir ki, qloballaşmanın iqtisadi, sosial və mədəni aspektləri əksər yaşayış mühitlərini transformasiyaya uğradır və yaşlı əhali arasında yeni bölünmələr ortaya çıxır. Xüsusilə, təqaüdçülər icmasına və ya ikinci evə köçənlər, yaxud yaşayış yerinin dəyişməsinin aidlik hissi və özümlülüyünə təhlükə kimi görənlərə şamil olunur. "Yerində yaşayış" və  icmaların tədqiqi qlobal-lokal münasibətlərinin öyrənilməsi proqramı çərçivəsində tədqiqat gündəliyini təklif etmək baxımından perspektivlidir.

*İstinadlar və ədəbiyyat*

Blackshaw, T. (2010) Key Concepts in Community Studies (London: Sage).

Crow, G., and Allan, G. (1994) Community Life: An Introduction to Local Social Relations(Hemel Hempstead: Harvester Wheatsheaf.

Lee, D., and Newby, H. (1983) The Problem of Sociology (London: Routledge). Phillipson, C. (2007) 'The "Elected" and the "Excluded": Sociological Perspectives on the Experience of Place and Community in Old Age',Ageing and Society, 27(3): 321–42.

Tönnies, F. ([1887] 2001) Community and Society [Gemeinschaft und Gesellschaft] (Cambridge and New York: Cambridge University Press).

Williams, R. (1987) Keywords: A Vocabulary of Culture and Society (London: Fontana).

## Seksuallıq (Sexuality)

*İşçi tərif*

İnsanların sosial, fiziki, bioloji və emosional aspektlərini özündə ehtiva edən seksual xarakteristika və davranışlarıdır.

*Anlayışın mənşəyi*

Son dövrlərədək seksuallıq haqqında bildiklərimiz XIX əsrdə tədqiqatlar aparmış bioloqlar, tibb üzrə tədqiqatçılar və seksoloqların fikirlərindən qaynaqlanırdı. Lakin bu tədqiqatlar sosioloqları maraqlandıran seksual davranış və seksuallığın ümumi modellərinin tədqiqindən daha çox fərdi psixologiyaya fokuslanırdı. Erkən tədqiqatçılar həm də insan seksuallığı haqqında ipucları əldə etmək üçün heyvan davranışlarını öyrənirdilər. Bəziləri bu istiqamətdə tədqiqatları hələ də həyata keçirməkdədir. Seksuallığın reproduksiya imperativi kimi aşkar bioloji komponenti olsa da, sosioloqlar insan seksuallığına bioloji və sosial amillərin mürəkkəb əlaqələnməsi olaraq yanaşırlar.

Seksuallığın ilk ciddi sosioloji tədqiqi 1940-1950-ci illərdə Alfred Kinsi və həmkarlarının ABŞ-da seksual davranışa aid irimiqyaslı sorğusu ilə meydana çıxdı. Onların tədqiqatları ictimai normalar və gözləntilərlə aktual seksual davranış arasındakı böyük fərqi aşkara çıxararaq insanları heyrətə gətirdi. 1970-ci illərin sonunda Mişel Fukonun tədqiqatları seksuallığın tarixinə, habelə seksuallıqların yaradılma, inkar edilmə və sıxışdırılma üsullarına yeni

maraq oyatdı. Bu, seksuallığa həsr olunan tədqiqatları biologiyadan uzaqlaşdıraraq, onu tarix, siyasət və sosiologiya sahəsinə daxil edən mühüm dönüş nöqtəsi idi.

*Məna və interpretasiya*

Cinsi oriyentasiya fərdin seksual və ya romantik cəlbedilmə istiqamətidir, bioloji və sosial amillərin kompleks qarşılıqlı təsirinin nəticəsidir. Bütün cəmiyyətlərdə əksər insanlar heteroseksualdır, bunun tarixən ailə və evliliyin bazisi olmasına baxmayaraq, digər seksual zövqlər və oriyentasiyalar da vardır. Məsələn, Cudit Lorber (1994) on müxtəlif seksual identikliyi müəyyən edib: heteroseksual qadın, heteroseksual kişi, lezbian qadın, gey kişi, biseksual qadın, biseksual kişi, transvestit qadın (müntəzəm olaraq kişi kimi geyinən qadın), transvestit kişi (müntəzəm olaraq qadın kimi geyinən kişi), transseksual qadın (qadın olmağa keçid edən kişi), transseksual kişi (kişi olmağa keçid edən qadın). Seksual praktikalar da  çox müxtəlifdir və bütün cəmiyyətlərdə onların bəzilərini təşviq edən və digərlərini qadağan edən normalar mövcuddur.

Mişel Fuko (1978) XVIII əsrdən əvvəl Avropada "homoseksual şəxs" anlayışının demək olar ki, mövcud olmadığını göstərir. Termin olaraq "homoseksuallıq" 1860-cı illərdən istifadə edilməyə başlanıb, o zamandan etibarən homoseksual spesifik seksual aberrasiyaya malik separat şəxsiyyət tipi olaraq görülürdü. Homoseksuallıq dini deyil, tibbi diskursun hissəsi olaraq, dini "günah" kimi deyil, psixiatrik nizamsızlıq və ya perversiya kimi müzakirə olunurdu. Pedofillər və transvestitlər kimi digər deviantlarla birlikdə homoseksuallar cəmiyyətin bütövlüyünü təhdid edən, bioloji patologiyadan əziyyət çəkənlər olaraq görülürdü. Bir neçə on il əvvələ qədər homoseksuallıq demək olar ki, bütün Qərb ölkələrində kriminal fəaliyyət olaraq qalırdı. ABŞ-da isə 1987-ci ildə Amerika Psixiatrik Assosiasiyası tərəfindən ləğv edilənə qədər homoseksuallıq mental pozuntu statusunda qalırdı. Onun cəmiyyətin marginal sahəsindən çıxaraq dominant axına daxil olması hələ tam baş tutmayıb, lakin son illərdə bu istiqamətdə sürətli irəliləyiş müşahidə edilir.

Son 40 ildə əksər Qərb ölkələrində seksual yönəlişlər, şübhəsiz ki, daha liberal xarakter alıb. İnsanların cinsi həyatının mühüm

aspektləri fundamental şəkildə dəyişib. Daha erkən cəmiyyətlərdə seksuallıq reproduksiya prosesinə sıx şəkildə bağlı olduğu halda, indi o, reproduksiyadan ayrılmışdır. Seksuallıq hər bir fərdin kəşf edib formalaşdıracağı həyat istiqamətinə çevrilib. Əgər bir vaxtlar seksuallıq nikah münasibətləri kontekstində heteroseksuallıq və ya monoqamiya şərtlərində müəyyən edilirdisə, bu gün artıq daha geniş kontekstlərdə müxtəlif seksual davranış və oriyentasiya formalarının qəbulu müşahidə edilir.

ABŞ-da 1940-cı illərdə Kinsinin tədqiqat komandasının həyata keçirdiyi və homoseksuallığın müalicəsi tələb olunan xəstəlik olması ideyasını aradan qaldırmağa kömək edən innovativ sorğusuna qədər sosioloqlar bu fənnin tarixi boyu seksuallığın tədqiqindən boyun qaçırmışlar. Lakin seksual davranışın tədqiqi bir sıra çətinliklərlə üzləşir. Əksər insanlar öz həyatlarının digər istiqamətlərinə nisbətən seksual davranışlarını tamamilə şəxsi məsələ olaraq görür və belə intim məsələləri yad insanlarla müzakirə etməyə hazır olmur. Bu o deməkdir ki, müsahibə verməyə hazır olanlar özü özünü seçmiş nümunələrdir və ümumi əhalini təmsil etmək üçün reprezentativ deyildir.

*Tənqidi məqamlar*

Kinsinin tədqiqatı 16 yaşdan aşağı olanları da ehtiva etdiyi üçün mühafizəkar və dini təşkilatların hücumuna məruz qaldı. Akademik tənqidlərdə böyük həcmdə xam datanı özündə ehtiva edən, lakin seksual arzunun fərqliliyini nəzərə almayan pozitivist yanaşmaya etiraz olunurdu. Tədqiqat həmçinin insanların seksual münasibətlərinə hansı məna verdiklərini izah edə bilmirdi. Sonrakı tədqiqatlar homoseksual təcrübənin Kinsi komandasının üzə çıxardığından daha aşağı səviyyələrini aşkar etdi. Güman ki, Kinsinin seçməsi onun düşündüyündən daha az reprezentativ idi. Buna baxmayaraq, xüsusilə belə çətin mövzuda bütün məsələlərin nəzərə alındığı bir tədqiqatı gözləmək ədalətsiz yanaşma olardı. Kinsinin töhfəsi seksuallığı sosioloji tədqiqatlar üçün effektiv şəkildə açmasındadır.

Seksual davranışa dair sorğuların etibarlılığı və mötəbərliyi bir sıra debatların mövzusudur. Əksər tədqiqatçılar güman edirdilər

ki, bu tədqiqatlar seksual praktikalar haqqında etibarlı məlumat vermir. Bəyan edilən davranışlar daha çox insanların hakim sosial normaları necə dərk etməsini əks etdirir və bizə özəl davranışlar haqqında dəqiq informasiya vermir. Lakin belə tənqid insan həyatının evlilik, boşanma, cinayət və deviantlıq kimi müxtəlif aspektləri haqqında olan sorğulara da aid edilə bilər. Lakin bu hallarda sosioloqlar siyasəti müəyyən edənlərə faydalı ideyaları gətirən müsbət və mənfi tərəfləri nəzərə almağı bacarırdılar. Bunun seksuallığın tədqiqində mümkün olmadığına inandırıcı əsas yoxdur.

*Aktuallığın davamı*

Seksuallığın sosioloji nəzəriyyə və tədqiqatların tərkib hissəsinə çevrilməsinin səbəblərindən biri 1960-cı illərin sosial dəyişikliklərə yönümlü hərəkatları oldu. Onlar sosioloqlar üçün yeni tədqiqat obyektlərini açdılar. Bu hərəkatların cəmiyyətə inteqrasiya edilməsindən bəri seksual davranışla bağlı köhnə normaların yenidən müəyyənləşməsi baş verdi. Son tədqiqatlar göstərir ki, respondentlərin çoxu erkən cinsi fəallığın əleyhinədir, az hissəsi isə homoseksual əlaqələrin əleyhinə çıxış edir. Bu kontekstdə sosioloji tədqiqatlar münasibət və sosial normaların dəyişməsinə həssas olmalı və güman ki, insan həyatı haqqında daha dəqiq bilgi verəcək metodlar hazırlamalıdır.

Kelli və onun həmkarlarının (2009) məqaləsində məhdudiyyətli insanların seksuallığı müzakirə edilir. Bu iş İrlandiyada əqli məhdudiyyətli insanların seksuallıq və şəxsi münasibətlər təcrübəsinə baxışlarının, həmçinin belə insanların hansı dəstəyi faydalı bildiyinin tədqiqinin əsas nəticələrini göstərir. İrlandiya qanunlarına görə, evlənənə qədər başqalarının dəstəyi olmadan yaşamaq və özünü istismardan qorumaq iqtidarında olmayan şəxslə cinsi münasibətə daxil olmaq qadağandır (bu qanunda edilmiş dəyişikliklərə dair sorğu 2011-ci ildə aparılmışdır). Tədqiqatın iştirakçıları kifayət qədər cinsi tərbiyə və ya informasiya almadıqlarını, öz istəkləri ilə münasibətlər qadağan olunduğu üçün "gizli" münasibətlərin meydana çıxdığını qeyd ediblər. Müəlliflər bu qanunda dəyişikliyin zəruri olması qənaətinə gəliblər. Belə ki, onların fikrincə, əqli qüsurlu

əksər insanlar cinsi münasibətlərə və özünü istismardan qorumağa qadirdir.

Bir sıra ölkələr ya vətəndaş partnyorluqları, ya da hər hansı bir evlilik formasında gey cütlüklərin partnyorluqlarının qanuniləşdirilməsinə doğru hərəkət edirlər. Bunun homoseksual münasibətləri geniş şəkildə qəbul etməyə doğru hərəkət olmasına rəğmən, evliliyin və konvensional heteroseksual institutun homoseksuallar üçün nədən cəlbedici ola biləcəyi sualı ortaya çıxır. Kelli (2006) bir neçə səbəbi qeyd edir: formal olaraq bərabər hüquqi statusa, əmək hüququ və sosial müdafiəyə nail olmaq, sağlamlığın qorunması (məsələn, xəstəyə baş çəkmək imkanı) və vergi imtiyazları əldə etmək. Lakin belə evliliklərin "proqressiv" xarakterinin real, yoxsa illüziya olması haqqında LGBT hərəkatı daxilində debatlar davam edir.

*İstinadlar və ədəbiyyat*

Foucault, M. (1978) The History of Sexuality (London: Penguin).

Kelly, G., Crowley, H., and Hamilton, C. (2009) 'Rights, Sexuality and Relationships in Ireland: "It'd Be Nice to Be Kind of Trusted"', British Journal of Learning Disabilities, 37(4): 308–15.

Kelly, R. (2006) 'Gay Marriage. Why Now? Why at All', in S. Seidman, N. Fischer and C. Meeks (eds), Handbook of the New Sexuality Studies (London: Routledge), pp. 433–40.

Lorber, J. (1994) Paradoxes of Gender (New Haven, CT: Yale University Press).

Taylor, Y AND Hines, S (2012) Sexualities: Past Reflections, Future Directions (Basingstoke, Palgrave Macmillan)

Weeks, J. (2009) Sexuality (3rd edn, London: Routledge).

## Sosiallaşma (Socialization)

*İşçi tərif*

Cəmiyyətin yeni üzvlərinin sosial norma və dəyərlər haqqında anlayışını inkişaf etdirən və onlara spesifik "özümlülük" hissinə

nail olmağa yardım edən sosial proseslərdir. Sosiallaşma bütün həyat boyu davam edir.

*Anlayışın mənşəyi*

"Sosiallaşma" anlayışının funksionalist ənənə daxilində meydana çıxıb inkişaf etdirilməsinə baxmayaraq, o, əksər sosioloji nəzəriyyələr üçün ümumi olan anlayışdır. Talkot Parsons bu konsepsiyadan xüsusilə "sosial nizam problemini" həll etmək üçün istifadə edirdi. Mid və Kuli kimi interaksionistlər isə sosiallaşmanı uşaqlıq dövründə sosial "özümlülüyün" yaranmasını öyrənmək üçün istifadə edirdilər. Sosiallaşma köməksiz insanı – körpəni özünüdərketməyə malik olan, cəmiyyətin mədəniyyətinə uyğun bacarıq və vərdişlər əldə etmiş bir şəxsə çevirən proses deməkdir. Sosiallaşma sosial reproduksiyanın, cəmiyyətin zamanda fasiləsiz olaraq mövcudluğunu təmin edir. Bu prosesin gedişində yalnız uşaqlar böyüklərdən öyrənmir, böyüklər də uşaq və körpələrlə necə davranmağı öyrənirlər. Adətən, valideynlik yetkin insanları həyatın sonuna qədər uşaqlara bağlayır. Bu, nəsildən-nəslə təkrarlanır. Bir qayda olaraq, sosiallaşma həyatın erkən çağlarında baş verən və xüsusilə intensiv olan ilkin sosiallaşma və həyat boyu davam edən "ikincili sosiallaşma" anlayışları vasitəsilə nəzərdən keçirilir.

*Məna və interpretasiya*

Sosiallaşma ailə, həmyaşıd qrupları, məktəb və media kimi müxtəlif agentivliklər vasitəsilə baş verir. İlkin sosiallaşma dövründə ailə əsas agentivlikdir, baxmayaraq ki, bu mərhələdə uşaqlar getdikcə daha intensiv olaraq, müəyyən təhsil müəssisəsi və ya bağçaya gedirlər. Müasir cəmiyyətlərdə sosial mövqe anadangəlmə deyil, lakin etnik mənsubiyyət, gender və sosial sinif, yaşayış yeri sosiallaşma patternlərinə təsir edir. Uşaqların genderi mənimsəməsi əsasən şüursuz prosesdir. Onlar valideyn, qohum və qonşularının, onları əhatə edən toplumun davranış modelləri və dil xüsusiyyətlərini müşahidə edir və təkrarlayırlar. Böyüklərin körpələr və uşaqlarla rəftar tərzi vasitəsilə həm də gender fərqləri öyrənilir. Məsələn, valideynlər və digər yaşlılar oğlan və qızlarla fərqli şəkildə danışırlar. Onların davranışı üzərində nəzarət tipi də fərqlidir, müva-

fiq davranış normaları isə gender gözləntiləri sayəsində formalaşdırılır. Uşaqlar çox erkən yaşda özlərinin və digərlərinin genderini tanımağa qadirdirlər, bu qabiliyyət uşaqlıq dövründə gender üçün tipik oyuncaq seçimləri, kitablar, filmlər və televiziya proqramlarındakı obrazlarla gücləndirilir. Lakin gender sosiallaşması bütövlükdə qeyri-şüuri olaraq baş vermir. Valideynlər və həmyaşıdlar fəal olaraq gender rolları və gözləntilərini gücləndirirlər, gender normalarını pozanlar utandırma və ləqəbqoyma vasitəsilə, həmçinin, fiziki olaraq cəzalandırılırlar. Fasiləsiz təhtəlşüuri öyrənmə sanksiyalar və məcburetmə ilə birlikdə gender sosiallaşmasını gənc yetkinlik və sonrakı yaşlara qədər davam edən çox güclü prosesə çevirir.

"İkincili sosiallaşma" həm formal, həm də qeyri-formal tədris planları ilə məktəblərdə başlamaqla kollec və iş yerlərinə qədər davam edir. Oğlan və qızlar konvensional olaraq "kişi" və "qadın" mövzularını izlədikləri üçün mövzular üzrə bölünürlər. Bu, kollec və universitetə qədər davam edir. Məktəbdə və iş yerlərində həmyaşıd qrupları ilə birlikdə müəllimlərin gözləntiləri də gender patternlərində öz rolunu oynayır. Əksər ailələrdə artıq hər iki valideyn işlədiyinə görə həmyaşıd qruplarının sosiallaşma prosesində təsir güclərini artıracağı gözlənilir.

Yetkinlik dövründə insanlar iş mühiti və ya siyasi inamlar kimi sosial həyatın yeni sahələrində necə davranmağı öyrəndiklərinə görə sosiallaşma davam edir. Kütləvi media (radio, televiziya, CD, DVD və internet) davranış üsulları, fikir və yönəlişliklərin formalaşmasına yardım etdiyindən sosiallaşmada getdikcə mühüm rol oynayır. Bu, xüsusilə virtual söhbət otaqları, bloqlar və digərləri vasitəsilə virtual interaksiyanı mümkün edən yeni medianın yüksəlişi kontekstində aydın görünür. Birlikdə sosiallaşma agentivlikləri ziddiyyətli sosial təsirlər və interaksiya imkanlarının mürəkkəb spektrini əmələ gətirərək, sosiallaşmanın niyə heç vaxt bütövlükdə istiqamətləndirilmiş və determinant proses ola bilmədiyini göstərir. Nəzərə alaq ki, özünüdərketməyə malik insanlar onlara yönəlmiş məlumatlara dair öz interpretasiyalarını formalaşdırmağa qadirdirlər.

*Tənqidi məqamlar*

Sosiallaşma nəzəriyyələrinə qarşı əsas tənqid onların bu prosesin təsirini şişirtməsinə aiddir. Bu, əsasən, Parsonsun struktur funksionalizmi üçün belə idi. Bəzi tənqidçilərin fikrincə, o, insanları sosiallaşma agentivliklərinin tam hakimiyyətində olan "mədəni axmaqlar" kimi görürdü. Bu, bəzi sosioloji nəzəriyyələrdə sosial və mədəni reproduksiyanın necə baş verdiyini izah etmək üçün sosiallaşma prosesinin vurğulanmasına da aiddir. Dennis Ronq (1961) "ifrat sosiallaşmış insan" konsepsiyasına etiraz edərək bildirir ki, insanlar hakim sosial normalara uyğun sosial ssenarilərə riayət edən rol ifaçılarıdır. Bunun əvəzinə Ziqmund Freydin özümlülük və identikliyin formalaşması nəzəriyyəsinə baxsaq, fərdləri (həmçinin, uşaqları) bu prosesdə passiv deyil, aktiv olaraq görən bir alternativ nəzəriyyə qura bilərik. Sosiallaşma bəzi sosiologiya dərsliklərində təsvir edilən səthi proseslərdən fərqli olaraq, demək olar ki, həmişə münaqişələrlə dolu, emosional yüklənmiş bir məsələdir. Bu gün sosial və mədəni reproduksiya nəzəriyyələri sosiallaşma proseslərinə xas ziddiyyətlərə daha həssasdır və onlar Burdyö, Villis və Mak an Geylin əsərlərində əks etdirilmişdir.

*Aktuallığın davamı*

Sosiallaşma fundamental anlayış olaraq, cəmiyyətin bilik, dəyər və sosial normaları nəsildən-nəslə necə ötürdüyünü izah edir. Yuxarıda qeyd edilən tənqidlərlə razılaşmaq mümkün olsa da, sosiallaşma yenə də güclü sosial prosesdir və uşağın həyatının ilk illərində öz impulslarına nəzarəti və özü haqqında təsəvvürlərini inkişaf etdirməyi öyrəndiyi zaman xüsusi əhəmiyyət daşıyır. "Sosiallaşma" anlayışı bütövlükdə həyat boyu kütləvi media, həmyaşıd qruplar və məktəb kimi müxtəlif sosiallaşma agentivliklərinin nisbi əhəmiyyətini qiymətləndirməyə imkan verir. Habelə, o, müxtəlif cəmiyyətlərdə və ya zaman keçdikcə, eyni cəmiyyətdə sosiallaşma prosesinin müqayisəli təhlilinə də şərait yaradır. Qısası, sosiallaşma sosial dəyişiklik və reproduksiyanı kifayət qədər tam izah etməsə də, öz-özlüyündə zəruri konsepsiyadir.

Yetkinyaşlı sosiallaşma effektlərinin qeyri-adi formasının maraqlı tədqiqi Mennesson (2009) tərəfindən kişilərin əsasən qadın

peşəsi hesab edilən baletdə iştirakının öyrənilməsilə həyata keçirilmişdir. Mennesson 14 kişi - caz və ballet rəqqası ilə müsahibələr aparıb və sosiallaşma prosesində "qadın işi" ilə məşğul olmaq arzusunun necə inkişaf etdiyini, "qadın dünyasında kişi olmağın" və bunun kişi rəqqasların gender identikliyinə təsirini anlamağa çalışıb. O, futbol və reqbi kimi "kişi idman növləri" ilə məşğul olan qadınlarla rəqqas kişilər arasında oxşaqlıqlar aşkar edib. Müəyyən ailə strukturlarında "tərsinə gender sosiallaşması" bu növ seçimləri meydana çıxarır və kişi rəqqasların sosiallaşmasında spesifik nəticələrə gətirib çıxarır: bəzi rəqqaslar "kişilər kimi qalmağa" həvəsli olarkən, digərləri özlərini həm maskulin, həm də feminin xüsusiyyətlərin daşıyıcısı kimi təsvir etməkdən məmnundurlar.

*İstinadlar və ədəbiyyat*

Denzin, N. K. (2009) Childhood Socialization (New York: Transaction).

Maccoby, E. E. (2008) 'Historical Overview of Socialization Research and Theory', in J. E. Grusec and Paul D. Hastings (eds), Handbook of Socialization: Theory and Research (New York: Guildford Press), pp. 13–41.

Mennesson, C. (2009) 'Being a Man in Dance: Socialization Modes and Gender Identities', Sport in Society, 12(2): 174–95.

Wrong, D. (1961) 'The Over-Socialized Conception of Man in Modern Sociology', American Sociological Review, 26: 183–93.

## Şəbəkə (Network)

*İşçi tərif*

Sosiologiyada şəbəkə - qeyri-formal (məsələn, sosial media "dostları") və ya formal xarakterli (iş həmkarları kimi) nisbətən sərbəst sosial əlaqələrə malik insan qrupudur.

*Anlayışın mənşəyi*

Uzun müddət sosioloqlar ailə-qohum və dostluq şəbəkələrini işçi və iş tanışlıqları sayəsində formalaşan sosial şəbəkələrlə birgə öyrəniblər. XX əsrin əvvəllərində diadlar (iki sosial vahid) və triad-

lar (üç sosial vahid) kimi təməl sosial formaların dəyişən dinamikaları haqqında Georq Zimmelin nəzəri ideyaları daha geniş sosial şəbəkələrin tədqiqində bir başlanğıc idi. Şəbəkələrin insanların bir-birilə əlaqələnməsinin çox qədim forması olmasına baxmayaraq, informasiya texnologiyaları şəbəkələşmə üçün yeni imkanlar yaratdığından onlara əksər sosioloqlar çağdaş cəmiyyətlərin müəyyənedici təşkilati strukturu olaraq yanaşırlar. Şəbəkələrə xas plastiklik və adaptivlik onlara təşkilatlanmanın ənənəvi formaları üzərində nəhəng üstünlüklər verir. Bir sıra tədqiqatçılar bizneslərin qlobal iqtisadi mühitdə öz səmərəliliyini artırmaq üçün şəbəkələşmə strukturlarından istifadə etdiyini göstərirlər.

*Məna və interpretasiya*

Sosioloqlar insanlar və sosial qruplar arasındakı əlaqələri "şəbəkə" adlandırırlar. Güman ki, şəbəkə haqqında düşünməyin ən yaxşı yolu onu torabənzər struktur və ya matris kimi nəzərdən keçirməkdir, hansı ki, bu nöqtələr şaquli və üfüqi xətlərin kəsişdiyi "düyünlər" və ya adətən, sosiologiyada olduğu kimi insanlar, qruplar və hətta təşkilatlardır. Şəbəkənin əlçatanlığı potensial olaraq üstünlük qazanmaq üçün istifadə edilə biləcək digər düyünlərlə (fərdlər, qruplar, yaxud da təşkilatlar) əlaqələrin bütöv zəncirini açır. Şəbəkələr dostluq qrupları və ya dostların dostları daxil olmaqla müxtəlif insanlar və qruplar arasındakı birbaşa və ya dolayı əlaqələrin məcmusu kimi nəzərdən keçirilə bilər.

Lakin təşkilatlar da şəbəkələşə bilər və şəbəkələşmiş təşkilatlara mənsubluq insan üçün əlçatan sosial məkanı və onun ətrafdakılara təsirini daha da genişləndirmək gücündədir. Oxşar olaraq digər sosial qruplar da yerli icma üzvlüyünə əlçatanlıqdan tutmuş bacarıqlı ticarətçi tapmağa qədər fərdlərə sosial həyatda işlərini asanlaşdıran şəbəkə imkanlarını təklif edir. Siyasi partiyalar və xeyriyyə cəmiyyətləri insanlara tanımadığı mühitdə uyğunlaşmağa yardım edən beynəlxalq əlaqələrinin əlçatanlığını təmin edir. Şəbəkə bağları nisbətən zəif olsa da, bir sıra faydalı funksiyalara malikdir. Ancaq daha güclü şəbəkələrin əlçatanlığı ciddi nəzarət altında olur. Uzun müddət qadınlar biznes, siyasət və özəl təhsil sahəsindəki əsas şəbəkələrdən kənar idilər, bu da onların bu və ya digər həyat

sahələrində imkanlarının məhdudlaşdırılması demək idi. İngiltərədə İton və Herrov kimi ödənişli məktəblərin bəziləri qadınların bu güclü assosiasiyalara əlçatanlığını rədd etməklə yalnız oğlanları qəbul edirdilər. Sosioloqlar əmək bazarında qadınların kişilərlə müqayisədə daha zəif şəbəkələrə malik olduğunu, bunun da onların işədüzəlmə perspektivlərini azaltdığını ortaya çıxarıblar. Lakin qadınların ali təhsil alması və daha yüksək iş mövqeləri əldə etməsi sayəsində vəziyyət tədricən dəyişməkdədir.

Kastelsə (2009) görə, şəbəkələr kompüterləşmə və texnologiyadakı nəhəng tərəqqi sayəsində bürokratiyalardan daha səmərəli oldu. Dataların işlənilməsi kimi əksər inzibati vəzifələr artıq işçilərin fiziki olaraq böyük ofislərdə bir-birilə yaxınlığını tələb etmir və dünya üzrə ayrı-ayrı qruplar tərəfindən də icra edilə bilər. Bu perspektivdən istifadə edən təşkilat və şirkətlər evdən işləmək də daxil olmaqla mərkəzləşməmiş daha kiçik və az sərt təşkilatlanmaya doğru meyilliliyi gücləndirdilər. Ənənəvi olaraq, təşkilatlar ofis binası və universitet kampusu kimi müəyyən fiziki məkanlarda yerləşirdi, belə halda bürokratik model məna kəsb edirdi. Lakin bu gün yeni texnologiyaların təsiri ilə təşkilatlatların fiziki sərhədləri silinir. Qurumlar digər təşkilat və şirkətlərlə mürəkkəb şəbəkələrə qoşulduğu halda daha effektiv işləyir. Qloballaşma, yeni texnologiya və əməyin yeni formaları əvvəlki dövrlərə nisbətən daha çox açıqlıq və təşkilat sərhədlərinin plastikliyi deməkdir. Kastelsə görə, ən effektiv təşkilati forma kimi bürokratiyanın tədricən zəifləməsini müşahidə edirik.

*Tənqidi məqamlar*

İnformasiya texnologiyalarının şəbəkələrlə birləşməsi bizi Veberin bürokratiyanın gələcəyi haqqında pessimist baxışından uzaqlaşdırırmı? Bu suala cavab verərkən ehtiyatlı olmalıyıq. Bürokratik sistemlərə təşkilatın digər, daha az iyerarxik formaları tərəfindən getdikcə daha çox meydan oxunur. Ancaq bürokratiyanın tam yoxa çıxacağını gözləmək olmaz. Şəbəkə cəmiyyətinin nə vaxtsa heç bir müəyyən fiziki məkanda yerləşməyəcəyi bir inkişaf səviyyəsinə çatacağı ehtimalı çox aşağıdır. Məkan yerləşməsi olanlar isə daha bürokratik strukturu mənimsəməyə davam edəcəklər.

Yaxın gələcəkdə güman ki, bir tərəfdən, təşkilatlarda irimiqyaslıq, şəxssizləşdirməyə və iyerarxiyaya doğru tendensiyaların inkişafı və qarşılıqlı təsiri, digər tərəfdən də alternativ təşkilati formalar arasında davamlı rəqabət mövcud olacaq.

*Aktuallığın davamı*

Şübhəsiz ki, şəbəkələr genişlənməkdədir və yeni rəqəmsal texnologiyaların istifadəsi bu tendensiyanın inkişafına zəmin yaradacaqdır. Sosial şəbəkə təhlili tamamilə yeni olmayıb, antropologiya və klassik sosiologiyada qohumluq şəbəkələrinin öyrənilməsində istifadə edilib. Hazırda isə metodun əvvəlki dövrlərdə sosioloqların güman etdiklərindən daha geniş sosial şəbəkələrin öyrənilməsinə tətbiqi mümkün görünür.

Sosial şəbəkə təhlilinin faydasına yaxşı bir örnək Nik Krosli tərəfindən Londonda həyata keçirilən (2008) erkən "pank rok" hərəkatındakı şəbəkələrin empirik tədqiqidir. Krosli hesab edir ki, şəbəkələrin strukturu hərəkatın meydana çıxmasını izah etməyə kömək edir. O qeyd edir ki, "pank" hərəkatının digər Britaniya şəhərləri deyil, məhz Londonda ortaya çıxmasının səbəbi hərəkatın daxili mühitini təşkil edən iştirakçıların bir-birinə bağlı olması idi. Məhz bu, Londonda kollektiv hərəkatın formalaşmasını mümkün edirdi. Oxşar şəkildə, ilk pank qrupların üzvləri bir-birilə əlaqə qurur və məlumatları bölüşərək qruplar arasında hərəkət edirdilər. Başqa sözlə, mövcud pank geyim tərzlərini və mədəniyyətini onları deviant hesab edənlərin hücumlarına qarşı legitimləşdirən ümumi sıx şəbəkə mövcud idi. Əlbəttə, pank üzvlərinin siyasi və ideoloji elementləri də mühüm idi, lakin onlar artıq mövcud əlverişli şəbəkə strukturları olmadan vahid mədəni hərəkatda öz ifadəsini tapa bilməzdi.

Daha bir innovativ tədqiqat Mayer və Pullerin (2007) Facebook səhifəsindən toplanılan dostluq şəbəkələri haqqında dataların öyrənilməsidir. Tədqiqatçılar tələbələr arasında dostluqların qurulmasında əsas rol oynayan elementləri aşkar etmək üçün on özəl və dövlət universitetindən nəhəng bir databazanı təhlil ediblər. Onlar kampus şəbəkələrinin "klassik" sosial şəbəkələrlə oxşar cəhətləri nümayiş etdirdiyini ortaya çıxarıblar. Onlar diskriminasiyaya me-

yilli idilər, çoxlu şəbəkə əlaqələrinə malik fərdlər oxşar olaraq digər şəbəkələrlə əlaqələnirdilər. Lakin iki tələbə eyni siyasi mövqeyi bölüşdüyü təqdirdə dost ola bilərdi. Azlıqlara aid etnik qruplar arasında irq amili dostluğun formalaşmasının ən müəyyənedici prediktoru *(prediktor - öncədən təxmin edən - red.* ***A.H.****)* idi. Bu model universitetin ölçüsü və xarakterindən asılı olmayaraq, özünü büruzə verir və tələbə seçiminə əsaslanır, həmçinin, əlaqələrin müxtəlifliyinin təşfiqinə yönəlmiş siyasətlərin məhdud təsirinin ola biləcəyini göstərir.

*İstinadlar və ədəbiyyat*

Castells, M. (2000) The Rise of the Network Society (2nd edn, Oxford: Blackwell).

Crossley, N. (2008) ‘Pretty Connected’, Theory, Culture and Society, 25(6): 89–116.

Mayer, A., and Puller, S. L. (2007) ‘The Old Boy (and Girl) Network: Social Network Formation on University Campuses’, Journal of Public Economics, 92(1/2): 329–47

# Mövzu 7. İNTERAKSİYA VƏ KOMMUNİKASİYA

## İdentiklik (Identity)

*İşçi tərif*

Fərdin və ya qrupun xarakterinin özümlülük hissi ilə bağlı olan fərqli aspektləridir.

*Anlayışın mənşəyi*

İdentikliklər anadangəlmə verilmir, onlar yaradılır. Kuli (1902) və Midin (1934) əsərləri XX əsrin əvvəllərində özümlülük və identiklik nəzəriyyələrinin inkişafında mühüm əhəmiyyət kəsb edib. Kulinin "Güzgü Mən" nəzəriyyəsinə görə, başqalarının şəxs haqqında qiymətləndirməsi potensial olaraq həmin şəxsin özü haqqında təsəvvürlərinə təsir göstərir. Midin nəzəriyyəsi isə özümlülüyün inkişafı və formalaşmasının ilk sistematik sosioloji nəzəriyyəsi olaraq, özümlülüyün biologiyamızın anadangəlmə bir hissəsi olmadığını və ya insan beyninin inkişafı ilə ortaya çıxmadığını, yalnız digərləri ilə sosial interaksiyalarda formalaşdığını güman edirdi. Mid göstərdi ki, insanın özümlülüyünün tədqiqi cəmiyyətin tədqiqindən ayrı ola bilməz və hər ikisi sosioloji perspektiv tələb edir. Özümlülük hissinin meydana çıxması şəxsi identikliyin formalaşması üçün zəruri zəmindir. İstehlakçılıq və fərdiyyətçiliyin güclənməsinin təsiri altında identikliklərin formalaşmasının kollektiv mexanizmləri zəiflədiyindən, nəticədə identikliklər daha mütəhərrik və dəyişkən olduğundan son 30 ildə bu istiqamətdə tədqiqatlar kəskin şəkildə artmışdır.

*Məna və interpretasiya*

Mahiyyətcə şəxsi identiklik insanın fərd olaraq kim olmasını dərk etməsidir. Lakin identikliklərin sosial aspektləri var, çünki bizim identikliyimiz digər insanların, digər insanların identikliyi isə bizim identikliyimizə bağlıdır. İnsan identikliyi həm şəxsi, həm də sosialdır. Çünki onlar insanların davamlı qarşılıqlı təsiri əsnasında

formalaşır. Cenkins (2014) identikliyin üç əsas elementini nəzərdən keçirir: fərdi və ya şəxsi element; kollektiv, yaxud sosial element; identikliyin konkretləşməsi. Sonuncu elementin daxil edilməsi çox mühümdür, çünki identikliklər fərdin fiziki varlığına bağlı olur. O, bir neçə mənbədən formalaşır və çoxqatlıdır.

Əsas fərqləndirmə ilkin və ikincili sosiallaşma prosesləri ilə bağlı olan ilkin və ikincili identikliklər arasındadır. İlkin identikliklər gender identikliyi və etniklik kimi həyatın erkən dövrlərində formalaşan identikliklərdir. İkincili identikliklər isə əvvəlkilər üzərində formalaşır və sosial rollar, peşə məşğuliyyətləri və sosial mövqeləri özündə ehtiva edir. Bunu etiraf etmək identikliklərin mürəkkəb və dəyişkən olduğunu ortaya qoyur, belə ki, o, insanların yeni sosial rolları qəbul etməsi, əvvəlkilərdən isə uzaqlaşmasına görə dəyişir. İdentiklik nadir hallarda davamlı olur, adətən, fasiləsiz dəyişiklik prosesindədir. İdentikliklərin prosesuallığının vacib nəticəsi isə oxşarlıqlar və fərqliliklərin sərhədlərini ayırmaq qabiliyyətidir. Fərdi identikliyimiz çox zaman unikallıq və başqalarından fərqlilik kimi hiss olunur. Məsələn, adlar fərdi fərqlərin yaxşı illüstrasiyasıdır. Bu gün əksər valideynlər öz övladları üçün ümumi istifadədə olan və ya ailə adlarından daha çox unikal adlar tapmağa çalışırlar. Kollektiv identikliklər, əksinə, oxşarlığı əks etdirir. Özünü fəhlə sinfinin nümayəndəsi, ekoloq və ya peşəkar sosioloq kimi identifikasiya etmək, yaxud başqaları tərəfindən belə tanınmaq qürur, qrup həmrəyliyi və ya xəcalət mənbəyi ola bilər.

İdentikliyimizi necə qavradığımızdan asılı olmayaraq, fərdi və sosial identikliklər özümlülük daxilində bir-birinə sıx bağlıdır. Sosial identiklik və onun fiziki konkretləşməsi arasındakı sıx bağlılığın parlaq nümunəsini Qofmanın "stiqma" üzərində tədqiqatında tapa bilərik ({1968}, 1990). O, məhdudiyyətli insanların müşahidə edilən fiziki qüsurları əsasında stiqmatizasiya edilə bildiyini (diskreditasiya olunmuş stiqma) göstərir. Bu, diskreditasiya olunmuş stiqmaya malik insanın öz identikliyini nisbətən asan gizlədilə bilən qeyri-fiziki qüsurların olduğu hallardan fərqli olaraq, daha çətinliklə idarə edə bilməsini şərtləndirir. Qofman cəmiyyət həyatını aktyorların səhnədə (və ya səhnələrdə) oynadığı tamaşa kimi nəzərdən keçirir, çünki necə davranmağımız bu və ya digər anda hansı rolu

ifa etməyimizdən asılıdır. İnsanlar başqaları tərəfindən necə qavranıldıqlarına olduqca həssasdırlar və istədikləri kimi qavranılmaq üçün təəssüratların idarə olunmasının bir sıra formalarını istifadə edirlər.

Gender identikliyinə sosial təsirlər müxtəlif kanallar vasitəsilə baş verir. Məsələn, valideyn-uşaq interaksiyalarının tədqiqi, hətta valideynlər öz reaksiyalarının oğul və qız övladlarına qarşı eyni olduğuna inandığı zaman belə, oğlanlar və qızlara münasibətdəki spesifik fərqləri ortaya çıxardı. Oyuncaq, şəkilli kitablar və uşaqların qavradığı televiziya proqramları kişi və qadın xüsusiyyətlərinin müxtəlifliyini vurğulayır. Bu vəziyyətin dəyişməsinə baxmayaraq, kişi personajlar, adətən, daha fəal və qətiyyətli göstərildiyi halda, qadın personajlar passiv, ümidlə gözləyən və evə yönümlü olaraq göstərilir. Feminist tədqiqatlar gənc auditoriyalara istiqamətlənmiş mədəni və media məhsulların genderə ənənəvi baxışı, oğlan və qızlara münasibətdə gözləntilərlə bağlı məqsədləri necə ifadə etməsini göstərdilər.

*Tənqidi məqamlar*

Bəzi nisbətən yeni nəzəriyyələr "identiklik" anlayışının nisbi sabit və insanlara sosiallaşma agentivlikləri tərəfindən təyin edilən olmasına qarşı çıxırlar. Fukodan sonra bu nəzəriyyə tərəfdarları iddia edirlər ki, gender və seksuallıq (onlarla birlikdə ortaya çıxan bütün digər terminlərlə birgə) obyektiv reallıq olmayıb, seksuallığın spesifik diskursunu təşkil edir. Fukoya görə, bu gün gey kişilərlə assosiasiya edilən kişi homoseksual identikliyi XIX əsrdə və ondan əvvəl seksuallığa dair dominant diskursun hissəsi deyildi. Ona görə də, insanlar üçün belə identifikasiya forması tibb və psixiatriya diskursları daxilində yaradılmasına və ya onun bir hissəsinə çevrilməsinə qədər mövcud deyildi. Beləliklə, identikliklər plüralistik, qeyri-stabil, həyat boyu radikal dəyişmələrə məruz qalan fenomenlər olaraq nəzərdən keçirilə bilər.

*Aktuallığın davamı*

İdentiklik bir sıra tədqiqat sahələrində getdikcə daha çox əhəmiyyət daşıyır. Sosial hərəkatların tədqiqi kollektiv identikliyin ne-

cə qurulduğuna, sinif tədqiqatları sosial sinfi qruplarla birgə dəyişən identifikasiyaya diqqət edir. Səhiyyə sosioloqları isə şəxsi identikliyin xroniki xəstəliyin aşkar olunması və inkişafı prosesində necə pozulmasını göstərib. İdentiklik sosiologiyada möhkəm yer tutur və bir sıra yeni tədqiqat obyektlərinin öyrənilməsində istifadə edilir.

Əksər insanlar üçün işdə icra etdikləri identikliklə özəl, ev mühiti üçün səciyyəvi identiklik arasında aşkar ayrılma vardır. Lakin bəzi iş yerlərində (xüsusilə, ofis, "call-center"lər və digər xidmət istiqamətli sahələrində) oyun və əyləncə üçün imkan yaratmaqla iş yerlərini "humanistləşdirmək" cəhdləri həyata keçirilir. Bu mövzu üzərində tədqiqatların birində Boldri və Hallier (2010) göstərirlər ki, cəlbedici görünməsinə baxmayaraq, bu cəhdlər əks-təsir verə bilər. İşçilər idarə edənlərin onların şəxsi həyatlarına müdaxiləsindən və bu sahəyə aid dəyərlərini dəyişdirməyə cəhd etməsindən qəzəblənə bilərlər. İş yerində əyləncə məhsuldarlığın artırılması əvəzinə yadlaşma səviyyəsini yüksəldə bilər.

1980-ci illərdən bəri identiklik mənbələri kimi sosial hərəkatlara olan maraq yenilənməyə başladı. Saunder (2008) ekoloji hərəkatlar daxilində kollektiv identikliklərin necə formalaşmasını öyrənir. Hərəkatlar əsasən müəyyən mərkəzi ideya və ideoloji seçimlərə fokuslanmış kollektivlik formalarıdır. Lakin hərəkatlar daxilindəki həmrəylik, adətən, bu geniş hərəkata aid təşkilatlarda yaradılır. ("Greenpeace" və ya "Earth First" kimi). Təşkilat daxilində identikliklərin aktivistlər tərəfindən yaradılması və bu identikliyə yüksək sadiqlik paradoksal da olsa, sosial hərəkat daxilində ortaya çıxan parçalanmaların əsasında dura bilər.

*İstinadlar və ədəbiyyat*

Baldry, C., and Hallier, J. (2010) 'Welcome to the House of Fun: Work Space and Social Identity', Economic and Industrial Democracy, 31(1): 150–72.

Cooley, C. H. (1902) Human Nature and the Social Order (New York: Scribner's).

Goffman, E. ([1963] 1990) Stigma: Notes on the Management of Spoiled Identity (London: Penguin).

Elias, N. (2000) 'Homo clausus and the Civilizing Process', in P. du Gay, J. Evans and P. Redman (eds), Identity: A Reader (London: Sage), pp. 284–96.

Jenkins, R. (2008) Social Identity (London: Routledge).

Mead, G. H. (1934) Mind, Self and Society, ed. C. W. Morris (Chicago: University of Chicago Press).

Saunders, C. (2008) 'Double-Edged Swords? Collective Identity and Solidarity in the Environmental Movement', British Journal of Sociology, 59(2): 227–53.

## İdeologiya (Ideology)

*İşçi tərif*

Cəmiyyətdə əksər hallarda dolayı yolla dominant qrupların maraqlarına xidmət edən və onların mövqeyini legitimləşdirən "sağlam düşüncə" ideyaları və geniş yayılan inanclardır.

*Anlayışın mənşəyi*

"İdeologiya" termini ilk olaraq Fransada XVIII əsrin sonunda ideya və bilik haqqında güman edilən elmi - ideologiyanı təsvir etmək üçün istifadə edilib və o, psixologiya və ekologiyaya oxşar bir elmə çevrilməli idi. Anlayışın belə mənası indi neytral, yəni ideologiyanı qərəzli və ya yanlış yönləndirici kimi nəzərdə tutmayan hesab olunur. Bu, sadəcə cəmiyyətdə tədqiq və müqayisə edilə bilən ideyaların müxtəlifliyinin mövcudluğu deməkdir. 1930-1940-cı illərdə Karl Manheym özünün təfəkkür üsulu və onun sosial əsaslarını əlaqələndirən bilik sosiologiyasında bu ideyanı canlandırmağa cəhd etdi. Manheymə görə, məsələn, müxtəlif sosial sinif kontekstlərində istehsal edilən bilik sadəcə fraqmentar ola bilər. Bilik sosiologiyasının vəzifəsi cəmiyyəti daha yaxşı anlamaq üçün müxtəlif interpretasiyaları bir yerə gətirmək olmalıdır. Lakin neytral mənada "ideologiya" anlayışı populyarlıq qazanmadı.

Sosiologiyada ideologiyanın daha tənqidi konsepsiyası dominant yer tutdu. Karl Marks ideologiyanı kapitalist sinfinin dominantlığının zaman-zaman yenidən təkrarlanmasında mühüm amil

olaraq görürdü. O iddia edirdi ki, hakim qruplar cəmiyyətdə dövr edən və onların imtiyazlı mövqelərini legitimləşdirən dominant ideyalara nəzarət etməyə qadirdir. Beləliklə, hər bir dövrün dominant ideyaları hakim sinfi dəstəkləyən ideyalardır. İdeologiya bərabərlik qarşısında maneədir və sonrakı dövr marksistlər zəhmətkeşlərin özlərinin istismar edildiklərini dərk etməsi üçün ideologiyaya qarşı mübarizə vasitələrinin müzakirəsinə çox zaman sərf etdilər. Marksistlər düşünürdülər ki, sosial təhlil ideoloji təhrifləri üzə çıxarmalıdır. Bu gücsüzlərə həqiqi perspektiv əldə etməyə kömək edə, həyat şərtlərini yaxşılaşdırmağa yönəlmiş kollektiv hərəkətlərin başlanğıcı ola bilər. Bu gün "ideologiya" anlayışı 1970-1980-ci illərdə olduğu kimi fəal şəkildə istifadə edilmir. İdeyaların gücünə sosioloji maraq, çox güman ki, ideyalar və inanclardan uzaqlaşaraq dildən istifadə, nitq və sənədli mənbələrə yönələn Fukonun diskurslar və onun effektləri haqqında konsepsiyasına əsaslanacaq. Lakin bu iki konsepsiya heç də mütləq şəkildə bir-birinə zidd deyildir.

*Məna və interpretasiya*

Bir ideya və bəyanatı ideoloji olaraq təsvir etmək onun yanlış, yanıldıcı və reallığın nisbi açıqlaması olduğu, habelə korreksiyaya məruzqalma zərurətinin olması deməkdir. Ona görə də "ideologiya" anlayışı cəmiyyət haqqında faktların və həqiqətin əldə edilməsinin mümkünlüyü deməkdir. İdeologiyanın tədqiqi onu, əsasən, sinfi dominantlıqla sıx əlaqəli görən marksist ənənənin təsiri altındadır. Məsələn, "Zəngin insan qalasında, kasıb insan əməyində; Tanrı onları ali və aşağı etdi, mülklərini nizamladı" fikrində təsvir olunan təbii nizamda dini inanc ideologiyanın mühüm mənbəyidir. Marksist nəzəriyyə bu ideyaların ideoloji mahiyyət kəsb etdiyini, istismar edilənlər və mülksüzləşdirilənləri bərabərsizliyin təbii olduğuna, onların aşağı mövqeyinin Tanrının iradəsi olduğuna inandırmağı hədəflədiyini hesab edirlər.

XX əsrdə neomarksist Frankfurt məktəbinin tənqidi nəzəriyyə davamçıları "mədəniyyət sənayesi" adlandırdıqları film, televiziya, populyar musiqi, radio, qəzet və dərgiləri tədqiq edərək bildirirdilər ki, kütlə cəmiyyətində mədəniyyət istehsalı real dəyəri az olan standartlaşmış məhsulları kütləvi olaraq istehsal edən digər sə-

naye sahələri kimi gəlirə istiqamətlənib. Mədəni müxtəlifliklər dəyərsizləşdirilib və mədəni məhsullar mümkün qədər böyük auditoriyanı hədəfləyir. Frankfurt məktəbinə görə, belə dəyərsizləşdirmə o deməkdir ki, kütlə mədəniyyəti mövcud nizama meydan oxumur və öyrətmə funksiyasını yerinə yetirmir, o, tənqidə mane olmaq və passivliyi ruhlandırmaqla cansız və rahatlıqvericidir. İdeologiyanın tənqidi konsepsiyasının faydalı cəhəti onun ideyalar və mədəni məhsulları iqtidar və iqtidar münasibətləri ilə əlaqələndirmə tərzidir. İdeologiya simvolik iqtidarın icrasıdır – ideyalar dominant qrupların maraqlarını legitimləşdirir, onlara bəraət qazandırır və gizlədir.

Qlazqov Media Qrup (Glasgow Media Group) tədqiqatçıları xəbər toplama və reportaj hazırlamanın neytral prosesinin ideoloji aspektlərini vurğulayan, faktoloji xəbər vermə üzərində fokuslanan akademik hesabat hazırlamışlar. Kontent-analiz texnikalarından istifadə etməklə ardıcıl empirik tədqiqatlar vasitəsilə araşdırma qrupu televiziya xəbərlərinin sistematik olaraq necə qərəz yaratmasını göstərdi. Məsələn, əmək münasibətlərilə bağlı mübahisələrinə toxunarkən xəbər reportajları tətil edən işçilərin mənafeyi bahasına hökumət və menecmentin fikirlərinə üstünlük verirlər. Yəni menecment nümayəndələrinin "təkliflər", işçi və həmkarlar ittifaqlarının isə "tələblər" irəli sürdüyü bildirilir. Əmək münasibətləri haqqında xəbərlər selektiv və qərəzli formada təqdim edilir. Xəbər jurnalistləri orta sinfə aiddirlər və onların baxışları cəmiyyətdə tətil edənləri təhlükəli və məsuliyyətsiz olaraq görən dominant qrupların mövqeyini əks etdirir. Tədqiqatın əsas nəticəsi odur ki, xəbər reportajları hər zaman selektivdir və heç vaxt neytral, obyektiv ola bilməz. Xəbərlər mövcud olduğu cəmiyyətdəki bərabərsizliyi özündə əks etdirən mədəni məhsul, daha bir ideologiya mənbəyidir.

*Tənqidi məqamlar*

Kütləvi media kommunikasiyalarının müasir formalarının geniş müxtəlifliyinin və qlobal əhali sayına proporsionallığının inkişaf etməsi ilə ideologiya istehsalının miqyası artdı. Məzmun istehsalçıları və onların auditoriyaları arasındakı interaksiyanı, birbaşa münasibəti mümkün edən veb-səhifələr, virtual söhbət otaqları və

bloqlar kimi interaktiv formalar üstün olduqca dəyişikliklər baş verir. Blogginq, tvittinq və s. öz-özlüyündə informasiya mənbələrinə çevrilməklə xəbərləri müxtəlif münaqişə bölgələrində yaşayan insanların perspektivindən verərək və xəbər kanallarının reportajlarına alternativ kimi münaqişələrdə mühüm rol oynayırlar.

Bəzi xəbər istehsalçıları Qlazqov Media Qrupun tədqiqatçılarını hökumət və menecment ilə deyil, tətil edən işçilərin tərəfini tutmaq və qərəz nümayiş etməkdə ittiham edir. Onlar bildirirlər ki, məsələn, "Bad News" ("Pis xəbərlər") kitabı "Həmkarlar ittifaqları və media" fəslini özündə ehtiva etsə də, "Menecment və media" adlı fəslin olmaması onların "ideoloji" qərəzinin göstəricisidir. Harrison (1985) 1976-cı il tədqiqatının əks etdirdiyi dövr üçün Britaniyada İTN xəbər yayımlarının (İndependent Television News) transkriptlərini əldə etməklə təhlil edilən beş ayın tipik olmadığını bildirirdi. Həmin dövrdə çoxlu gün sayı tətil (işçilərin tətili) olduğuna görə itirilib və onların hamısı haqqında xəbər vermək qeyri-mümkün ola bilərdi. O, tədqiqat qrupunun xəbər yayımlarının tətillərin effektləri üzərində fokuslandığını iddia etməsinin yanlış olduğunu, əksər insanların tətillərdə iştirak etməkdən çox onların təsirinə məruz qaldığını hesab edirdi. Qısası, xəbərlər ideoloji olaraq qərəzli deyil.

*Aktuallığın davamı*

"İdeologiya" anlayışı tarixən marksizmlə assosiasiya edilir və onun müqəddəratı ayrılmaz şəkildə marksizmlə bağlıdır. Sovet kommunizminin dağılması və 1980-ci illərdən etibarən neoliberal kapitalizmin aşkar zəfəri ilə ideologiya konsepsiyasının öz təməlini itirəcəyini güman edə bilərik. Əgər biz "diskurs" anlayışı qeyd edilən məqalələrin sayını "ideologiya" anlayışından istifadə edilənlərlə müqayisə etsək, Fukonun təsirinin sosioloqların marağını sosial diskurslar və diskursiv praktikalara yönəltdiyini görə bilərik. 1970-ci illərdən bəri ideologiya konsepsiyasını aradan qaldırmaq üçün bir neçə cəhd edilib, lakin "ideologiyanın sonu"na aid müxtəlif tezislər hələ də çox erkən görünür. Sosiologiya sinfi olaraq bölünmüş cəmiyyəti öyrəndikcə, mədəni reproduksiyanı dərketməyimizin

mühüm bir aspektini formalaşdıran ideologiya tədqiqatları əhəmiyyətini saxlayacaq.

*İstinadlar və ədəbiyyat*

Freeden, M. (2003) Ideology: A Very Short Introduction (Oxford: Oxford University Press).

Glasgow University Media Group (1976) Bad News (London: Routledge and Keagan Paul)

Harrison, M. (1985) TV News: Whose Bias? (Hermitage, Berks: Policy Journals).

Heywood, A. (2012) Political Ideologies: An Introduction (5th edn, Basingstoke: Palgrave Macmillan).

Zeitlin, I. M. (1990) Ideology and the Development of Sociological Theory (4th edn, Englewood Cliffs, NJ: Prentice Hall).

## İnteraksiya (Interaction)

*İşçi tərif*

İki və daha çox fərd arasında formal, yaxud qeyri-formal situasiyalarda sosial qarşılaşmanın istənilən formasıdır.

*Anlayışın mənşəyi*

Söhbət, görüş və həyatın digər adi aspektləri kimi adəti gündəlik qarşılaşmalar elmi sahə üçün qeyri-münasib mövzu kimi görünə bilər. Lakin sosiologiyada 1920-ci illərdən etibarən sürətlə inkişaf edən simvolik interaksionizm ənənəsi qeyd edilən gündəlik hadisələrin öyrənilməsinin sosial həyatın xarakteri və strukturunun dərkində həlledici rol oynadığını sübut edib. Sosial interaksiyalar bir qayda olaraq fokuslanan və ya fokuslanmayan mübadilələri ehtiva edir. Adətən, "qarşılaşma" adlandırılan fokuslanan interaksiyalar dostlarımız və ailə üzvlərimizlə görüşlərimizin əksəriyyətini özündə əks etdirir. Fokuslanmayan interaksiyalar isə digərləri ilə birlikdə olduğumuz, lakin onlarla üz-üzə təmasa daxil olmadığımız interaksiyalardır. Məsələn, alış-veriş prosesi bədən dili, üz ifadələri

və jestlər formasında fokuslanmayan interaksiyaları özündə ehtiva edir, bunların hamısı çoxsaylı digər insanların iştirakı ilə bizə gündəlik vəzifələrimizi icra etməyə imkan verir.

Sosial fəaliyyət ənənəsində fenomenologiya və etnometodologiyanın da daxil olduğu digər perspektivlər sosial interaksiyalar üzərinə köklənib. Fenomenoloqlar insanların dünya haqqında qeyd-şərtsiz olaraq qəbul etdikləri gümanları necə qazandıqlarını tədqiq edərkən, etnometodologiya gündəlik həyatda insanların dünyanı anlamaq və strukturlaşdırmaq üçün istifadə etdiyi metodları ortaya çıxarır.

*Məna və interpretasiya*

Sosial interaksiya qismən bədən davranışı və üz ifadələri kimi qeyri-verbal kommunikasiya vasitəsilə baş verir. Əgər biz insanın üzünü digər canlı növlərinin sifəti ilə müqayisə etsək, onun nəzərəçarpacaq dərəcədə plastik və manipulyasiyaya qadir olduğunu görərik. Norbert Elias iddia edirdi ki (1987), simanın öyrənilməsi insanın nəinki bütün digər növlər kimi uzun dövr ərzində təkamülünü, habelə sosial inkişaf prosesində bu bioloji bazisin mədəni aspektlərlə qapanmış olduğunu göstərir. İnsan siması çılpaq və çox dəyişkən olmaqla yanaşı, müxtəlif ifadələr ala bilir. Buna görə də, Elias onun inkişafını effektiv kommunikasiya sisteminin təkamül əhəmiyyətli "sağqalma dəyəri" ilə sıx bağlılığını göstərir. İnsanlar öz emosiyalarının geniş spektrini sadəcə üzün "siqnal paneli" vasitəsilə ötürürlər. Beləliklə, biz səmimiliyi və digər insanlara nə dərəcədə etibar edə biləcəyimizi yoxlamaq üçün onların ötürdüyü verbal məlumata həmin insanların üz ifadələri və jestlərini əlavə edirik.

İnteraksionist ənənədə sosioloji tədqiqatların böyük əksəriyyəti "söhbət" və dialoqlara həsr olunub. Dildən istifadə uzun zaman linqvistlər tərəfindən tədqiq edilib, lakin sosioloqlar dillə ilk növbədə "kontekst daxilində danışıq" kimi (yəni insanların sosial situasiyalarda necə ünsiyyət qurması kimi) maraqlanır. Dilin müxtəlif kontekstlərdə istifadəsinə diqqət yetirən ayrıca tədqiqat perspektivi etnometodologiyadır. Onun belə adlanmasının səbəbi insanların gündəlik həyatını yaşadıqca, müxtəlif sosial kontekstlərdə (yəni et-

nometodlarda), adətən, istifadə etdikləri metodlar üzərində fokuslanmasıdır. Etnometodologiyanın əsas suallarından biri insanların yaşadıqları dünyaya və başqalarının davranışına necə məna verməlƏridir. Biz çox zaman nə deyildiyinin mənasını sözlərdə ifadə olunmayan sosial konteksti bildiyimiz üçün başa düşürük. Gündəlik söhbətin ən əhəmiyyətsiz formaları danışanlar tərəfindən paylaşılan mürəkkəb ümumi biliyin mövcudluğunu nəzərdə tutur. Adi söhbətlərdə istifadə edilən sözlərin heç də həmişə dəqiq mənası olmur və biz danışdığımızı onun təməlini təşkil edən söylənilməmiş gümanlar vasitəsilə "təyin edirik".

İnteraksiyalar daha böyük sosial kontekst tərəfindən formalaşdırıldığı üçün həm verbal, həm də qeyri-verbal kommunikasiya kişilər və qadınlar tərəfindən müxtəlif cür qavranıla və ifadə edilə bilər. Kişilərin qadınlar üzərində dominant olduğu cəmiyyətlərdə onlar özlərini yad insanlarla göz əlaqəsini qurmaqda daha sərbəst hiss edirlər. Qadına gözünü zilləyən kişi "təbii" və "məsum" tərzdə davranan kimi qavranıla bilər, qadın isə bundan narahat olursa, kənara baxmaqla bu baxışdan xilas ola bilər. Lakin kişiyə gözünü zilləyən qadın əksər hallarda seksuallığı təhrik edən kimi qavranılır. Qeyri-verbal kommunikasiyada kişilər özlərini qadınlardan daha sərbəst hiss edir, arxaya söykənərək, ayaqlarını rahat şəkildə tutur, qadın bədəni isə daha gərgin olur, qadınlar ayaqlarını çarpazlayıb, əlləri ətəklərində dik oturmağa meyillidirlər. Bəzi tədqiqatlar qadınların kişilərə nisbətən daha tez-tez göz əlaqəsinə cəhd etdiyi və bu əlaqəni daha tez-tez qırdığını göstərib. Bu zahirən kiçikmiqyaslı, mikrosəviyyəli interaksiyalar cəmiyyətdə kişilərin qadınlar üzərində hakimiyyətini nümayiş etdirən və çətinliklə sezilən işarələrdir.

*Tənqidi məqamlar*

Sosioloqlar mikrosəviyyəli mübadilələrdən qlobal siyasətin beynəlxalq arenasına qədər demək olar ki, hər bir tədqiqat layihəsində müəyyən növ interaksiyaları tədqiq edirlər. Lakin interaksionizm qarşılıqlı təsirin tipi və keyfiyyətini formalaşdıran sosial struktur məsələlərinə məhəl qoymayan yanaşma kimi qavranılır. Bəzi mikrosəviyyə nəzəriyyəçiləri, ümumiyyətlə, sosial struktur ad

landırılanı inkar edərək, sosial münasibətləri və sosial nizamı davamlı şəkildə yenidən yaradan interaksiyalara fokuslanmağın vacibliyini bildirirlər. Sosial strukturun mövcudluğunu qəbul edən digər sosioloqlar inanırlar ki, strukturun özünü görməyə qadir olmasaq da, onun effektləri real və müşahidə edilə biləndir. Biz cazibə qüvvəsini də görə bilmirik, lakin alimlər digər müşahidə edilən fenomenləri ölçməklə onun mövcudluğu haqqında problemsiz olaraq nəticə çıxarırlar.

*Aktuallığın davamı*

"İnteraksiya" anlayışı o dərəcədə fundamentaldır ki, onsuz "sosiologiyanı yaratmaq" çətin olardı. O, insan mövcudluğunun çox müxtəlif sahələrinə dair tədqiqatlarda istifadə olunan son dərəcə mütəhərrik və adaptiv anlayışdır. Bunun sübutu bir çox cəhətlərinə görə gündəlik üz-üzə təmas dünyasından fərqli, texnoloji olaraq mediasiya edilən kiberməkandakı sosial interaksiyaların mənalandırılmasına dair son tədqiqatlardır. Kiberməkandakı interaksiyaların öyrənilməsi qarşılıqlı təsirə aid təsəvvürlərimizi genişləndirməyə imkan verən yeni anlayışlar tələb edəcəkdir.

Virtual mühitdə kommunikasiya və sosial interaksiyanın öyrənilməsi genişlənən tədqiqat sahəsidir. Tomas Plaq (2009) bildirir ki, kiberməkan daxilində və ondan kənarda insanların interaksiyaları və etik davranışı arasında bir neçə mühüm fərq vardır. Məsələn, əksər hallarda insanlar kiberməkandakı onlayn mühiti qeyri-real və ya yaşadıqları fiziki dünya qədər real olmayan məkan kimi qavrayırlar. Plaq hesab edir ki, bu, onların virtual dünyada əxlaqa necə yanaşmasına ciddi təsir edir. Onlayn mühit "real dünya"nın sübutlarına nəzərən müəyyən dərəcədə inandırıcılıq çatışmazlığı nümayiş etdirir və bir qayda olaraq real dünyadan daha az inandırıcıdır. Orada üz-üzə interaksiyaya nisbətən narazılıq ifadəsi və mübahisə epizodları daha tez-tez meydana çıxır. Bütün bunlar onlayn mühitin fərqli etik standartları necə yaratdığını və bunun kiberməkanda gələcək interaksiyalar üçün mümkün nəticələrini anlamaq zərurətini ortaya qoyur.

*İstinadlar və ədəbiyyat*

Elias, N. (1987) 'On Human Beings and their Emotions: A Process-Sociological Essay', Theory, Culture and Society, 4(2–3): 339–61.

Garfinkel, H. (1984) Studies in Ethnomethodology (2nd rev. edn, Cambridge: Polity).

Goffman, E. (2005) Interaction Ritual: Essays in Face-to-Face Behaviour (2nd edn, New Brunswick, NJ: Aldine Transaction), esp. Joel Best's Introduction.

Ploug, T. (2009) Ethics in Cyberspace: How Cyberspace May Influence Social Interpersonal Interaction (New York: Springer).

Ten Have, P. (2004) Understanding Qualitative Research and Ethnomethodology (London: Sage), esp. chapters 2 and 3.

## Kütləvi media (Mass Media)

*İşçi tərif*

Böyük auditoriyanı əhatə etməyə qadir olan radio, televiziya, qlobal internet şəbəkəsi və s.-nin də daxil olduğu bütün kommunikasiya formalarıdır.

*Anlayışın mənşəyi*

Bəşər tarixinin böyük bir dövrü üçün əsas kommunikasiya vasitəsi nitq olmaqla, üz-üzə qarşılıqlı təsir norma idi. Şifahi mədəniyyətlərdə informasiya, ideya və biliklər nəsildən-nəslə ağızdan-ağıza ötürülürdü. Nitqin yazılması imkanının yaranması ilə ilk dəfə 3 min il əvvəl Çində yazılı mədəniyyətlər meydana çıxmağa başladı. Qutenberqin ixtira etdiyi və mətnlərin artırılmasına imkan yaradan hərəkətli çap maşını müasir kütləvi kommunikasiya vasitələrinin sələfi oldu. Radio və televiziyanın kəşfi isə ismarıcların demək olar ki, dərhal ötürülməsini mümkün etdi. Hər ikisi çox geniş auditoriyalarda populyarlıq qazandı. Televiziya öz məzmunu və qlobal əlçatanlığı ilə sosioloqların marağını daha çox cəlb etdi. XX əsrin sonlarında mobil telefon, video oyunlar, rəqəmsal televiziya və internet kimi yeni rəqəmsal texnologiyalar kütləvi mediada inqilab

etməklə yanaşı, media imkanlarını interaktivləşdirdi. Bunun təsirini sosioloqlar hələ tam olaraq öyrənməli və dəyərləndirməlidirlər.

*Məna və interpretasiya*

Kütləvi medianın erkən sosioloji tədqiqatları bir qayda olaraq geniş mənada funksionalist olmaqla, medianın inteqrativ funksiyalarına daha çox nəzər yetirməyə meyilli idi. Məsələn, media cəmiyyət və dünya haqqında fasiləsiz informasiya axınını istehsal edərək, kollektiv təcrübə yaradır. Bunun sayəsində biz özümüzü vahid dünyanın parçası kimi hiss edirik. Kütləvi media həm də dünya hadisələrini izah edərək, onları anlamağımızı şərtləndirir. Məhz bu uşaqların sosiallaşmasında mühüm rol oynayır. Nəhayət, media məzmunu bizi əyləndirərək, iş həyatı ilə bağlı qayğılardan azad edir. Bu yanaşmanın əsas problemi onun kütləvi medianın yalnız ayrı-ayrı müsbət tərəflərini təsvir etməsi və auditoriyaya fəal təsirini diqqətdən kənarda saxlamasıdır. Başqa sözlə, funksionalizmin təhlükəsi onun ciddi maraq konfliktlərini və mövcud bərabərsizlikləri qorumağa yönələn ideologiyaların yaradılmasını nəzərə almamasıdır.

Bu yanaşmadan fərqli olaraq siyasi iqtisadiyyat əsas kommunikasiya vasitələrinin özəl maraqlara necə cavab verdiyini göstərir. Məsələn, XX əsrdə müharibə öncəsi mətbuatın əsas hissəsinə malik olan bəzi media sahibləri xəbərlər və interpretasiyaları gündəlik olaraq təyin etmək gücündə idilər. Qloballaşma əsrində media üzərində sahibkarlıq milli sərhədləri aşır və indi media maqnatları onların beynəlxalq səviyyədə tanınması və təsirini təmin edən transmilli media şirkətlərinə sahibdirlər. Başqa sahələrdə olduğu kimi, media sahibkarlığında da iqtisadi maraqlar iqtisadi gücü zəif olanların səsini azaltmağa çalışır və media bazarında "sağ qalanlar" yalnız sərvət və hakimiyyətin mövcud bölgüsünə tənqidi yanaşmayanlardır.

XX əsrin sonlarından etibarən simvolik interaksionizm tədqiqatları daha populyar oldu. Tompson (1995) üz-üzə interaksiya (face-to-face interaction), media texnologiyasının cəlb edildiyi interaksiya (mediated interaction) və insanları birbaşa əlaqələndirməyən, zaman və məkan boyu uzanan kvazi-interaksiya *("kvazi"- həqiqi olmayan – red.* ***A.H.***) arasında fərqləndirmə aparmaqla media

və sənaye cəmiyyətlərinin inkişafı arasındakı münasibəti təhlil edib. İlk iki növ fərdlərin birbaşa ünsiyyət qurduqları "dialoji" (söhbət və ya telefon danışıqları), üçüncü forma isə "monoloji" (məsələn, televiziya proqramları) – birtərəfli kommunikasiya formasıdır. Kütləvi media əvvəllər olmadığı sayda çox informasiyanı ictimailəşdirərək, debat platformaları yaradaraq ictimai və özəl sferalar arasındakı balansı dəyişdirir.

Jan Bodriyar iddia edir ki, kütləvi medianın, xüsusən də televiziya kimi elektron medianın yüksəlişi həyatımızın təbiətini dərindən transformasiyaya uğradıb. Televiziya sadəcə dünyamızı "təmsil etmir", o, getdikcə daha çox yaşadığımız dünyanı müəyyənləşdirir. Reallıq və onun reprezentasiyası arasındakı fərq kollapsa uğrayıb və biz artıq reallığı onun təsvirindən fərqləndirə bilmirik. Bodriyar reallıq və onun mediatəsvirini hiperreal dünyanın hissəsi kimi görür. Hiperreallıq autentikliyin və reallığın ən ali zəmanətçisinin televiziya və mediada görüldüyü ("realdan daha real olmaq") bir dünyadır. Bu, uğurun yeganə sübutunun sadəcə qlamur dərgilər və televiziyada görünmək olduğu məşhurlar mədəniyyətinin əhəmiyyətinin artmasını qismən də olsa izah edir.

*Tənqidi məqamlar*

Tədqiqatlar təkrarən onu göstərib ki, qızlar və qadınların reprezentasiyalarında ənənəvi gender rollarına aid stereotiplərdən istifadə edilir. Qadınlar tipik olaraq, evdar qadın, kişi istəyinin obyekti, dayə və ya genişlənmiş ev funksiyalarını yerinə yetirən tibb bacıları və ofis işçiləri kimi təsvir olunur. Belə reprezentasiyalar bütün xəbər reportajları, kinomatoqraf və əyləncə proqramlarında daimi şəkildə mövcuddur. Etnik azlıqlar və məhdudiyyətli insanların media obrazları da onlara aid stereotiplərlə mübarizə aparmayıb, əksinə, onları gücləndirir. Son dövrlərə qədər qaradərililər və asiyalılar televiziya proqramları və digər mediadan demək olar ki, kənarda idilər. Hətta onlar göstərildikdə belə, problematik sosial qruplar kimi təsvir edilirdi. Məhdudiyyətli insanlar isə media diskurslara daxil edildikdə, çox zaman cinayətkarlar, psixi pozuntulu personajlar, "pis, dəli, yaxud kədərlilər" kimi reprezentasiya olunurdular. Sosioloqlar qeyd edirlər ki, belə stereotip mediareprezentasiyalar

diskriminasiyanın səbəbi olmasa da, müəyyən sosial qruplara aid mövcud neqativ ideyaları gücləndirə bilər.

Tənqidi media nəzəriyyəsinin mühüm hissəsi insan kütlələrini media mesajlarına müqavimət göstərməyə qadir olan deyil, yalnız bu mesajları passiv qəbul edən kimi görür. Lakin sosial hərəkatlarla əlaqəli olan (məsələn, Greenpeace kimi) əksər təşkilatlar reallığın kütləvi media ilə rəqabət aparan versiyalarını yaratmağa və bununla öz sıralarını artırmağa çalışırlar. Media və onun auditoriyası arasında balans yaradan son tədqiqatlar insanların media məzmununu şərh və tənqid edə bilən fəal istehlakçılar olduğunu göstərir.

*Aktuallığın davamı*

Medianın müxtəlif formalarının sosioloji tədqiqi onu göstərir ki, biz onların siyasi neytrallığını və ya sosial faydasını güman edə bilmərik. Eyni zamanda, dünyanın bütün bəlalarını da kütləvi medianın qapısına yerləşdirmək və insanları önyarqını fərqləndirə bilməyən “mədəni narkomanlar” hesab etmək olmaz. Kütləvi media sosioloqları üçün növbəti addım medianı daha yaxşı dərk etməyə zəmin yaradan yeni nəzəriyyələr formalaşdırmaq və rəqəmsal medianı öyrənməkdir. Televiziya və radionun öyrənilməsi üçün olan nəzəriyyələrin interneti də öyrənməkdə faydalı olacağı ehtimalı azdır.

Kütləvi informasiya vasitələri tez-tez müəyyən virus və ya xəstəliklərlə bağlı riskləri şişirtməklə panika yaratmaqda ittiham edilir. Lakin Klark və Everestin (2006) Kanada jurnallarını kontent-təhlil edərək, çap nəşrlərində xərçəng xəstəliyi və onun işıqlandırılması məsələsini öyrəniblər. Onların fikrincə, bu xəstəliklə bağlı mümkün yeni dərman və müalicələr qorxu hissi yaradır. Xərçəng qorxunc statistika vasitəsilə qaçılmazlıq kimi nəzərdən keçirilir, onun təsviri qorxu ifadələri ilə əlaqələndirilir, bütün bunlar isə tibbi diskurs çərçivələrinə yerləşdirilirdi. Əlavə olaraq, bu jurnallar süd vəzi xərçəngini xüsusilə vurğulayaraq, digər xərçəng növlərini diqqətdən kənarda saxlayırdı. Belə reprezentasiyanın nəticələrindən biri xərçəng xəstəliklərinin qarşısında ictimai qorxunun güclənməsi

və problemin həlli üçün hakim diskursiv çərçivə kimi tibbi modelin möhkəmləndirilməsidir.

Mübahisəli məsələlərin mediada işıqlandırılması bir sıra sosioloji tədqiqatların predmeti oldu. Başqa yerlərdə olduğu kimi, ABŞ-da da terrorizm və hökumət siyasətinin işıqlandırılmasına maraq müşahidə olunurdu. Alteid (2007) 11 sentyabr 2001-ci il terror hücumlarından sonra ABŞ-da media mənbələrinin keyfiyyət təhlilini aparıb. O bildirir ki, ABŞ xarici siyasətində əvvəlki mühüm dəyişikliklər mediada geniş olaraq işıqlandırılmır və buna görə də ciddi etirazla üzləşmirdi. 11 sentyabr hadisələrindən sonra hökumət mediasının mesajları mövcud "cinayət qorxusu" diskursuna "terror üzərində müharibə" mövzusunu qatmaq üçün yenidən çərçivələndi. Nəticə isə gündəlik həyatın son dərəcə təhlükəli və riskli olaraq təqdim edilməsindən ibarət oldu.

*İstinadlar və ədəbiyyat*

Altheide, D. (2007) 'The Mass Media and Terrorism', Discourse and Communication, 1(3): 287–308.

Andreasson, K. (ed.) (2015) Digital Divides: The New challenges and Oppurtunities of e-Inclusion (Boca Raton, FL, CRC Press).

Clarke, J. N., and Everest, M. M. (2006) 'Cancer in the Mass Print Media: Fear, Uncertainty and the Medical Model', Social Science and Medicine, 62(10): 2591–600.

Flew, T. (2008) New Media: An Introduction (Melbourne: Oxford University Press), esp. ch. 4.

Takahashi, T. (2010) Audience Studies: A Japanese Perspective (London: Routledge), esp. the Introduction.

Thompson, J. B. (1995) The Media and Modernity: A Social Theory of the Media (Cambridge: Polity).

## Mədəniyyət (Culture)

*İşçi tərif*

Ayrıca bir cəmiyyəti və ya sosial qrupu xarakterizə edən bilik, adət, norma, qanun və inancları ehtiva edən həyat tərzidir.

*Anlayışın mənşəyi*

Qarışıq tarixinə görə "təbiət"ə əks kimi güman edilən "mədəniyyət" anlayışı ingilis dilində ən mürəkkəb və təsbit edilməsi çətin anlayışlardan biridir. XV əsrdən etibarən "mədəniyyət" sözü kənd təsərrüfatı - məhsul becərilməsi və heyvan yetişdirilməsi anlamına gəlirdi. Anlayışın insanları da ehtiva etməsi ilə o, - "culturing" insan zəkasının tərbiyələndirilməsi ("mədəniləşdirilməsi") mənasını kəsb etməyə başladı. XVIII əsr Almaniyasında mədəniyyət "sivilizasiya" anlayışına qarşı qoyulurdu və birinci sonuncudan daha üstün olaraq görülürdü. XIX əsrdən etibarən mədəniyyət və mədəni tamlıqların tanınması ideyası inkişaf etməyə başladı. Bu, modern elmi istifadənin başlanğıcı idi. Bu anlamda "mədəniyyət" ictimai həyatın dil, dəyərlər, sosial normalar, inanclar, adətlər və qanunlar da daxil olmaqla, öyrənilən bütün elementlərinə şamil edilir. Mədəniyyətə tikililər və mebel kimi maddi artefaktlar aid edilməsə də, bu cəhət sosioloqların getdikcə "maddi mədəniyyət"ə marağının artması ilə dəyişməyə başladı. Bu baxımdan, mədəniyyətlərin müqayisəli tədqiqi olduqca geniş təşəbbüsdür.

*Məna və interpretasiya*

Sosiologiya tarixində mədəniyyət əsasən sosial münasibətlər və cəmiyyətin strukturu ilə sıx əlaqədə öyrənilib. Məsələn, marksist nəzəriyyə mədəniyyətin quruluşu və reproduksiyasını tam olaraq, kapitalist istehsal modelinin təməlləri üzərində dayanan superstruktur olaraq görürdü. Dini inanclar, dominant ideyalar, əsas dəyərlər və sosial normalar sosial münasibətlərin istismarçı iqtisadi sistemini legitimləşdirən və dəstək verən kimi dərk edilirdi. Hətta televiziya əsrindən daha əvvəl tənqidi nəzəriyyənin Frankfurt məktəbində qeyd olunurdu ki, meydana çıxmaqda olan kütlə mədəniyyəti kütləri bəsit əyləncənin passiv və qeyri-tənqidi istehlakçılara çevirən sosial nəzarət formasıdır. Marksist tənqidin ironiyası odur ki, o, ali mədəniyyəti kütlə mədəniyyətindən fərqləndirir və birincini təhsilli yuxarı sinfin fəaliyyət sahəsi olmasına baxmayaraq, daha dəyərli hesab edirdi.

Mədəni reproduksiya özündə sadəcə dil, ümumi dəyər və normaların hifz olunması və inkişafını deyil, sosial bərabərsizliklərin

də yenidən təkrarlanmasını ehtiva edir. Məsələn, ilk baxışda təhsil müxtəlif gender, sinif və etnik qruplardan olan insanlara öz məqsədlərinə çatmağa imkan verən "böyük bərabərləşdirici" olmalı idi. Lakin son qırx ilin zəngin tədqiqat işləri təhsil sistemlərinin mövcud mədəni və sosial bölünmələri reproduksiya etdiyini göstərib.

Hazırda mədəni reproduksiyanın ən sistemli ümumi nəzəriyyəsi Pyer Burdyöya (1986) aiddir. O, iqtisadi mövqe, sosial status və simvolik kapitalı mədəni bilik və bacarıqlarla əlaqələndirir. Burdyö nəzəriyyəsinin əsas anlayışı *kapitaldır*, onun müxtəlif formaları resurs və üstünlük əldə etmək üçün istifadə edilir. Burdyö kapitalın əsas formaları kimi sosial kapital, mədəni kapital, simvolik və iqtisadi kapitalı fərqləndirir. Sosial kapital elitar sosial şəbəkələrə cəlb edilmək və onların üzvü olmaqla bağlıdır. Mədəni kapital, adətən, ailədə, həmçinin diplom və elmi dərəcələr təqdim edən təhsil sistemi vasitəsilə əldə olunur. Simvolik kapital yüksək mövqeli tərəfin aşağı statuslu tərəf üzərində dominantlığına imkan yaradan prestij, nüfuz və statusa istinad edir. İqtisadi kapital isə sərvət, gəlir və digər iqtisadi resurslarla bağlıdır. Burdyö bu kapital formalarının bir-birilə mübadilə edilən olduğunu göstərir.

Yüksək mədəni kapitala sahib olanlar onu yaxşı məvacibli iş müsahibələri zamanı iqtisadi kapitalla mübadilə edə bilərlər, onların bilik səviyyəsi və etimadnamələri digər namizədlərdən üstün mövqe qazandırır. Yüksək sosial kapitala sahib olanlar isə "doğru insanları tanıya" və ya "doğru sosial çevrələrdə hərəkət edə" və bunu başqalarının hörməti və daha yüksək sosial statusa dəyişərək, iqtidar imkanlarını gücləndirən simvolik kapitalla mübadilə edə bilərlər. Bu mübadilələr həmişə sosial həyatı təşkil edən sosial sahələr və ya sferalar daxilində baş verir və hər bir sahənin digərlərinə transfer edilməyən "oyun qaydaları" var.

Mədəni kapital daxilə müncər olunmuş halda da mövcud ola bilər, biz onu təfəkkür, nitq və davranış tərzimizlə ifadə edirik. O həm də obyektivləşdirilmiş halda - incəsənət işləri, kitab və müəyyən geyimə malik olmaq formasında mövcud ola bilər. Mədəni kapital, həmçinin, bir sıra institusional formalarda aşkar oluna bilər, məsələn, əmək bazarında iqtisadi kapitala asanlıqla konvertasiya olunan peşələr kimi. Əksər sosioloqların fikrincə, təhsil geniş cə-

miyyət kontekstindən qoparılmış neytral sahə deyildir. Təhsil sisteminin mədəniyyət və standartları cəmiyyətin inikasıdır, məktəblər isə sistematik olaraq ailələrində və ya aid olduqları sosial şəbəkələr vasitəsilə mədəni kapital qazanmış olanlara üstünlük verir. Beləliklə, təhsil sistemi dərin sosial bərabərsizlikləri ilə cəmiyyətin mövcud mədəni reproduksiyasında həlledici rol oynayır.

1980-ci illərdən bəri "istehlak cəmiyyəti"nə artan maraq mədəniyyətin öyrənilməsini sosiologiyanın mərkəzi mövzularına yaxınlaşdırdı. Əmtəə və xidmətlərin alınması və istehlakı praktikalarının tədqiqi kütlə mədəniyyətinin tənqidinə yenidən baxmağı tələb edirdi, bu dəfə sosioloqlar istehlakçı və auditoriya perspektivini nəzərdən keçirməyə başladılar. Öncəki vahid kütlə mədəniyyəti daha kiçik bazarları hədəfə almaq üçün şaxələndiyinə görə, zövq subyekti və "zövq mədəniyyətləri" nin mövcudluğu məsələləri ortaya çıxdı. İnsanların mədəni zövqləri birbaşa olaraq sinfi mövqe, gender və ya etnikliklə bağlıdır, yoxsa onlar bu struktur mövqelərdən asılı olmayaraq fərqlənirlər?

*Tənqidi məqamlar*

Mədəniyyətin əksər tənqidi araşdırmalarında populyar mədəniyyət ali mədəniyyətə nisbətən aşağı mövqeli kimi görülür. Populyar mədəniyyət zövq  almaq üçün böyük səy, təhsil və ya bilik tələb etmir, yüksək mədəniyyətin qavranılması isə geniş bilik və xüsusi həssaslıq tələb edir. Lakin yüksək mədəniyyətin legitimliyi "daha yaxşı insanlar" və daha sivilləşmiş cəmiyyət yetişdirdiyinə görə səylərin xüsusi dəyərə malik olması kimi təməl ideyaya əsaslanır. Ştayner (1983) iddia edir ki, bu ideya tamamilə saxtalaşdırılıb. İkinci Dünya müharibəsi ərzində alman orduları Avropanın ölüm düşərgələrində kütləvi qırğınlar törətdiyi zaman aramsız olaraq klassik musiqi konsertləri davam edirdi. Ştayner bildirir ki, "ali mədəniyyət sivilləşdirir" ideyasının saxta olması aşkardır.

Postmodern nəzəriyyəçilər də ali mədəniyyət və populyar mədəniyyət arasındakı fərqləndirməni lüzumsuz görürlər. Bu fərqləndirmə "üstün" və "aşağı səviyyəli" kimi anlayışlarla bağlı olmayan müxtəlif seçim və zövqlərdir. Mədəni fərqlərin azalması bəzi sosioloqlar tərəfindən azadedici amil kimi qavranıldı, belə ki, ilk

dəfə olaraq sosiologiyada populyar mədəniyyətin ciddi tədqiqinə imkan yarandı. Son dövrlərdə Ledi Qaqa, Devid Bekhem və televiziya seriallarında məhdudiyyətli insanların reprezentasiyasının mədəni əhəmiyyəti təhlil olunmuşdur. Digər sosioloqlar isə Burdyönun fikrinə uyğun olaraq, hesab edirlər ki, mədəni zövqün real testi onun həyat şanslarına necə təsir etməsidir.

*Aktuallığın davamı*

Mədəniyyətin tədqiqinin sosiologiyanın əsas tədqiqat sahəsinə daxil olması sosial elmlərdə 1980-ci illərdə baş verən "mədəni dönüş"ün nəticəsi idi. Bu tədqiqatların əksəriyyəti həyat tərzləri və həyat şanslarının formalaşmasında mədəni istehsal və istehlakın rolunu öyrənirdi. Mədəniyyətin tədqiqi onu göstərir ki, simvolik reprezentasiya, əyləncə və media sosial münasibətlər haqqında çox şey söyləyə bilər. Lakin mədəniyyət tədqiqatlarının son dövrlərdəki tənqidində onların əksəriyyətinin real sosial münasibətlər və insan həyatını deyil, mətn, diskurs və interpretasiyaların öyrənilməsinə üstünlük verən "dekorativ sosiologiya" olduğu qeyd edilir (Rojek and Turner 2000). Bu narahatlıq əsaslıdır və mədəniyyətin tədqiqi struktur hakimiyyət münasibətləri və mədəni institutların tarixi inkişafına diqqət yetirməlidir.

Culianotti və Robertson tərəfindən (2006) ABŞ-da "Qlazqov Reyncers" və "Seltik" azarkeşlərinin miqrant tərcrübələrinin təhlil olunması mədəniyyətlərin qlobal qarışması haqqında son dövr nəzəriyyələrinə maraqlı bir istiqamət verir. ABŞ-ın daha güclü idman mədəniyyətinə assimilyasiya olmaq əvəzinə, tədqiq olunan şotland miqrantlar əvvəlki identikliklərini, mənsubiyyət və antaqonizmlərini yeni kontekstə daxil edərək yerli idman mədəniyyətinə maraq göstərməyə çox az cəhd edirlər. Bundan əlavə, Şimali Amerika Azarkeşləri Klubları (North American Supporters' Clubs) üzvlərinin əksəriyyəti özlərini ABŞ və ya Kanada vətəndaşlığına rəğmən birmənalı olaraq "şotland" kimi görürlər. Klublar ənənəvi Şotland Börns şam yeməyi ənənəsini qoruyur, öz dialekt və ləhcələrini mühafizə edirlər. Lakin onlar üçün əsas problem Şimali Amerikanın mədəni kontekstində uşaqlarının fərqli təcrübə qazanmasını nəzərə alaraq, mədəni identikliklərinin nəsildən-nəslə ötürülməsidir.

*İstinadlar və ədəbiyyat*

Bourdieu, P. (1986) Distinction: A Social Critique of the Judgement of Taste (London: Routledge & Kegan Paul).

Featherstone, M. (2007) Consumer Culture and Postmodernism (2nd edn, London: Sage).

Giulianotti, R., and Robertson, R. (2006) 'Glocalization, Globalization and Migration: The Case of Scottish Football Supporters in North America', International Sociology, 21(2): 171–98.

Jenks, C. (1993) 'Introduction: The Analytic Bases of Cultural Reproduction Theory', in C. Jenks (ed.), Cultural Reproduction (London: Routledge), pp. 1–16.

Rojek, C., and Turner, B. S. (2000) 'Decorative Sociology: Towards a Critique of the Cultural Turn', Sociological Review, 48(4): 629–48.

Steiner, G (1983) In Bluebeard's Castle: Some Notes on the Redefinition of Culture (New Haven, CT: Yale University Press).

## Publik sfera (Public Sphere)

*İşçi tərif*

Müasir cəmiyyətlərdə bir sıra formal və qeyri-formal məkanlardan ibarət ictimai debat və diskussiya meydanıdır.

*Anlayışın mənşəyi*

Müasir demokratiyalar kütləvi media, xüsusən də qəzet, pamflet və digər nəşrlərlə birgə inkişaf edib. Real anlamda, demokratik bir mədəniyyəti mümkün edən və ruhlandıran kütləvi mediadır. Publik sfera XVII-XVIII əsrlərdə London, Paris və digər Avropa şəhərlərinin çay evləri və salonlarında meydana çıxıb. İnsanlar bu yerlərə aktual məsələləri müzakirə etmək üçün toplanırdılar. Əhalinin yalnız kiçik bir qismi bu mədəniyyətə cəlb olunsa da, belə yerlər demokratiyanın ilkin inkişafında həyati rol oynadılar, çünki bu salonlar siyasi problemləri ictimai diskussiya vasitəsilə həll etmək ideyasını meydana çıxardı.

Bu gün kütləvi media neqativ mənada qavranılır: onlar demokratik prosesləri dəyərsizləşdirir və siyasətə münasibətdə ümumi

düşmənçilik mövqeyi yaradır. Belə radikal dəyişiklik necə baş verdi və onu geri çevirmək olarmı? Publik sfera haqqında debatlarda mühüm şəxs alman filosofu və sosioloqu Yürgen Habermasdır. Demokratikləşmə prosesi və dil tədqiqatlarına fokuslanan Habermas Frankfurt məktəbinin mövzularını müxtəlif istiqamətdə inkişaf etdirib. O, XVIII əsrin əvvəllərindən bu günə kimi kütləvi medianın meydana çıxması və inkişafını nəzərdən keçirərək, publik sferanın yaradılması və daha sonrakı çöküşünü təhlil edib.

*Məna və interpretasiya*

Habermasa görə, ({1962}, 1989) publik sfera effektiv demokratik proses və demokratik iştirakçılıq üçün zəruri olan ümumi maraq məsələlərinin müzakirə edildiyi və fikirlərin formalaşdırıldığı ictimai debat arenasıdır. Publik sfera ən azından prinsip etibarilə bərabər olan, debat üçün bir forumda toplanan fərdləri ehtiva edir. Lakin publik sferanın erkən inkişaf dövründə ona aid ümidlər tam olaraq reallaşmadı. Müasir cəmiyyətlərdə demokratik debatlar “mədəniyyət sənayesi” tərəfindən boğulur. Kütləvi media və kütləvi əyləncənin yayılması publik sferanın zəifləməsinə səbəb oldu. İctimai fikir açıq və rasional diskussiya vasitəsilə deyil, reklamda olduğu kimi manipulyasiya və nəzarət vasitəsilə formalaşdırılır. Digər tərəfdən qlobal media avtoritar hökumətlərə təzyiq edə və onların nəzarətini azalda bilər. “Qapalı” adlandırılan bəzi cəmiyyətlər (məsələn, Çin kimi) medianın demokratiyanın dəstəklənməsində güclü bir alət olduğunu aşkar edir.

Qlobal media sürətlə kommersiallaşaraq Habermasın təsvir etdiyi kimi publik sferaya nüfuz edir və onu sarsıdır. Kommersiallaşmış media reklam gəlirinin gücünə bağlı olmaqla bərabər, yüksək reytinqlər və satışa zəmanət verən kontenti dəstəkləməyə məcburdur. Nəticədə əyləncə vətəndaşların ictimai məsələlərdə iştirakını azaltmaq və ictimai sferanı kiçiltməklə mübahisə və diskussiyalar üzərində zəfər qazanacaq. Çoxlu vədlər vermiş media artıq problemin bir hissəsinə çevrilib. Buna baxmayaraq, Habermas optimizmini saxlayaraq, konkret milli dövlətlərin hüdudlarından kənarda siyasi icmanın mümkünlüyünü göstərirdi. Burada ictimai fikir dövlət siyasətinə təsir edə, problemlər açıq müzakirə oluna bilər.

Riçard Sennet ({1977}, 2003) isə qeyd edir ki, publik və özəl sferalar həm fiziki (yaşayış sahələrinin, iş yerləri və asudə vaxt məkanlarının bir-birindən ayrılıqda inkişafı), həm də fəlsəfi (özəl həyatımızı düşünmə tərzimizlə) olaraq bir-birindən ayrılıb. Lakin o, özəl sferanın publik sferanı müəyyən bir istiqamətə yönləndirdiyini və ya onun idarə edilməsini ələ aldığını müşahidə edir. Belə ki, məsələn, siyasətçilər artıq ictimai rolu icra etmək qabiliyyətinə görə deyil, vicdan və dürüstlük kimi şəxsi xüsusiyyətlərinə əsasən mühakimə olunur. Müasir vizual media dövrünün (xüsusilə, televiziyanın) başlanğıcı şəxsiyyətlərinə aid gözləntilərə uyğun olmağa çalışan siyasətçilərin yüksək inkişaf etmiş özünüifadə formalarının meydana çıxmasına səbəb oldu. Sennet bu prosesin effektiv siyasi fəaliyyət üçün dağıdıcı olduğunu və vəzifəli şəxslərin mənəvi çöküşünü ifadə etdiyini düşünür.

*Tənqidi məqamlar*

Habermasın ideyaları ciddi tənqidlərə məruz qaldı. Onun sivil və rasional debat meydanı kimi təsvir etdiyi salon mədəniyyəti yüksək sosial siniflərlə məhdudlaşırdı və fəhlə sinfi üçün əlçatmaz idi. O, kütləvi demokratik iştirakın ehtiyaclarından uzaq elitar asudə vaxt keçirmə vasitəsi idi. Publik sfera həm də qadınlar, etnik azlıqlar və mülkiyyət sahibi olmayanları marginallaşdıraraq formalaşırdı. Mahiyyətinə görə o, məhdud olsa da, "publik sfera" anlayışı orta sinifə aid insanlara özlərini və öz rollarını qavramaq və digərlərinə universal olanın ifadəsi kimi təqdim etməyə imkan yaradırdı.

Feminist tədqiqatçılar Habermasın ictimai sferanın genderləşmiş təbiətinə kifayət qədər diqqət yetirmədiyini tənqid etdilər. İctimai sferanı özəl sferadan ayırmaqla qadınlar üçün əksər mühüm məsələlər görməzdən gəlinir. Nensi Freyzer (1992) qeyd edir ki, ictimai sfera hamıya açıqlıq anlamına gəlirsə, o, heç vaxt real olaraq "ictimai" olmayıb. Bəzi cəmiyyət üzvləri, məsələn, qadınlar şüurlu şəkildə ictimai həyatdan kənarlaşdırılıblar. Bu, onu göstərir ki, münaqişəli sosial münasibətlər ideallaşdırılmış ümumi ictimai sfera konsepsiyasını möhkəmləndirirdi. İctimai sfera konsepsiyası sosial bərabərsizliyin müxtəlif formalarını legitimləşdirməyə kömək edən bir ideologiya idi. Habermasın çağdaş kütləvi medianın ictimai sfe-

ra üçün dağıdıcı olması fikri də yanlış yönləndirici görünür, çünki bu gün media müxtəlif formalı ictimai məsələləri gündəmə gətirməklə və cəmiyyətdə daha çox diskussiyanı təşviq etməklə çoxlu sayda ictimai debatı mümkün edir. İnternet özünün saysız-hesabsız forumları, "söhbət otaqları", bloqları ilə ictimai sferanın daralmadığını, əksinə genişləndiyini göstərən bu tendensiyanın ən son nümunələrindən biridir.

*Aktuallığın davamı*

Habermasın ideyaları çoxsaylı debatlara gətirib çıxarıb, hazırda isə müəyyən qədər öz mövqelərini itirib. Buna səbəb həm kütləvi medianı cəmiyyətdə pozitiv bir qüvvə olaraq müdafiə edənlərin, həm də Habermasın yanaşmasında kütləvi publik sferaya münasibətdə qorxu və inamsızlıq müşahidə edən postmodern filosofların tənqidləridir. Bu tənqidlərdə müəyyən həqiqət vardır. Lakin Habermas hələ də inandırıcı şəkildə xatırladır ki, rasional, modernist layihə sosial nəzəriyyəyə nələrisə təklif etmək iqtidarındadır.

Kütləvi media çox zaman siyasət və mədəni həyatı adiləşdirməkdə əsas rol oynayan amil kimi təqsirləndirilib. Bu fikir sosioloqların son dövrlərdə maraq obyektlərindən biri olan "məşhurlar mədəniyyəti"nə diqqət yetirən Graham Mördokun (2010) əsərində tədqiq edilib. Mördok Britaniyanın iki aparıcı qəzetində ("The Sun" və "Daily Mirror") fotojurnalistikanın 1960-cı illərdə yüksəlişindən sonra "vizual mədəniyyətlər"də baş verən dəyişiklikləri təhlil edir və göstərir ki, səsvermə davranışının artan dəyişkənliyini nəzərə alaraq, siyasətçilər həm özlərinin, həm də partiyalarının brend identikliyinə daha çox diqqət etməklə, kütləvi bazar mətbuatının foto ilə idarə olunan dünyasında təqdim edilən obrazlara daha çox diqqət etməyə məcbur olublar.

Çin bir çox hallarda mübahisəli məsələlərin gündəmə çıxarılıb, həllini tapdığı publik sferadan məhrum bir dövlət kimi nəzərdən keçirilir. Korporatist dövlət nəzəriyyəsi isə Çinin hakim dairələrinin özlərinin lisenziya verdikləri və dövlət tənzimləməsinə tabe olmaq şərtilə sosial qrupların və təşkilatların yaradılmasına icazə verməyə hazır olduğunu vurğulayır. Lakin Nu çayı üzərində su elektrik stansiyasının tikilməsi ətrafında mediada başlayan ictimai

polemikalar Çin hökumətinin bu layihəni dayandırması ilə nəticələndi. Yanq və Kalhun (2007) bu hadisəni Çində spesifik "yaşıl" ictimai sferanın meydana çıxması nöqteyi-nəzərindən müzakirə edirlər. İnkişaf edən bu ictimai sfera üç əsas elementdən ibarətdir: "yaşıl nitq" və ya ekoloji diskurs, "yaşıl nitqi" istehsal və istehlak edən qruplar, əsasən də qlobalist QHT-lər və onu yayan media forumları. Dövlətin konvensional korporatist mövqeyini rədd etməklə bəzi müəlliflər bildirir ki, bu mövqe indiki Çində vətəndaş cəmiyyəti daxilində təşkilatların yaradıcı fəaliyyətlərinə kifayət qədər ağırlıq vermir.

*İstinadlar və ədəbiyyat*

Fraser, N. (1992) 'Rethinking the Public Sphere: A Contribution to the Critique of Actually Existing Democracy', in C. Calhoun (ed.), Habermas and the Public Sphere (Cambridge, MA: MIT Press), pp. 109–42.

Habermas, J. ([1962] 1989) The Structural Transformation of the Public Sphere (Cambridge, MA: MIT Press).

McKee, A. (2005) The Public Sphere: An Introduction (Cambridge: Cambridge University Press).

Murdock, G. F. (2010) 'Celebrity Culture and the Public Sphere: The Tabloidization of Power', in J. Gripsrud and Lennart Weibull (eds), Media, Markets and Public Spheres: European Media at the Crossroads (Bristol: Intellect Books), pp. 267–86.

Sennett, R. ([1977] 2003) The Fall of Public Man (Cambridge: Cambridge University Press).

Yang, G., and Calhoun, C. (2007) 'Media, Civil Society, and the Rise of a Green Public Sphere in China', China Information, 21(2): 211–36.

# MÖVZU 8. SAĞLAMLIQ, XƏSTƏLİK VƏ BƏDƏN

## *Biotibb* (Biomedicine)

*İşçi tərif*

Xəstəliyin obyektiv olaraq qəbul edilən fiziki simptomlara görə müəyyən edildiyi və elmi əsaslı müalicənin bədən sağlamlığının bərpa edilməsinə yönəldiyi tibbi praktikanın Qərb modelidir.

*Anlayışın mənşəyi*

Sənaye inqilabı və xəstəliyin elmi dərkindən əvvəl insanlar ailədə istifadə edilən ənənəvi dərman və müalicələrə, habelə icmada xüsusi statusu olan müxtəlif təbiblərə inanırdılar. Belə qədim müalicə növləri indi qalmaqda davam etsə də, inkişaf etmiş ölkələrdə onlar "əlavə terapiya" və ya "alternativ tibb" adı altında qeyd edilir. "Alternativ" olmanın səbəbi iki yüz ildən çox müddət ərzində səhiyyə sahəsində biotibbi ideyaların xas olduğu Qərb modelinin dominantlığıdır. Biotibbin yüksəlişi onun əsaslandığı elmi metodlara paralel olaraq baş verdi və hər ikisi bütün dünyada müasir milli səhiyyə sistemlərinin əsasını formalaşdırdı. Xəstəlik pasiyentin hiss etdiyi subyektiv simptomlara görə deyil, bədəndə yerləşən obyektiv olaraq məlum "işarələrə" əsaslanaraq müəyyənləşdirilməyə başladı. Xüsusi təlim keçmiş "ekspertlər" tərəfindən həyata keçirilən formal tibbi qayğı həm fiziki, həm də psixi xəstəlikləri müalicə etməyin qəbul edilən üsulina çevrildi. Tibb həm də deviant hesab olunan davranış və halları (cinayi davranışdan homoseksuallıq və psixi pozuntulara qədər) islahetmə alətinə çevrildi.

*Məna və interpretasiya*

Sağlamlığın biotibbi modelinin bir neçə mərkəzi elementi vardır. Xəstəlik insan bədənində onu normal sağlam halından yayındıran bir pozuntu kimi nəzərdən keçirilir. Bədənin sağlamlığını bərpa etmək üçün xəstəliyin səbəbi təcrid olunmalı, müalicə edilməli və aradan qaldırılmalıdır. Biotibb bədən və mental vəziyyət-

lərlə ayrı-ayrılıqda işləyir. Ona görə də pasiyent diaqnoz üçün müraciət etdikdə, ona tam fərd kimi deyil, "xəstə bədən" kimi yanaşılır. Əsas fokus pasiyentin şəxsi xüsusiyyətlərindən təcrid olunaraq, onun xəstəliyinin müalicəsidir. Müalicə neytral, dəyər yüklənməsindən azad şəkildə xəstənin şəxsi sənədində toplanan məlumata əsasən həyata keçirilir. Zəruri təhsil almış tibb mütəxəssisləri xəstəliyin müalicəsində yeganə ekspertlər kimi dəyərləndirilir və tibbi təhsil qəbul edilmiş etik kodekslə tənzimlənir. Burda "özü öyrənmiş" təbiblərə və "qeyri-elmi" tibbi paraktikalara yer yoxdur. Klinika ciddi xəstəliklərin müalicəsi üçün ən uyğun mühiti təmsil edir, belə ki, müalicə çox zaman texnologiyaların, dərman vasitələri və cərrahi müdaxilənin kombinasiyasına əsaslanır.

*Tənqidi məqamlar*

Son 30 ildə biotibbi model getdikcə artan müzakirə obyektinə çevrildi və bu sahədə sosioloji ədəbiyyatın böyük hissəsi tənqidi səciyyə daşıyır. Bəzi alimlərə görə, tibb elminin effektivliyi şişirdilir. Xüsusilə də, bir sıra tibb tarixçiləri iddia edir ki, müasir tibbin qazandığı şöhrətə rəğmən, əhalinin sağlamlığındakı irəliləyişlərin biotibbi modelin icrası ilə çox az əlaqəsi vardır (McKeown 1976). İctimai səhiyyədə XIX əsrin əvvəllərindən bəri müşahidə edilən köklü dəyişikliklərin böyük əksəriyyəti daha çox sosial və ekoloji dəyişikliklərlə şərtlənib. Daha effektiv sanitar-texniki sistem, daha yüksək qida standartları və rəngarəng qidalanma, kanalizasiya sisteminin yaxşılaşdırılması, sıx məskunlaşma olan şəhərlərdə gigiyena praktikalarının təkmilləşdirilməsi – bütün bunlar, Makkivnin fikrincə, ölüm səviyyəsinin azalmasına tibb elmindən daha çox təsir göstərmişdir. Dərman, vaksinasiya və stasionar müalicənin şübhə doğurmayan əhəmiyyətli təsiri yalnız XX əsrin ortalarından başlayaraq meydana çıxmışdır.

Hətta İvan İlliç (1975) belə bir fikir irəli sürüb ki, yatrogenez fenomeninə görə müasir tibb bəşəriyyətə xeyirdən daha çox ziyan gətirib. İlliç üç tip yatrogenezi təsvir edir - kliniki, sosial və mədəni. Kliniki yatrogenez tibbi müdaxilə nəticəsində xəstənin sağlamlığının pisləşməsi və ya yeni xəstəliklərin meydana çıxmasıdır. Sosial yatrogenez isə tibbin get-gedə yeni sahələrə yayılması, sünu ola-

raq tibbi xidmətlərə tələbatın formalaşmasıdır. İlliçə görə, sosial yatrogenez mütləq olaraq mədəni yatrogenezə gətirib çıxarır, bunun sayəsində isə gündəlik həyatın problemlərinin öhdəsindən gəlmək qabiliyyəti tibbi izah və alternativlər ucbatından zəifləyir. İlliç kimi tənqidçilərin fikrincə, müasir tibbin fəaliyyət miqyası əhəmiyyətli dərəcədə azaldılmalıdır.

Tənqidin digər perspektivi isə biotibbin müalicə etməyə çalışdığı xəstələrin fikir və təcrübələrinə əhəmiyyət verməməsidir. Biotibb obyektiv və elmi dərkə əsaslandığından pasiyentlərin fərdi interpretasiyalarını dinləmək zərurəti yoxdur. Tənqidçilər isə bildirir ki, effektiv müalicə yalnız xəstəni öz vəziyyətini adekvat dərk etməyə qadir olan, düşünən subyekt kimi qavradıqda mümkündür. Həkim və xəstə arasındakı bu maneə anlaşılmazlığa və etimadın itirilməsinə, belə sosial amillər isə yanlış diaqnoz və uyğun olaraq səhv müalicəyə səbəb ola bilər.

Nəhayət, elmə əsaslanan tibb istənilən alternativ müalicə formasından daha üstün kimi qavranılır. Lakin qədim və bəziləri yeni olan alternativ terapiya növləri son onilliklərdə üstünlük qazanmışdır. Bu gün bir çox insan homeopatiya, refleksologiya, akupunktura, xiropraktika kimi metodlardan istifadə etməyə hazırdır. Bunun səbəbləri mürəkkəbdir, lakin sosioloqlara görə, insanlar biotibbin bütün üsulları uğursuzluqla nəticələndikdə və tibb elminə inamını itirəndə və ya xəstəlik vəziyyətinin xroniki olduğu və bunun asanlıqla müalicə edilmədiyi təqdirdə alternativ tibbə meyil edirlər. Güman ki, sonuncu ən əsas səbəbdir.

Tibb sosioloqları XX əsrdə insanların üzləşdiyi xəstəlik tiplərinin dəyişməsini təsbit ediblər. Kəskin xəstəliklərdən, adətən, ömür boyu davam edən xroniki xəstəliklərə (diabet, yüksək qan təzyiqi və artrit) doğru keçid baş vermişdir. Xroniki xəstəliklər yayıldıqca, ümumiləşdikcə, tibb gücsüz görünür və biotibbi model uyğunluğunu itirir. Xroniki xəstəliklər müalicədən daha çox idarə olunmasını tələb edir, xəstənin özü isə sağlamlıq vəziyyətinə nəzarəti digərlərindən, o cümlədən ekspertlərdən daha yaxşı bilir. Xəstənin fikri və təcrübəsi müalicə rejiminin həlledici amilinə çevrildikcə, onun özü isə yalnız fiziki sağlamlığı deyil, ümumi rifahı xü-

susi əhəmiyyət qazanan, fəal və "tam" varlıq kimi qavranıldıqca həkim-xəstə münasibətlərində dəyişiklik meyilləri yaranır.

*Aktuallığın davamı*

Biotibb son onilliklərdə zəifləmək bilməyən kəskin tənqidlə üzləşmişdir. Lakin onun bütün dünyada səhiyyə sistemləri üçün dominant model olaraq qaldığını, peyvəndlərin isə həyat üçün təhlükəli xəstəliklərin (poliomelit, vərəm) və uşaq ölümlərinin səviyyəsini endirməsini, çoxsaylı insan həyatını xilas etməsini yadda saxlamalıyıq. 2009-cu ildə donuz qripi və 1980-ci illərdə HİV-QİÇS virusunun sürətlə yayılması zamanı insanlar əvvəlki kimi effektiv müalicə üçün tibb elminə müraciət edirdilər. Bu isə güman ki, biotibbin digər müalicə formalarından üstünlüyünün qəbul edilməsidir.

Bununla bərabər, hazırda xroniki xəstəliklər, əlilliyin daha geniş yayılması və siyasi əhəmiyyətli olması qəbul edilir. Sağlamlıq və xəstəliyin sosiologiyası isə öz aktuallığını saxlamaq üçün əlillik tədqiqatlarını ehtiva etməlidir. Skamblerlərin redaktəsi ilə nəşr edilmiş məcmuədə (2010) bu sahənin innovativ tədqiqatları bir yerə toplanılıb. Onlar xroniki xəstəlik və əlilliyin "həyat dünyası üzərinə hücumlar"a bərabər olması ideyasını dəstəkləyirlər. Belə yanaşma bioloji, psixoloji və sosioloji olanın mürəkkəb qarşılıqlı münasibətinin düzgün dərk olunmasını tələb edir. Bu isə həm xroniki xəstəliklərin, həm də əlilliyin doğru anlaşılmasına imkan yaradır.

Alternativ tibbin yüksəlişi dominant səhiyyə sisteminə daimi çağırışdır. Alternativ terapiya üsullarına biotibb sistemində icazə verilməli, yoxsa onlar kənar saxlanılmalıdır? Bu iki sistem arasındakı əlaqələr Mizraçi və həmkarları tərəfindən (2005) İsrail xəstəxanasında biotibbi praktiklər və alternativ terapevtlərin (xüsusilə, akupunktura mütəxəssisləri) birgə işi əsasında öyrənilmişdir. Alternativ terapevtlər "qalanı fəth etməyə" qadir olsa da, iki sistem arasındakı sərhədləri dəyişə bilməyiblər. Biotibb peşəkarları gərginliyin artmasından qaçaraq, eyni zamanda potensial rəqibləri neytrallaşdırmaq üçün formal yuxarıdan-aşağıya doğru siyasət əvəzinə, "iş yerində sərhədlər" strategiyasından istifadə edirlər. Bir sıra incə metodlardan istifadə edərək, biotibb peşəkarları alternativ tibb

praktiklərinə nəzarət etməyə qadir olsalar da, həm də onları müəyyən legitimliklə təmin ediblər.

*İstinadlar və ədəbiyyat*

Illich, I. (1975) *Medical Nemesis: The Expropriation of Health* (London: Calder & Boyars).

McKeown, T. (1976) *The Role of Medicine: Dream, Mirage or Nemesis?* (Oxford: Blackwell).

Mizrachi, N., Shuval, J. T., and Gross, S. (2005) 'Boundary at Work: Alternative Medicine in Biomedical Settings', *Sociology of Health and Illness*, 27(1): 20–43.

Nettleton, S. (2013) *The Sociology of Health and Illness* (3rd edn, Cambridge: Polity), esp. chapter 1.

Scambler, G., and Scambler, S. (eds) (2010) *New Directions in the Sociology of Chronic and Disabling Conditions: Assaults on the Lifeworld* (Basingstoke: Palgrave Macmillan).

## Əlilliyin sosial modeli (Social Model of Disability)

*İşçi tərif*

Əlilliklə bağlı əlverişsiz vəziyyətin səbəbini ayrıca fərdlə deyil, cəmiyyət və onun təşkili ilə əlaqələndirən yanaşmadır.

*Anlayışın mənşəyi*

Son vaxtlara qədər Qərb cəmiyyətlərində əlilliyin fərdiyyətçi modeli üstün idi. Bu modelə əsasən, fərdi məhdudiyyət əlil insanların iş axtarışı, hərəkətetmə və cəmiyyətdə tamhüquqlu vətəndaş olması ilə bağlı yaşanan problemlərinin əsas səbəbidir. Əlilliyin fərdi modelində fiziki məhdudiyyət müəyyən səviyyədə olan köməksizlik və funksional məhdudiyyətin səbəbi kimi nəzərdən keçirilir. Həkimlər bu modeldə mərkəzi rol oynayır, çünki əlilliyi olan insanların müalicə və reabilitasiyası üçün diaqnoz qoymaq onların işidir. Buna görə də fərdi model çox zaman "tibbi model" kimi təsvir edilir. Əlilliyin bu modeli 1970-ci illərdən etibarən meydana çıxan

məhdudiyyətli insanların hüquqları uğrunda hərəkatın aktivistləri tərəfindən tənqidə məruz qaldı.

1960-cı illərin sonunda ABŞ və Böyük Britaniyada dominant modeli rədd edən və əlilliyi tibbi məsələ olmaqdan daha çox, siyasi məsələ kimi görən alternativ yanaşma formalaşdırıldı. Beləcə, əlilliyin yeni sosial modeli meydana çıxdı. Bu modeldə fiziki qüsur və (məsələn, bir ayağın itirilməsi kimi fərdi problem) köməksizlik (mühitin belə qüsura malik insanları nəzərə almayan tərzdə təşkili ilə bağlı əlverişsiz vəziyyət) bir-birindən fərqləndirilir. Sosial model o zamandan bəri bir sıra tədqiqatlara səbəb olmaqla yanaşı, təşkilatları fiziki məhdudiyyətli insanların tələbatlarını təmin etməyə sövq edən hüquq bərabərliyi haqqında qanunlara güclü təsir etdi. Lakin son illərdə sosial modelin məhdudiyyətli insanların real təcrübəsini nəzərə almaq üçün təkmilləşdirilməsinin zəruriliyinə dair tənqidlər vardır.

*Məna və interpretasiya*

Birləşmiş Krallıqda "Fiziki Qüsurlu İnsanların Seqreqasiyaya qarşı İttifaqı"nın (Union of Physically İmpaired against Segregation) 1976-cı ildə elan etdiyi manifestində əlilliyin qüsur və köməksizliyin bir-birindən ayrılmasına əsaslanan radikal tərifi qəbul edildi. İttifaq fiziki qüsuru fərdlərin biotibbi xüsusiyyəti olaraq qəbul edərək, onu qeyri-fiziki, sensor və intellektual formalardan fərqli şəkildə təyin etdi. Əlillik artıq fərdlərin problemi olaraq deyil, əlilliyi olan insanların cəmiyyətdə tam şəkildə iştirakı zamanı üzləşdikləri sosial maneələr kimi nəzərdən keçirilirdi. Buna görə də, əlillik tamhüquqlu vətəndaşlığın inkar olunması və diskriminasiya forması kimi anlaşıldı.

Əlilliyin fərdi və sosial modelləri arasında fərqlilikləri aşkara çıxaran ilk nəzəriyyəçi Mayk Oliver (1983) oldu. Sosial model çox tezliklə aktivizm və akademik tədqiqatların diqqət mərkəzinə çevrildi. Sosial model əlilliyi olan insanlara qarşı sosial, mədəni və tarixi maneələrin niyə ortaya çıxmasının səbəbləri haqqında ardıcıl izahı təmin etdi. Tarixən əlilliyi olan insanların cəmiyyətdə tamhüquqlu iştirakına qarşı xüsusən Sənaye İnqilabı dövründə maneələr yaradılmışdı. Kapitalist fabriklərində əmək fərdi məvacibli iş üzə-

rində qurulmağa başladıqda əlilliyi olanlar əmək bazarından uzaqlaşdırılırdı. Əksər əlilliyi olan insanlar öz iş yerlərini saxlamağa qadir deyildilər, dövlətin cavabı isə radikal çəkindirmə və əlilliyin institutlaşdırılması idi. Hətta bu gün də əlilliyi olan insanların iş yerində iştirakı çox aşağı olaraq qalır.

Sosial model əlillik haqqında düşünmə tərzimizin formalaşdırılmasında son dərəcədə təsirli olub. Birləşmiş Krallıqda meydana çıxsa da, sosial model qlobal təsir gücü qazanıb. Tamhüquqlu iştirak üçün sosial maneələrin aradan qaldırılmasına diqqət yetirməklə o, əlilliyi olan insanlara siyasi strategiya üzərində fokuslanmağa imkan verdi. Bu, bəzilərinin əlil insanların sosial modeli qəbul etməklə “yeni sosial hərəkat” formalaşdırması fikri ilə çıxış etməsinə gətirib çıxardı. “Qüsurluluğu” əlilliyin əsas səbəbi hesab edən fərdi modeli əvəz edən sosial model onu sıxışdırmanın nəticəsi kimi nəzərdən keçirərək əlilliyi olan əksər insanlar tərəfindən “azadedici” olaraq görülür.

*Tənqidi məqamlar*

1980-ci illərdən bəri sosial modellə bağlı müxtəlif istiqamətli təndiqlər irəli sürülüb. Bəziləri güman edir ki, bu model əlilliyi olan əksər insanların həyatında mühüm rolu olan, ağrı və narahatlıq verən fiziki qüsur təcrübəsinə çox zaman diqqət yetirmir. Şekspir və Votson (2002) qeyd edir: “Biz sadəcə olaraq məhdudiyyətli insanlar deyilik, biz həm də fiziki qüsurlu insanlarıq və bunu gözməzdən gəlmək tərcümeyi-halımızın əsas hissəsinə məhəl qoymamaq deməkdir”. Buna qarşı sosial modeli dəstəkləyənlər bildirirlər ki, sosial model gündəlik təcrübələri inkar etməkdən daha çox, cəmiyyətdə tamhüquqlu iştirakın qarşısını alan sosial maneələrə diqqət yetirir.

Sosial modeli inkar edən tibbi sosioloqlar qüsur və əlillik arasındakı fərqləndirmənin yanlış olduğunu iddia edirlər. Bu tənqidçilərin fikrincə, sosial model biotibbi olaraq müəyyən edilən qüsuru sosial olaraq müəyyənləşən əlillikdən ayırır. Tibbi sosioloqlar həm əlilliyi, həm də qüsurluluğu sosial olaraq strukturlaşmış və bir-birilə sıx əlaqəli olaraq görürlər. Məsələn, birinin harada sona çatdığı, digərinin isə harada başladığını müəyyən etmək elə də asan

deyil. Uyğunsuz pandusların inşası əlil arabası istifadəçiləri üçün sosial olaraq konstruktlaşdırılmış sədd yaradır. Lakin bir sıra hallar var ki, məhdudiyyətli insanların bütün köməksizlik mənbələrini aradan qaldırmaq mümkün olmur. Digər tənqidçilər isə iddia edirlər ki, daimi ağrı və ya ciddi intellektual məhdudiyyətlə bağlı hallar fərdin cəmiyyətdə tamhüquqlu iştirakının qarşısını alır və bunu da sosial dəyişikliklər vasitəsilə aradan qaldırmaq mümkün deyildir. Buna görə də, əlilliyə hərtərəfli yanaşma yalnız cəmiyyəti deyil, fiziki qüsurları da nəzərə almalıdır.

*Aktuallığın davamı*

Sosial model həm əlilliyin akademik tədqiqində, həm də əlilliyi olan insanların cəmiyyətlə siyasi münasibətlərində radikal addım idi. Qeyd edilən tənqidlərə rəğmən, ona qarşı gələcək hər hansı alternativlər görünmür. Sosial model "əlillik" anlayışının özünü transformasiya edib. Əlillik sosiologiyası yalnız bu anlayışın meydana çıxmasından sonra mümkün olub. Sosial model hər şeydən əvvəl əlilliyin yalnız peşəkar tibb işçilərinin ixtiyarına verilməli olmadığını və onun sosial elmlər çərçivəsində tədqiqinə ehtiyac olduğunu göstərib.

Sosial model yanaşması Çində internet istifadəsi zamanı meydana çıxan bəzi sosial maneələri təhlil etmək üçün Quo və onun həmkarları (2005) tərəfindən tətbiq edilib. Çinin 25 əyalətində 122 respondent arasında aparılan sorğu məhdudiyyətli insanların çox az hissəsinin internet istifadəçisi olduğunu üzə çıxardı. Lakin məhz onlar üçün internet sosial interaksiyaların tezliyi və keyfiyyətini artırır, real dünyada olandan daha çox insanla əlaqə saxlamaq imkanı verərək, sosial maneələri aradan qaldırırdı. Bununla bərabər, tədqiqat Çində məhdudiyyətli insan qrupunun daxilində aydın rəqəmsal bölgünün olduğunu göstərdi. Onların çoxunun internetə çıxışı yoxdur. Sosial modelə görə, bu problemin həll yolları mövcud sosial həyatın yenidən təşkili və sosial siyasətlərin yenidən formalaşdırılması ilə bağlıdır.

*İstinadlar və ədəbiyyat*

Barnes, C., and Mercer, G. (2008) Disability (Cambridge: Polity),

esp. chapters 1 and 2.

Gabel, S., and Peters, S. (2004) 'Presage of a Paradigm Shift? Beyond the Social Model of Disability toward Resistance
heories of Disability', Disability and Society, 19(6): 585–600.

Guo, B., Bricout, J., and Huang, J. (2005) 'A Common Open Space or a Digital Divide? A Social Model Perspective on the Online Disability Community in China', Disability and Society, 20(1): 49–66.

Oliver, M. (1983) Social Work with Disabled People (Basingstoke: Macmillan).

Sapey, B. (2004) 'Disability and Social Exclusion in the Information Society', in J. Swain et al. (eds), Disabling Barriers – Enabling Environments (London: Sage), pp.273–9.

Shakespeare, T., and Watson, N. (2002) 'The Social Model of Disability: An Outdated Ideology?', Research in Social Science and Disability, 2: 9–28.

## Xəstə rolu (Sick Role)

*İşçi tərif*

Xəstəlik və xəstə insanın davranışına (hansı ki, ondan kənara çıxdıqda sanksiya və sosial stiqmalara gətirib çıxara bilir) münasibətdə sosial gözləntiləri izah etmək üçün Talkott Parsons tərəfindən irəli sürülmüş anlayışdır.

*Anlayışın mənşəyi*

İnsanlar xəstə olduqları zaman onları müayinə edən, diaqnoz qoyan və sağlamlığı geri qaytarmaq üçün müalicə kursu yazan tibbi peşəkarlardan məsləhət almağa çalışırlar. Bu, öz-özünə aydın və bəsit proses kimi görünsə də, amerikan sosioloqu Talkott Parsons üçün belə deyildir. Sağlamlıq və xəstəlik sosiologiyanın hüdudlarından kənarda olan sadə fenomenlər təəssüratı yaratsa da, standart sosioloji anlayışlardan istifadə etməklə onlara sosial fenomenlər kimi yanaşmaq lazımdır (1952). Parsonsa görə, insanlar xəstə olduqları zaman sosial cəhətdən təqdir edilən tərzdə davranırlar. Onlar bu tərzdən kənarlaşdıqda isə "xəstə" statusunu itirə bilərlər. O, həmçinin bizim xəstəliyimiz və sağlamlığa qayıdışımızı sanksiyalaşdıran

müəyyən nəzarətçilərin mövcud olduğunu qeyd edirdi. 1970-1980-ci illərdə sosiologiyada ümumi funksionalizmlə birlikdə "xəstə rolu" anlayışı əhəmiyyətini itirsə də, onu müxtəlif cəmiyyətlərdə xəstəliklərin müqayisəli tədqiqində istifadə üçün yenidən canlandırmağa müəyyən dərəcədə maraq var idi.

*Məna və interpretasiya*

Sosioloqlara görə, insanlar sadəcə fərdi olaraq xəstə deyillər, onlar xəstə olan zaman cəmiyyətin onlardan nə gözlədiyini də öyrənməlidirlər. Parsons qeyd edirdi ki, xəstə rolu mövcuddur, cəmiyyət fərdlərə bu rolu necə ifa etməli olduğunu təlqin edir. Bu isə öz növbəsində xəstəliyin sosial institutların normal işinə təsirini minimallaşdırmaq üçündür. Əksər hallarda xəstə olduğumuz zaman işə getmək, gündəlik ev işlərini icra etmək, ailədəki ənənəvi rollarımızı yerinə yetirməyə davam etmək qeyri-mümkün olur. Nəticədə, xəstəliyimiz iş həmkarları, ailə üzvləri və dostlarımıza təsir edir. Cəmiyyətdə tam olaraq iştirak edə bilməməyimiz xəstəliyin təsirlərini dalğavari olaraq digərlərinə də yayır. Buna görə də, xəstə rolu xəstə insanlardan nəyi gözləməli olduğumuzun və onların necə davranmalı olduğunun formalaşma yoludur. Parsonsa görə, insan necə xəstə olmağı öyrənməlidir, yəni xəstə olduğu zaman ondan nə gözlənildiyini başa düşməli və xəstələndikdə bu biliyi tətbiq etməlidir. İnsanlar xəstələndiklərinə görə şəxsi məsuliyyət daşımırlar. Onları buna görə qınamaq olmaz. Tibb elmi xəstəliyi fərdin davranış və fəaliyyətilə əlaqəsiz, fərdi nəzarət dairəsindən kənarda fiziki səbəblərin nəticəsi kimi meydana çıxdığını hesab edir. İkincisi, xəstə rolu insanlara işdən və evdəki vəzifələrdən uzaqlaşma daxil olmaqla müəyyən hüquq və imtiyazlar verir. Üçüncüsü, xəstə insan tibbi ekspertlə məsləhətləşmək və xəstə olduğunu qəbul etməklə sağlamlığını geri qaytarmağa çalışmalıdır. Bu, həlledici məqamdır. Xəstə rolu müvəqqəti və şərtidir, xəstənin sağalmaq üçün fəal olaraq çalışmasını nəzərdə tutur. Xəstə rolunu qazanmaq üçün fərd onun xəstəlik iddiasını legitimləşdirən tibbi peşəkarın təsdiqini qəbul etməlidir. Xəstədən "həkim təlimatları"na əməl etməklə öz sağlamlığı üçün əməkdaşlıq etməsi gözlənilir, lakin onlar əməkdaşlıqdan imtina etdikdə xəstə statusunu itirmək təhlükəsi yaranır.

Şərti, qeyri-şərti və qeyri-legitim xəstə rollarını müəyyən edən Freydson (1970) üçqat fərqləndirmə ilə çıxış edir. Şərti legitim xəstə rolu xəstə olanlar, amma tezliklə sağalacağı gözlənilənlər tərəfindən icra edilən qısamüddətli roldur. Qeyri-şərti legitim rol isə idarə olunması tələb edilən, amma tamamilə aradan qalxacağı ehtimal edilməyən xroniki xəstəliklər zamanı tətbiq edilir. Nəticədə, xəstə rolunun daimi olması gözlənilir və xəstə sağalmasa, heç bir stiqma, yaxud sanksiyalar tətbiq edilmir. İnsanlar özlərinin məsuliyyət daşıdığı güman edilən şərtlərdən əziyyət çəkdikləri zaman qeyri-legitim xəstə rolu meydana çıxır. Alkoqolizm, piylənmə və siqaret çəkmə ilə bağlı olan xəstəliklər insanlara şübhə ilə yanaşma və onların stiqmatizasiyasının mövcud nümunələridir. Freydsonun tipologiyası insan qrupları xəstə olan zaman onlara qarşı münasibətin müxtəlif tərzlərinin səbəblərini aydınlaşdırmağa kömək edir.

*Tənqidi məqamlar*

Xəstəliyi cəmiyyətin institusional strukturu ilə əlaqələndirən Parsonsun xəstə rolu haqqında tezisi çox nüfuzlu idi. Lakin funksionalizmin qürubu ilə bərabər onun xəstə rolu tezisi də öz mövqeyini itirdi. Nəzərdən qaçırılan element real “xəstə olma” təcrübəsidir. İnsan kəskin və xroniki xəstəliyi necə yaşayır və bu, onun özünüidentifikasiyasına necə təsir edir? Bu sadə sual tibbi sosiologiyada Parsonsun ideyalarına az diqqət edən çoxsaylı yeni empirik tədqiqatların meydana çıxmasına səbəb oldu. Onun ideyalarının konsensus xarakteri daşıması bir sıra həkim-xəstə qarşılaşmalarını dəqiq təsvir etmək üçün maneə kimi nəzərdən keçirilirdi. Parsonsdan sonra aparılan empirik araşdırmalarda pasiyentin həkimlərin diaqnoz və səriştəsinə qarşı çıxması ilə bağlı bir sıra konfliktlər təsvir edilib. XX əsrin sonlarından etibarən ekspertlərə daha az hörmətin olmasını nəzərə alsaq, belə çağırışların daha aktual olduğunu güman edə bilərik. Alternativ və əlavə terapiyalardan getdikcə daha çox istifadə əksər insanların dominant biotibbi modelin çərçivəsindən kənara çıxmağa hazır olduğunu göstərir.

Xəstə rolunun özü Parsonsun modelində qeyd ediləndən daha mürəkkəb və qeyri-müəyyəndir. Simptomları olan insanlar bəzən illərlə həkimə baş çəkməkdən boyun qaçıra, diaqnozsuz və xəs-

tə rolunu oynamadan yaşaya bilərlər, lakin onların xəstə olduğu aydındır. Əlavə olaraq, xəstə rolu yanlış diaqnozları, tibbi səhvləri və həkim səhlənkarlığını nəzərə almır. Güman ki, daha ciddi məsələ əhalinin xəstələnməsinin kəskin xəstəliklərdən xroniki xəstəliklərə doğru (diabet və artrit kimi) keçid etməsidir. Çoxsaylı və müxtəlif fəsadları olan xroniki xəstəliklərdən əziyyət çəkən insanlara münasibətdə isə universal rol gözləmələri yoxdur. Ona görə də, bu gün "xəstə rolu" anlayışı daha az faydalı ola bilər.

*Aktuallığın davamı*

Parsonsun "xəstə rolu" anlayışı 1950-ci illərdə tibbi yardımı ehtiramla qəbul edənlərə nisbətən indiki insanların daha məlumatlı və refleksiv səhiyyə xidmətləri istehlakçıları olduğu dövrdə daha az faydalıdır. Lakin Törner (2009) əksər cəmiyyətlərdə xəstə rolunun inkişaf etdirildiyini, amma bunların bir-birindən fərqləndiyini qeyd edir. Məsələn, əksər Qərb cəmiyyətlərində fərdiləşmiş xəstə rolu mövcuddur, yəni həyati təhlükə olmayan xəstəliklərə görə xəstəxanada qalmaq qısamüddətli, ziyarət saatları məhdud, ziyarətçilər isə ciddi dərəcədə nəzarət altındadır. Lakin Yaponiyada daha kollektivist xəstə rolu normal hesab olunur. Xəstələr tibbi müalicə tamamlandıqdan sonra belə xəstəxanada qalmağa meyillidir və xəstəxanada qalma müddəti Qərb ölkələrinə nisbətən daha uzundur. Xəstəxana ziyarətləri də daha çox qeyri-formaldır, ailə və dostlar burada uzun müddət qala və birlikdə yemək yeyə bilər. Törner xəstə rollarının belə müqayisəli tədqiqatları sayəsində sağlamlığın sosial əsasları haqqında bir sıra məsələlərin öyrənilməsinin mümkünlüyünü qeyd edir. Xəstə rolu sadə və öz-özünə aydın görünə bilər, lakin Qlenton (2003) bildirir ki, əksər insanlar ona nail olmaq üçün mübarizə aparır və hətta bunu edə bilmədikdə həkimlərdən daha çox asılı olurlar. Bel ağrısından əziyyət çəkənlər haqqında tədqiqatında əksər xəstələr həkimlərin onlara inanmadığından, ipoxondrik, yalandan özünü xəstə göstərən və ya psixi xəstə kimi görünməkdən qorxduqlarını bildirirlər. Onların "xəstə" statusu xəstəliyin tibbi diaqnostikası üçün adekvat təsəvvür probleminə görə qeyri-legitimləşdirilir. Qlenton bunu xəstə rolunu qazanmaq yolunda uğursuzluq kimi şərh edir. Beləliklə, bu, onu göstərir ki, Parsonsun verdiyi təs-

vir xəstə və həkimlər üzərində əhəmiyyətini indiyədək qorumaqdadır və buna zidd ümumi fərziyyələrə rəğmən, xroniki xəstəliklər də onun ilkin tezisindən kənarda deyildir.

*İstinadlar və ədəbiyyat*

Freidson, E. (1970) Profession of Medicine: A Study of the Sociology of Applied Knowledge (New York: Dodd, Mead).

Glenton, C. (2003) ‘Chronic Back Pain Sufferers: Striving for the Sick Role’, Social Science and Medicine, 57(11): 2243–52.

Parsons, T. (1952) The Social System (London: Tavistock).

Shilling, C. (2002) ‘Culture, the “Sick Role” and the Consumption of Health’, British Journal of Sociology, 53(4): 621–38.

Turner, B. S. (1995) Medical Power and Social Knowledge (2nd edn, London: Sage), esp. chapter 3.

White, K. (2009) An Introduction to the Sociology of Health and Illness (London: Sage), esp. chapter 6.

## ***Medikalizasiya* (Medicalisation)**

*İşçi tərif*

Həyat üslubu məsələlərinin (bədən çəkisi, siqaret çəkmə, cinsi təcrübələr) ekspertlərin müdaxiləsini tələb edən tibbi problemlərə transformasiya edilməsi prosesidir.

*Anlayışın mənşəyi*

“Medikalizasiya” anlayışı 1960-70-ci illərdə tibb ixtisasının genişlənməsinin güman edilən təhlükələrilə bağlı tənqidlər çərçivəsində formalaşdırılıb. İvan İlliç, İrvinq Zola, Ronald Leynq, Tomas Sas və Mişel Fuko tibb sistemini pasiyentlərin səhiyyə işçilərinin nəzarəti altına düşdüyü sosial nəzarət forması kimi görürdülər. Məsələn, Sas psixiatriyanın genişlənən ekspertizasını tənqid edərək, “psixi xəstəlik” adlandırılan əksər halların sadəcə “həyat problemləri” olduğunu bildirirdi. Bəzi davranış formalarını çətin həyat şərtlərinə adaptasiya kimi səciyyələndirmək daha yaxşı olardı, lakin onlar medikalizasiyaya məruz qalmışdır. Nəticədə daha çox insan onları qapalı nəzarətdə saxlamaq hökmünə malik ekspertlərin idarə

etməsi və müşahidəsi altına düşüb. 1970-ci illərdən bəri "medikalizasiya" anlayışı sağlamlıq və xəstəlik sosiologiyası üzrə əsas tədqiqatlar sahəsinə daxil oldu.

*Məna və interpretasiya*

Biotibb modelinə tənqidi yanaşan sosioloqlara görə, tibbi personal əsassız, hətta təhlükəli kimi qavranılan hakimiyyət mövqeyinə sahibdir. Bu hakimiyyətin cəhətlərindən biri onun xəstəlik və sağlamlığı nəyin təşkil edib-etmədiyini dəqiq müəyyən etmək qabiliyyətidir. Buna görə də həkimlər "tibbi həqiqət"in arbitrləridir, onların baxışları hökumətlər və ictimaiyyət tərəfindən ciddi qəbul edilməlidir. Lakin müasir tibbin daha kəskin tənqidi onun getdikcə daha çox həyat sahələrinə daxilolma üsulu, əvvəllər özəl və ya gündəlik həyat tərzinin hissəsi kimi qavranılan həyat sahələrinə toxunmasına yönəlib. Bu uzunmüddətli proses "medikalizasiya" adını alıb.

Feminist sosiologiya qadın həyatının hamiləlik və uşaq dünyaya gətirmək kimi aspektlərinin nə dərəcədə medikalizasiyaya uğradığını və müasir tibbə tabe edildiyini göstərib. İnkişaf etmiş ölkələrdə doğuş prosesi əsasən kişi həkimlərin rəhbərliyi ilə xəstəxanalarda baş verir. Ümumi və təbii bir fenomen olan hamiləlik risklər və təhlükələrlə dolu xəstəliyin analoquna çevrilib, ona görə də bu proses ultrasəs müayinəsi və digər müayinə üsulları kimi yeni texnologiyalar vasitəsilə daim nəzarət altında olmalıdır. Bu, səmərəli görünə bilər, çünki tibb körpələr və anaların əksəriyyətinin doğuşdan sağ çıxmasını təmin etməklə körpə ölümünün səviyyəsini azaltmağa kömək edir. Lakin feministlər bunu məsələnin bir tərəfi kimi görür. Qadınlar həyatlarının mühüm hissəsi olan övlad dünyaya gətirmək prosesi üzərində nəzarəti itirmiş, onların fikir və biliyi yeni ekspertlər tərəfindən uyğunsuz olaraq müəyyən edilmişdir.

Medikalizasiya ilə bağlı analoji narahatlıq, güman ki, normal hal olan kiçik yaşlı uşaqların hiperaktivliyi, kədər və ya yüngül depressiya (hansı ki, əsasən "prozak" kimi preparatlarla tənzimlənir), sonradan xroniki yorğunluq sindromu kimi müəyyənləşdirilən daimi yorğunluğa aid də söylənilir. Belə medikalizasiya epizodları ilə bağlı problem ondadır ki, tibbi diaqnoz qoyulan kimi, müalicə

də tibbi xarakterli olmalı və ciddi yan təsirləri olan preparatlarla həyata keçməlidir.

İ.İlliç təkid edirdi ki, müasir tibbin ekspansiyası yatrogenezə (tibbi müdaxilə ilə şərtlənən xəstəliklər) görə xeyirdən çox ziyan gətirir. İlliçə görə, onlardan biri sosial yatrogenez və ya medikalizasiyadır ki, tibbi xidmətlərə sünu tələbat yaradır. Medikalizasiya artdıqca, insanlar öz sağlamlıqlarına nəzarət etmək qabiliyyətini itirərək, həkimlərdən daha çox asılı olmağa başlayırlar. Bu asılılıq səhiyyə xidmətlərinə tələbatı artırmaqla yanaşı, bir qapalı tsikldə digər xidmətlər hesabına tibbi xidmətlərin genişlənməsinə səbəb olur. İlliçə görə, bunu dəyişməyin yolu cəmiyyətdə həkimlərin hakimiyyətinə meydan oxumaqdır.

*Tənqidi məqamlar*

Medikalizasiyanın tənqidçiləri bu fenomeni həddən artıq şişirdirlər. Tibbin yeni sferalara ekspansiyası ilə bağlı bəzi problemlər var, lakin medikalizasiyanın gətirdiyi böyük faydalar da mövcuddur. Doğuş prosesinin xəstəxanalara ötürülməsi, çox güman ki, bəzi yerli "ekspertləri" neytrallaşdırır. Lakin onun əsas üstünlüyü budur ki, körpələrin mütləq əksəriyyəti, hətta vaxtından öncə doğulanlar da bir qayda olaraq sağ qalır. Müasir tibbəqədərki dövrdə uşaqların necə doğulmasının təsviri indi dəhşətli hekayələr kimi oxunur, belə vəziyyətdə körpə və ana ölümü adi hal idi. Heç kəs uşaqların xəstəxanada dünyaya göz açmasının həqiqətən bir nailiyyət olduğunu inkar etməyəcək. Analoji olaraq medikalizasiya müəyyən xəstəlikləri olan insanları ciddi diqqət və müvafiq yardımla təmin edir. Xroniki yorğunluq sindromundan əziyyət çəkənlər çox zaman yalandan özünü xəstə göstərənlər kimi nəzərdən keçirilirdi, onlar ciddi qəbul olunmaq üçün mübarizə aparmalı olurdular. Diqqət çatışmazlığı sindromu (DÇS) və hiperaktivliyi olan uşaqlar onların vəziyyəti ciddi tibbi problem kimi müəyyən olunana qədər sadəcə dəcəl hesab olunurdular. Medikalizasiya bəzi sosial nəzəriyyəçilərin inandığı qədər zərərli və təhlükəli olmaya bilər.

*Aktuallığın davamı*

Medikalizasiya tezisi bir sıra sosioloji tədqiqatlarda mühüm tənqid hədəfi olub və son zamanlar biotibbin hökmranlığını sorğulamaq cəhdləri bu tənqidlərin uyğun auditoriya tapdığını ortaya çıxarır. Lakin biz tənqidi azaltmalı və qəbul etməliyik ki, müasir səhiyyə sistemləri dəyişikliklərə (məsələn, daha az invaziv əlavə terapiya formaları daxil etməklə) qadirdir. Bir vaxtlar biotibb və səhiyyədə radikal, və ya həqiqətən də ekssentrik və marginal yanaşma olaraq qəbul edilən məsələlər XXI əsrdə çox sürətlə sağlamlıq və səhiyyə üzərində hakim interpretasiyaların bir hissəsinə çevrildi.

Piylənmə problemi milli səhiyyə sistemlərinin öhdəsindən gələ bilməyəcəyi qlobal tibbi problem olaraq nəzərdən keçirilir. Vrey və Diri (2008) bədən ölçüsünün genderləşmiş tibbi baxışa necə tabe olmasını və bunun qadınların bədəni və özünüqiymətləndirməsi üçün hansı nəticələrə gətirdiyini öyrəniblər. Böyük bədən ölçüsü daha çox mənəvi çatışmazlıqlar və yersiz olaraq öz istəklərinə bəraət qazandırma simvolu olaraq başa düşülür. Müəlliflər iddia edir ki, bu qeyri-legitim əlaqə qadınların bərabər səhiyyə hüquqları dərkini sarsıtmaqla yanaşı, onların özümlülük hissinin zədələnməsinə səbəb olur.

Yuxunun medikalizasiya ilə əlaqəsi nədir? Yuxusuzluq və xoruldama problemləri ilə bağlı qəzet xəbərlərinin tədqiqi yuxunun da, güman ki, həyatın medikalizasiyaya məruz qalmış hissəsi olduğunu ortaya çıxarır (Williams və colleagues 2008). Müəlliflər göstərirlər ki, bir-birilə bağlı və oxşar iki məsələyə – yuxusuzluq və xoruldamaya – yuxu problemləri haqqında media xəbərlərində müxtəlif formada yanaşılır. Yuxusuzluq öz-özlüyündə xəstəlik kimi deyil, simptom kimi təsvir olunur. Bu simptom şəxsi vərdişlərlə əlaqələndirilir, qəzetlərdə empatik tərzdə davranış dəyişiklikləri təklif edilir, dərman və xüsusi müalicə isə "son dayanacaq" kimi nəzərdən keçirilir. Əksinə, xoruldama başqalarına da mənfi təsir edən, passiv siqaret çəkməyə yaxın, ciddi tibbi problem yarada biləcək hal (məsələn, yuxuda tənəffüs dayanması) kimi dərk edilir. Beləliklə, yalnız tibbi ekspertlər deyil, jurnalistlər də medikalizasiyaya səbəb olan sosial proseslərdə mühüm rol oynayırlar.

*İstinadlar və ədəbiyyat*

Nye, R. A. (1995) ‘The Evolution of the Concept of Medicalization in the Late Twentieth Century’, Journal of the History of the Behavioral Sciences, 39(2): 115–29.

Williams, S. J., Seale, C., Boden, S., Lowe, P. K., and Steinberg, D. L. (2008) ‘Medicalization and Beyond: The Social Construction of Insomnia and Snoring in the News’, Health, 12(2): 251–68.

Wray, S., and Deery, R. (2008) ‘The Medicalization of Body Size and Women’s Healthcare’, Health Care for Women International, 29(3): 227–43.

## ***Sosial özümlülük*** **(Social Self)**

*İşçi tərif*

Fərdi insan orqanizminin digərlərinin onun haqqında müxtəlif reaksiyalarına cavabı nəticəsində yaranan özünüdərketmə strukturudur.

*Anlayışın mənşəyi*

Hər zaman deyildiyi kimi, insan mövcud olduğunu və öləcəyini bilən yeganə varlıqdır. Sosioloji olaraq bu, insanın özünüdərketməyə malik olması deməkdir. Corc Herbert Midin (1935) özümlülüyün formalaşması konsepsiyası bu mövzuda ən nüfuzlu olmaqla bərabər, həqiqi sosioloji nəzəriyyədir. Mid özümlülüyün necə meydana çıxması və inkişafını dərk etmək üçün sosioloji perspektivin zəruriliyini qeyd edirdi. Onun ideyaları sosiologiyada simvolik interaksionizm ənənəsinin əsasını formalaşdırıb. Mid təkid edirdi ki, özümlülük formalaşdıqdan sonra düşünmək qabiliyyətinə çevrilsə də, o, öz ifadə və mövcudluğunu real insani fərddə tapır, və “ruh”, “qəlb” kimi yaxın anlayışlardan fərqli olaraq, ayrılıqda nəzərdən keçirilə bilməz.

*Məna və interpretasiya*

Midin nəzəriyyəsinin məqsədi kiçikyaşlı uşaqlarda sosial varlıq olaraq özləri haqqında təsəvvürlərin təqlid və oyun vasitəsilə

necə inkişaf etdiyini öyrənməkdir. Onların valideyn və digər uşaqları necə təqlid etdiyini müşahidə etmək olar – çay dəstgahı təşkil etmək, dibçəyin dibini qazmaq, xalçaları oyuncaq tozsoranla təmizləmək. Bu, özümlülüyün formalaşma prosesinin başlanğıcıdır. Dörd-beş yaşlarında oyunlara keçid ilə növbəti mərhələ başlayır. Oyunlarda iştirak uşaqların gördüklərini təqlid etməsindən daha çox sosial rol aspektlərini mənimsəməyə başlaması deməkdir. Mid bunu uşaqların öz rolunu digərlərinin perspektivindən görməsini tələb edən "digərinin rolunu öz üzərinə götürmək" adlandırır. Sosial özümlülük məhz bu məqamda meydana çıxmağa başlayır. Digərinin rolunu öz üzərinə almaqla və özlərini kənardan görməklə onlar digərlərindən fərqli insan olduqlarını qavrayırlar.

Midin nəzəriyyəsi ikihissəli özümlülük ideyasına əsaslanır: "Mən" ("I") və "mənə, məni" ("me"). "Mən" insan orqanizimini, özümlülüyün sosiallaşmamış elementini təmsil edir. "Məni" isə yuxarıda qeyd edildiyi kimi, təqlid və oyunla başlamaqla, sosial interaksiyalar vasitəsilə inkişaf edir. Müxtəlif oyunçularla daha təşkilatlanmış oyunlara daxil olduğu zaman, yəni 8-9 yaşlarda sosial "mənə, məni" inkişaf etməyə başlayır. Mütəşəkkil oyunları öyrənmək üçün uşaqlar oyunun qaydalarını deyil, oyunda mövcud olan digər rollarla birgə oyun daxilində öz yerlərini də başa düşməlidirlər. Özlərini kənardan görməyə başlayan uşaqlar vahid rolu qəbul etməkdən daha çox, "ümumiləşmiş rolu" mənimsəyirlər. Bununla da fərdi, orqanizmik "Mən"lə sosial olaraq yaranmış "Məni" arasında daxili dialoq vasitəsilə özünüdərketmənin inkişafı baş verir. Bizim, adətən, "düşünmək", sanki "öz-özümüzlə danışmaq" hesab etdiyimiz daxili dialoq məhz budur. "Özümlülük" hissinin inkişafı - üzərində kifayət qədər mürəkkəb şəxsi və sosial identikliklərin konstruksiya edildiyi təməldir.

*Tənqidi məqamlar*

Midin tezisinin bir tənqidi odur ki, özümlülüyün formalaşması nisbətən qeyri-problematik olaraq göstərilir. Lakin digər sosioloqlara görə, bu proses emosional təlatüm və konfliktlərlə doludur və ömürlük iz qoya bilər. Bu, xüsusən də erkən sosiallaşma dövrü - uşaqların öz gender identikliyini dərk etdikləri zaman üçün səciy-

yəvidir. Z.Freyd və davamçıları iddia edirdilər ki, özümlülüyün və gender identikliyinin formalaşmasında şüursuzluq Midin nəzəriyyəsində göstərildiyindən daha mühüm rol oynayır. Oğlan və qızların valideynləri ilə sıx əlaqələrinin qırılması prosesi onların əksəriyyəti üçün travmatik ola bilər. Hətta bu proses nisbətən daha mülayim olduğu halda belə, böyüyən oğlan uşaqlarının şəxsi münasibətləri formalaşdırmaqda çətinliklərlə üzləşməsinə səbəb ola bilər. Özümlülüyün formalaşması çətin olmaqla yanaşı, Midin tezisində mövcud olmayan bir aspektin – dərkolunmayan arzuların repressiyasını ehtiva edir. Digər sosioloqlara görə isə, Mid valideyn və övladlar arasında balanslaşdırılmayan iqtidar münasibətlərinin parçalanmış, daxili gərginlik və ziddiyyətlərlə dolu özümlülüyün formalaşmasına gətirən təsirinə toxunmur.

*Aktuallığın davamı*

Midin nəzəriyyəsi sosiologiyanın inkişafında mühüm rola malik olmuşdur. Belə ki, o, özümlülüyümüzü həqiqətən dərk etmək istəyiriksə, buna insanlar arasında interaksiya prosesindən başlamaq ideyasını vurğulayan ilk həqiqi sosioloji özümlülük nəzəriyyəsidir. Mid göstərirdi ki, özümlülük nə biologiyamızın anadangəlmə bir parçası, nə də insan beyninin inkişafının sadə nəticəsidir. Midin sübut etdiyi həm də o oldu ki, fərdi özümlülüyün tədqiqi cəmiyyətin tədqiqindən ayrı ola bilməz və sosioloji yanaşma tələb edir.

Özümüzü fərdlər olaraq qavraya bilərik, bəs, intim münasibətlər daxilində fərdi özümlülüyümüzlə nə baş verir və münasibətlərin dağılması ona necə təsir edir? Bu məsələ romantik münasibətlərin sonlanması və onun insanların özümlülük konsepti və "Məni" anlayışı üzərində təsirinə diqqət yetirən bir məqalədə (Slotter and colleagues 2009) araşdırılır. "Biz", "bizim" və "bizə" sözlərinin istifadəsindən göründüyü kimi, güclü sadiqliyi ehtiva edən romantik münasibətlərdə insanların özümlülükləri bir-birinə sıx bağlanır və daha az aydın olur. Belə münasibətlərin sonu əksər hallarda mənəvi iztirab və kədərə səbəb olur, lakin fərdlər öz həyatlarını yenidən təşkil etdikcə, özümlülüyün strukturu və məzmununda dəyişikliklərə gətirib çıxara bilər. Tədqiqat onu göstərir ki, əksər insanlar ayrılıqdan sonra daxili nizamsızlıq və özünün əhəmiyyətsizliyini hiss

edir. Həm Mid, həm də Elias qeyd edirdilər ki, bizim fərdiyyət təcrübəmiz özümlülüyün mütləq olaraq interaksiya və münasibətlərdə formalaşan sosial mənşəyini təhrif edir.

Sosioloqlar son onilliklərin radikal sosial dəyişikliklərini - qloballaşma, informasiya texnologiyasının yayılması, kütləvi miqrasiya, səyahət, zaman və məkanın sıxlaşması və gender münasibətlərinin restrukturizasiyasını fəal şəkildə müzakirə edirlər. Belə dəyişikliklərin insanların özümlülüyünə əhəmiyyətli dərəcədə təsiri olacağını gözləyə bilərik. Adams (2007) makrososial dəyişikliklər və özünüidentikləşdirmə formalarının dəyişməsinə dair nəzəriyyələri bir araya gətirdi. Məsələn, bir sıra nəzəriyyəçilərə görə, sinfi identifikasiya zəiflədikcə insanların fərdi özümlülüyü qeyri-müəyyənlik və anomiya qarşısında daha da kövrəkləşir. Lakin digərləri bu dəyişikliyin yeni əlçatan azadlıqlardan faydalanmağa qadir olan daha refleksiv sosial özümlülük formaları üçün imkanlar təklif etdiyini düşünür. Adamsın tədqiqatı irimiqyaslı sosial dəyişikliklər haqqında son dövr nəzəriyyələri və onların özümlülüyün formalaşmasına təsirini aydınlaşdırmağa kömək edir.

*İstinadlar və ədəbiyyat*

Adams, M. (2007) Self and Social Change (London: Sage).

Burkitt, I. (2008) Social Selves: Theories of Self and Society (2nd edn, London: Sage).

Mead, G. H. (1934) Mind, Self and Society, ed. C. W. Morris (Chicago: University of Chicago Press).

Slotter, E. B., Gardner, W. L., and Finkel, E. J. (2009) 'Who am I Without You? The Influence of Romantic Break-Up on the Self Concept', Personality and Social Psychology Bulletin, 36(2): 147–60.

## ***Stiqma* (Stigma)**

*İşçi tərif*

Alçaldıcı, sosial cəhətdən qəbuledilməz olan, təhqir, sosial izolyasiya və ayrı-seçkiliyə gətirib çıxaran fiziki və ya sosial xarakteristikadır.

*Anlayışın mənşəyi*

Stiqma və stiqmatizasiya proseslərinin tədqiqi 1960-cı illərdən başlayaraq, əsasən simvolik interaksionizm daxilində geniş şəkildə aparılmışdır. Qofmana məxsus bəzi erkən tədqiqatlar (1963, 1990) həm stiqmatizasiyaedici proseslərin diskriminasiyaya necə səbəb olmasını, həm də stiqmatizasiyaya uğramış insanların necə reaksiya verdiklərini nəzəriləşdirib. Qofmana görə, insanların öz identikliklərini necə idarə etməsi və özümlülük hissini nə dərəcədə qorumasına qədər təsir edən stiqma növlərinin bir sıra vacib fərqləri vardır. Stiqma haqqında təsəvvürlərin başqa bir mənbəyi fiziki məhdudiyyətli insanların hərəkatıdır. Pol Hanta məxsus "Stiqma: Əlillik təcrübəsi" adlı kitab (1966) fiziki məhdudiyyətin individualist modeli üçün mühüm çağırış oldu. Hanta görə, əlil insanların problemləri fiziki çatışmazlıqdan deyil, onların sağlam insanlarla əlilliyin stiqmalaşdırılmasına səbəb olan qarşılıqlı təsirindən qaynaqlanır. Son zamanlar bu konsepsiya HİV viruslu insanların, habelə digər xəstəlikləri olan insanların vəziyyətini tədqiq etmək üçün uğurla istifadə olunur.

*Məna və interpretasiya*

Stiqmanın necə meydana çıxmasına dair ən uğurlu və sistematik yanaşma Ervinq Qofmana aiddir. Qofmanın əsərləri sosial identiklik və təcəssüm arasındakı sıx əlaqənin mükəmməl nümunəsidir. O, insan bədəninin bəzi fiziki aspektlərinin digərləri tərəfindən stiqma mənbəyi kimi kateqorizasiya olunduğu zaman problemə çevrildiyini qeyd edir. Məsələn, o, əlillərin müşahidə edilən fiziki çatışmazlıq əsasında necə stiqmatizasiya edildiyini göstərir. Bununla belə, bütün stiqma mənbələri fiziki deyil. Stiqma bioqrafik faktlar, xarakter "çatışmazlıqları" və ya şəxsi münasibətlərlə də bağlı ola bilər.

Stiqma bir çox formalar ala bilər. Gözlə görülə bilən fiziki stiqmanın gizlədilməsi qeyri-mümkün və ya çətin olur. Qofmana görə, bu, identikliyin idarə edilməsini çətinləşdirə bilər. Bu mənada biz qarşılıqlı təsir prosesində tanınan belə stiqmanı "diskreditasiya olunmuş" stiqma adlandıra bilərik. Cinayət məsuliyyətinə cəlb edilmə kimi bioqrafik stiqmanı isə digərlərindən gizlətmək asan ola bi-

lər. Belə halda biz yalnız geniş şəkildə məlum olunduğu halda stiqmatizasiyaya gətirib çıxaran "diskreditasiyaedici" stiqmadan bəhs edə bilərik. Onu idarə etmək daha asandır, amma o, daimi olaraq nəzarət altında saxlanılmalıdır. Narkotik vasitə istifadəçiləri ilə assosiasiya edilən xarakter stiqması diskreditasiyaedici ola bilər, lakin şəxs yanlış insanların əhatəsində aşkar olunarsa, bu, diskreditasiya olunmuş stiqmaya çevrilə bilər. Qofman insanların stiqmanı gizlətməli olduqlarını təklif etmir. O, yalnız real dünyada stiqmatizasiya prosesinin necə işlədiyini və insanların stiqmatizasiyaya məruz qalmaqdan qaçma strategiyalarından necə istifadə etdiklərini anlamağa çalışır.

Qofmana görə, stiqma insanın başqaları tərəfindən qəbul edilməsini tam olaraq itirdiyi dəyərsizləşdirici sosial münasibətdir. Stiqmatizasiya əksər hallarda insanın xəstələnməsi və identikliyinin dəyişdiyi hallarda - tibbi kontekstdə meydana çıxır. Bu, bəzən müvəqqəti, bəzən də xroniki xəstəliklər zamanı həmişəlik ola bilər. Qofman bildirir ki, stiqmatizasiya prosesinin ayrılmaz hissəsi sosial nəzarətdir. Qrupların stiqmatizasiyası cəmiyyətin onların davranışlarına nəzarət etmə vasitələrindən biridir. Bəzi hallarda stiqma heç bir zaman aradan qaldırılmır və insan heç vaxt cəmiyyətdə tam şəkildə qəbul edilmir. İlk QİÇS xəstələrinin əksəriyyəti üçün həqiqət olan bu hal bəzi ölkələrdə hələ də davam etməkdədir.

Homoseksuallıq uzun müddətdir ki, dünyanın əksər ölkələrində stiqmatizasiyaya məruz qalır və 1960-cı illərdən bəri gey və lezbianlara olan nifrət homofobiya kimi təsvir edilir. O, alçaldıcı dil, təhqiretmə və birbaşa zorakılıq forması ala bilər. 2016-cı ildə silahlı şəxs Florida ştatının Orlando şəhərindəki gecə klubunda geyləri hədəfə alaraq 49 insanı öldürmüş və digər 53 nəfəri yaralamışdı. Bu, ABŞ tarixində ən dəhşətli kütləvi qətl idi. Homofobik təcavüz üçün ən əlverişli mühitlərdən biri "poof", "sissy", "queer" kimi sözlərin istifadə edildiyi məktəblər olub və bu gün də belədir. Uşaqlıq dövrünün "sosial özümlülüyün" formalaşmasında həlledici olduğunu nəzərə alsaq, məktəblərdəki homofobik təcavüzün cəmiyyətdə "heteroseksizm"in təkrarlanmasında ən mühüm aspekt olduğu vurğulana bilər. Sara Nettelton (2003) qeyd edir ki, QİÇS ilk də

fə ABŞ-da geylər arasında aşkar edildiyi üçün GRİD (Gay Related İmmune Deficiency – Geyliklə bağlı İmmun Çatışmazlığı) kimi adlandırılıb və güman edilib ki, bu gey həyat tərzi ilə bağlı olan xəstəlikdir. Mediada bu xəstəlik "gey taunu" olaraq təsbit olunub. Bunun yanlış olmasına rəğmən, geylərin "yüksək risk" qrupları kimi epidemioloji interpretasiyaları bu qruplarla ümumən heteroseksual qruplar arasındakı bölünməni daha da gücləndirib.

*Tənqidi məqamlar*

Stiqma haqqında tədqiqatların çatışmazlıqlarından biri stiq matizasiyaedici proseslərə müqavimətə marağın az olmasıdır. Fərdi səviyyədə insan sadəcə stiqmanı rədd edə bilər, lakin təcrid edilmiş halda bunun uğurlu olmaq ehtimalı aşağıdır. Kollektiv müqavimət formaları isə stiqmaya meydan oxumaqda daha çox əhəmiyyətli ola bilər. Fiziki məhdudiyyətli, habelə gey və ya lezbianların hərəkatları əksər hallarda etirazlar, birbaşa aksiyalar vasitəsilə diskreditasiya edilmiş və ya diskreditasiya olunmuş stiqmaların dominant interpretasiyalarına qarşı çıxır. Nəzərəçarpan simvolik etirazlar, diskriminasiyaedici dil və etiketlərlə mübarizə dəyişiklik və bərabər hüquqların təmin edildiyi qanunvericilik üçün təzyiq yaratmaqla yanaşı, cəmiyyətdə davranışların dəyişməsinə gətirib çıxardı. Stiqmatizasiyaedici proseslər daha öncəki nəzəriyyələrdə güman edildiyinə nisbətən dəyişikliyə daha açıqdır.

*Aktuallığın davamı*

"Stiqma" anlayışı faydalı olmağa davam edir. Özünü yaralayıcı davranış haqqında tədqiqat özünüzədələmə praktikalarına əl atan insanların stiqmatizasiyasının  mümkünlüyünü üzə çıxarmışdır. Diskreditasiyaedici stiqmanın diskreditasiya olunmuş stiqmaya çevrilməsindən yayınmaq üçün bu insanlar ictimai situasiyalarda asanlıqla gizlədilə bilən bədən hissələrini seçirlər. Analoji olaraq anoreksiya kimi qida pozuntusunun tədqiqi insanların nəzarəti itirməmək və stiqmatizasiyaya məruz qalmamaq üçün davranışlarını gizlətmək, özünütəqdimetməni idarə etmək və identikliklərini qorumaq üçün müxtəlif yollara əl atdıqlarını göstərir.

"Stiqma" anlayışının aktuallığının davamı Tailandda Kit Yee Çen və həmkarları (2009) tərəfindən cinsi məhdudiyyətsizlik və QİÇS-in tədqiqində aşkar görünür. Bu tədqiqatda Banqkokda tibb bacılarının öz peşə vəzifələrini yerinə yetirərkən təsadüfən HİV virusuna yoluxmaq riskini necə qavradıqlarını öyrənmək üçün qarışıq metodlardan istifadə olunub. Tədqiqatın müəllifləri tibb bacılarının HİV virusundan qorxusunun infeksiyanın tibbi nəticələri deyil, virus aşkar olunarsa, mümkün ictimai qınaqdan qaynaqlandığını aşkar ediblər. Onlar iş yerində real yoluxma ehtimalının aşağı olduğunu bilsələr belə, HİV-ə yoluxmanın sosial nəticələrinə görə qorxu hiss edirdilər. Bu sosial qorxu xəstələrin stiqmatizasiyaya necə məruz qalmasının müşahidələri ilə daha da güclənirdi.

Qofman insan həyatının hər bir aspektinin stiqmanın təsirinə məruz qala bildiyini qeyd edir. Karolin Hovart (2006) irqin sosial stiqma kimi konseptuallaşdırılmasının həm onun stiqmatizasiyası, həm də cəmiyyətdə diskriminasiyaya səbəb olan proseslərə necə etiraz etdiyini, onları necə dəyişdiyini təhlil edir. Üç keyfiyyət təhlilindən əldə etdiyi nəticələrə əsaslanaraq, Hovart göstərir ki, irqə bağlı olan stiqma gizlədilə və ya pərdələnə bilməz, stiqmatizasiyaedici rejimi devirmək cəhdləri kollektiv olmalıdır. Məqalədə məktəb və kilsədə stiqmaya qarşı müqavimət nümunələri təsvir olunur. Bu nümunələrin məqsədi onları stiqmatizasiyaya meydan oxumağı mümkün edən "sosial-psixoloji məkanla" təmin etməkdir.

*İstinadlar və ədəbiyyat*

Chan, K. Y., Rungpueng, A., and Reidpath, D. (2009) 'AIDS and the Stigma of Sexual Promiscuity: Thai Nurses' Risk Perceptions of Occupational Exposure to HIV', Culture, Health and Sexuality, 11(4): 353–68.

Goffman, E. ([1963] 1990) Stigma: Notes on the Management of Spoiled Identity (London: Penguin), esp. chapters 1 and 2.

Green, G. (2009) The End of Stigma: Changes in the Experience of Long-Term Illness (London: Routledge), esp. chapters 1 and 2.

Howarth, C. (2006) 'Race as Stigma: Positioning the Stigmatized as Agents, Not Objects', Journal of Community and Applied Social Psychology, 16(6): 442–51.

Hunt, P. (1966) Stigma: The Experience of Disability (London: Chapman).

Nettleton, S. (2013) The Sociology of Health and Illness (3rd edn, Cambridge: Polity).

## Mövzu 9. CİNAYƏT VƏ SOSİAL NƏZARƏT

### *Anomiya* (Anomie)

*İşçi tərif*

Sürətli sosial dəyişiklik dövrlərində meydana çıxan və effek tiv sosial normaların çatışmazlığının yaşanmasından qaynaqlanan kəskin narahatlıq və qorxu hissidir.

*Anlayışın mənşəyi*

Modernizm dövründə sosial dəyişikliklər o dərəcədə sürətlidir ki, çox zaman onlar ənənəvi həyat tərzləri, əxlaq normaları, dini inanc və gündəlik adətlərin dağılmasına səbəb olur və bəzən onlar heç nə ilə əvəzlənmir. Dürkheym belə qeyri-sabit şərtləri anomiya, yəni məqsədsizlik, qorxu və ümidsizlik hissləri, həyatı necə davam etməyin anlaşılmazlığı ilə əlaqələndirirdi. Məsələn, institusional dinin təmin etdiyi ənənəvi əxlaq normaları və standartları erkən sənaye kapitalizminin inkişafı tərəfindən tədricən aradan qaldırıldı. Gündəlik həyat və mühafizəkar adətləri idarə edən davranış normaları və əxlaq qaydaları olmadan əksər insanlar dərin narahatlıq, dezoriyentasiya və qeyri-müəyyənlik hiss etməyə başladı. Bu, Dürkheymin anomiya kimi təsvir etdiyi haldır.

Daha sonra bu ümumi anlayış ABŞ-da Robert Merton tərəfindən mənasını  cinayət və deviasiyanın empirik tədqiqində istifadə etmək üçün dəyişdirildi. Mertona görə, anomiya  insanların  cəmiyyətin mədəni məqsədləri ilə fərdin onlara nail olmaq qabiliyyəti arasında sosial gərginlik yaşadığı zaman mövcuddur. XXI əsrdə Mesner və Rozenfeld (2001) anomiya nəzəriyyəsinin modifikasiya olunmuş versiyasını – "institusional anomiya" anlayışını təklif etdilər. Bu,  bazar etikasının insan davranışını tənzimləyən sosial normaların təməlini sarsıtdığı zaman meydana çıxır.

*Məna və interpretasiya*

Fərdlər cinayət və deviant aktlar törətdiyi zaman onların nə etdiyini dəqiq bilən rasional varlıqlar olduğunu güman etmək məntiqli görünür. Lakin sosioloqlar.
gender, sinif və etnik qrupdan asılı olaraq, cinayətkarlıq və deviantlıq patternlərinin fərqləndiyini aşkar etdilər, bu dəyişkənliyin səbəbləri yeni suallar ortaya çıxarır. Məsələn, niyə müəyyən sosial sinif qrupları digərlərinə nisbətən daha çox cinayət törədirlər? Nəyə görə ən yoxsul qrupların əhəmiyyətli maddi sərvəti olduğu və əvvəlki nəsillərdən daha yaxşı yaşadığı nisbətən zəngin ölkələrdə cinayətkarlıq səviyyəsi hələ də kifayət qədər yüksəkdir? Merton bunu izah etmək və amerikan cəmiyyətinin özünün strukturunun qarşıya qoyulan sualın cavabı olmasını göstərmək üçün Dürkheymin "anomiya" anlayışından istifadə etdi.

Merton (1938) əksər inkişaf etmiş ölkələrdəki rəsmi statistikanın təhlilindən başladı: ani maddi gəlir üçün törədilən tamah məqsədli cinayətlərin böyük hissəsi "aşağı fəhlə sinfi" tərəfindən törədilir. Merton qeyd edir ki, amerikan cəmiyyəti intizamlılığı və gərgin əməyi ruhlandıraraq legitim məqsəd kimi maddi uğur axtarışını təşviq edən ümumi mədəni dəyərlərə sahibdir. Həyatda başlanğıc nöqtəsindən asılı olmayaraq kifayət qədər gərgin işləməklə istənilən sosial təbəqədən olan insanın uğura nail ola biləcəyi ideyası "amerikan arzusu" olaraq qəbul edilib. Bunun ABŞ-da məskunlaşan əksər immiqrant qrupları üçün cazibədar olması sübuta yetirilib. Mertona görə, aşağı səviyyəli fəhlə sinfi üçün "amerikan arzusu" qanuni yolla uğur qazanmaq imkanlarının hamıya açıq olmaması faktının üstünü örtən ideologiyaya çevrilib. Gərgin işləməsinə rəğmən, yüksək maddi həyat tərzinə nail ola bilməyənlər bacarıqsızlığa görə özlərini qınayırlar. Daha pisi isə odur ki, onları kifayət qədər çalışqan olmadıqlarına görə günahlandırırlar. Bu, onlara böyük təzyiq olaraq, başqalarını ötmək üçün qeyri-qanuni yollara əl atmağa gətirib çıxarır. Nəticədə tamah məqsədli cinayətlər bu qruplar arasında yüksək səviyyədədir, belə ki, onlar dərin kök salmış mədəni dəyərlər və şəxsi mövqe arasında sosial gərginlik yaşayırlar.

Qısası Merton bildirir ki, Amerika cəmiyyəti yüksək bərabərsizliyə malikdir və sosial parçalanmışdır. O, əhalinin yalnız müəyyən bir qisminin nail ola biləcəyi məqsədləri təşviq edir. Fəhlə sinfinə aid olanların çoxu, xüsusilə gənclər kultural məqsədləri mənimsəyir və texnoloji yeniliklər, avtomobil və geyim kimi maddi uğur simvollarına can atırlar. Lakin bu simvolları əldə etmək üçün tamah məqsədilə cinayət törətməli (ev oğurluğu, dükan qarəti, oğurlanan malların satışı) olurlar. Merton onların məqsədlərinə nail olmaq üçün "innovativ" üsullar tapdığını göstərir və nəyə görə gənc fəhlə sinfi nümayəndələrinin rəsmi cinayət və məhbus statistikasında çoxluq təşkil etdiyini izah edir. İnsanları belə cinayətlərə sövq edən gərginliyi fərdi xarakter nöqsanları deyil, uzun müddət mövcud olan sosial bərabərsizliklər yaradır.

*Tənqidi məqamlar*

Tənqidçilər Mertonun fərdi reaksiyalara fokuslanmaqla deviant davranışı gücləndirən submədəniyyətlərin əhəmiyyətini doğru qiymətləndirmədiyini göstərir. Əgər aşağı fəhlə sinfinin bütün nümayəndələri sosial gərginlik və ya  anomiya yaşadan sosial mövqedədirlərsə, onda niyə onların heç də hamısı tamah məqsədli cinayət törətmir. Bandit qrupları və deviant submədəniyyətlərin formalaşması bunu izah etməyə kömək edir. Bu sinif daxilində əksər insanlar cinayət törətməsələr də, bir çox hallarda fəaliyyətlərini legitimləşdirmək üçün bandalarda birləşirlər. Mertonun rəsmi statistikaya etimad etməsi də problematikdir, çünki onlar nöqsanlı və etibarsızdır. Bəzi sosioloqlar onun ümumən informasiya mənbəyi kimi istifadəyə yararsız olduğunu iddia edirlər. Əgər Merton aşağı fəhlə sinfi cinayətlərinə həddən artıq önəm verirsə, orta sinif cinayətlərini, əksinə, doğru təxmin edə bilmir. "Ağyaxalılar" və korporativ cinayətlərə həsr olunan daha sonrakı tədqiqatlar onların təəccübləndirici dərəcədə yüksək olduğunu üzə çıxardı – dələduzluq, əmlakı mənimsəmə, sağlamlıq və təhlükəsizlik qaydalarını pozma və s. Mertonun sxemində maddi uğura nail olmuş sosial qrupların törətdiyi tamah məqsədli cinayətlər açıqlanmır.

*Aktuallığın davamı*

Merton tərəfindən Dürkheymin “anomiya” anlayışının kreativ adaptasiyası xüsusilə əhəmiyyətlidir, çünki o, digər tədqiqat sahələrində empirik araşdırma üçün bu anlayışı yenidən kəşf edir. Onun iqtisadi artım və rifahın getdikcə yüksəldiyi dövrlərdə cinayətkarlığın nəyə görə artmasına dair tədqiqat sualı amerikan cəmiyyətinin mühüm sosial probleminə toxunurdu. Onun cavabı geridə qaldıqlarını hiss edənlər arasında yüksək nisbi məhrumiyyət hissi, həm də kəskin sosial gərginliyin olmasından ibarət idi. Bu nəticə ABŞ-da sabit sinfi bölünməyə diqqət çəkdi, baxmayaraq ki, ölkə özünü “sinifsiz” və açıq cəmiyyət kimi qələmə verirdi.

Mertonun orijinal arqumenti 1940-1950-ci illər üçün uyğun idi. Lakin o, XXI əsrdə özünü necə doğruldur? Baumer və Qustafson (2007) “Cinayətlər haqqında Vahid Hesabat” (Uniform Crime Report) və “Ümumi Sosial Sorğu” (General Social Survey) daxil olmaqla, ABŞ-dakı rəsmi databazaları təhlil ediblər. Aşkar olunub ki, maddi uğura ciddi canatmanın, lakin ona nail olmanın qanuni vasitələrinə zəif bağlılığın olduğu ərazilərdə instrumental cinayətlərin səviyyəsi yüksəkdir. Bu, müasir anomiya nəzəriyyəsinin mərkəzi ideyasıdır. Qeyd edilən tədqiqat Mertonun sosial gərginlik nəzəriyyəsinin lehinə bəzi statistik dəlilləri ortaya çıxardı.

Vorinq, Vaysburd və Çayet (2000) anomiya nəzəriyyəsinin orta sinif cinayətkarlığı ilə bağlı nəsə təklif etməsinin mümkün olub-olmadığını tədqiq ediblər. Əksər hallarda mümkün olmadığı güman edilsə də, bu tədqiqat Mertonun tipologiyasının orta sinfi ehtiva edəcək şəkildə genişləndirilə bildiyini göstərdi. Müəlliflər bizə onu xatırladır ki, Merton yoxsulluq və cinayət arasında birbaşa əlaqə qurmur və orta sinif cinayətkarlarını da maddi uğurun kultural məqsədlərini qəbul edən, lakin ona nail olmaq vasitələrini təkmilləşdirən “innovatorlar” olaraq görürdü. “Aşağı ağyaxalıların” dələduzluq, əmlakı mənimsəmə və digər cinayətləri böyük məbləğdə pulla bağlı olmur, lakin məqsədlər və vasitələr arasında oxşar gərginlik özünü göstərir. Bu gərginlik çox zaman sinif, gender, etnik mənsubiyyət və təhsil səviyyəsi ilə bağlı irəliləmənin bloklanması zamanı yaranır. Prinsip etibarilə orta sinif cinayətlərinin bəzi

formaları Mertonun konsepsiyalarından istifadə edilməklə açıqlana bilər.

Digər mühüm tədqiqatda Teh (2009) Mertonun nəzəriyyəsinə, habelə Mesner və Rozenfeldin arqumentlərinə istinad edərək güclü iqtisadi inkişaf dövründə Malayziyada artan cinayət səviyyəsini tədqiq edir. Mertonun nəzəriyyəsi ilkin olaraq formalaşdırıldığı inkişaf etmiş ölkələrdən kənarda belə öz aktuallığını qoruyur və cinayətkarlığın ümumi sosioloji nəzəriyyəsinin mümkün olmasını göstərir.

*İstinadlar və ədəbiyyat*

Baumer, E. P., and Gustafson, R. (2007) ‘Social Organization and Instrumental Crime: Assessing the Empirical Validity of Classic and Contemporary Anomie Theories’, Criminology, 45(3): 617–63.

Merton, R. H. (1938) ‘Social Structure and Anomie’, American Sociological Review, 3(5): 672–82.

Messner, S. F., and Rosenfeld, R. (2001) Crime and the American Dream (Belmont, CA: Wadsworth).

Teh, Yik Koon (2009) ‘The Best Police Force in the World Will Not Bring Down a High Crime Rate in a Materialistic Society’, International Journal of Police Science and Management, 11(1): 1–7.

Waring, E., Wesiburd, D., and Chayet, E. (2000) ‘White Collar Crime and Anomie’, in W. S. Laufer (ed.), The Legacy of Anomie Theory (New Brunswick, NJ: Transaction), pp. 207–77.

## Bərpaedici ədalət (Restorative Justice)

*İşçi tərif*

Bütün tərəflərin cəlb olunmasını tələb edən və cinayətin qurbana vurduğu zərəri qarşılamağa yönələn cinayət qanunvericiliyi prosesi və nəzəriyyəsidir.

*Anlayışın mənşəyi*

Bərpaedici ədalət icma əsaslı ədalət forması olmaqla, retributiv (cəzalandırmaya istiqamətlənmiş) ədalət sistemlərindən uzaqlaşmanı nəzərdə tutur. İcma əsaslı ədalət uzun sürən tarixə malikdir və

xüsusən də, keçmişdə dövlətə malik olmayan cəmiyyətlərə xasdır. Belə cəmiyyətlərdə ədalət mübahisələrin həllini nəzərdə tuturdu, cinayətkarlar qurbana və ümumiyyətlə, icmaya vurduqları ziyanın əvəzini ödəyirdilər (Strickland 2004: 2-3). Bu gün dünyada geniş yayılan retributiv ədliyyə sistemləri nisbətən yenidir, onların tarixi XVIII əsrə təsadüf edir. Hər növ cinayətin cəzası kimi həbs qəti imkan təcrübəsinin icad olunması və geniş yayılması icma əsaslı ədalətdən uzaqlaşmanın göstəricisidir. Yeni Zelandiyanın Maori icmalarının və Avstraliyadakı aborigen qrupların bərpaedici modellərindən bəhrələnən müasir restorativ ədalət hərəkatı 1970-ci illərin sonunda meydana çıxıb. (McLaughlin and colleagues 2003). Lakin kriminoloqların fikrincə, bu hərəkatın impulsu konvensional cəza siyasətinin gözləntiləri doğrultmaması, residivlərin dəyişməz olaraq yüksək səviyyəsi və "heç nəyin işləməməsi" hissi idi.

*Məna və interpretasiya*

Bərpaedici ədalət cinayətkarları öz davranışlarının qurbanlar, ailələr və bütövlükdə topluma təsirini etiraf etməyə məcbur edən cinayət və icma qanunvericiliyi formasıdır. Bu mənada o, qanun pozan şəxsin icmanın ayrılmaz tərkib hissəsi olması fikrindən başlayır. Cəzalandırıcı ədalət cinayətkarları çox zaman cinayət məkanı və icmadan çox uzaqda olan həbsxanaya yerləşdirir. Bununla da o, cinayətkarları öz hərəkətlərinin nəticəsindən qoruyur. Bərpaedici ədalət sisteminin tərəfdarları iddia edirlər ki, cinayətkarlar onların dominant sosial münasibətlərə yenidən inteqrasiya olmalarına kömək edəcək şəkildə öz cinayətlərinin nəticəsi ilə üzləşdirilməlidirlər, bu, onların icmaya yenidən inteqrasiyasına imkan yaradacaq (Graef 2001). Beləliklə də, restorativ proseslər ədliyyə sistemində qurban və icmaya mərkəzi rol verməklə, residivlərin qarşısını almaq üçün yaradıcı yollar tapmağı hədəfləyir.

Bərpaedici ədalət sisteminin əsasını qoyan Con Bresveyt ({1989}, 1999) bildirir ki, əgər restorativ ədalət "yenidən inteqrasiyaedici utandırmaya" (reintegrative shaming) əsaslanırsa, bu zaman o, daha effektivdir. Bu o deməkdir ki, cinayətkarlar həm qurbanların, həm də cəmiyyətin onları utandıracaq qınağına məruz qoyulur, bu isə cinayətkarı belə qınaqla "sərbəst şəkildə razılaşmağa" sövq edir. Belə effektə nailolma üç prinsipə əsaslanmalıdır: qarşılıqlı

hörmət, qarşılıqlı öhdəliklər, cinayi davranışın qəbuledilməzliyi (Van Ness and Strong 2014). Bresveytə görə, utandırma qurbanların haqlı narazılığının cinayətkarlara ötürülməsi və onların vətəndaş kimi öz üzərinə məsuliyyət götürməsi baxımından ən yaxşı yoldur. Lakin utandırma asanlıqla stiqmatizasiyaya və cinayətkarların autsayderlərə çevrilməsinə səbəb ola bilər, bu da onları deviant sub-mədəniyyətlərdə cinayi karyeraya sürükləyər. Buna görə də, ədalət prosesinin qeyd edilən əsas prinsiplərə sadiq və yenidən inteqrasiyaedici olması həlledicidir (Strang and Braithwaite 2001).

Bərpaedici ədalət yanaşmalarında müəyyən mediasiya forması vasitəsilə öz qurbanları ilə üzləşmək və onlarla ünsiyyət qurmaq tələb edilir. Bu da qurbanların suallar verməsi, hisslərini birbaşa ifadə etməsi, rəsmi üzr qəbul etməsi və cinayətin nəticələrinin aydınlaşdırılmasına kömək edir. Bu, qurbanların öz həyatlarını davam etməyə yardım edir. Eyni zamanda cinayətkarları məsuliyyət daşımağa, başqalarına təsir edən əməllərini başa düşməyə və gələcək davranışlarını yenidən qiymətləndirməyə imkan yaradır (Liebmann 2007: 29). Amma bərpaedici ədalətin ikinci hissəsi təzminatdır – dəymiş zərərin bərpası. Həbs cəzasının hələ də bəzi ciddi cinayət aktları üçün adekvat olaraq qalmasına rəğmən, bir sıra hallarda "toplum cəzası"nın daha doğru olacağı ehtimalı yüksəkdir. Bu, müəyyən xidmətlərin həyata keçirilməsi, icma üçün müəyyən layihələrin reallaşmasına yardım, ödənişsiz işlərin yerinə yetirilməsi ola bilər.

*Tənqidi məqamlar*

Cinayət qanunvericiliyi sistemində utandırmadan istifadə cinayətkarlığın bəzi formaları üçün digərlərinə nisbətən daha uyğundur. Bərpaedici ədalət nümunələri və ona aid ədəbiyyatın böyük hissəsi oxşar cinayətlərə fokuslanıb: soyğunçuluq və oğurluq, məişət zorakılığı, maşın qaçırma, vandalizm və s. Bu sahələrdə uğurlu inteqrasiya nümunələri olsa da, bərpaedici ədalətin residivləri azaltmasını təsdiqləyən dəqiq empirik göstəricilərin çatışmazlığı mövcuddur. Mütəşəkkil qanqsterlər, cinsi təcavüzkarlar, qatillər, pedofil şəbəkələrinə daxil olanların reinteqrativ utandırma yolu ilə məsuliyyətli vətəndaşlığa sövq edilməsi həqiqətən mümkündürmü? Tə-

sadüfi deyil ki, bərpaedici ədalət modeli ziyanın bərpasının daha uğurlu ola biləcəyi kiçik və nisbətən homogen icmalardan götürülüb. Lakin böyük, multikultural şəhərlər və şəhər ərazilərində, anonimlik və seqreqasiya normadır. Bu kontekstdə "icma" anlayışının mənasını dərk etmək çox çətindir. İcma ilə özünüidentifikasiya olmadıqda isə utandırma və bərpaedici tədbirlər çətin ki, hər hansı qüvvəyə malik olsun.

Bəzi tədqiqatçılar bərpaedici ədalətin təməl prinsiplərinə etiraz edirlər. Akorn (2004) bildirir ki, cinayətlər və mübahisələrin qarşısının alınması və həll edilməsinin ən yaxşı yolu dialoq və razılıqdır. Lakin bərpaedici ədalətin bütöv ədalət sisteminin bazisini formalaşdıra biləcəyi ideyası yanlış yönləndirici və çox təhlükəlidir. Akorna görə, bütün ədliyyə sistemləri qarşılıqlı hörmət, simpatiya və mərhəmətin mövcud olmadığı yerdə insanlar arasındakı münasibətləri tənzimləmə üsullarıdır. Buna görə də, restorativ ədalət bu xüsusiyyətlərin kifayət etmədiyi yerdə müasir həyatın gerçəklikləri ilə üzləşməyə hazırlıqsızlığını və ya qadir olmadığını göstərir. Bərpaedici ədalət ədalətin gerçək konsepsiyasını özündə ehtiva etməsə də, o, bəşəriyyətin sevgi və ədalətin konvergensiyası haqqında çoxdankı ümidilə bağlıdır (Akorn 2004: 22). Belə saf sentimentallığın lehinə mövcud sistemin aradan qaldırılması ilə bağlı təkliflər təhlükəlidir.

*Aktuallığın davamı*

Nisbətən son dövrlərə aid innovasiya kimi bərpaedici ədalət yanaşması əksər ölkələrdə müxtəlif cinayət, deviantlıq aktları çərçivəsində reallaşdırılmağa çalışılır. Nəticədə isə onun residivlərin səviyyəsini həqiqətən azaltması haqqında faktlar hələ də çatışmır. Genişlənməkdə olan tədqiqat sahələrindən biri bərpaedici yanaşmaların sistemli dəyərləndirilməsidir və onun davam etdiriləcəyi gözlənilir. Buna rəğmən, bir çox tədqiqatçı bildirir ki, sadəcə residiv səviyyəsi üzərində fokuslanma qurbanın prosesdən məmnunluğunu və toplumun ədalət sisteminə daha geniş şəkildə cəlb edilməsini ehtiva edən bərpaedici ədalətin bütün faydalarını isbat edə bilməz.

Bu sonuncu aspekt Böyük Britaniya şəhərlərinin birində yeni üslubda bərpaedici xəbərdarlıq və köhnə üslubda polis xəbərdarlığı

arasında müqayisə aparan Yanq və Quld (1999, 2003) tərəfindən qeyd edilir. Polis xəbərdarlıqları həmişə olmasa da, adətən, polis bölmələrində verilir. Bunun məqsədi kiçik hüquq pozuntularının məhkəməyə qədər aparılmamasıdır, hansı ki, orada alçaldıcı utandırma ədalətsizlik kimi qavranıla, bu isə son nəticədə hüququ pozan şəxsin deviant kimliyi qəbul etməsinə gətirib çıxara bilər. Lakin tədqiqatçılara görə, polis xəbərdarlıqları bəzən danlama formasından və buna görə də, aşağılayıcı utandırmadan ibarət ola bilir. Cinayətkarlara öz cinayətlərini təsvir etməyə və qurbanlara suallar verməklə yanaşı, hisslərini izah etməyə icazə verən restorativ xəbərdarlıqlar daha uzunmüddətli olur və 30-40 dəqiqə zaman alır. Yanq və Quld vurğulayırlar ki, öncəki forma ilə müqayisədə bu yeni modelə cinayət qurbanlarının iştirakına və nisbi açıqlığına görə dəyər verilməli və o, yalnız residivlərin qarşısının alınmasına əsaslanaraq qiymətləndirilməməlidir.

*İstinadlar və ədəbiyyat*

Acorn, A. (2004) Compulsory Compassion: A Critique of Restorative Justice (Vancouver: UBC Press).

Braithwaite, J. ([1989] 1999) Crime, Shame and Reintegration (Cambridge: Cambridge University Press).

Graef, R. (2001) Why Restorative Justice? Repairing the Harm Caused by Crime (London: Calouste Gulbenkian Foundation).

Liebmann, M. (2007) Restorative Justice: How it Works (London: Jessica Kingsley). McLaughlin, E., Fergusson, R., Hughes, G., and Westmarland, L. (eds) (2003) Restorative Justice: Critical Issues (London: Sage).

Strang, H., and Braithwaite, J. (eds) (2001) Restorative Justice and Civil Society (Cambridge: Cambridge University Press).

Strickland, R. A. (2004) Restorative Justice(New York: Peter Lang).

Van Ness, D. W., and Strong, K. H. (2010) Restoring Justice: An Introduction to Restorative Justice (5th edn, Abingdon and New-York: Routledge).

Young, R., and Goold, B. ([1999] 2003) 'Restorative Police Cautioning in Aylesbury: From Degrading to Restorative Shaming Ceremonies?', in E. McLaughlin, R. Fergusson, G. Hughes and L.

Westmarland (eds),Restorative Justice: Critical Issues(Buckingham: Open University Press), pp. 94–104.

## ***Deviantlıq*** **(Deviance)**

*İşçi tərif*

Cəmiyyətdə geniş şəkildə qəbul edilən norma və ya dəyərlərə uyğun olmayan fəaliyyətləri həyata keçirməkdir.

*Anlayışın mənşəyi*

XIX əsrdə cinayətkarlığın bioloji və psixoloji tədqiqatlarında deviasiya fərddə nəyinsə yanlış olduğunun işarəsi kimi güman edilirdi. Onlara görə, əgər elmi kriminologiya deviant, yaxud kriminal davranışın səbəblərini müəyyən edə bilsəydi, belə davranışlara müdaxilə etmək və onların qarşısını almaq mümkün olardı. Bu baxımdan sosial dünyanın öyrənilməsinə təbiət elmlərinin metodlarını tətbiq edərək cinayətin həm bioloji, həm də psixoloji nəzəriyyələrinin pozitivist olduğu göstərilir.

Deviantlığın tədqiqinə sosioloji yanaşma XIX əsrin sonunda Dürkheym ilə başladı. O, bu fenomenə sosial nizamın qorunması üçün mühüm faydalı funksiyaları icra edən "norma" olaraq yanaşsa da, həddindən artıq deviasiyanın disfunksional ola biləcəyini vurğulayırdı. 1950-ci illərdən etibarən bu anlayış gənclik submədəniyyətləri və onların dominant cəmiyyətlə münasibətlərini öyrənmək üçün istifadə edilmişdir. 1960-cı illərdə isə radikal interaksionist deviasiya nəzəriyyəsi formalaşdırılıb. Bu nəzəriyyə deviantlığı cəmiyyətdəki güclü "mühafizəçilər" tərəfindən bu cür etiketlənən istənilən davranış forması kimi müəyyən edir və deviantlıq sosiologiyasını erkən pozitivist konsepsiyadan mümkün qədər çox uzaqlaşdırır. Deviasiya etiketləmə kimi sosial prosesin nəticəsidir, hansı ki, onun sayəsində müxtəlif sosial fəaliyyətlər ümumi qəbul olunmuş ictimai normalardan sapma kimi müəyyənləşdirilir.

*Məna və interpretasiya*

Deviantlıq müəyyən bir cəmiyyət daxilində "normal" və ya ümumi olaraq qəbul edilən, təsdiqlənən qayda və normalardan kə-

nara çıxan davranışdır. Əksəriyyətimiz qəbul edilmiş davranış formalarını müəyyən dərəcədə pozuruq, lakin ümumi anlamda biz uşaqlıqda sosiallaşma nəticəsində mənimsədiyimiz sosial normalara əməl edirik. Deviantlıq və cinayət əksər hallarda üst-üstə düşsə də, onlar sinonim deyillər. Deviantlıq cinayətdən daha geniş anlayışdır, cinayət yalnız qanunu pozan qeyri-konform davranışa aiddir. Deviantlıq konsepti həm fərdi davranışa, həm də qrupların fəaliyyətinə aid edilə bilər. Deviantlığın tədqiqi bizim diqqətimizi iqtidar məsələsinə yönəldir və bu anlayışa nəzər yetirdiyimiz zaman "kimin" qaydalarının pozulduğu sualı yaranır. Deviantlıq sosiologiyasında heç bir nəzəriyyə dominant deyil, aktuallıq və faydalılığını qorumaqda olan bir sıra nəzəri perspektivlər vardır.

Dürkheym cinayət və deviantlığı sosial fakt kimi nəzərdən keçirirdi və qeyd edirdi ki, onların hər ikisi qaçılmaz və müəyyən mənada bütün cəmiyyətlər üçün normaldır. İnkişaf etmiş dünyada fərdiyyətçilik və şəxsi seçimin nisbətən daha yüksək səviyyəsi, az sayda sərt qaydalar və davranışın məhdudlaşdırılması, aşağı səviyyəli deviant aktlara daha çox dözümlülük vardır. Dürkheym deviantlığın iki mühüm funksiyanı yerinə yetirdiyini güman edirdi. Biricisi, o, zamanla saygı qazanmış ənənələrə meydan oxuyaraq, cəmiyyətə yeni ideya və dəyərlər daxil etməklə innovativ ola bilər. İkincisi, deviant aktlar neqativ reaksiya doğurarkən, faydalı funksiya icra edərək hər kəsə mövcud norma və qaydaları xatırladır. Sosioloji dildə desək, deviantlığa verilən cavab cəmiyyət tərəfindən qəbul olunan və qəbul olunmayan davranışlar arasındakı sərhədlərin qorunmasına xidmət edir. Digər tərəfdən, əgər deviantlıq səviyyəsi həddən çox yüksələrsə, o, cəmiyyətin nizamlı faəliyyətini pozar və bu halda qanun və nizam-intizam qüvvələrinin müdaxiləsinə ehtiyac yaranar.

Ən geniş istifadə edilən deviantlıq nəzəriyyəsi güman ki, bu anlayışı fərdlər və ya qrupların səciyyəsi kimi deyil, deviantlar və qeyri-deviantlar arasında interaksiya prosesi kimi interpretasiya edən etiketləmə yanaşmasıdır. Buna görə də, niyə bəzi insanların "deviant" kimi etiketləndiyini aydınlaşdırmalıyıq. Etiketləmə sadəcə başqalarının şəxsi necə görməsi deyildir. Bu, həm də onun "özümlülük" anlayışı üzərində ciddi təsirə malik olması deməkdir.

Edvin Lemert (1972) insan identikliyində deviantlığın necə mərkəzi rol oynamasını və ya onunla birgə mövcud olmasını izah edən bir model irəli sürdü. O bildirirdi ki, deviant davranış bəzilərinin düşündüyünə əks olaraq, əslində adi bir şeydir və insanlar, adətən, buna görə cəzalandırılmır. Məsələn, əksər yol-hərəkət qaydalarının pozuntusu işıqlandırılmır və iş yerində xırda oğurluq "nəzərdən yayınır". Lemert belə ilkin transqressiya aktlarını "birincili deviantlıq" adlandırır. Əksər hallarda onlar şəxsin özünüidentifikasiyasına yad olaraq qalır və pozuntu aktı "normallaşır". Lakin bəzi hallarda normallaşma baş vermir və şəxs "cinayətkar", yaxud da "delikvent" kimi etiketlənir. Lemert bildirir ki, insanlar onlara verilən etiketi qəbul edirlər və beləcə, o etiket onların öz identikliyinin bir parçasına çevrilir və onlar buna uyğun fəaliyyət göstərirlər. Qəbul edilmiş etiket daha çox cinayi və deviant aktlara səbəb olarsa, bu, "ikincili deviantlıq" adlandırıla bilər. Etiketləmə olduqca güclü bir proses ola bilər və bu zaman "cinayətkar" damğası identikliyin bütün digər aspektlərini aradan qaldıran, cinayətkar karyerasına doğru aparan  əsas statusa çevrilə bilər.

*Tənqidi məqamlar*

Funksionalist nəzəriyyələrin aşkar üstünlüyü onların deviasiya və gündəlik konform davranışı əlaqələndirərək, fürsət çatışmazlığının cinayətə əl atan və cinayətə əl atmayanlar arasında fərqləndirici amil olmasını göstərməsindədir. Bununla belə, yada salmalıyıq ki, bütün sosial sinfi qruplarda insanların əksəriyyəti heç vaxt peşəkar cinayətkarlar olmurlar və müntəzəm olaraq cinayət törətmirlər. Etiketləmə nəzəriyyəsi bəzi hallarda azlıqlara, cəmiyyətin qeyri-adi, ekstremal aspektlərinə fokuslandığına görə tənqid olunur. İnsanların əksəriyyətinin nəyə görə  qanunu pozmadığını izah etmək əvəzinə, o, deviasiyanı humanistləşdirir. Bəzi tənqidçilər isə güman edirdilər ki, adətən, hökumətlərin cinayətkarlıq səviyyəsini azaltmaq üçün müdaxiləsi əvəzinə, deviant və cinayi olanın yenidən müəyyən edilməsi baş verir ki, bunun da məqsədi əvvəllər yolverilməz olanı normallaşdırmaqdır. Belə yenidən müəyyənləşdirmə Dürkheymin nəyin yolverilən və nəyin yolverilməz deviasiya olmasını təsbitetmə haqqında nikbin təsəvvürünü qeyri-mümkün edir.

Etiketləmə nəzəriyyəsinə konstruktivist yanaşma da tənqidə məruz qalıb. Müharibədənkənar dövrlərdə bəzi deviant davranışlar yalnız güclü "mühafizəçilər" tərəfindən belə müəyyənləşmir, ümumiyyətlə, bütün cəmiyyətlərdə ardıcıl şəkildə qadağan olunur. Qətl, cinsi təcavüz və silahlı soyğunçuluq, adətən, bu və ya digər iqtidarın baxışlarından asılı olmayaraq, yolverilməz hesab edilir. Etiketləmə nəzəriyyəsi siyasəti müəyyən edənlərə çox az şey təklif edə bilər. Əgər bütün deviantlıq nisbidirsə, hansı fəaliyyətlərin nəzarət edilməli, qadağan edilməli və ya icazə verilməli olduğuna necə qərar verəcəyik? Əgər belə qərarlar vurulan zərərə əsaslanmalıdırsa, onda deviantlıq etiketləmə nəzəriyyəsinə əks olaraq, həqiqətən bir davranış səciyyəsidir və o, sadəcə sosial müəyyənləşdirmə və etiketləmədən qaynaqlanmır.

*Aktuallığın davamı*

"Deviantlıq" anlayışının uzun tarixi vardır və o, qanuna nəzarət və onun pozulması haqqında maraqlı və dərin tədqiqatlar ortaya çıxarmağa davam edir. Həqiqətən də cinayət və cinayətkarlıq sosiologiyasının bu anlayışsız necə mümkün ola biləcəyini düşünmək çətindir. Çünki deviantlıq bizi deviantlar və cinayətkarlar, ictimai fikir yaradanlar və əxlaq qaydalarının təşəbbüskarları, polis qüvvələri, hakimlər və siyasətçilərin daxil olduğu çoxsaylı sosial aktorların rolunu nəzərə almağa məcbur edir. Bu, "pis" davranışı onun baş verdiyi sosial kontekstlə əlaqələndirən mühüm konsepsiyadir. Deviantlığın tədqiqi mövcud normallıq standartları haqqında fərqli düşünməyə sövq edir.

Deviantlıq araşdırmaları əksər hallarda gizli dünyalara daxil olur və Qoldşmidt (2008) bu ənənəni davam etdirir. Onun kiçikhəcmli tədqiqatı on nəfər polisin xidmət müddəti ərzində saxta protokol tərtibetmə, qeyri-qanuni saxlama və axtarış məsələləri, yalançı şahidlik və "saxta sübut gətirmə" kimi deviant davranışına həsr olunub. Tədqiqatda irəli sürülən rasionalizasiyalar, yəni davranışa verilən izahlar təhlil edilir. İlkin olaraq polis zabitləri öz deviant davranışlarını "nəcib səbəblər"lə, yəni cinayətkarları tutmaq və cəmiyyəti müdafiə etməklə izah edirdilər. Onlar həm də cinayət qurbanlarının onların metodlarını dəstəklədiyini güman ediblər. Bu-

nunla bərabər, polis zabitləri öz davranışlarından peşəkarcasına faydalanmağa və günah hissini səmərəli şəkildə neytrallaşdırmaq texnikasını yaratmağa nail olurdular.

"Deviantlıq" anlayışı cinayətdən daha geniş davranışlar silsiləsinə tətbiq edilir. Adlerlərin (2007) özünə zərər yetirən 80 insanla apardığı keyfiyyət tədqiqatı bu anlayışın belə praktikanı başa düşməkdə faydalı ola bildiyini göstərir. Onların tədqiqatı özünə zərəryetirmə davranışının psixoloji və tibbi mütəxəssislər tərəfindən əvvəllər müalicə edilməli olan xəstəlik kimi təsnif olunmasını araşdırır. Lakin intervü materialları və internet mənbələrinə istinad etməklə müəlliflər 1990-cı illərin sonu 2000-ci illərin əvvəllərində özünə zərəryetirmənin bunu icra edənlər tərəfindən tibbi problem kimi deyil, "könüllü seçilmiş deviant davranış" kimi yenidən təsnif olunduğunu və müəyyənləşdirildiyini aşkar etdilər. Bu, interaksionist maksimanı əks etdirir: deviant davranış məhz belə adlandırılan davranışdır.

*İstinadlar və ədəbiyyat*

Adler, P. A., and Adler, P. (2007) 'The Demedicalization of Self-Injury', Journal of Contemporary Ethnography, 36(5): 537–70.

Goldschmidt, J. (2008) 'The Necessity of Dishonesty: Police Deviance, "Making the Case" and the Public Good', Policing and Society, 18(2): 113–35.

Henry, S. (2009) Social Deviance (Cambridge: Polity).

Lemert, E. (1972) Human Deviance, Social Problems and Social Control (Englewood Cliffs, NJ: Prentice Hall).

## ***Etiketləmə*** **(Labelling)**

*İşçi tərif*

İqtidar və təsirə malik olanlar tərəfindən bəzi fərdlər və sosial qruplara müəyyən xarakteristikaların aid edilməsidir, hansı ki, bu cəhətlər ikincilərin eyniləşdirildiyi etiketlərə çevrilir.

*Anlayışın mənşəyi*

"Etiketləmə" anlayışı 1950-1960-cı illərdə simvolik interaksionist ənənədə çalışan sosioloqlar tərəfindən inkişaf etdirilmişdir.

O, sosial interaksiya proseslərində deviantlığın necə müəyyən edilməsi və yaranmasına diqqət çəkən cinayət və deviantlıq tədqiqatları üçün çox təsirli olmuşdur. Edvin Lemert ilkin və ikincili deviantlığı fərqləndirməklə yanaşı, etiketləməni ikincili deviantlığa aid etmişdir. Hovard Beker (1963) hesab edirdi ki, deviantlığı ayrı-ayrı hərəkətlərin deviant olaraq müəyyənləşdirildiyi və kateqorizə edildiyi proses kimi nəzərdən keçirmək düzgün olar. Bekerin əsas diqqəti stiqmatizasiya, "autsayder" kimi marjinallaşdırılmanın "deviant"ların identikliyinə təsiri proseslərinə yönəlmişdi.

*Məna və interpretasiya*

Cinayət və deviantlıq tədqiqatlarının çoxu etiketləmə nəzəriyyəsi kimi tanınan interaksionist yanaşma ilə bağlıdır. Bu yanaşma deviasiyanı etiketləri təqdim edənlər və etiketlənənlər arasındakı interaksiya prosesi kimi müəyyənləşdirir. Məsələn, polislər, hakimlər, məhkəmələr və kütləvi media nəyin deviantlıq olduğunu müəyyən etmək iqtidarına sahib olarkən, digərləri sadəcə belə təriflərə tabedir. Bəzilərinə görə, etiketləmə prosesi cəmiyyətdə iqtidarın distribusiyasını əks etdirir, çünki bu qaydaları müəyyən edən qruplar, adətən, ağdərililər, yaşlılar, orta sinif və kişilərdən ibarət olur. Lakin ehtiyatlı oub bu prosesi sadələşdirməkdən çəkinməliyik. Etiketləmək sadəcə "adın çıxınca canın çıxsın" olmayıb, bir çox aktoru özündə ehtiva edən uzunmüddətli sosial prosesin son məhsuludur.

Hovard Bekkerin əsəri deviant motivasiyalar və ya davranış deyil, etiketləmə prosesləri vasitəsilə deviant identikliklərin necə ortaya çıxdığını göstərir. Beker qeyd edir ki, deviantlıq şəxsin həyata keçirdiyi aktın səciyyəsi deyil, digərləri tərəfindən qanunlar və sanksiyaların "günahkar"a tətbiqinin nəticəsidir. Deviant - bu etiketin uğurla tətbiq edildiyi bir şəxsdir. Deviant davranış isə belə etiketə malik olan insanların davranışıdır. Bu tərif bir çox tədqiqatlara stimul versə də, tənqidə də məruz qalıb. Beker "normal" və "deviant" arasında dəqiq fərqləndirmə aparan kriminoloji yanaşmaların kəskin tənqidçisidir. Bekerə görə, insanların deviant olmasında onların davranışı müəyyənedici amil deyil. İnsana belə bir etiketin yapışdırılmasına onun davranışı ilə bağlı olmayan proseslər daha çox

təsir göstərir. Şəxsin geyimi, danışıq tərzi və mənsub olduğu ölkə bu etiketin tətbiq edilib-edilməyəcəyini müəyyən edən əsas amillərdır.

Etiketləmə nəzəriyyəsinə əsasən kriminal ədalət sisteminin ironiyası polis, məhkəmə və həbsxana kimi cinayətkarlığı azaltmaqda məsul olan institutların deviant, yaxud kriminal identikliklərin yaradılması və ya qorunmasında həlledici rol oynamasıdır. Etiketləmə nəzəriyyəçilərinə görə, bu, deviantlığın genişlənməsi ilə nəticələnən "sosial nəzarət paradoksu"nun aydın nümayişidir. Vilkins (1964) deviant identikliklərin necə "idarə edilməsi" və gündəlik həyata inteqrasiya olunmasını araşdırır. Davranışa "deviasiya" etiketinin aid edilməsinin niyyət olunmayan nəticəsi belə davranışın genişlənməsidir, yəni nəzarət mənbəyi faktiki olaraq, onun artmasını şərtləndirir. Etiketlənən şəxs bunu öz identikliyinə yerləşdirir və ikincili deviasiya vasitəsilə etiketin təsir dairəsini genişləndirir. Etiketləmə konsepsiyasının əhəmiyyəti heç bir davranışın özözlüyündə deviant və ya cinayi olmadığını güman etməsidir. Əksinə, deviantlıq və cinayəti həmişə dəyişikliyə məruz qala bilən sosial konstruksiyalar kimi tədqiq etməyə ehtiyac vardır.

*Tənqidi məqamlar*

Etiketləmə nəzəriyyəsi ilkin deviantlığa onun geniş yayıldığına görə nisbətən az əhəmiyyət verir. Lakin ikincili deviantlığa fokuslanmaqla etiketləmə nəzəriyyəçiləri insanları ilkin deviantlıq aktları törətməyə sövq edən prosesləri nəzərdən qaçırırlar. Əhatəli olmağa iddialı istənilən nəzəriyyə həm ilkin, həm də ikincili deviasiyanı nəzərdən keçirməlidir. Etiketləmənin həqiqətən deviantlığı artırma effektinin olub-olmaması da aydın deyildir. Gənclik dövrü cinayətkarlığı məhkəmə qərarı və çıxarılan hökmün nəticəsində artmaq meylinə malikdir, lakin burada digər cinayətkarlarla daha geniş interaksiya və ya yeni kriminal imkanlar haqqında öyrənmə kimi başqa amillər də rol oynaya bilər. Həmçinin, etiketləmə nəzəriyyəsi hakimiyyət münasibətlərinin struktur məsələlərini qaldırsa da, onları izah edə bilmir. Bəzi təsirli qruplar öz mövqelərini necə əldə ediblər? Bu suala cavab vermək üçün cəmiyyətin marksizm və digər konflikt nəzəriyyələri kimi sosioloji nəzəriyyələrə ehtiyac var-

dır. Etiketləmə konsepsiyasının ümumi cəmiyyət nəzəriyyəsi yoxdur.

*Aktuallığın davamı*

Deviantlığı əsasən neqativ fenomen kimi nəzərdən keçirirlər, lakin bütün cəmiyyətlərdə fəaliyyətləri mövcud dominant normalara uyğun olmayan fərd və qruplar üçün müəyyən məkan olmalıdır. Ortodoksal yolu seçən insanlar ilk əvvəl həmişə siyasət, elm, incəsənət və digər sahələrdə yeni ideyalar irəli sürənlərə şübhə və düşmənçiliklə baxırlar. Bu mənada etiketləmə nəzəriyyəsi və deviantlıq sosiologiyası sadəcə cinayət və cinayətin azaldılmasına fokuslanan kriminologiyaya faydalı  əks-balans olduğunu sübut edib. Bu nəzəriyyə qaldırdığı bütün məsələlərə cavab verməsə də, o, deviantlıq və deviant identikliklərin yaradılması məsələlərinə daha diqqətlə yanaşılmasını təmin etdi, bu isə sosioloqlara yeni tədqiqat istiqamətləri üzrə irəliləməyə imkan verdi.

Etiketləmə nəzəriyyəsi diskriminasiyaya məruz qalan qrupların tədqiqində əhəmiyyətini saxlamaqdadır. Con Monkrif (2009) Haitidə "küçə uşaqları" və "restavek"lərin mövqeyini tədqiq etmək üçün bu yanaşmadan istifadə edir. "Restavek" kənd ailələrindən yaşamaq və işləmək üçün şəhərə göndərilən uşaqlara verilən addır. Monkrif onların əksəriyyətilə pis rəftar edildiyini, onlara qarşı şiddət və təcavüzün tətbiq edildiyini, həddən artıq uzunmüddətli iş saatlarının olmasını göstərirdi. Hökumət rəsmiləri isə restaveklərə fərqli şəkildə baxırlar. Bəziləri bu sistemi Haitinin adına ləkə kimi gördüyü halda, digərləri onun faydalı iqtisadi funksiya icra etdiyini düşünürlər. Lakin "küçə uşaqları" etiketi Haitidə qrupların ən həqarətlisi kimi daha çox neqativ reaksiya doğurur. Hər iki etiket bütün qruplar və təşkilatlar, hətta yoxsulluqla mübarizə aparan missionerlər tərəfindən də istifadə olunur.

"Deviantlıq" anlayışı sosial qanunlara adaptasiyaya əks mövqedə dayanır. Lakin bu anlayış qaydaların normallaşmasının hələ baş vermədiyi kontekstdə tətbiq edilə bilərmi? Kibermәkanın nisbətən "qanunsuz" olmasını nəzərə aldıqda, deviantlıq və normallıq təriflərinin olduqca təsadüfi olduğu düşünülə bilər, lakin insanlar onlayn mühitdə "offlayn" konvensiyalar və normaların gözlənilmə-

si zərurətinə meyillidirlər. Deneqri-Nott və Teylor (2005) mövzuya aid maraqlı tədqiqatlarında sosial normaların hələ təşəkkül tapdığı virtual mühitlərdə MP3-yazıları və fleyminqin, yəni təxribatçı və təhqiredici dildən istifadənin birgə istifadə olunduğu onlayn mübadiləni öyrəniblər. Onların əsas məqsədi isə "deviasiya" anlayışının burada müşahidə edilən davranışlara şamil olunmasının mümkünlüyünü müəyyənləşdirmək idi.

*İstinadlar və ədəbiyyat:*

Becker, H. S. (1963) Outsiders: Studies in the Sociology of Deviance (New York: Free Press).

Denegri-Knott, J., and Taylor, J. (2005) 'The Labeling Game: A Conceptual Exploration of Deviance on the Internet', Social Science Computer Review, 23(1): 93–107.

Hopkins Burke, R. (2009) An Introduction to Criminological Theory (3rd edn, Cullompton, Devon: Willan), chapter 9.

Moncrieffe, J. (2009) 'When Labels Stigmatize: Encounters with "Street Children" and "Restavecs" in Haiti', in R. Eyben and J. Moncrieffe (eds), The Power of Labelling: How We Categorize and Why it Matters (London: Earthscan), pp. 80–96.

Wilkins, L. T. (1964) Social Deviance: Social Policy Action and Research (London: Tavistock).

## ***Əxlaqi panika* (Moral Panic)**

*İşçi tərif*

Daha ümumi sosial və ya əxlaqi xəstəliyin simptomu kimi qəbul edilən müəyyən davranış qrupu, yaxud tipinə verilən ifrat sosial reaksiyadır.

*Anlayışın mənşəyi*

Deviasiyanın güclənmə prosesi Stenli Kohen tərəfindən aparılan olduqca nüfuzlu "Xalq şeytanları və əxlaqi panika" (1972) adlı araşdırmada tədqiq edilmişdir. Klassikaya çevrilmiş kitabında S.Kohen İngiltərədə gənclik mədəniyyətinin ortaya çıxması ilə etiketləmə və ona nəzarət prosesini təhlil edir. O, dənizkənarı Klak-

ton şəhərində "Mod"lar və "Roker"lər arasındakı 1964-cü ildə baş verən kiçik toqquşmaların bəzilərini müşahidə etsə də, sonrakı gün müşahidələrinin qəzet xəbərləri ilə uzlaşmadığını görür. Kohen hadisələrin əhəmiyyətinin şişirdilməsi və sonrakı etiketləməni əxlaqi panika nümunəsi kimi nəzərdən keçirir, hansı ki, bu zaman gənclik ictimaiyyət tərəfindən geniş sosial problemlərin "günah keçisinə" çevrilmiş olur. Medianın diqqəti deviasiyanın güclənməsinə gətirib çıxarır. Sonrakı tədqiqatlarda təhlükəli itlər, narkotik istifadəsi, dəli "ladetlər" (*ladette* – "kişiyanə" davranan, sərxoş olub, ictimai asayişi pozan gənc qadınlar), immiqrasiya və digər məsələlərlə bağlı artan sosial narazılığı araşdırmaq üçün əxlaqi panika anlayışından istifadə edilib. Bəzi nəzəriyyəçilərə görə, əxlaqi panika sosial nəzarət mexanizmi kimi geniş yayılmış və cəmiyyətin sosial reproduksiyasının (özünü təkrarlaması) bir hissəsinə çevrilmişdir. Güman ki, ayrı-ayrı əxlaqi panikalar dövrü sona çatıb.

*Məna və interpretasiya*

1964-cü ildə Britaniyanın dənizkənarı istirahət zonasında baş verənlərdən sonra qəzetlər öz materiallarını qorxunc başlıqlarla təqdim etdilər - "Skuter qruplarının terror günü", "Dəniz kənarını işğal edən vəhşilər", "Gənclər şəhəri alt-üst etdi". Bu reaksiya ilə maraqlanan Kohen şahid açıqlamaları, məhkəmə hesabatları və digər sənədli mənbələrlə real hadisələrin rekonstruksiyasına başladı. O, qəzet məlumatları və manşetlərinin doğru olmadığını aşkara çıxardı. Heç bir ciddi zorakılıq faktı baş verməmişdi, heç kəs xəstəxanaya yerləşdirilməmişdi, vandalizm heç də əvvəlki bayram həftəsonlarından daha pis deyildi. Kohen bildirir ki, gənc insanların hərəkətlərini bu dərəcədə sensasiya kimi təqdim etməklə, media nəşrləri cəmiyyətin əxlaq normalarının təhlükə altında olması ilə bağlı qorxu və panikaya zəmin yaradır. Belə etməklə onlar, çox güman ki, özləri də istəmədən gənclər haqqında xəbər verməkdən daha çox, gənclik identikliklərinin yeni formalarının konstruksiyasına səbəb olurdular. 1964-cü ilə qədər "Mod"lar və "Roker"lər ayrı-ayrı submədəniyyətlər olaraq mövcud deyildilər və onların zənn edilən qarşılıqlı antipatiyası medianın onlar haqqında təsəvvürlərindən nəşət

alırdı. Sonrakı illərdə bütün belə yığıncaqlar müxalif submədəniyyətlərin bir-birinə, o cümlədən də dominant cəmiyyətə qarşı zorakılıq meyili çərçivəsində təsvir edilməyə başlandı.

Kohenə görə, bir qrupun "autsayderlər" ("xalq şeytanları" etiketinin qoyulması) adlandırılması insanların bütövlükdə cəmiyyətin inkişaf istiqaməti haqqında narahatlığa fokuslanmasına kömək etdi. İcazə verilən davranışların artması, 1958-ci il hərbi mükəlləfiyyətinin aradan qaldırılması nəticəsində intizamsızlıq, ailələrin dağılması və ciblərində əvvəllər heç vaxt olmadığı qədər çox pul olan maddiyyatçı nəslə münasibətdə getdikcə artan qorxu "günah keçisi"nə çevrilən gənclik submədəniyyətlərinin üzərinə yükləndi. Əxlaqi panikaların çoxu yeni qanunvericilik aktlarının qəbulundan sonra başa çatır. Məsələn, cinayət ziyanı haqqında yeni qanun 1960-cı illərdə nəzarətdənkənar gənclik haqqında narahatlığın azalması ilə nəticələndi. Lakin "pank"dan "rave" mədəniyyətinə qədər hər bir gənclik submədəniyyəti ətrafında oxşar panikalar olmuşdur.

Əxlaqi panika tipik sxem üzrə formalaşır. Bu proses nəyinsə və ya hansısa qrupun ümumi əxlaqi dəyərlərə təhdid kimi identifikasiya edildiyi zaman başlayır. Belə təhdid kütləvi mediada bu və ya digər məsələyə ictimaiyyətin həssaslığını və ictimai narahatlıq dərəcəsini qaldıraraq, şişirdilir və bəsitləşdirilir. Bu isə nəticədə "nəsə edilməlidir" çağırışlarına səbəb olur və hökumətlərin yeni qanunvericilik vasitəsilə müdaxilə etməsi ilə bağlı təzyiqlər başlayır. Bəzi hallarda panika medianın diqqət tsiklinin sona çatmasına qədər davam edir. Kohenin tədqiqatından bəri əxlaqi panikaya dair çoxlu tədqiqatlar aparılıb və tarixçilər XIX əsrə, hətta daha əvvəllərə aid belə hallar aşkar ediblər.

Ceffri Pirson Londonda 1860-cı illərdə zorakılıq tətbiq olunmaqla həyata keçirilən soyğunçuluq hallarının sanki nəzarətdən çıxması təsəvvürü yarandığı zaman əxlaqi panikanın spesifik formasının mövcud olduğunu üzə çıxarıb. Qəzetlər zəngin vətəndaşların hədəfə çevrildiyi soyğunlar zamanı xəncərlərin istifadəsi və komanda işinə diqqət yetirərək, qurbanı boğaraq öldürmə halları haqqında yazırdı. Cinayətlərin Britaniyaya xas olmaması qeyd olunurdu və bu, son zamanlar italyanların miqrasiyası ilə əlaqələndirilə

bilərdi. Pirson bildirirdi ki, panika hökumətin qamçılama, sürgün və fiziki cəzaları ləğv etməsi ilə cinayətə münasibətdə "yumşalmaya getməsindən" irəli gələn sosial qorxuların nəticəsi idi. Əxlaqi panika nəzəriyyəsi interaksionist sosiologiyanın əxlaq təəssübkeşlərini, ictimai fikir formalaşdıranları, polis və ədliyyə sistemini, qanunvericiliyi, geniş ictimaiyyəti və əlbəttə, "deviantlar"ı bir araya gətirən və interaksiya prosesində əlaqələndirən yaxşı bir nümunəsidir.

*Tənqidi məqamlar*

Tənqidçilərə görə, bu nəzəriyyənin əsas problemi onun şişirdilmiş əxlaqi panika və ciddi sosial problem arasındakı fərqləndirməni necə aparmasıdır. Məsələn, XXI əsrdə islam adı ilə terror hücumlarına qarşı yaranan sosial cavab əxlaqi panikanın bir hissəsidir, yoxsa KİV-də geniş işıqlandırılma və yeni qanunvericiliyin qəbul edilməsini tələb edən ciddi sosial problemdir? Zəruri olmayan panika və legitim cavab arasındakı sərhəd haradadır və buna kim qərar verir? Növbəti tənqidlər ondan ibarətdir ki, son illərdə gənclərin törətdikləri cinayətlər, narkotik vasitələrdən istifadə məsələləri, habelə saxta sığınacaq axtaranlarla bağlı əxlaqi panika artıb. Bu da sosioloqların əxlaqi panikanın gərgin aktivliyin qısa partlayışları ilə bağlı olmadığını, modern cəmiyyətlərdə gündəlik həyatın xroniki səciyyəsinə çevrildiyini və normallaşdığını iddia etmələri ilə nəticələndi. Əgər belədirsə, deviantlığı normallıqdan ayırmaq çox çətindir.

*Aktuallığın davamı*

Biz əxlaqi panika və onun necə inkişaf etdiyini bilirik, lakin onun digər üzü daha az başa düşülür. Nəyə görə bəzi sosial məsələlər, ümumiyyətlə, əxlaqi panikaya çevrilmir? Bu sual Cenkins (2009) tərəfindən internetdə uşaq pornoqrafiyasına sosial reaksiyaya dair mükəmməl diskussiyada irəli sürülür. İnsanların onlayn uşaq pornoqrafiyasına münasibətdə qorxularını əhatə edən çoxsaylı şərh və diskussiyalara, habelə geniş ictimaiyyətə bəlli olan ittihamedici məhkəmə qərarlarına baxmayaraq, internetdə uşaq pornoq

rafiyası problemi klassik əxlaqi panika yaratmamışdır. Bu, qəribədir, çünki ilk baxışda klassik əxlaqi panika üçün bütün zəruri cəhətlər vardır. Cenkinsə görə, bunun bir səbəbi hüquq-mühafizə orqanlarının şəbəkədə uşaq pornoqrafiyasının yaradılması, yayılması və istifadəsi texnologiyalarını düzgün başa düşməmələridir.

Kohenin erkən tədqiqatı xüsusilə vacibdir, çünki o, etiketləmə nəzəriyyələrini sosial nəzarət və deviant identikliklərin yaradılması ideyaları ilə uğurlu şəkildə birləşdirdi. Bununla da indiyədək aktual olan deviantlıq sosiologiyasında məhsuldar tədqiqat proqramı üçün çərçivə yaratdı. Məsələn, Lamsden (2009) Şotlandiyanın Aberdin şəhərində əxlaqi panikaya səbəb olmuş "Bouley Bashers" kimi tanınan avtomobil entuziastlarının submədəniyyətini tədqiq etmişdir. Belə bir fərziyyə irəli sürülmüşdü ki, müasir "xalq şeytanları" etiketləməyə ciddi müqavimət göstərməyə qadirdirlər, belə ki, onlar hakim mediaya qarşı gələ bilən öz medialarını (bloq və s.) yaradırlar. Lakin bu halda proses klassik əxlaqi panika kimi cərəyan etmişdir. "Avtoxuliqanlar" media, digər qruplar və hökumət tərəfindən marginallaşdırılaraq, etiketlənmiş və stiqmatiziasiyaya (antisosial davranış qanunvericiliyi ilə) məruz qalmışdılar. Onların situasiyanı yenidən müəyyən etmək cəhdlərinə rəğmən, nəticə etibarilə bu etiket, əksinə, daha da möhkəmlənmişdi.

*İstinadlar və ədəbiyyat:*

Cohen, S. (1972) Folk Devils and Moral Panics: The Creation of the Mods and Rockers (Oxford: Martin Robertson).

Goode, E., and Ben-Yehuda, N. (2009) Moral Panics: The Social Construction of Deviance (Oxford Wiley-Blackwell), esp. chapter 10 on the 'witch craze'.

Jenkins, P. (2009) 'Why do Some Social Issues Fail to Detonate Moral Panics?', British Journal of Criminology, 49: 35–47.

Lumsden, K. (2009) '"Do We Look Like Boy Racers?" The Role of the Folk Devil in Contemporary Moral Panics', Sociological Research Online, 14(1): www.socresonline.org.uk /14/1/2.html.

Thompson, K. (1998) Moral Panics (London: Routledge).

## ***Sosial nəzarət*** **(Social Control)**

*İşçi tərif*

Tabeliyi təmin etmək üçün bütün formal və qeyri-formal mexanizmlərin, zahiri və daxili tənzimləyicilərin məcmusudur.

*Anlayışın mənşəyi*

Nəzarət nəzəriyyələri XVII əsr ingilis filosofu Tomas Hobbsun təlimi ilə əlaqələndirilir. O, şəxsi maraq güdən fərdlər cəmiyyətində “hamının hamıya qarşı müharibəsi”nin qarşısını almaq üçün güclü iqtidarın zəruri olduğunu vurğulayırdı. Dövlətlə fərd arasında mövcud müqavilə vətəndaşların loyallığı müqabilində onların dövlət tərəfindən müdafiəsini təmin edir. Sosial nəzarətin sosial elmə daxil olması ilə daha mürəkkəb sosioloji perspektivlər inkişaf etdirildi.

XIX əsrin sonunda Edvard Ross sosial nəzarətin insanları sosial qaydalara uyğunlaşdırmaq üçün onlar üzərində bütün təzyiqləri ehtiva etdiyini güman edirdi. Ancaq bu, çox ümumi yanaşma idi. Talkott Parsons (1937) sosiallaşmaya əsaslanan alternativ təklif irəli sürdü. O bildirirdi ki, tabelik yalnız qorxu və xarici amillərlə deyil, həm də sosiallaşma prosesində insanların mənimsədikləri normalar və dəyərlər vasitəsilə formalaşdırılır. Daha spesifik cavab isə Travis Hirşi (1969) tərəfindən təklif olundu. Onun fikrincə, yeniyetmə cinayətkarlığı fərdin cəmiyyətlə bağlarının zəifləməsi və ya qırılması nəticəsində baş verir. Bu nəzəriyyə insanların ailə, yaşıdlar və sosial institutlara olan bağlılıqlarına diqqət yönəldirdi. Marksist nəzəriyyəçilərə görə isə dövlət sosial nəzarətin yaradılmasında aparıcı aktordur və kapitalist cəmiyyətlərində bu, fəhlə sinfinə nəzarətdən ibarətdir.

*Məna və interpretasiya*

Sosial nəzarət deviasiyanın əks tərəfidir. Deviantlıq və cinayət sosioloqları insanların niyə sosial normalar və qanunları pozduqlarına diqqət yetirərkən, sosial nəzarət nəzəriyyəçiləri əks sual verirlər: insanlar niyə tabe olurlar? Müxtəlif sosial nəzarət yanaşmalarını nəzərdən keçirmə yollarından biri onları “tabeolma” və “deviantlığı sıxışdırma” nəzəriyyələrinə bölməkdir (Hudson 1997).

Birinci yanaşma sosial rol və sosial normaların internalizasiyasına, ikinci isə deviant davranış və onun azaldılması üçün həyata keçirilən tədbirlərə yönəlib. Şübhəsiz ki, bu iki yanaşmanı birləşdirməyə qadir olan nəzəriyyələr daha dolğundur.

Parsons "sosial nizam problemi" adlandırdığı məsələyə – cəmiyyətin hansı yolla kifayət qədər tabeolmanı nəsillər boyu təmin etməsinə diqqət yönəldir. O qeyd edir ki, tabeolma məcburi deyil və ya səssiz şəkildə baş vermir. Əksər insanlar fəal şəkildə tabe olurlar. Çünki sosial normalar kənarda deyil (hüquq dərslikləri və davranış kitablarında), bizim öz daxilimizdə mövcuddur. Sosiallaşma bizim özümüzü necə hiss etməyimizin sosial qaydalara tabelolma ilə əlaqəsini təmin edir və bununla da "yaxşı insan" obrazımızın formalaşmasına yardımçı olur. Əslində, biz öz-özümüzün senzurası olmaqla, davranışımız üzərində "polis rolu"nu icra edirik. Məsələn, Devid Matzanın (1964) yuvenal cinayətkarlığa dair tədqiqatı aşkar etdi ki, hətta qanunu pozanlar cəmiyyətin ümumi dəyərlərini bölüşür və cinayətə yol verərkən öz obrazlarını qorumaq üçün "neytrallaşdırma texnikaları" (qanunu nədən pozduqları haqqında narrativlər vasitəsilə) formalaşdırmalı olurlar.

Hirşinin sosial nəzarət nəzəriyyəsində tabeolma sosial bağlara əsaslanaraq nəzərdən keçirilir. Onlar isə dost, ailə, yaşıdlar, adət olunan həyat tərzi, normal, qanuni həyata bağlılıq, habelə qanuna və nüfuzlu şəxslərə hörmət kimi inamlar vasitəsilə yaradılır. Bu bağlılıqlar fərdi dominant fəaliyyətdə saxlamaqla, onu deviant davranış imkanlarından yayındırır. Buna görə də, deviantlığın səbəbi yalnız fərdi patologiya və ya eqoist fərdiyyətçilik olmayıb, həm də cəmiyyət, onun mərkəzi agentivlikləri və institutlarına bağlılıq çatışmazlığından qaynaqlanır ki, bu da insanın deviant şirnikləndirmələr qarşısında zəif olmasına gətirib çıxarır. Deviasiyanın izaha ehtiyacı yoxdur, çünki o, uyğun imkanların olduğu hər yerdə mövcuddur.

Cinayətin genderləşmiş strukturu nümunə ola bilər, bu, bəlkə də cinayətlərin rəsmi statistikasının ən nəzərəçarpan aspektidir. Niyə qadınlar daha az, kişilər isə bu qədər çox cinayət törədirlər? Hirşinin nəzəriyyəsinə görə, cavab oğlan və qızlara valideynlər və sosial institutların fərqli nəzarət etməsindən qaynaqlanır. Oğlanlar er-

kən yaşdan ictimai sferaya daxil olmağa və risk etməyə ruhlandırılır ki, bu da onların gözlənilən yetkin maskulinlik rollarına adaptasiya edəcək tərzdə yetişmələrinə yardım edir. Oğlanlar evdən kənarda nə qədər çox vaxt keçirirsə, onların deviant davranış üçün o qədər çox imkanları olur. Digər tərəfdən, gənc qızlar valideyn evinə daha bağlı saxlanılır və xüsusən də, axşam saatlarından sonra kənar aləmdən uzaqlaşdırılır. Bu da onların sosial normalara qarşı çıxmaq imkanlarını azaldır.

*Tənqidi məqamlar*

Parsonsun sosial nəzarətə sosioloji yanaşması diqqəti kənar nəzarətdən daxili özünənəzarətə doğru yönəldir. Bununla o, bu fenomeni dərk etməyimizə yeni istiqamət əlavə edir. Lakin tənqidçilər göstərir ki, sosiallaşmaya tabeolmanın təmin edilməsində, bəlkə də, onun daşıya biləcəyindən daha çox önəm verilir. Əksər tədqiqatçılar sosiallaşma və özümlülüyün formalaşmasını emosional yüklənmiş gərginliklərlə müşayiət olunan, mahiyyətcə konfliktli proseslər kimi nəzərdən keçirirlər. Bu o deməkdir ki, sosial norma və dəyərlərin eyni toplusunun hər kəs tərəfindən özününkü ediləcəyinə dair heç bir zəmanət ola bilməz. Tabeliyin ortaya çıxması üçün Parsonsun güman etdiyindən daha çox nəsə olmalıdır.

Sosial nəzarətə aid etiketləmə konsepsiyalarını da ehtiva edən sonrakı nəzəriyyələrdə sosial nəzarət və deviantlığa sıx bağlı olan fenomenlər kimi yanaşılır. Onların arasındakı münasibət kifayət qədər ironikdir: deviantlığın qarşısını almağa nə qədər çox sosial nəzarət agentivlikləri çalışarsa, onun bir o qədər daha çox meydana çıxacağı ehtimalı vardır. 1960-cı illərdən bəri deviantlığın interaksionist tədqiqatlarında sosial nəzarətin güclənməsi daha çox davranışın deviant kimi damğalanmasına, nəticədə isə deviant fəallığın ekspansiyasına gətirib çıxarır.

*Aktuallığın davamı*

Uzun zamandır ki, sosial nəzarət və sosial nizam problemləri sosioloji nəzəriyyənin predmetidir. Sonuncunun tədqiqi sosioloqların struktur və agentivlik problemlərini, mikro və makrosəviyyəli fenomenləri, habelə sosiallaşma və tabeolma ilə bağlı məsələləri

öyrənməsinə səbəb oldu. Lakin bunların hamısı cinayət və deviantlıqdan ayrı nəzərdən keçirilə bilməz, çünki onlar mahiyyətinə görə bir medalın iki tərəfidir. Beləliklə də, cinayətkarlıq və deviantlığın tədqiqi aparıldıqca, sosial nəzarətin dərk olunması üçün onların rolunun nədən ibarət olmasına maraq qalacaqdır.

Antisosial davranışla mübarizə bəzi innovativ sxemlərin ortaya çıxmasına səbəb oldu. Onlardan biri sosial evlərin idarə olunmasının ictimai asayişə polis nəzarəti ilə kombinasiyasıdır. Braun (2004) qeyd edir ki, Birləşmiş Krallıqda antisosial davranış konsepsiyası dövləti əvvəllər kriminal ədalət sisteminin səriştəsindən kənarda görülən spesifik fəaliyyət növləri üzərində düşünməyə vadar etdi. Onun fikrincə, bu dəyişiklik sosial nəzarətin özündə həm qayğı, həm də müstəlif məşğuliyyət sahələrinə nəzarəti ehtiva edən yeni növünün yaranmasını, eyni zamanda əvvəlki modelin uğursuzluğunu göstərir.

Hirşinin nəzarət nəzəriyyəsi güclü bağlılıqların insanları deviantlıqdan "peyvəndlədiyini" iddia edir. Lakin But və həmkarlarının (2008) sosial nəzarət, gender və yeniyetmə cinayətkarlığına həsr olunan tədqiqatında bu fikir yenidən nəzərdən keçirilir. Valideyn bağlılığının qızlara daha çox təsir gücü olduğunu bildirən öncəki işlərdən fərqli olaraq, bu tədqiqat valideyn bağlılığının həm qızlar, həm də oğlanların riskli davranış və qanun pozuntusuna cüzi təsirini göstərdi. Əksinə, sosial fəaliyyətlərə qoşulma (idman, kilsə və məktəb tədbirləri) müxtəlif effektlərə gətirib çıxarır. Qeyri-idman xarakterli kilsə və məktəb tədbirləri qızların deyil, oğlanların ciddi qanun pozma səviyyəsini azaldır. İdman tədbirlərinə qoşulma isə, əksinə, oğlanların deyil, qızların qanun pozma səviyyəsini azaldır. Bu o deməkdir ki, idmanın oğlanları, kilsə və qeyri-idman fəaliyyətlərinin isə qızları cinayətkarlıqdan uzaq saxladığı haqqında ideyalar yalnışdır. Müəlliflər o qənaətə gəlirlər ki, sosial əlaqələr arasında əhəmiyyətli fərqlər var ki, bu deviasiyanın ümumi təhlilindən daha çox gender əsaslı təhlilini zəruri edir.

*İstinadlar və ədəbiyyat:*

Booth, J. A., Farrell, A., and Varano, S. P. (2008) 'Social Control,

Serious Delinquency, and Risky Behavior', Crime and Delinquency, 54(3): 423–56.

Brown, A. P. (2004) 'Anti-Social Behaviour, Crime Control and Social Control', Howard Journal of Criminal Justice, 43(2): 203–11.

Hirschi, T. (1969) Causes of Delinquency (Berkeley: University of California Press). Hudson, B. (1997) 'Social Control', in M. Maguire, R. Morgan and R. Reiner (eds),The Oxford Handbook of Criminology (2nd edn, Oxford: Oxford University Press), pp. 451–72.

Innes, M. (2003)Understanding Social Control: Crime and Social Order in Late Modernity(Buckingham: Open University Press), esp. Chapters 1and 2.

Matza, D. (1964) Delinquency and Drift (New York: John Wiley).

Parsons, T. (1937) The Structure of Social Action (New York: McGraw-Hill)

# MÖVZU 10. SİYASİ SOSİOLOGİYA

## Demokratiya (Democracy)

*İşçi tərif*

Birbaşa və ya siyasi nümayəndələrin seçilməsi vasitəsilə siyasi qərarvermədə vətəndaşların iştirakını təmin edən siyasi sistemdir.

*Anlayışın mənşəyi*

"Demokratiya" anlayışı yunan mənşəli "demos" (xalq) və "kratos" (hakimiyyət, idarəetmə) sözlərinin birləşməsindən meydana gəlib. Konseptin radikal təbiəti aydındır, cəmiyyətlər imperatorlar, monarxlar və ya seçilməmiş diktatorlar tərəfindən deyil, "xalq" tərəfindən idarə edilməlidir. Lakin Qədim Yunanıstanda kütləvi demokratik iştirakın birbaşa növü tətbiq edilsə də, mühüm idarəetmə qərarları əhalinin böyük hissəsinə şamil edilməyən xüsusi hüquqlara malik nisbətən azsaylı "vətəndaşlar" qrupu tərəfindən qəbul edilirdi. Demokratik idarəetmə fərqli dövrlərdə və cəmiyyətlərdə müxtəlif formalar alıb, bu həm də "xalq" anlayışının zaman və məkan etibarilə mahiyyətinin dəyişməsinə görədir. Müxtəlif dövrlərdə "xalq" anlayışı yetkin kişilər, mülkədarlar və ya yetkin kişi və qadınlarla məhdudlaşırdı. İnsanların özlərini təmsil etmələri üçün seçdikləri nümayəndəli demokratiya "xalq tərəfindən idarəetməyə nail olma"nın normal metodu olub. 1990-cı illərdə Şərqi Avropada kommunist rejimlərin süqutu ilə "liberal" demokratiyanın nümayəndəli formaları bütün dünyada dominant model kimi nəzərdən keçirilir.

*Məna və interpretasiya*

Demokratiya ümumən daha yüksək səviyyədə siyasi bərabərliyi təmin edən, azadlığı qoruyan, ümumi marağı müdafiə edən, vətəndaşların ehtiyaclarını qarşılayan, əxlaqi özünüinkişafı təşviq edən, habelə hər kəsin maraqlarını nəzərə alan effektiv qərarverməyə qadir olan siyasi sistem kimi nəzərdən keçirilir (Held 2006). Nü-

mayəndəli demokratiya siyasi "toplum"a təsir edən qərarların birbaşa olaraq onun üzvləri tərəfindən deyil, onların seçdikləri şəxslər tərəfindən qəbul edildiyi siyasi sistemdir. Milli dövlətlərdə nümayəndəli demokratiya konqres, parlament və oxşar milli orqanlara seçkilər formasını almışdır. Nümayəndəli demokratiya digər səviyyələrdə, əyalətlər, yaxud da ştatlar, kantonlar, şəhərlər və digər regionlar daxilində də mövcuddur.

Seçicilərin iki və ya daha çox partiyalar arasında seçim edə bildiyi və yetkin yaşlı əhali kütləsinin səsvermə hüququ olduğu ölkələr, adətən, liberal demokratiya adlandırılır (Böyük Britaniya, ABŞ, Yaponiya və Avstraliya).

1980-ci illərin əvvəllərindən etibarən Latın Amerikasında Çili, Boliviya və Argentina kimi ölkələr avtoritar hərbi idarəetmədən demokratiyaya keçid etdilər. Oxşar şəkildə, 1989-cu ildə Kommunist blokunun süqutundan sonra əksər Şərqi Avropa ölkələri, məsələn, Rusiya, Polşa və Çexoslovakiya demokratik keçidi yaşadılar. Afrikada Benin, Qana, Mozambik və CAR kimi qeyri-demokratik ölkələr də demokratik idealları dəstəkləməyə başladılar. Demokratiya artıq əsasən Avropa ölkələrində mərkəzləşmədi və ən azından prinsip etibarilə dünyanın əksər ərazilərində arzu edilən idarəetmə forması kimi dəstəkləndi.

Bunun bir səbəbi də digər siyasi sistemlərin sadəcə uğursuzluğa düçar olması ola bilər. Bu perspektivdən güman ki, demokratiya insan kütlələrinin ehtiyaclarını digər sistemlərə nəzərən daha yaxşı qarşıladığını göstərib. Bəziləri bu arqumenti irəli sürsə də, qloballaşmanın təsirlərinin demokratiyanın bütün dünyaya yayılmasında mühüm rol oynadığı düşünülür. Qlobal media, o cümlədən informasiya-kommunikasiya texnologiyalarındakı tərəqqi siyasi elitalar üzərində daxili təzyiqi artırmaqla qeyri-demokratik dövlətlərdəki insanları demokratik ideallara sövq edərkən, artan transmilli əlaqələr də əksər ölkələrdə demokratik hərəkatları canlandırdı.

Daha mühümü odur ki, qlobal media və ani kommunikasiyalar demokratik inqilablar və mobilizasiyalar haqqında xəbərləri yaydı. Polşada 1989-cu ildə inqilab xəbəri sürətlə Macarıstana yayılaraq, demokratiyaya meyilli aktivistləri öz etirazları üçün faydalı, regional olaraq doğru modellə təmin etdi. 2011-ci il "Ərəb baha-

rı" Tunis, Misir, Liviya və Yəməndə siyasi liderlərin devrilməsini, hətta Suriyada destruktiv vətəndaş müharibəsinə səbəb olan etirazlar dalğasını doğurdu. BMT və Avropa Birliyi kimi beynəlxalq təşkilatlar qlobal siyasətdə mühüm rol oynamaqla yanaşı, qeyri-demokratik dövlətlərin dəyişməsi üçün təzyiq edirlər.

*Tənqidi məqamlar*

Nümayəndəli demokratiyanın üstünlüyü mütləq deyildir. İştiraklı demokratiyanın aspektləri bu gün də demokratiyalarda müəyyən rol oynayır. Yeni İngiltərədə (ABŞ) kiçik şəhər birlikləri illik "şəhər yığıncaqları" keçirir. Bununla bərabər, referendum əksər ölkələrdə geniş populyarlıq qazanıb. Bu, müəyyən məsələlər üzrə əhali ilə birbaşa məsləhətləşmənin aparıldığı hallarda mümkündür. Bir qayda olaraq, referenduma vətəndaşların cavablandırmalı olduqları bir və ya iki sual çıxarılır. Bəzi Avropa ölkələrində referendum milli hökumətlərin yeni Avropa Konstitusiyasına üzv olması kimi mühüm siyasi qərarları formalaşdırmaq üçün milli səviyyədə müntəzəm olaraq istifadə edilir. Referendumlar həmçinin Kanadada fransızdilli əhalinin çoxluq təşkil etdiyi millətçi regionun ayrılması kimi mübahisəli məsələ və 2016-cı ildə Britaniyanın Avropa Birliyini tərk etmək, ya da onun tərkibində qalmaqla bağlı qərarın qəbulu üçün istifadə edilib.

Demokratiyaya doğru ümumi trend qaçılmaz kimi nəzərdən keçirilməməlidir. Polşa, Çexiya Respublikası və Macarıstanda liberal demokratiyanın möhkəm dayaq qazandığı görünür. Lakin keçmiş sovet respublikalarından Orta Asiya ölkələri, Yuqoslaviya və hətta Rusiyanın özündə belə demokratiya hələ də kövrəkdir. Demokratiyanın hər yerdə zəfər qazandığını güman etməmək üçün başqa bir səbəb yaradılmış demokratiyaların üzləşdiyi daxili problemlərdir. Məsələn, Britaniyada Avropa Parlamentinə ümumi və lokal seçkilərdə səs verənlərin sayı 1990-cı illərə nisbətən nəzərəçarpacaq dərəcədə azalıb. Siyasi elitaların xalqın maraqlarını doğru şəkildə təmsil etməməsi təəssüratı (xüsusən də, 2009-cu il xərclərlə bağlı qalmaqal) siyasətçilərə və formal demokratik siyasətə olan inamın itməsinə səbəb olub. İnsanların konkret məsələlərlə bağlı kampaniyalar aparmaq üçün könüllü qruplar formalaşdırmasına və

ya sosial hərəkatlar yaradaraq, "siyasət yürütmə"nin daha az formal tərzlərinə yönəlməsinə dair sübutlar vardır.

*Aktuallığın davamı*

Frensis Fukuyama (1992, 2006) iddia edirdi ki, keçmişin ideoloji savaşları sona çatıb və biz "tarixin sonu" mərhələsindəyik. Artıq heç kim monarxizm, faşizm və ya kommunizmi müdafiə etmir. Kapitalizm sosializmlə mübarizədə zəfər qazandı və liberal demokratiya şəksiz qalibdir. Son dövrlərin bəzi hadisələri bu fikirləri təsdiqləyir. Lakin indi kosmopolitizm nəzəriyyəçiləri qeyd edirlər ki, milli demokratiyalar artıq qlobal proseslərin tələblərinə cavab verə bilmirlər.

Kosmopolit demokratiya onun əksər tərəfdarlarına yüksək iddialı postmilli siyasət layihəsi kimi görünür. Lakin Kalhun (2007) bildirir ki, bu siyasi layihə zamanından öncə elan edilməsilə yanaşı, həm də son dərəcə təhlükəlidir. Çünki 1990-cı illərin əvvəllərindən etibarən zorakı münaqişələr, soyqırım halları, terrorizm və ona verilən cavablar, eləcə də beynəlxalq iqtisadi resessiya kosmopolitizmin illüziya olaraq qaldığını göstərib. Bu xəyal modernin yarandığı dövrdən onu müşayiət edib. Kosmopolitizm millətçiliyə zidd olmayıb, onunla sıx bağlıdır. Bundan əlavə, millətçilik böyük sayda insan və əksər azadlıq hərəkatları üçün əsas identifikasiya mənbəyidir və təbiətinə görə təhlükəli deyildir. Həqiqətən də, milli identiklik demokratiya, sosial inteqrasiya və vətəndaşlıq uğrunda mübarizədə həyati qüvvə olaraq qalsa da, kosmopolitizmin tərəfdarları onu yanlış qiymətləndirirlər. Hazırda Kalhun kosmopolit demokratiyanın ən enerjili və konstruktiv tənqidçilərindən biridir.

Demokratiyaların möhkəmlənməsi üçün zaman lazımdır və əksər tədqiqatçılar siyasi partiyaların öz tərəfdarları arasında loyallıq formalaşdıra bilməməsinə görə yeni demokratik rejimlərin daha az stabil olduğunu vurğulayır. Lakin XX əsrdə Argentinada siyasi mənsubluq və demokratik inkişafın tarixi təhlilini aparan Lupu və Stoks (2010) demokratiya dövrlərində elektoral stabilliyin artdığını, lakin diktatura dövründə yenidən azaldığını göstəriblər. Bu tədqiqat yeni və güman edilən demokratiyaların demokratik mədəniyyətin möhkəmlənməsinə əngəl olan hərbi çevrilişlər tərəfindən ciddi şə-

kildə pozula bildiyini göstərir. Bunun bir aspekti də ondan ibarətdir ki, hərbi çevrilişlər tərəfindən demokratiyanın davamlı şəkildə pozulması effektiv seçkilərin qarşısını alır, xalq hərəkatı partiyalarını eroziyaya uğradır və beləcə, demokratik sistemləri stabilləşdirmək üçün ehtiyac duyulan kumulyativ partiya loyallığına əngəl yaradır.

*İstinadlar və ədəbiyyat:*

Calhoun, C. (2007) Nations Matter: Culture, History and the Cosmopolitan Dream(London:Routledge).Cosmopolitan Dream (London: Routledge).

Fukuyama, F. ([1992] 2006) The End of History and the Last Man (London: Hamish Hamilton).

Held, D. (2006) Models of Democracy (3rd edn, Cambridge: Polity).

Lupu, N., and Stokes, S. (2010) 'Democracy, Interrupted: Regime Change and Partisanship in Twentieth-Century Argentina', Electoral Studies, 29(1) March: 91–104.

## İqtidar (Power)

*İşçi tərif*

Müəyyən fərd, qrup və ya icmaların onlara qarşı çıxanların müqaviməti və çağırışlarına zidd olaraq istədiklərini etmək və məqsədlərinə çatmaq qabiliyyətidir.

*Anlayışın mənşəyi*

"İqtidar" siyasi sosiologiyanın demək olar ki, mərkəzi anlayışıdır. Lakin onun dəqiq mənası və təbiəti müzakirə mövzusudur. İqtidarın nə olduğu ilə bağlı ümumi konsensus yoxdur. Sosiologiyada iqtidarın tədqiqində Maks Veberin ideyaları nəzərə alınmalıdır. Veberə görə, iqtidar fərdin və ya bir qrup şəxsin, hətta digər iştirakçıların müqavimətindən asılı olmayaraq, öz iradəsini reallaşdırmasıdır. Veberin ardınca bir sıra sosioloqlar iqtidarın zorakı və legitim formalarını fərqləndirirdilər. Məsələn, Veberin yanaşması ilə baxsaq, 2003-cü ildə İraqa müdaxilə zorakı siyasi iqtidar forma-

sı idi, çünki o, BMT-nin mandatına malik deyildi və beləliklə, beynəlxalq legitimlikdən məhrum idi.

Veberdən sonra anlayışın ən sistematik təhlili alman filosofunun tərifi ilə başlayan və onu daha çox nümunələrə şamil edən Stiven Lyuksa (1974, 2004) məxsusdur. Veberin konseptini birölçülü hesab edən Lyuks onun iki və üçölçülü iqtidar konsepti olaraq inkişaf etdirilməsinin mümkünlüyünü qeyd edirdi. Mişel Fukonun da əsərləri ciddi təsir göstərmiş oldu. Fuko iqtidarı insanların sahib olduğu, ötürdüyü və ya başqalarından aldığı bir şey olaraq deyil, sosial münasibətlərin məhsulu kimi dərk edirdi, hansı ki, o, bütün cəmiyyəti əhatə edir və biliklə sıx əlaqədədir. İqtidar diskurslar vasitəsilə işləyir, onlar isə öz növbəsində sayəsində dünyanı dərk etdiyimiz çərçivələri yaradırlar.

*Məna və interpretasiya*

Veberin perspektivi siyasət sosioloqları üçün dəyərli başlanğıc nöqtəsi olaraq qalır və onun aksiomatik doğruluğu aşkardır. Konflikt situasiyalarında iqtidarın kimin əlində olması sualının cavabı sadə görünür, belə ki, daha güclü insan, qrup və ya ordu mübarizə aparan digər tərəf üzərində üstünlük əldə edəcəkdir. İstədiyinə nail olmaq qabiliyyəti iqtidarın nə qədər güclü olduğunu göstərir. İqtidar qərarvermə proseslərində də gerçəkləşə bilər, bəzi qruplar qəbul edilən qərarların spesifik insanların maraqlarına uyğun, digərləri üçün isə uyğun olmadığını təmin etməyə qadir olurlar. Lakin bu, kifayət qədər məhdud bir baxışdır.

Lyuks (2004) hesab edir ki, iqtidarın ikiölçülü perspektivi daha irəliyə gedir. Bəzi qruplar gündəmə nəzarət edərək, iqtidarı gerçəkləşdirirlər. Bunun sayəsində siyasi qərarlar geniş ictimaiyyətin diqqət obyektinə çevrilir. İqtidar bəzi məsələləri bütövlükdə siyasətdən uzaq tutaraq, sosial qrupların öz maraqlarını izləməsinə əngəl olmaqla da icra edir. Hökumətlərin siyasi hakimiyyətini icra etdikləri bir üslub da media məlumatları üzərinə qadağalar qoymaqdır. Bununla onlar narazılığın, həmçinin arzuolunmaz fikirlərin yayılması və onların dəstəklənməsinin qarşısını almağa müyəssər olurlar. İqtidarın fəaliyyətini dərk etmək üçün yalnız qərarların

özünə deyil, həm də onların qəbul edilmə prosesinə diqqət yetirilməlidir.

Lyuks həm də iqtidarın üçölçülü, radikal perspektivini irəli sürmüşdü. Bu zaman iqtidar insanların tələbat və arzularının manipulyasiyası kimi müəyyənləşir. Arzular çox gizli üsullarla formalaşdırıla bilər. Frankfurt məktəbinə görə, kapitalistlər media, reklam və digər sosiallaşma alətləri vasitəsilə fəhlələrin arzularını formalaşdırmaq iqtidarına malikdirlər. Buna görə də fəhlələr "istehlakçı" statusunu qəbul etmiş olurlar. İqtidarın bu növ şirnikləndirici və ideoloji təsirini görmək və ya ölçmək çətin olsa da, insanlar öz maraqlarına zidd davrandıqları zaman onun mövcudluğu haqqında nəticə çıxarmaq olar. Son illərdə inkişaf etmiş iqtisadiyyatlarda şəxsi borclarla bağlı narahatlıq çoxalıb, çünki insanlar istehlak mallarına getdikcə daha çox pul xərcləmək arzusuna müqavimət göstərmək qabiliyyətini itirirlər. İnsanları öz gerçək maraqlarına zidd davranmağa sövq edən arzular manipulyasiyası istehlak kapitalizminin iqtidarını nümayiş etdirir. Bu mənada Lyuksun üçölçülü iqtidar konsepsiyası Veberin yanaşmasına nisbətən daha geniş situasiyaları ehtiva edə bilir.

Sosiologiya həm də Mişel Fukonun ideyalarının təsirinə məruz qalıb. O qeyd edirdi ki, iqtidar nə bir institutun (məsələn, dövlət kimi), nə də fərd və ya bir sosial qrupun əlindədir. Lyuksun konseptinin də daxil olduğu bütün əvvəlki iqtidar modelləri niyyətli fəaliyyət anlayışına əsaslanır. Fuko isə iddia edir ki, iqtidar sosial qarşılıqlı münasibətlərin bütün səviyyələrində cərəyan edir, bütün sosial institutları - hamını əhatə edir.İqtidar bizim qarşılıqlı münasibət mexanizmlərimizi hərəkətə gətirərək, bütün cəmiyyəti ehtiva edir və o, bir növ mikrofiziki səviyyədə təhlil olunmalıdır. Fukoya görə, bilik və iqtidar sıx bağlı olmaqla, həm də bir-birini gücləndirir. Elmi biliyin iddiası həm də hakimiyyət iddiasıdır, belə ki, o, müxtəlif sosial kontekstlərdə gerçəkləşir.

*Tənqidi məqamlar*

Lyuks və Fukonun iqtidar konsepsiyaları Veberin ilkin yanaşmasından daha da irəli gedir. Buna baxmayaraq, Veberin modelinin daha yaxşı izah etdiyi fenomenlər mövcuddur. Fukonun ideyaları

populyarlıq qazanıb. O, iqtidarı zorakı və legitim formalara ayıran yanaşmanı dağıdaraq, hakim qrupların əlində cəmləşməyib, bütün sosial münasibətlərdə özünü büruzə verən iqtidar anlayışını gətirdi. Tənqidçilərə görə, bu konsepsiya iqtidar mexanizmlərinin gündəlik interaksiyalarda necə işləməsini daha dərin açıqlayır. Lakin Veberin "zorakı iqtidar" anlayışına uyğun olaraq öz iradəsini digərlərinə diktə etməyə qadir bəzi institutlarda (məsələn, orduda) və ayrı-ayrı sosial siniflərdə iqtidarın reallaşma tərzini doğru qiymətləndirə bilmir.

Lyuksun iqtidara radikal baxışı da tənqidlərə açıqdır, sosioloqlar digərlərinin gerçək maraqlarını heç vaxt tam bilməyə bilərlər. Biz buna necə qərar veririk? Qeyd edilən radikal baxışın adekvatlığı bu sualın necə cavablandırılmasından asılıdır, bu isə asan deyil. Bunu insanların özündən soruşmaq olar, ancaq iqtidarın üçölçülü konsepsiyasına görə cavablar aldadıcı ola bilər, belə ki, insanların tələbat və arzuları artıq onların özlərinin deyil, manipulyasiyanın nəticəsidir. İkinci problem isə üçölçülü perspektivin "qeyri-qərarlar"ı və insanların arzuları üzərində ideologiyaların müşahidə olunmayan təsirini öyrənmək istəyidir. Lakin biz heç vaxt real olaraq baş verməyənləri necə öyrənə bilərik? Bəzi tədqiqatçılara görə, Lyuksun konsepsiyası, ümumiyyətlə, iqtidar nəzəriyyəsi deyil, sosial strukturların fərdin həyatına təsirinin tanınmasıdır.

*Aktuallığın davamı*

Necə müəyyən edilməsindən asılı olmayaraq, "iqtidar" anlayışı siyasi sosiologiya üçün fundamentaldır. Tələbələr iqtidar münasibətlərinə öz baxışlarını formalaşdırmaq üçün onun təbiəti və necə reallaşmasına dair mübahisələri dəyərləndirməlidirlər. Lyuks 2004-cü ildə öz kitabının ikinci nəşrini çap etdirdi. Orada iki yeni esse var idi ki, bu hissələrdə onun ideyaları inkişaf etdirilir və üçölçülü iqtidar nəzəriyyəsi Fukonun daha ümumi xarakterli konsepsiyasından müdafiə olunur. Fukonun cəmiyyətdə diskursların nüfuzu haqqında ideyaları real situasiyalara tətbiq üçün çox yararlıdır. Amanda Henderson bunu intensiv terapevtik qayğı şəraitində tibb bacılığının tədqiqində istifadə edir (1994). O hesab edir ki, intensiv

qayğı monitorinqində diqqət mərkəzi xəstənin emosional halı olmayıb, daha çox onun fizioloji halıdır. Ancaq bu haqda bilik tibb bacısı-xəstə münasibətləri üçün birbaşa əhəmiyyət daşıyır. Tibb bacıları fizioloji vəziyyət haqqında məlumatı şərh etmək bacarığına görə bu cür tibbi iqtidarı əldə edirlər. Lakin ənənəvi tibb bacısı rolu – xəstəyə qulluqla əlaqədar olduğundan bu iqtidar əhəmiyyətsizdir. Bu tip təhlil xəstəxana və qayğı evlərində son səhiyyə skandallarını anlamağa kömək edə bilər.

Qadınların gözləntilərinin qarşısının alınması vasitəsilə kişi dominantlığının necə yaradıldığı haqqında feminist nəzəriyələri, habelə Amartia Senin "inkişaf" konsepsiyasının insanların dəyərləndirdikləri həyatı yaşama "qabiliyyət"indən qaynaqlanması haqqında əsərini diqqətə almaqla Lyuks (2004) iqtidarın bir qabiliyyət və ya insan qabiliyyətlərinin toplusu olduğunu bildirməklə yanaşı, onların inkar edilmə və artırıla bilməsinə diqqət çəkir. Siyasi sosiologiyanın "iqtidar" anlayışı olmadan qeyri-mümkünlüyü aydındır, lakin hətta bu təftişlərə rəğmən, iqtidarın nə olduğu və necə işlədiyi haqqında ümumi anlaşmaya nail olunacağı ehtimal olunmur. Gələcəkdə güman ki, bu anlayış iqtidarın təbiətinə dair nəzəri mübahisələrdə istifadə olunmaq əvəzinə, təcrübədən qaynaqlanan təyinini alacaqdır, bu isə öz növbəsində real halların tədqiqinin nəticəsi ola bilər.

*İstinadlar və ədəbiyyat:*

Henderson, A. (1994) 'Power and Knowledge in Nursing Practice: The Contribution of Foucault', Journal of Advanced Nursing, 20(5): 935–9.

Lukes, S. ([1974] 2004) Power: A Radical View (rev. 2nd edn, Basingstoke: Palgrave Macmillan).

Nash, K. (2010) Contemporary Political Sociology: Globalization, Politics and Power (Oxford: Wiley-Blackwell), esp. chapter 1.

Sen, A. (1999) Development as Freedom (Oxford: Oxford University Press).

## Konflikt (Conflict)

*İşçi tərif*

Ziddiyyət, fikir ayrılığı və rəqabət maraqları ilə əlaqələnən sosial qruplar arasında üstünlük uğrunda mübarizədir.

*Anlayışın mənşəyi*

Konflikt insan cəmiyyəti qədər qədimdir. Bizim onu qəbuledilməz və qarşısı alınmalı olan bir şey kimi görməyimizə rəğmən, geniş tarixi perspektivdə münaqişə və fəthlər insan dünyasını formalaşdırıb və bəşəriyyətin bütün dünyaya yayılmasına səbəb olub. Qərbin müstəmləkə ekspansiyası tabe edilən xalqların və təbii resursların aşkar istismarına əsaslanırdı. Lakin kolonializm daha geniş coğrafi ərazilərdə münaqişə münasibətlərini yaratmaqla, qlobal qarşılıqlı asılılığın meydana çıxmasına zəmin yaratdı. Georq Zimmelə görə, münaqişə insanların əlaqə formasıdır. İnsanlar bu yolla bir-birilə kontakta girir və birliyə nail olmaq qabiliyyəti qazanırlar. Bu yanaşma mühüm başlanğıc nöqtəsi kimi bizə münaqişənin münasibət və interaksiyaların sonu olması ideyasından yayınmağa kömək edir. Zimmelin nəzər nöqtəsinə görə, münaqişə hətta münasibətlər antaqonist olsa belə, tərəfləri bir-birini tanımağa və qəbul etməyə sövq edir.

Konfliktin tədqiqi çox zaman ayrıca sosioloji ənənə kimi nəzərdən keçirilsə də, bu istiqamətli işlər böyük sosial qruplara maraqdan başqa, çox az ümumi nəzəri əsaslara malikdir. Əksər tədqiqatlar münaqişəyə ya marksist, ya da Veber yanaşmasını qəbul edərək sosial sinif, gender və etniklik kimi əsas bərabərsizliklərə fokuslanan cəmiyyətdaxili münaqişələri tədqiq ediblər. Konflikt sosiologiyası 1960-cı illərdə geniş yayıldı. Bu, qismən dominant struktur-funksionalist paradiqmaya cavab, qismən isə cəmiyyət daxilində və cəmiyyətlərarası artan konfliktlərə cavab idi. Funksionalizmin münaqişədən daha çox konsensus və konformluğu təhlil edə bildiyi düşünülürdü, beləliklə də əksər sosioloqlar Parsons və Dürkheymdən uzaqlaşaraq, Marks və Veberdən bəhrələnməyə başladılar. Bu gün konflikt nəzəriyyələri kifayət qədər inkişaf etmiş,

sosiologiya isə sosial hərəkatlar, terrorizm və müharibə kimi fenomenləri dərk və izah etmək üçün daha yaxşı təchiz edilmişdir.

*Məna və interpretasiya*

Konflikt – çox ümumi anlayış olmaqla, həm iki fərdin mübahisəsi, həm də beynəlxalq müharibələri təsvir edə və bu iki qütb arasında olan hər şeyi əhatələyə bilər. Sosiologiya indiyədək nisbətən az rast gəlinən mövzuya - milli dövlətlər arasında müharibələrdən daha çox cəmiyyət daxilindəki strukturlaşmış sosial konfliktlərə yönəlmişdir. Güc və sərvət uğrunda mübarizə, status qazanmaq cəhdləri və sosial bərabərsizliklər ümumi maraq və identikliklərə malik olan ayrı-ayrı sosial qrupların formalaşmasına gətirib çıxarır ki, onlar da bu maraqların reallaşması uğrunda bir-birilə mübarizə aparırlar. Buna görə də münaqişə nəzəriyyəsi rəqabətin həmişə mövcud olduğunu güman edir.

Konfliktin tədqiqi sosiologiyada bir neçə nəzəri yanaşmanı özündə ehtiva edən əsas tədqiqat ənənələrindən biridir. Marksizm, feminizm, Veber yanaşması və digərləri – hamısı konflikt nəzəriyyəsinin müəyyən bir versiyasını istifadə edir. Konflikt nəzəriyyələri bəzən zorakılığa çevrilən xroniki gərginlik və ziddiyyəti ortaya çıxaran cəmiyyətdaxili sosial strukturların əhəmiyyətini araşdırır. Bəzi sosial nəzəriyyələr (məsələn, marksizm) strukturlaşmış sinfi münaqişəni cəmiyyətin mərkəzinə yerləşdirir və onu sosial dəyişiklikləri müəyyən edən hərəkətverici qüvvə kimi nəzərdən keçirir. Burada Zimmelin nəzər nöqtəsini yenidən qeyd etmək əhəmiyyətlidir: sosial siniflər münaqişədə olsalar da, eyni zamanda bir-birilə qarşılıqlı asılılıq münasibətlərilə bağlıdır. Kapitalizm şəraitində fəhlələr onları işlə və varlığını davam etdirmək üçün ehtiyac duyduqları gəlirlə təmin etmək naminə kapitalistlərdən asılıdır. Kapitalistlər isə onlara gəlir gətirən əmtəə və xidmətləri istehsal edən fəhlələrdən asılıdırlar.

Heç də bütün konflikt nəzəriyyələri marksist xarakter daşımır. Əksər münaqişə tədqiqatları Maks Veberin ideyalarından təsirlənib, o, bir sıra münaqişələrin sinfi bazisdən kənarda meydana çıxdığını göstərirdi. Konfliktlər siyasi fərqlər, status rəqabəti, gender bölgüsü və etnik nifrətə əsaslana bilər. Onların hər biri "sinif" anla-

yışından müstəqil və ya ondan az asılı ola bilər. Patriarxal hakimiyyət hər yerdə kişilərin lehinə və qadınların əleyhinə işləyir, lakin sinfi mövqe fəhlə sinfi qadınlarının üzləşdiyi çoxsaylı problemləri kəskinləşdirə bilər. Oxşar şəkildə, Ruandada hutuların tutsilərə qarşı (1994), Srebrenitsada serblər tərəfindən bosniyalılara qarşı (1995) zorakılıq, habelə Nasist Almaniyası tərəfindən Almaniyanın yəhudi əhalisinə qarşı törədilən genosid əsasən sinfi münaqişədən daha çox, etnik rəqabət və irqçilikdən qaynaqlanıb. Bunların heç biri sinfin mühüm olmadığı demək deyil. Əlbəttə, sinif, gender, irq, etnik mənsubiyyət yalnız konkret situasiyaların öyrənilməsi zamanı dəyərləndirilə bilər.

*Tənqidi məqamlar*

Bəzən konflikt nəzəriyyəsində münaqişə və rəqabət arasındakı müxtəliflik vurğulanmır. Sosial qruplar arasında resurslara əlçatanlıq uğrunda rəqabət münasibətləri ola bilər, lakin bu, heç də həmişə konflikt aktlarına gətirib çıxarmır. Rəqabət münasibətləri müəyyən edilmiş düşmən üzərində üstünlüyə nail olmaq üçün aktlara səbəb olmadıqca, rəqabət münaqişə hesab olunmur. Oxşar şəkildə, sinfi münasibətlər sinfi münaqişədirmi? Sosial sinif qruplarının müxtəlif maraqlara malik olmasını sübut etmək mümkün ola bilər, lakin onlar sinfi “düşmən” üzərində üstünlük əldə etmək cəhdlərinə başlamadığı halda konflikt konsepsiyası çərçivəsində nəzəriləşdirməyə əsas varmı?

Son onilliklərdə yalnız konflikt situasiyalarının deyil, sülh quruculuğu proseslərinin təhlilinə də maraq meydana çıxıb. Sosioloqlar özlərini münaqişə həlli, barışıq prosesləri və sülhü qoruma cəhdlərinin tədqiqinə həsr etməyə başlayıblar. Getdikcə artan tədqiqat işləri münaqişə nəzəriyyələrini müxtəlif şəkildə istiqamətləndirə bilər.

*Aktuallığın davamı*

Sosiologiyada konflikt nəzəriyyələri və konflikt tədqiqatları hələ heç vaxt bu qədər çoxsaylı olmamışdır. Son 30 ildə “sivilizasiya toqquşmalarının”, antikapitalist etirazların, “yeni terrorizm”in, “yeni müharibələr”in, soyqırımın, nifrət cinayətlərinin tədqiqi art-

mışdır. Sosioloqlar kəskin münaqişələrin yeni epizodlarını təhlil etmək üçün konseptual, nəzəri alətlərindən istifadə etməli olurdular. Soyuq mjüharibənin sonundan etibarən qloballaşma proseslərinin sürətlənməsi yeni münaqişə formalarını mümkün etdi.

Münaqişə və onun həlli sahəsində ən yeni yanaşmaları Berkoviç, Kremenyuk və Zartmanın (2009) redaktoru olduqları topluda tapmaq olar. "Ön söz"də xatırladılır ki, münaqişə "normal, geniş yayılmış və qaçılmaz olaraq... insan mövcudluğunun ayrılmaz cəhətidir" (2009:3). Bu fakta realist yanaşmaq vacibdir. Ancaq konfliktin zorakılıq vasitəsilə ifadəsinə nəzarət və onun idarə olunması mümkün olmalıdır və bu, son dövr akademik tədqiqatların diqqət mərkəzinə çevrilmişdir. İnsanlar arasında münaqişələrin çoxsaylı aspektlərini, o cümlədən siyasi məsələlər, şəxsi motivasiyalar və dəyişən beynəlxalq konteksti nəzərə alsaq təəccüblü deyil ki, konfliktlərin həllinin təhlili fənlərarası işə çevrilib və kitabda buna çoxsaylı nümunələr vardır.

Bununla belə, ciddi sosioloji perspektiv Con Bruerin (2010) əvvəllər diqqət çəkməyən sülh prosesləri və onların uğur ehtimalına həsr olunan nəzəri əsəridir. Bruer zorakı münaqişənin sakitləşməsindən sonra sülh prosesinin üç əsas tipini müəyyən edir: fəth, kartoqrafiya və kompromis. Fəth situasiyası milli dövlətlər arasında müharibə və ya vətəndaş və müstəmləkəçi müharibələrdən sonra baş verir. Kartoqrafiya isə coğrafi bölünmə vasitəsilə sülhə nail olmaqdır. Kompromis döyüşən tərəflərin zorakılığa son qoymaq üçün danışıqlar aparmalı və məntiqli sülh üçün razılığa gəlməli olduqları situasiyaları əhatə edir. Lakin bu proseslərin hansının mümkün olması ortaq vətəndaşlıq yayılma səviyyəsindən, dəyər və normalardan, habelə iştirakçı tərəflərin tarixi və mədəni kapitalını itirmək, yaxud da qorumaq dərəcəsindən asılıdır. Bruerin sxeminin məqsədi konkret postkonflikt situasiyalarında nəyin realistik və nail oluna bilən olmasının daha yaxşı anlaşılmasını təmin etməkdir.

*İstinadlar və ədəbiyyat:*

Bercovitch, J., Kremenyuk, V., and Zartman, I. W. (2009) 'Introduction: The Nature of Conflict and Conflict Resolution', in J.

Bercovitch, V. Kremenyuk and I. W. Zartman (eds), The Sage Handbook of Conflict Resolution (London: Sage).

Brewer, J. (2010) Peace Processes: A Sociological Approach (Cambridge: Polity).

Joseph, J. (2003) Social Theory: Conflict, Cohesion and Consent (Edinburgh: Edinburgh University Press).

## Milli dövlət (Nation State)

*İşçi tərif*

Böyük insan toplumunun (millətin) və coğrafi, siyasi formanın mədəni-siyasi orqanizm yaradan və hazırkı dünyada "sağqalma vahidi" kimi ən geniş yayılan birləşməsidir.

*Anlayışın mənşəyi*

Milli dövlət müasir dünyada normaya çevrilib, hətta təbii siyasi-mədəni mahiyyət kimi qavranılır. Bütün sosial fenomenlər kimi milli dövlətlərin də izlənilə bilən tarixi vardır. Əksər tədqiqatçılar modern dövlətin XVII əsrin sonu, XVIII əsrin əvvəllərində ortaya çıxan nisbətən yeni bir fenomen olması ilə razılaşırlar. Avropa bir-birilə daim hakimiyyət uğrunda mübarizədə olan, bir sıra xırda siyasi quruluşları özündə cəmləşdirən və bir neçə güclü dövlət yaradan mütləq və konstitusion monarxiyalar tərəfindən idarə olunurdu. Bu suveren dövlətlər sistemi dövlətlərin öz-özünü idarəetmə hüququnu və dövlətlərarası mübahisələrin legitim şəkildə güc yolu ilə həllinə əsaslanan beynəlxalq hüququn Vestfal konsepsiyasını (1648) ortaya çıxardı.

Vestfal sistemi 1640-1688-ci illər İngiltərə inqilabı və 1789-cu il Fransa inqilabı ilə müşayət olunan, simvolik olaraq feodal sosial münasibətlərinin sonunu qeyd edən modern milli dövlətə keçidin təməllərini qoydu. Lakin sənayeləşmə daha effektiv idarəetmə və administrasiya sisteminə ehtiyac yaratdı. Belə ki, cəmiyyətin əsası artıq lokal kənd və ya bir şəhər deyil, daha böyük ərazi vahidləri idi. Burada irimiqyaslı cəmiyyətin təşkili və onun vahidliyinin təminolunma vasitəsi vahid dövlət dilinə əsaslanan kütləvi və for-

mal təhsil sistemi ola bilərdi. Milli dövlətlər onlara hərbi qüdrət və çoxsaylı əhalinin loyallığını təmin edən vergi təyinetmə və zorakılıq üzərində legitim monopoliya vasitəsilə dominant strukturlara çevrildi.

*Məna və interpretasiya*

Millət, milli dövlət, millətçilik və milli identikliyin daxil olduğu anlayışlar klasteri mübahisəli olmaqla, sosiologiyada təsbit edilməsi çətin olan anlayışlardandır. Onlar sadə görünə bilər, məsələn, millət – böyük insan toplumu, dövlət - bu toplumun təhlükəsizliyini təmin edən siyasi formadır. Lakin millətlərin vahid dil, tarix və ənənəyə malik yekcins mədəniyyətə malik olması mütləq deyil. Məsələn, Birləşmiş Krallıq İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiyadan ibarət milli dövlətdir və bir neçə dil, habelə müxtəlif tarixi ənənələrə malikdir. O, çoxlu mədəniyyət və ənənələrə sahib multikultural cəmiyyətdir, buna görə də Britaniya vətəndaşları bir neçə dili və dinləri olan həddən artıq müxtəlifliyə malik qrupdur.

Benedikt Anderson (2006) iddia edir ki, millətlər konkret olmayıb, təxəyyül olunan toplumlardır, hansı ki, burda müxtəlif qruplar özlərinin aidliklərini hiss etdikləri mədəni vahid haqqında təsəvvürlərə əsaslanaraq, bir-birilə bağlıdırlar. Onların xəyali olması heç bir reallığa malik olmaması anlamına gəlmir. Əksər insanlar dərk edilən milli birlik bazisində fəaliyyət göstərdikləri zaman onlar özlərini bir-birinə bağlayan vahid milli identiklik meydana çıxarırlar.

Millətçilik bir çox perspektivlərdən modern olsa da, o həm də uzaq keçmişə aid olan simvolik forma və hisslərlə də bağlıdır. Smit (1996) iddia edir ki, millət və "etni" ("ethnies") adlandırdığı tarixi etnik topluluqlar arasında varislik vardır. Zaman keçdikcə Qərbi Avropa ölkələri və regionları bir "etni"nin tədricən digərləri üzərində dominantlığını gördü. Məsələn, Fransada bir neçə dil birlikləri XIX əsrə qədər bir-birilə rəqabət aparıb. Lakin fransız dili məktəblərdə öyrədilən və istifadə edilən rəsmi dil olduğu zaman rəqib "etni"lər sürətlə öz təməlllərini itirib. Oxşar proses Birləşmiş Krallıqda da baş verdi, ingilis dili birlik təşkil edən qruplar üçün dominant dil oldu. Digər dillər bu prosesdə tam olaraq yoxa çıxmadı. Məsələn, uels, şotland və irland dilləri Krallığın müxtəlif hissələrində

hələ də istifadə olunur, Bask dili Fransa və İspaniyanın bəzi hissələrində qorunmaqdadır. Bu dillərin sağ qalması onları istifadə edən "etni"lər üçün keçmiş və indiki zaman arasında fasiləsizliyi qorumağın mühüm tərkib hissəsidir.

*Tənqidi məqamlar*

Sosioloqlar millətlərdən çox dövlətlər üzərində diskussiya aparmağı sevirlər, çünki "millət" anlayışının təsbiti çox çətindir. Lakin "milli dövlət" anlayışı da qeyri-konkretdir, belə ki, dövlətsiz millətlərin bir neçə növü mövcuddur. Milli dövlət azlıqların mədəni müxtəlifliklərini qəbul edə və onların fəal inkişafını dəstəkləyə bilər (məsələn, Birləşmiş Krallıq daxilində Şotlandiya, Uels və Şimali İrlandiya kimi). 1999-cu ildə Uels və Şotlandiya Şotland Parlamenti və Uels Assambleyasının fəaliyyətini bərpa edərək daha çox muxtariyyətə nail oldular. 2014-cü ilin sentyabrında keçirilən Şotland müstəqillik referendumunda əksəriyyət müstəqilliyin əleyhinə və Krallıq dövləti daxilində qalmağa səs verdi. Kvebek Milli Assambleyası (Kanadanın fransızdilli əyaləti) və Flamand Parlamentində (Şimali Belçikanın hollanddilli ərazisi) yerli siyasi qurumlar əsas qərarları qəbul etmək üçün hakimiyyətə malikdirlər, halbuki bu rayonlar tam müstəqilliyə malik deyillər. Bəzi millətlər milli dövlət tərəfindən tanınmamış olaraq qalır, məsələn, Çində tibetlilər, Ermənistan, Suriya, İran və İraqın müxtəlif regionlarında yaşayan kürdlər bura daxildir.

İnkişaf etməkdə olan dünyada milli quruculuq və milli dövlətlərin yaranma yolu inkişaf etmiş ölkələrdə olduğundan fərqlidir. Bu, əsasən həmin dövlətlərin Qərb dövlətlərinin müstəmləkəsinə çevrilməsi və yalnız XX əsrin ikinci yarısında müstəqilliklərinə nail olması ilə bağlıdır. İnkişaf etməkdə olan əksər milli dövlətlərin yaranması tarixən inkişaf etmiş etnik və mədəni bölünmələr nəzərə alınmadan verilən ixtiyari qərarlara tabe idi. Postmüstəqillik, etniklər və digər qrupların qarışması spesifik milli identikliyin təşviqini çətinləşdirməklə yanaşı, bu ölkələrdə siyasi ziddiyyətlər ortaya çıxardı. Yaponiya, Çin və Koreya kimi mədəni unifikasiyaya nail olmuş və müstəmləkəçilikdən əziyyət çəkməyən regionlarda isə oxşar məsələ və problemlər eyni dərəcədə baş vermədi.

*Aktuallığın davamı*

Şübhəsiz ki, hazırda milli identikliyi dəyişən əsas amillərdən biri qloballaşmadır. O, mərkəzləşmə və qeyri-mərkəzləşmə arasında münaqişəli gərginlik yaradır. Bir tərəfdən, biznes strukturları və siyasi birliklər (transmilli korporasiyalar və təşkilatlar kimi) daha da mərkəzləşərkən, digər tərəfdən mərkəzsizləşmə təzyiqləri vardır. Nəticədə qloballaşma milli identikliyə ikiqat təhdid yaradır: mərkəzləşmə yuxarıdan, mərkəzsizləşmə isə aşağıdan gərginlik formalaşdırır. Qloballaşmanın dövlət hakimiyyətinin bazar qüvvələrinin hakimiyyəti ilə müqayisədə azaldığı sərhədsiz dünya yaratdığına görə bəzi alimlər milli dövlətlərin beynəlxalq siyasətin aparıcı aktoru kimi sonunu proqnozlaşdırırlar. Omay (2007) Avropa Birliyi kimi regional iqtisadiyyatların yüksəlişini və dövlətlərin bu yüksəlişlə bağlı davranışını tədqiq edib. Regionallaşma tam qloballaşmış sistem olmasa da, o, milli dövlətlərin əsas iqtisadi funksiyalara nəzarətini meydana çıxan "regional dövlətlərə" ötürməsinin göstəricisidir

Digər tərəfdən, sovet kommunizminin süqutu çoxsaylı müstəqil milli dövlətlərin yaranmasına səbəb oldu. Hazırda dünyada 30 il əvvəl olduğundan daha çox suveren dövlət vardır. Milli dövlətin özünü XXI əsrdə necə göstərəcəyini dəqiqliklə söyləmək çətindir, lakin qloballaşmanın dövlətlər və milli identikliklər üzərində təsiri sosiologiyada artan maraq sahəsidir. İnternetin qlobal mədəniyyəti təşviq etdiyi və prinsip etibarilə milli identikliklərin parçalanmasına yardım etdiyi hesab olunurdu. Lakin Eriksen (2007) özünün diqqətçəkən məqaləsində millətlərin kibərməkanda çiçəklənməsindən yazır. Bu, millətlərin məhz "xəyali birliklər" olmasına görədir, hansı ki, bu səbəbdən millətin üzvləri daha geniş məsafələrdən milli identiklik hissini effektiv şəkildə təşviq edərək, öz onlayn iştirakçılığını qorumağa qadirdirlər. Ona görə də, qlobal kommunikasiyalar və kütləvi miqrasiya əsrində paradoksal olsa da, internet milli identiklikləri dağıtmaqdan daha çox, onların güclənməsinə zəmin yaradır.

*İstinadlar və ədəbiyyat:*

Anderson, B. (2006) Imagined Communities (London: Verso).

Eriksen, T. H. (2007) ‘Nationalism and the Internet’, Nations and Nationalism, 13(1): 1–17.
Held, D. (1989) Political Theory and the Modern State (Cambridge: Polity), esp. chapter 1.
Ohmae, K. (2007) The End of the Nation State: The Rise of Regional Economies (London: Harper Collins).
Smith, A. D. (1986) The Ethnic Origins of Nations (Oxford: Blackwell).

## *Nüfuz* (Authority)

*İşçi tərif*

Bir şəxsin və ya qrupun digərlərinə təsir göstərməsinə imkan verən legitim iqtidarıdır.

*Anlayışın mənşəyi*

Maks Veberin siyasi sosiologiyası nüfuz, siyasət və iqtidara həsr olunan əksər tədqiqatların başlanğıc nöqtəsidir. Veber iqtidarı insanlar və ya qrupların hətta müxaliflіklə üzləşdikdə belə öz istədiklərini əldə etmək qabiliyyəti kimi görürdü. O, insanların əmrlər verə bildiyi və bu əmrlərin icra ediləcəyinə dair rasional gözləntiyə sahib olduğu təqdirdə nüfuzlu mövqe tutduqlarını hesab edirdi. Ona görə də nüfuz əmr alanlar arasında əmr verən tərəfin bunu legitim şəkildə etməsi inancına əsaslanır. Odur ki, onların mövqeyi nüfuzlu olaraq qəbul edilir. Nüfuz ailədə uşaq və böyük münasibətlərində ailə başçısının qərar qəbul etdiyi, təşkilat daxilində menecerlərin əmrlər verə bilmək hüququna sahib olduğu hallarda, sərt rütbə və nüfuz sisteminin olduğu orduda, hökumətlərin əməl olunacağını gözlədikləri qanunlar irəli sürdüyü siyasət meydanında müşahidə oluna bilər.

*Məna və interpretasiya*

Veber nüfuz sistemlərinin cəmiyyətə və zamana görə fərqləndiyini iddia edirdi. O, tarixdə üç nüfuz tipini ayırd edir: ənənəvi, xarizmatik və rasional-leqal. Lakin onların hər üçü ideal tiplər, yəni

real dünya fenomenlərini öyrənən tədqiqatçılara yardım etmək üçün formalaşdırılan evristik alətlərdir. Veberin sxemi xronoloji olaraq ənənəvidən xarizmatikə və leqal-rasionala istiqamətlənmiş görünsə də, bu üç formanın hər biri dominant ola bilər və onların iki və ya üçünün birgə mövcud olması da adi haldır.

Ənənəvi nüfuz – uzun müddət ərzində formalaşmış, nəsildən-nəslə ötürülən mədəni patternlərə hörmət vasitəsilə legitimləşdirilən nüfuzdur. Bu sistemdə insanlar idarə edənlərin ənənəvi statusu əsasında əmrlərə tabe olurlar. Ənənəvi nüfuzun legitimliyi hər şeyin keçmişdə məhz belə nizamlanması haqqında bilik və bunun qəbul edilməsindən qaynaqlanır. Veber aristokratik və kral ailələrində müşahidə edilən irsi ailə idarəetməsi nümunəsini Orta Əsr Avropasında zadəganların idarə olunmasının timsalında göstərir. Ənənəvi nüfuzda insanların tabeliyi onları idarə edən konkret şəxslərə (bu şəxslərin irəli sürdüyü qanunlara deyil) yönəlib. Praktikada bu o deməkdir ki, insan qanunlara deyil, idarə edənlərə tabe olur və onlara şəxsi sədaqət hiss edir.

Xarizmatik nüfuz bir qayda olaraq, ənənəvi formaları dağıdır, yenilik və tarixi dəyişikliklərin mənbəyi olur. Xarizmatik nüfuz müstəsna keyfiyyətlərinə görə liderə qarşı duyulan sadiqlik və fədakarlığa əsaslanır. “Xarizma” anlayışının təsbit edilməsinin çətinliyi sübuta yetirilib. Çünki spesifik xüsusiyyətlərin liderin şəxsiyyətinə xas olduğu, yoxsa başqalarının onun bu cəhətlərə sahib olmasını qavraması tam aydın deyil. Tarixdə xarizmatik liderlərə nümunə İsa peyğəmbər, Adolf Hitler və Mahatma Qandi ola bilər, ancaq qəhrəman əsgərlər, müqəddəslər, siyasi liderlər də “xarizmatik” olaraq təsvir edilib. Bütün xarizmatik liderlər müntəzəm olaraq öz müstəsna cəhətlərini sübut etməlidirlər. Əks halda onların hakimiyyətinə meydan oxuna bilər. Veberə görə, xarizmatik nüfuz mahiyyətcə qeyri-sabitdir. Qeyri-sabitlik lider vəfat etdiyi zaman, həmçinin ona inamın və onun legitimliyinin böhranı zamanı güclənir. Xarizmatik sistemlər daha adət olunmuş forma aldığı zaman onlar ənənəvi və ya leqal-rasional sistemlərə transformasiya olmağa meyillənir.

Veber kapitalizmin meydana çıxmasından sonra ənənəvi nüfuzun leqal-rasional nüfuzun yeni forması ilə əvəzləndiyini göstə-

rir. Bu, hüquqi olaraq qəbul edilən qayda və tənzimləmələr, qərar qəbulunda qanuna və formal rasionallığa inamı özündə ehtiva edən iqtidar tipidir. Bu, cəmiyyətin siyasi həyatını istiqamətləndirən müasir təşkilatlar, bürokratiyalar və demokratik idarəetmə sistemlərində aşkar edilir. Rasional-leqal hakimiyyətdə qərar və əmrlər ənənə və ya fərdin arzusuna görə deyil, "zəruri" prosesə görə verildiyi zaman yerinə yetirilə bilər. Bürokratiya leqal-rasional nüfuzun tipik formasıdır.

*Tənqidi məqamlar*

Veber tipologiyasının uzun müddət mövcud olan tənqidi budur ki, o, sosial fəaliyyətin dörd növünü müəyyənləşdirsə də, nüfuzun yalnız üç sistemini göstərir. Çatışmayan kateqoriya – dəyər-rasional nüfuzdur (value-rational authority), onun legitimliyi müəyyən normalara bağlı mütləq dəyərlərə əsaslanır. Mahiyyətinə görə bu, nüfuzun liderlərə müəyyən məqsədə can atdıqları üçün legitimlik verildiyi ideoloji formasıdır. Bu dördüncü məntiqi tip fərdlərə deyil, ideoloji məqsədə tabedir. Əmrlər onların yekun məqsədə nə dərəcədə uyğun olmasından asılı olaraq legitimləşdirilir. Belə dərin ideoloji nüfuzun nümunələri dini təşkilatlar və ya erkən sovet kommunizmi ola bilər.

Son illərdə sosioloqlar fərdlərə nailiyyətlərinə görə deyil, mediada iştirakına görə şöhrət gətirən məşhurlar mədəniyyətinin meydana çıxmasını müzakirə edirlər. Siyasi həyata da təsir edən bu mədəniyyət siyasətçilərin kütləvi mediada təqdim edilən şəxsiyyətləri əsasında qiymətləndirilməsi tendensiyasını ortaya çıxarıb. Bəzi sosioloqlara görə, bu, leqal-rasional demokratik proseslərin təməlini sarsıdır və ya onları daraldaraq demokratik dəyərlərə qarşı bir təhdid rolunu oynayır. Məsələn, Nil Postman (1986) siyasətin şou-biznesin sadəcə bir əlavəsinə çevrilmək təhlükəsinin olması ilə bağlı xəbərdarlıq edir.

*Aktuallığın davamı*

Veberin təsnifatına görə, hətta bir tipin üstün olduğu hallarda belə üç tipin birgə mövcudluğu mümkündür. Məsələn, müasir Britaniya leqal-rasional nüfuz sisteminə sahib olsa da, siyasi həyatda

Lordlar Palatası mühüm rol oynayır və monarx hələ də konstitusional mövqeyə malikdir. İdeal tiplərin bir-birinə qarışması Veberin sxemini mütəhərrik edir və o, siyasi sosioloqlar üçün faydalı olmağa davam edir. Lakin məşhurlar mədəniyyətinin siyasət dünyasına sirayət etməsi siyasi liderin nüfuzunun əsası haqqında bəzi suallar ortaya çıxarır. Bu gün siyasətçilər və siyasi partiyaların öz ictimai imiclərini idarə etmək üçün populyarlıq qazanmış ulduzları, aktyor və idman məşhurlarını öz sıralarına qəbul etməsi adi bir hala çevrilib. Oxşar olaraq, ABŞ-da iki keçmiş aktyor - Ronald Reyqan və Arnold Şvartzenegger müvafiq olaraq prezident və ştat qubernatoru oldular. Məşhurluğun siyasi həyata bu qədər nüfuz etməsinin ziyanlı olduğu aydındır.

Lakin Strit (2004) iddia edir ki, məşhurlar siyasətinin kökləri ən azı XVIII əsrə təsadüf edir. Həmçinin məşhurlar arasından siyasətçilərin meydana çıxması təmsilçilik demokratiyasının prinsiplərinə zidd deyildir. Məşhurlar mədəniyyətində təmsilçilik demokratiyasına ziddiyyət görməkdənsə, ona bu prinsiplərin genişlənməsi kimi baxmaq olar. "Təmsilçilik" partiya manifestləri və siyasi təkliflərlə məhdudlaşmır, o həm də siyasətçinin üslubu, estetikası və cəlbediciliyini ehtiva edir. Bütün bu elementlər siyasətçilər və onların təmsilçisi olduqlarını iddia etdikləri arasında identifikasiyanı möhkəmləndirməyə yardım edir. Məhz siyasi üslub və xarici görünüş vasitəsilə siyasətçilər mürəkkəb siyasi arqumentləri vətəndaşların özləri ilə eyniləşdirə biləcəyi formaya çevirməklə, seçicilər və onların gələcək planları ilə əlaqə yaradırlar.

Politoloqlar kiçik partiyaların böyük partiyalardan daha çox xarizmatik liderə arxalandıqlarını və bu yolla resurs çatışmazlığını aradan qaldırdıqlarını qeyd edirlər. Lakin xarizmatik liderlər həqiqətən kiçik partiyaların seçkilərdə qalib gəlməsinə kömək etmək üçün nüfuz sahibidirmi? Van der Burq və Muqan (2007) bu məsələni vurğulamaq üçün Danimarka seçkilərinin empirik tədqiqini aparıblar. Onlar üç seçkidə sağtəmayüllü populist partiyaların kampaniyalarını təhlil edib belə qənaətə gəldilər ki, bu partiya liderlərinin təsiri daha böyük partiya liderlərinin təsirindən yüksək deyil. Tədqiqat həm də sağtəmayüllü partiyalara səs verənlərin partiya liderlərinin həyata keçirdikləri siyasəti həqiqətən dəstəkləməsi deyil,

seçimlərin əsasən qeyri-məmnunluq hissindən qaynaqlanması fikrini də inkar etdi. Onlar bildirir ki, sağtəmayüllü partiyalara səs verənlər də digər seçicilər kimi oxşar mülahizələrdən çıxış edir və onların seçimləri nə daha az "rasional", nə də nüfuzun daha çox xarizmatik formalarının təsiri altındadır.

*İstinadlar və ədəbiyyat:*

Morrison, K. (2006) Marx, Durkheim, Weber: Formations of Modern Social Thought (2nd edn, London: Sage), esp. pp. 361–73.

Postman, N. (1986) Amusing Ourselves to Death: Public Discourse in the Age of Show Business (London: Heinemann).

Street, J. (2004) 'In Defence of Celebrity Politics: Popular Culture and Political Representation', British Journal of Politics and International Relations, 6: 435–52.

Van der Brug, W., and Mughan, A. (2007) 'Charisma, Leader Effects and Support for Right-Wing Populist Parties', Party Politics, 13(1): 29–51.

Weber, M. ([1925] 1979) Economy and Society: An Outline of Interpretive Sociology (Berkeley: University of California Press).

## Sosial hərəkat (Social Movement)

*İşçi tərif*

Formalaşmış siyasi sistemlər daxilində və ya onlar vasitəsilə deyil, vətəndaş cəmiyyətində kampaniyalar və birgə fəaliyyətlər vasitəsilə ümumi maraqları yürütmək üçün insanların sıx təşkilatlanmış şəbəkələri ilə gerçəkləşən kollektiv cəhddir.

*Anlayışın mənşəyi*

XX əsr boyu sosial hərəkatlar sosioloqlar tərəfindən qeyri-adi, hətta irrasional fenomenlər olaraq nəzərdən keçirilirdi. Sosial hərəkatlar üsyan, izdiham və inqilablarla birgə kollektiv davranışın bir forması kimi görülməklə, dominant sosiologiya praktikasında marginal yer tuturdu. 1920-ci illərdən etibarən Çikaqo məktəbi kollektiv davranışın belə epizodlarını xüsusi tədqiqat sahəsinə çevirdi. Herbert Blumer (1969) sosial hərəkatlara sosial dəyişikliyin sadəcə məhsulları deyil, onun aktorları kimi yanaşırdı. O, formal partiya

siyasətlərindən kənarda sosial hərəkatları açıqlamaq üçün sosial həyəcan nəzəriyyəsini irəli sürdü. Neil Smelser (1962) 1950-ci illərdə funksionalist nəzəriyyəsini təqdim etdi: onun "əlavə dəyər modeli" sosial hərəkatlarda hər biri dəyər əlavə edən müxtəlif mərhələləri müəyyən etdi. 1960-1970-ci illərdə sosial hərəkatların fərqli şəkildə təşkil olunan və həyata keçirilən yeni dalğası baş qaldırdı və "yeni sosial hərəkatlar" kimi nəzəriyyələşdirildi. Bir vaxtlar akademik autsayder mövqeyində olan sosial hərəkatların tədqiqi sosiologiyada möhkəm yer tutan ixtisaslaşmaya çevrildi.

*Məna və interpretasiya*

Sosial hərəkatlar cəmiyyəti dəyişmək üçün kollektiv cəhdlərdir. Həmkarlar ittifaqları hərəkatları, qadın hərəkatları, ekoloji hərəkatlar, pro-life hərəkatlar (abortlara qarşı), cinsi azlıqların hərəkatları və digərləri bura daxildir. Sosial hərəkatlar, şübhəsiz ki, ən güclü kollektiv hərəkat formalarıdır. Yaxşı təşkil edilmiş, davamlı kampaniyalar ciddi nəticələr əldə edə bilər. 1960-cı illərdə Amerikada vətəndaş hüquqları hərəkatı məktəblər və ictimai yerlərdə irqi seqreqasiyanı qanundankənar elan edən qanunvericilik təşəbbüslərinin formalaşmasına nail oldu. Feminist hərəkatı formal iqtisadi və siyasi bərabərlik perspektivindən qadınlar üçün mühüm üstünlüklər qazana bildi. Son illərdə ekoloji hərəkatlar davamlı inkişaf formalarını təşviq etmək və ətraf mühitə qarşı ictimai davranışları dəyişmək üçün son dərəcə qeyri-konvensional tərzlərdə kampaniyalara başlayıblar.

Sosial hərəkatlar müxtəlif mərhələlərdən ibarət "həyat tsikllə-ri"nə malik olmaq tendensiyasını göstərir (Goodwin and Jasper 2004). "Sosial qıcqırma" adlanan birinci mərhələ insanların hansısa problemlə həyəcanlandığı, lakin fəaliyyətlərinin qeyri-mütəşəkkil olduğu mərhələdir. Növbəti mərhələ "xalq həyəcanlanması" adlanır ki, bu zaman qeyri-məmnunluq mənbələri daha açıq bir şəkildə müəyyən edilir və dərk olunur. Üçüncü mərhələdə meydana çıxan sosial hərəkatı koordinasiya edən formal təşkilatlar yaranır, bu isə daha effektiv kampaniya həyata keçirməyə imkan verir. Nəhayət, hərəkat institutlaşdırılır və cəmiyyətin siyasi həyatının bir hissəsi olaraq qəbul edilir. Əlbəttə, bəzi hərəkatlar qismən uğur qazanarkən,

digərləri tamamilə uğursuzluğa düçar olur. Bəziləri kifayət qədər uzun zaman dövrlərinə tab gətirən, digərləri öz həyat tsiklinə son qoyan maliyyə və ya entuziazm çatışmazlığı ilə üzləşir.

Sosioloqlar sosial hərəkatları dərk etmək üçün çoxsaylı nəzəriyyələrdən istifadə ediblər. Smelzerin (1962) funksionalist nəzəriyyəsi sosial hərəkatların struktur gərginlik nəticəsində ortaya çıxdığını qeyd edir. Bu nəzəriyyədə sosial hərəkatın meydana çıxması üçün altı elementin zəruri olduğu göstərilir: hərəkatın formalaşmasına zəmin yaradan sosial kontekst; reallıq və gözləntilər arasında frustrasiya və dəyişiklik arzusunu şərtləndirmiş struktur gərginliyi hiss edən aktivistlərin olması; gərginliyin səbəblərinə dair fikirlərin geniş yayılması; etirazlar üzərində polis zorakılığı və ya hərəkatın mesajını açıqlayan simvolik bir insident kimi təhrikedici hadisənin baş verməsi. Bu ilkin dörd element mövcuddursa, mobilizasiya ehtimalı yüksəkdir. Etirazçılar və aktivistlər arasında sosial şəbəkələrin yaradılması və ardınca iqtidarların cavabı yekun həlledici mərhələlər kimi hərəkatların başlayacağını, yoxsa sönəcəyini müəyyən edən amillərdir.

Smelzerdən sonra hərəkat tədqiqatçıları daha çox rasional seçim nəzəriyyələrinə, xüsusən də resurs mobilizasiyası nəzəriyyəsinə (RMN) yönəldilər. Bu nəzəriyyə bildirirdi ki, sosial hərəkat iştirakçıları rasional tərzdə davranır və hərəkatların özləri də xaotik deyil, məqsədlidir. O, hərəkatların effektiv kampaniyalara başlamaq üçün zəruri resurslar qazanmaq qabiliyyətini tədqiq edir. Resurslara maliyyə, kampaniya eksperitizası, hərəkatın üzvlərini və tərəfdarlarını səfərbər etmək, təsirli sosial şəbəkələrdən yararlanmaq daxildir. Buna görə də RMN hansı növ resursların faydalı olduğunu, aktivistlərin onları necə əldə edə bildiyini, onların ümumi maraqlar naminə necə sərf edildiyini araşdırır.

1960-cı illərin sonu - 1980-ci illərin ortaları arasında çoxsaylı ölkələrdə tələbə hərəkatları, vətəndaş hüquqları hərəkatları, əlilliyi olan insanların hərəkatları, antinüvə və ekoloji hərəkatlar, habelə gey hərəkatlarının daxil olduğu sosial hərəkat dalğası baş verdi. Adı çəkilənlər birlikdə "yeni sosial hərəkatlar" kimi konseptuallaşdırıldı. Onlar siyasətə ətraf mühit və fiziki məhdudiyyət kimi yeni məsələləri daxil etdilər. Bu hərəkatlar sıx təşkilati formalar alır,

qeyri-zorakı birbaşa aksiyanın daxil olduğu yeni fəaliyyət repertuarlarından istifadə edir, həm də dövlət bürokratiyalarında, yaradıcı sahələr və təhsildə işləyən "yeni" orta sinfi özündə ehtiva edirdi. Bu xüsusiyyətlər sosial hərəkatlar haqqında əksər ölkələrdə cansız demokratik mədəniyyəti canlandırmağa kömək edən, müasir cəmiyyətdə uzun müddət unudulan məsələlər haqqında simvolik mesajların daşıyıcıları kimi yeni nəzəriyyələrin meydana çıxmasına səbəb oldu (Melucci 1989).

*Tənqidi məqamlar*

Sosial hərəkatların sosioloji nəzəriyyələri ciddi tənqidlərə məruz qalır. Rasional mobilizasiya nəzəriyyəsi geniş şəkildə istifadə edilsə də, o, resurslara çox məhdud əlçatanlığa malik olmaqla uğur əldə edən sosial hərəkatlar haqqında çox məhdud interpretasiya verir. ABŞ-da "yoxsul insanların hərəkatları", Britaniyada işsizlərin hərəkatları, habelə 1950-ci illərdə ABŞ-da qaradərililərin vətəndaşlıq hüquqları uğrunda hərəkatları az resurslarla qanunvericilik və mövqeləri dəyişdirməkdə ciddi uğurlar əldə ediblər. Onlar digər resurslar baxımından çatışmazlıq yaşadıqlarını təşəbbüskarlıq və fəallıqla kompensasiya edə biliblər. Əlbəttə, təşkilatlanma gücləndikcə, təşəbbüskarlıq sönmüşdür.

Yeni sosial hərəkatlar nəzəriyyəsi də kəskin tənqid hədəfi olub. Yuxarıda müəyyən edilən yeni cəhətlərin hamısı "öncəki" sosial hərəkatlarda da aşkar edilib. XIX əsrin bütün kiçikölçülü kommunalarında postmaddi dəyərlər aydın idi və öncəki əksər hərəkatlar formal təşkilatlar olmazdan əvvəl daha sərbəst şəbəkələr kimi meydana çıxırdı. Bəzi yeni sosial hərəkat təşkilatları oxşar yol ilə gediblər və nəzəriyyənin qeyd etdiyindən daha bürokratik olublar. "Greenpeace" ən diqqətçəkən nümunədir: ilkin dövrlərdə həmfikirlərin sərbəst şəbəkəsi olan bu təşkilat tədricən kütləvi üzvlük və nəhəng maliyyə resursları ilə böyük biznesə bənzər təşkilata çevrilmişdir.

*Aktuallığın davamı*

Sosial hərəkatlar cəmiyyətin siyasi həyatında daha əhəmiyyətli yer alıb. Qloballaşma prosesləri milli sərhədləri aşan əlaqələri

daha sistematik və birbaşa etməklə, həqiqətən beynəlxalq və qlobal sosial hərəkatlara imkan yaradıb. Mövcud şərtlər sosial hərəkat fəaliyyəti üçün imkanlar təmin edərkən, insanların sürətli sosial-iqtisadi dəyişikliklərə görə öz həyatlarına nəzarəti itirməsi hissinin getdikcə gücləndiyi görünür. Hər hansı bir sosial hərəkatın tərəfdarı və ya fəalı olmaq insanlara cəmiyyətin istiqamətinə təsir etməyə qadir olduqları hissini verir. Bəziləri hətta keçmişin milli sosial hərəkatlarının sərhədsiz hərəkatlara çevrildiyi "sosial hərəkat cəmiyyətinə" keçid etdiyimizi bildirir (Meyer and Tarrow 1997).

"Yeni sosial hərəkatlar" adlandırılan hərəkatlar gələcəkdə yaratmaq istədikləri sülhpərvər cəmiyyət formasının simvolik reprezentasiyası kimi qeyri-zorakı metodları istifadə edirlər. Bu hərəkatlar çox zaman "məxməri" inqilablar və qeyri-zorakı hərəkatlar dövrünün müjdəçisi kimi nəzərdən keçirilir. Lakin Satton və Vertiqanın (2006) islam dini adı altında həyata keçirilən terror aktlarını təhlil etməsi bu mühakimələrin yanlış ola biləcəyini göstərir. Əl-Qaidə kimi qruplar yeni sosial hərəkatların əksər forma və taktikalarını qəbul edir, lakin onların ifrat zorakılıqdan istifadə etməsi özündə çox fərqli simvolik ismarıc daşıyır: Qərb gücləri əlçatmaz deyil və hətta öz dogma torpaqlarında belə hücuma məruz qala bilərlər. Müəlliflərin qənaəti ondan ibarətdir ki, əgər biz "yeni" sosial hərəkat cəmiyyətinə doğru irəliləyiriksə, bu, heç də bəzilərinin güman etdiyi kimi sülhpərvər cəmiyyət olmaya da bilər.

*İstinadlar və ədəbiyyat:*

Blumer, H. (1969) 'Collective Behavior', in A. McClung-Lee(ed.), Principlesof Sociology(New York: Barnes & Noble).

Crossley, N. (2002) Making Sense of Social Movements (Buckingham: Open University Press).

Goodwin, J., and Jasper, J. (eds) (2009) The Social Movements Reader: Cases and Concept (2nd edn, Oxford: Wiley-Blackwell).

Melucci, A. (1989Nomads of the Present: Social Movements and Individual Needs inContemporary Society (London: Hutchinson Radius).

Meyer, D. S., and Tarrow, S. (1997The Social Movement Society: Contentious Politics for a New Century (Oxford: Rowman & Littlefield).

Smelser, N. J. (1962Theory of Collective Behaviou (New York: Free Press).

Sutton, P. W., and Vertigans, S. (2006) 'Islamic "New Social Movements"? Radical Islam, al-Qa'ida and Social Movement Theory'Mobilization: An International Journal, 11(1): 101–15.

## Vətəndaşlıq (Citizenship)

*İşçi tərif*

Spesifik millət və ya siyasi birlik daxilində fərdlərə verilən, müxtəlif hüquqlar və məsuliyyətləri ehtiva edən statusdur

*Anlayışın mənşəyi*

Vətəndaşlıq konsepsiyası "vətəndaş" statusunun bir şəhər hüdudlarında yaşayan bəzi insanlara verildiyi qədim yunan şəhər-dövlətlərində ortaya çıxıb. Bu anlamda vətəndaşlıq sosial status simvoludur. Modernizm dövründən əvvəl əksər cəmiyyətlərdə monarx və ya imperator idarəetmə sisteminin hissəsi olmayan insan kütləsi üzərində idarəedici gücə sahib idi. Həqiqətən də, aşağı savadlılıq səviyyəsinə malik əksər cəmiyyətlərdə insanların əsas hissəsinin idarəetmə və siyasət haqqında çox az biliyi var idi. Adi insanların fərdi hüquqlara sahib olması və siyasi qərarvermədə iştirak etməsi qeyri-mümkün idi. Çünki belə imtiyazlar cəmiyyətin yuxarı statuslu üzvləri ilə məhdudlaşırdı. Bu gün insanlar hüquq və məsuliyyətləri ilə özlərini milli birliyin parçası olaraq vətəndaş kimi görə bilirlər. Marşall ({1950}, 1973) vətəndaşlığı sənayeləşmə ilə birgə meydana çıxan fenomen kimi nəzərdən keçirirdi. O, Böyük Britaniyada vətəndaşlığın təkamülünü XVIII əsr vətəndaş hüquqlarından XIX əsr siyasi hüquqlarına və XX əsr sosial hüquqlarına doğru xronolojiləşdirmişdir.

*Məna və interpretasiya*

Müasir dünyada *vətəndaşlıq* yaşayış yeri əsasında milli dövlətlərin üzvlərinə verilən sosial statusdur. Buna görə də vətəndaşlıq müəyyən imtiyazlar verir, amma onlar vətəndaşların öz üzərilərinə götürəcəkləri gözlənilən vəzifələrlə balanslaşdırılır. Məsələn, vətəndaşlar dövlətdən onları müdafiə edəcəyini gözləmək hüququna

malik olarkən, dövlət vətəndaşlarından düşüncəli davranmağı, digər vətəndaşlara və hökumətə qarşı silah qaldırmamağı gözləyir. "Vətəndaşlıq" anlayışı hər bir yeni formanın əvvəlki forma üzərində qurulması ilə müxtəlif növlərə bölünür.

*Sivil vətəndaşlıq* müasir mülkiyyət sahibkarlığı ilə birgə meydana çıxıb, çünki bu, insanlara digər insanların mülkiyyət hüquqlarına hörmət etməyə sövq edən bəzi qarşılıqlı öhdəliklər təlqin edir. Bu, sosial nizamın qorunması üçün qarşılıqlı məsuliyyətə səbəb olur. Siyasi hüquqlar mülkiyyət sahibləri ilə məhdudlaşırdı və insanların böyük bir qismi formal siyasətdən kənar tutulurdu. İkinci mərhələdə *siyasi vətəndaşlıq* səsvermə hüquqlarının tədricən fəhlə sinifləri və qadınlara şamil edilməsi və ticarət birliklərinin yaranmasına icazə verən müəyyən azad assosiasiya hüquqlarını özündə ehtiva edirdi, habelə söz azadlığı ideyaları da meydana çıxmışdı. Üçüncü mərhələ - *sosial vətəndaşlıq* isə vətəndaşlıq hüquqlarının sosial rifaha doğru genişlənməsini, rifah və digər yardımların kollektiv təminatı üçün ümumi məsuliyyəti özündə daşıyırdı. İnsanların həssas əhali qruplarını dəstəkləmək üçün istifadə edilən ümumi sosial fonda yardım etməsi və nəticədə rifah təhlükəsizliyini bölüşmək hüququndan faydalanması gözlənilirdi.

Bəzi iddialara görə, biz *ekoloji vətəndaşlıq* adlı dördüncü mərhələyə qədəm qoyuruq. Bu mərhələdə vətəndaşlar təmiz və təhlükəsiz ətraf mühitə sahib olmaq kimi yeni hüquqlarla yanaşı, insani və təbii çevrə mühitini çirkləndirməmək vəzifəsinə də sahibdir. Ekoloji vətəndaşlığın daha radikal versiyası vətəndaşlıq hüquqlarının təməlində var olan hüquqların bəzi heyvanlara doğru genişləndirilməsini irəli sürür. Ekoloji vətəndaşlığın qeyri-insani varlıqlar, heyvanlar, insani varlıqların gələcək nəsilləri və təbii mühitin bütövlüyünün qorunması qarşısında yeni öhdəliklər daşıyacağı söylənilir. İnsani varlıqların gələcək nəsilləri qarşısındakı öhdəliklər uzunmüddətli perpektivdə davamlı inkişaf üçün çalışmaq deməkdir. Mahiyyət etibarilə ekoloji vətəndaşlıq insanların qarşısına yeni tələb qoyur ki, bu da özünün ekoloji izlərini, yəni insan fəaliyyətinin təbii mühit və oradakı proseslərə təsirinin nəzərə alınmasından ibarətdir.

*Tənqidi məqamlar*

Marşalın vətəndaşlıq konsepsiyası bir milli dövlətə - Britaniya tərcrübəsinə əsaslandığı üçün problematikdir. Fransa, Almaniya və digər ölkələrdə vətəndaşlıq onun təsvir etdiyi kimi təkamül etməmişdi. Digərləri isə onun yanaşmasını gerçək izahedici yanaşma deyil, bir "post-hoc" deskripsiya – "baş verən budur" olaraq görürdü. Məsələn, niyə tarixin spesifik bir məqamında fəhlə sinifləri və qadınlara siyasi hüquqlar verildi? Bu, sadəcə təbii "təkamül"ün bir hissəsi idimi? Həmkarlar ittifaqları digər inadkar qruplara qarşı çıxaraq, seçki hüquqlarının genişlənməsi uğrunda mübarizə aparmalı olublar. Analoji olaraq, Britaniyada kişi və qadınların səsvermə yaşı 1928-ci ilə qədər bərabərləşməmişdi, bu da Marşalın güman etdiyindən daha gecdir. Qısası, vətəndaş hüquqlarının nəyə görə siyasi hüquqlara, onların isə sosial hüquqlara gətirib çıxarması aydın deyil və bu proses daha dolğun izah tələb edir.

1980-ci illərdə ABŞ və Birləşmiş Krallıqda hökumətlərin sosial xərcləri kəsmək və dövlətin rolunu yenidən təftiş etmək cəhdlərindən sonra vətəndaşlığın geri çevrilə bilməyəcək dərəcədə möhkəm konsepsiya olmadığı aydınlaşdı. 2008-ci il maliyyə böhranından sonra başlayan sərt qənaət siyasəti əksər hökumətlərin dövlət xərclərini azaltması, daha çox sosial yardımlara şərtilik prinsipini şamil etməsi, bu isə sosial vətəndaşlıq hüquqlarının öz mahiyyətini dəyişməsi ilə nəticələndi. Son dövr qloballaşma nəzəriyyələri vətəndaşlığın milli dövlətə əsaslanan modelini dəyişdirdi. Məsələn, Avropa Birliyi milli dövlətlərin saygı göstərməli olduğu işləmək və səyahət etmək kimi bir sıra hüquqları təmin edən regional vətəndaşlıq formasını təklif edir. Avropa vətəndaşları milli səviyyədə qəbul edilən məhkəmə qərarlarına ümumavropa məhkəməsi səviyyəsində qarşı çıxa bilərlər. Kosmopolit filosoflar qlobal vətəndaşlıq hüququna sahib olan fərdlər vasitəsilə vətəndaşlığın qlobal səviyyəyə intişarının mümkün olduğunu düşünürlər, baxmayaraq ki, biz hazırkı durumda bu perspektivdən çox uzağıq.

*Aktuallığın davamı*

Vətəndaşlığın milli dövlət modeli ilə bağlı bəzi problem və ziddiyyətlər olsa da, hüquq və vəzifələri ehtiva edən təməl vətən-

daşlıq konsepsiyası əhəmiyyətini saxlamaqdadır. Həqiqətən də bir sıra müasir siyasi debatlar vətəndaşları siyasət və ictimai həyatı canlandırmaq üçün fəallığa necə sövq etməklə bağlı müzakirələri ehtiva edir. Hüquq və məsuliyyətlərin genişləndirilməsi tələbləri ilə əlaqədar davamlı təzyiq bizim vətəndaşlığın mahiyyəti və onun necə olmalı olduğu haqqında anlayışımızı formalaşdırır.

Redli və Vaynberq (2007) liberal-demokratik vətəndaş modelinin öyrənmə məhdudiyyətli insanları inteqrasiya etmək qabilliyyəti məsələsini qaldırır. Müəyyən intellektual qabiliyyət və müstəqillik tələb edən demokratik model intellektual məhdudiyyətli insanları siyasi olaraq gücləndirə bilərmi? Etnoqrafik tədqiqatda Britaniyadakı Öyrənmə Məhdudiyyətli İnsanlar üçün Parlament (Parlament for People for Learning Disabilities - PPLD) adlı bir təşəbbüs tədqiq edilmişdir. Parlamentin işi öyrənmə məhdudiyyətli insanlar tərəfindən "özünə vəkillik" üçün aydın bir liberal demokratik prinsip üzərində qurulmuşdu. Lakin tədqiqat bu prinsipin qarşısında bir neçə praktiki əngəli aşkar etdi. Bəzi təşəbbüs iştirakçıları sadəcə eşitmir, digərləri "qeyri-adekvat" şəkildə danışır, başqa biriləri isə ümumiyyətlə söz veriləndə də danışmırdılar. Müəlliflər özünə vəkilliyin əsas prinsipini dəstəkləyərkən, iddia edirlər ki, əgər tam vətəndaşlıq öyrənmə məhdudiyyətli insanlar üçün reallaşdırılacaqsa, o, qayğı, təhlükəsizlik və rifah məsələləri ilə möhkəmləndirilməlidir.

Şimali İngiltərənin bəzi şəhər və qəsəbələrdə baş verən 2001-ci il "üsyanlarından" sonra iki nəsil Britaniya-Pakistan müsəlmanlarının vətəndaşlıq təcrübəsi Hüseyn və Baqlinin (2005) keyfiyyət tədqiqatında təhlil edilir. Müəlliflər xüsusilə vətəndaşlığın identiklik forması və səlahiyyətlər toplusu olduğunu, bu identikliyin heç də hər kəs tərəfindən bölüşülmədiyini qeyd edirlər. Pakistandan gələn birinci nəsil miqrantlar özlərini tam olaraq Britaniya vətəndaşları kimi nəzərdən keçirmir və özlərinə yad olan ölkədə yaşadıqlarını söyləyirdilər. Lakin ikinci nəsil Britaniya pakistanlıları özlərini bu ölkədə doğulan və Britaniya identikliyinə xas bütün hüquqlara malik Britaniya vətəndaşı hesab edirdilər. İkinci nəslin nümayəndələri üçün Britaniya Milli Partiyasının (British National Party) seçkilərdə uğuru və açıq-aşkar irqçi nitqi onların həm Britaniya vətən-

daşları kimi statuslarına, həm də etnik identikliyinə birbaşa təhdiddir.

*İstinadlar və ədəbiyyat:*

Bellamy, R. (2008) *Citizenship: A Very Short Introduction* (Oxford: Oxford University Press).

Dobson, A., and Bell, D. (eds) (2006) *Environmental Citizenship* (Cambridge, MA: MIT Press).

Hussain, Y., and Bagguley, P. (2005) 'Citizenship, Ethnicity and Identity: British Pakistanis after the 2001 "Riots"', *Sociology*, 39(3): 407–25.

Marshall, T. H. ([1950] 1973) *Class, Citizenship and Social Development* (Westport, CT: Greenwood Press).

Redley, M., and Weinberg, D. (2007) 'Learning Disability and the Limits of Liberal Citizenship: Interactional Impediments to Political Empowerment', *Sociology of Health and Illness*, 29(5): 767–86.

## Vətəndaş cəmiyyəti (Civil Society)

*İşçi tərif*

Cəmiyyətin vətəndaşlar tərəfindən hökumətdən asılı olmayaraq formalaşdırılan bütün şəbəkələr, könüllü assosiasiyalar, məşğuliyyətlər, klublar, təşkilatlar və ailələrdən ibarət sferasıdır.

*Anlayışın mənşəyi*

Vətəndaş cəmiyyəti konsepsiyasının yaranması "vətəndaşlıq" anlayışı ilə bağlı olduğu və insanların bir-birinə sayğı ilə yanaşdığı qədim zamanlara təsadüf edir. Lakin vətəndaş cəmiyyətinin modern konsepsiyaları Aleksis de Tokvilin ABŞ-da aşkar etdiyi çoxlu sayda lojalar, xeyriyyə cəmiyyətləri və dini qruplar kimi XIX əsr "vətəndaş assosiasiyası" ideyasından qaynaqlanır. Tokvil minlərlə belə assosiasiyaların mövcudluğunu sadəcə faydalı funksiyaları icra edən deyil, dövlətin demokratik mədəniyyətinin davamlılığında fundamental olaraq görürdü (Eberly 2000). XX əsr boyu sosioloq-

lar və siyasi nəzəriyyəçilər vətəndaş cəmiyyəti haqqında az şey söylədilər, lakin 1980-ci illərdən etibarən buna maraq yenidən dirçəldi. Daha sonralar bu maraq ilk dəfə vətəndaşlığın effektiv qlobal formasının mümkünlüyünü qeyd edən qlobal vətəndaş cəmiyyətinin kosmopolit nəzəriyyələrinə yönəldi.

*Məna və interpretasiya*

"Vətəndaş cəmiyyəti" anlayışı "publik sfera" anlayışı ilə sıx əlaqədardır. Lakin *publik sfera* cəmiyyət və siyasi qərarlar haqqında debat və diskussiyaların baş verdiyi ictimai məkanların hamısı kimi qəbul edilir. *Vətəndaş cəmiyyəti* isə könüllü qruplar, klublar və vətəndaş assosiasiyalarının digər təşkilatlanmış formalarından ibarətdir. Buna baxmayaraq, vətəndaş cəmiyyətinin nəyə yol açdığı və nəyi zəruriləşdirməsi haqqında fikir ayrılıqları vardır. Bəzilərinə görə, o, biznesi ehtiva etmir, bəziləri üçün isə ailə istisna olunmalıdır. Digərləri üç özünəməxsus sferanı ayırır: dövlət, bazar və vətəndaş cəmiyyəti.

Vətəndaş cəmiyyətinin təbiəti haqqında da fundamental fikir ayrılıqları vardır. Bəzilərinə görə, o, fəal vətəndaş mövqeyinin ifadəsini, habelə avtoritarizmə qarşı demokratik istehkam məkanını təmsil edir. Bu yanaşma təşkilat və könüllü qrupların resurs və üzvlər uğrunda bir-birilə rəqabətdə olmasını, əməkdaşlığa güman edildiyindən daha az meyilliliyini nəzərdən qaçırır. Marksist ənənədə vətəndaş cəmiyyəti daha az dərəcədə könüllülük və yaradıcılıq üçün proqressiv meydandır. Marks hesab edirdi ki, digər mədəni superstrukturlar kimi vətəndaş cəmiyyəti də kapitalizm və onun dəyərlərinin ideoloji və kultural dominantlığının ötürülmə prosesinə bağlıdır. Lakin daha sonrakı neomarksistlər, xüsusən də Qramşi belə ideoloji dominantlığın heç vaxt tam olmadığını və vətəndaş cəmiyyətinin ən azından əks-kultural çağırış formalaşdırmaq üçün imkanlar təklif etdiyini düşünürdü.

1980-ci illərin sonunda vətəndaş cəmiyyəti konsepsiyasının yenidən canlandırılması Şərqi Avropada baş verən hadisələr və sovet kommunizminin süqutu ilə stimullaşdı. Vətəndaş cəmiyyətini gücləndirmək dövlətlərin gücünə qarşı balans yaratmaq üçün faydalı yol hesab edilirdi və son illərdə ona Şimali İrlandiya, Kosova və Əfqanıstan kimi yerlərdə effektiv sülhyaratma vasitəsi kimi mü-

raciət edilməyə başlandı. İnklüziv könüllü assosiasiyalar və şəbəkələr yaratmaq hökumətlərin fəaliyyətləri fövqündə güclü sosial təməllər qurmağa kömək edə bilərdi.

"Vətəndaş cəmiyyəti" anlayışı son zamanlar tədqiqat proqramı sosial elmlər çərçivəsində təsbit olunan qloballaşma mütəfəkkirləri tərəfindən genişləndirildi. Bek (2006) iddia edir ki, universal vətəndaşlıq və qlobal vətəndaş cəmiyyəti ideyaları tarixən özlərini "avropalılar" və ya "dünya vətəndaşları" kimi görməyi könüllü olaraq seçən, çox səyahət edən və bir-birinə sıx bağlı sosial elitalar tərəfindən müdafiə olunub. Lakin qloballaşma prosesləri sayəsində bu dünyagörüşü daha güclü möhkəmlənib və o, potensial olaraq daha effektivdir. Qlobal kommunikasiyalar və interaksiyaların genişlənməsi qlobal vətəndaş cəmiyyətinin təkamülünə səbəb ola bilər. Məsələn, minalama əleyhinə kampaniyalar, çoxmillətli şirkətlərin vergidən yayınması və fundamentalist terroristlərə qarşı kampaniyalar qlobal vətəndaş cəmiyyətinin təşkilinə kömək etmək üçün qlobal şəbəkələrdə bütün dünyadan olan tərəfdarlarla birləşmək gücündədir.

*Tənqidi məqamlar*

Bəzi tədqiqatçılar güclü vətəndaş cəmiyyətinin qaçılmaz şəkildə demokratiyanı da gücləndirdiyini və bu ikisinin inkişafının birgə irəlilədiyini güman edir. Lakin bu, heç də həmişə belə deyil. Əksər könüllü təşkilatlar və klublar demokratik olmaqdan uzaqdır və onların belə olmasını zəruri edən heç bir səbəb də yoxdur. Vətəndaş cəmiyyətini formal siyasətdə demokratiya çatışmazlığına qarşı çarə və ya avtoritar liderliyi balanslaşdırma üsulu kimi təşviq etmək yanlış ola bilər. Məsələn, ABŞ-da Milli Atıcılıq Assosiasiyası (National Rifle Association) kimi bəzi könüllü qruplar yüksək sosial kapital səviyyəsinə və onlara seçkilərə qoşulmadan belə, digər qruplara nisbətən siyasətə daha çox təsiretmə gücü verən hökumətə əlçatanlığa malik ola bilər.

Heç də hər kəs vətəndaş cəmiyyətinin yaxşı durumda olması ilə razı deyil. Robert Patnemin (2000) Amerikada vətəndaş cəmiyyətləri haqqında tədqiqatı vətəndaş əlaqələri və könüllü təşkilatlara üzvlüklərin ciddi bir tənəzzül yaşadığını sübut edir. O göstərir ki,

1960-cı illərdən bəri Valideyn-Müəllim assosiasiyaları, Milli Qadın Klubları Federasiyası, Qadın Seçicilərin Liqası və Qırmızı Xaç Təşkilatının üzvlərinin sayında 50 faiz azalma baş verib. Daha az sayda insan qonşuları ilə sosiallaşdığını və hətta onlara inandığını bildirib. Britaniya və Avstraliyada daha dramatik nəticələr aşkar edilsə də, İsveç, Niderland və Yaponiyada sosial kapitalın (sosial şəbəkələrin) stabil, yaxud da artan səviyyələri müşahidə edilib (Halpern 2005). Ümumi tablo qarışıqdır, amma o, qlobal vətəndaş cəmiyyəti ideyaları haqqında yaxşı proqnozlar vermir.

Vətəndaş cəmiyyətinin qlobal formasının meydana çıxdığını görən kosmopolit nəzəriyyələrin faktoloji sübutunun aşağı olduğu müşahidə edilir. İndiyədək kosmopolit təfəkkür və praktika bu layihəyə və ya beynəlxalq mobilliyin imkanlarından faydalana bilən zəngin qlobal turistlərə normativ bağlılığını qoruyan Qərb aktivistləri və akademikləri ilə məhdudlaşır. Əksər insanlar üçün lokal topluluğa və ya bir millətə bağlılıq dominant identifikasiya mənbəyi olaraq qalmaqdadır.

*Aktuallığın davamı*

2008-ci il ümumdünya maliyyə böhranı gələcəkdə qlobal vətəndaş cəmiyyətinin yaradılmasının mümkünlüyünə dair daha optimist perspektivlərə zidd təhlillərə yol açdı. Məsələn, Pianta (2013) vətəndaş cəmiyyəti daxilində vahid razılaşdırılmış cavab perspektivlərinə dair araşdırmasında Avropa Birliyində demokratik defisiti qeyd edir. O göstərir ki, avrozona böhranı bunun fərqindəliyini artırdı, çünki qərarlar vətəndaşların birbaşa iştirakı olmadan qəbul və təlqin edilir. Digər tərəfdən isə bütün Avropada vətəndaş cəmiyyəti aktorlarından onların potensial gücünü nümayiş etdirən güclü reaksiyalar gəlib. Lakin bu qruplar hələ də ümumi yanaşmaya malik deyil və demokratik iştirakçılığın yüksəldilməsinə dair fikir ayrılığı vəziyyətindədirlər.

Əksər hallarda qeyd edilir ki, mövcud qlobal vətəndaş cəmiyyətinin təşkilində internetin yayılması qlobal kommunikasiya, debat və interaksiyanı mümkün edən həlledici faktordur. Lakin Noton (2001) bildirir ki, internet göründüyü kimi problemsiz deyil. Əksər tədqiqatlar onun sadəcə istifadə edilən bir resurs olduğunu güman

edir. Lakin bu, çox bəsit yanaşmadır. İnternetin açıq mənbə təbiəti qlobal vətəndaş cəmiyyətinin dəyərləri ilə uzlaşsa da, bu radikal açıqlıq qaçılmaz deyil, dəyişikliyə qarşı olan hökumətlər və korporasiya maraqları da vardır. Korporativ reklamın artan mövcudluğu yumşaq, bəzən isə daha sərt formalarda bu dəyişikliklərin hansı xarakter daşıya biləcəyini göstərir. İnformasiya ilə zəngin və bu baxımdan məhdud olan ölkələr arasındakı nəhəng rəqəmsal uçurum da qlobal kommunikasiyalar qarşısında bir səddir. Noton kibərməkanın "real dünya"dan uzun müddət çox fərqli olaraq dərk edildiyini, lakin faktiki olaraq onların vətəndaş cəmiyyəti, hökumət və korporasiya maraqları arasındakı oxşar hakimiyyət mübarizələri ətrafında birləşdiyini iddia edir.

*İstinadlar və ədəbiyyat:*

Beck, U. (2006) Cosmopolitan Vision (Cambridge: Polity).

Eberly, D. E. (ed.) (2000) The Essential Civil Society Reader (Lanham, MD: Rowman & Littlefield).

Edwards, M. (2014) Civil Society (3rd edn, Cambridge: Polity).

Halpern, D. (2005) Social Capital (Cambridge: Polity).

Harris, J. (ed.) (2003) Civil Society in British History: Ideas, Identities, Institutions (Oxford: Oxford University Press).

Kaldor, M. (2003) Global Civil Society: An Answer to War (Cambridge: Polity).

Naughton, J. (2001) 'Contested Space: The Internet and Global Civil Society', in H. A. M. Glasius and M. Kaldor (eds), Global Civil Society (London: Sage).

Pianta, M. (2013) 'Democracy Lost: The Financial Crisis in Europe and the Role of Civil Society', Journal of Civil Society, 9(2): 148–61.

Putnam, R. (2000) Bowling Alone: The Collapse and Revival of American Community (New York: Simon & Schuster).

**Çapa imzalanıb:**
**Fiziki çap vərəqi:**
**Sifariş:**
**Tiraj:**

"MM-S" müəssisəsinin mətbəəsində çap edilmişdir.
**Ünvan**: Azərbaycan Respublikası, AZ 1102, Bakı şəhəri,
Nəsimi rayonu, A.Tağızadə küçəsi, ev 13.
**Telefon**: (+994 12) 431 11 00
(+994 50) 314 09 37